# PEDAQOJİ UNİVERSİTETİN
# XƏBƏRLƏRİ

# TRANSACTIONS
## OF PEDAGOGICAL UNIVERSITY

**ISSN 2520-2014**

***Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası***

***Series of humanitarian, social, pedagogical and psychological sciences***

**2022, C. 70, № 2**

**Jurnal 24 may 1991-ci il tarixdə Azərbaycan Respublikası Mətbuat Komitəsində qeydiyyatdan keçmişdir (şəhadətnamə № 307)**
***(1953-cü ildən nəşr edilir)***

# PEDAQOJİ UNİVERSİTETİN XƏBƏRLƏRİ

***Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası,* 2022, C.70, №1**

**BAŞ REDAKTOR** T.ü.e.d., prof. C.M.Cəfərov
**EDITOR-IN-CHIEF** Prof. Dr. J.M.Jafarov

**REDAKSİYA HEYƏTİ**

F.-r.e.d., prof. A.D.Zamanov ***(baş redaktorun müavini)***, psix.e.d., prof. R.İ.Əliyev, f.ü.e.d., prof. M.N.Hüseynova, p.ü.e.d., prof. M.İ.İlyasov, f.e.d., prof. H.Ə.Qasımov, p.e.d., prof. F.A.Rüstəmov, f.ü.e.d., prof. F.Ç.Rzayev, t.e.d., prof. O.B.Sultanov

**REDAKSİYA ŞURASI**

F.e.d., prof. Y.M.Babayev, f.e.d., prof. T.S.Cavadov, p.e.d., prof. M.R.Dadaşova, p.ü.e.d., prof. M.M.Əmirov, p.e.d., prof. R.L.Hüseynzadə, f.e.d., prof. Z.A.Xəlilov, s.ü.e.d., prof. J.H.Qədimova, t.e.d., prof. X.M.Məmmədov, f.ü.e.d., dos. N.M.Sadıqova, p.ü.f.d., prof. İ.N.İsayev, p.ü.e.d., dos. Ş.Q.Əliyeva, p.ü.f.d., dos. N.Ə.Abdullazadə, p.ü.f.d., dos. N.T.Hüseynova
F.ü.f.d. N.Q.Aslanova ***(məsul katib)***

**EDITORIAL BOARD**

Prof. Dr. A.D.Zamanov ***(ass. editor)***, Prof. Dr. R.I.Aliyev, Prof. Dr. M.N.Huseynova, Prof. Dr. M.I.Ilyasov, Prof. Dr. H.A.Gasimov, Prof. Dr. F.A.Rustamov, Prof. Dr. F.Ch.Rzayev, Prof. Dr. O.B.Sultanov

**ADVISORY BOARD**

Prof. Dr. Y.M.Babayev, Prof. Dr. T.S.Javadov, Prof. Dr. M.R.Dadashova, Prof. Dr. M.M.Amirov, Prof. Dr. R.L.Huseynzadeh, Prof. Dr. Z.A.Khalilov, Prof. Dr. J.H.Gadimova, Prof. Dr. Kh.M.Mammadov, Ass. prof. Dr. N.M.Sadigova, Prof. Phd I.N.Isayev, Ass. prof. Dr. Sh.Q.Aliyeva, Ass. prof. Phd N.A.Abdullazadeh, Ass. prof. Phd N.T.Huseynova
Phd N.G.Aslanova ***(executive secretary)***

***©ADPU, 2022***
***©ASPU, 2022***

# MÜNDƏRİCAT

## *Humanitar elmlər*

***Ağakişiyeva G.M.***
Ə.CƏFƏRZADƏNİN MÜSTƏQİLLİK DÖVRÜ ROMANLARINDA GEYİM ADLARI BİLDİRƏN ETNOQRAFİK DİALEKTİZMLƏR VƏ ONLARIN İŞLƏNMƏ XÜSUSİYYƏTLƏRİ ........ 9
***Dadaşlı Y.B.***
NİZAMİ GƏNCƏVİNİN POEMALARINDA TÜRKÇÜLÜK İDEYALARI …........... 15
***Əliyeva G.A.***
MÜSTƏQİLLİK ƏRƏFƏSİ AZƏRBAYCAN SƏRBƏST ŞEİRİNİN YENİ MƏRHƏLƏSİ KİMİ ……........ 26
***İbişov A.R.***
BƏXTİYAR VAHABZADƏ LİRİKASINDA MƏNƏVİ DUYĞULARIN VƏ SÖZÜN YÜKSƏK QİYMƏTLƏNDİRİLMƏSİ ……........ 37
***Məmmədov X.B., Çələbiyeva X.T.***
"DUZ" KONSEPTLİ PAREMİOLOJİ VAHİDLƏRİN AZƏRBAYCAN VƏ RUS DİLLƏRİNDƏ MÜQAYİSƏLİ TİPOLOGİYASI ……........ 47

## *İctimai elmlər*

***Cabbarova E.O.***
AZƏRBAYCANDA MUZEY İŞİNİN TƏŞKİLİ TARİXİ ........ 55
***Cəfərova L.A.***
QLOBAL SƏHİYYƏ İDARƏÇİLİYİ ........ 65
***Həsənov H.İ.***
AZƏRBAYCANIN ŞİMAL XANLIQLARINA ÇAR RUSİYASININ İŞĞAL TƏHLÜKƏSİ VƏ QACARLAR DÖVLƏTİNİN REAKSİYASI ........ 73
***Kərimov Z.H.***
ŞUŞA ŞƏHƏRİNDƏ MAARİFİN İNKİŞAFINDA XEYRİYYƏÇİLİYİN ROLU (XIX ƏSRİN II YARISI-XX ƏSRİN ƏVVƏLİ) ........ 80
***Qarayeva L.Z.***
XƏZƏR DƏNİZİNİN HÜQUQİ STATUSU HAQQINDA 2018-ci İL KONVENSİYASI – XƏZƏRYANI DÖVLƏTLƏRİN HÜQUQ VƏ ÖHDƏLİKLƏRİ 86
***Quliyeva L.D.***
AZƏRBAYCANIN ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ MULTİKULTURAL TƏHSİLİN BƏZİ ASPEKTLƏRİ ……........ 98
***Məmmədova E.K.***
PƏMBƏK SULTANLIĞI ……........ 108
***Məmmədova N.Ə.***
XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ ŞİMALİ AZƏRBAYCANDA İCTİMAİ TƏŞKİLATLARIN STRUKTURU: FİLİALLARIN AÇILMASI VƏ FƏALİYYƏTİ..... 115
***Soltanova N.B.***
AZƏRBAYCANIN TARİXİ ƏRAZİSİNDƏ İNSANIN VƏ KOLLEKTİVİN YARANIŞI, FORMALAŞMASI, İNKİŞAFI ……........ 132

## *Pedaqoji-psixoloji elmlər*

***Abasova S.A.***
UŞAQ SEREBRAL İFLİCİ ZAMANI ŞƏXSİYYƏTİN PSİXOPATOLOJİ VARİANTLARI VƏ “MƏN” OBRAZININ FORMALAŞMASININ POZULMASI...... 140
***Aslanova S.R.***
POZULMUŞ DİZARTRİYANIN DİSLALİYA İLƏ MÜQAYİSƏSİ ............................ 148
***Əliyeva L.X.***
UNİVERSİTETLƏRİN İDARƏ EDİLMƏSİNDƏ STRATEJİ PLANLAŞDIRMA TEXNOLOGİYASI ............................................................................................ 155
***Əskərova Y.B.***
YENİYETMƏ ŞƏXSİYYƏTİNİN SOSİAL-PSİXOLOJİ TƏHLİLİ .............................. 167
***Həsənova M.F.***
ALİ MƏKTƏBDƏ İNFORMASİYANIN QAVRANILMASININ TƏLƏBƏ ŞƏXSİYYƏTİNİN STRUKTUR KOMPONENTLƏRİNDƏN ASILILIĞI ................... 176
***Li Yixuan***
SEREBRAL İFLİCLİ UŞAQLARDA ARTİKULYATOR ƏZƏLƏLƏRİN MÜAYİNƏSİNİN DİAQNOSTİK METODLARI ......................................................... 184
***Muradova G.Ç.***
İDRAK PROSESLƏRİNİN İNKİŞAFININ İBTİDAİ SİNİF ŞAGİRDLƏRİNİN TƏLİM FƏALİYYƏTİNƏ TƏSİRİ .................................................................... 190
***Salamova A.E.***
YENİYETMƏNİN EMOSİONAL İNKİŞAF XÜSUSİYYƏTLƏRİ .............................. 200
***Səlimzadə A.T.***
KÖRPƏLİK DÖVRÜNÜN PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ ...................................... 207
***Şahvələdli Qədimova T.Ə.***
KƏKƏLƏMƏNİN ARADAN QALDIRILMASININ ƏNƏNƏVİ VƏ MÜASİR YOLLARI ....................................................................................................... 215

# СОДЕРЖАНИЕ

## *Гуманитарные науки*

*Агакишиева Г.М.*
ЭТНОГРАФИЧЕСКИЕ ДИАЛЕКТИЗМЫ, ОБОЗНАЧАЮЩИЕ НАЗВАНИЯ ОДЕЖДЫ И ОСОБЕННОСТИ ИХ УПОТРЕБЛЕНИЯ В РОМАНАХ А.ДЖАФАРЗАДЕ ПЕРИОДА НЕЗАВИСИМОСТИ ........ 9
*Дадашлы Я.Б.*
ИДЕИ ТЮРКИЗМА В ПОЭМАХ НИЗАМИ ГЯНДЖЕВИ ........ 15
*Алиева Г.А.*
КАНУН НЕЗАВИСИМОСТИ КАК НОВЫЙ ЭТАП АЗЕРБАЙДЖАНСКОГО СВОБОДНОГО СТИХА ........ 26
*Ибишов А.Р.*
ВЫСОКАЯ ОЦЕНКА ДУХОВНЫХ ЧУВСТВ И СЛОВ В ЛИРИКЕ БАХТИЯРА ВАГАБЗАДЕ ........ 37
*Мамедов Х.В., Челябиева Х.Т.*
СРАВНИТЕЛЬНАЯ ТИПОЛОГИЯ ПАРЕМИОЛОГИЧЕСКИХ ЕДИНИЦ С КОНЦЕПТОМ "СОЛЬ" НА АЗЕРБАЙДЖАНСКОМ И РУССКОМ ЯЗЫКАХ 47

## *Общественные науки*

*Джаббарова Э.О.*
ИСТОРИЯ ОРГАНИЗАЦИИ МУЗЕЙНОГО ДЕЛА В АЗЕРБАЙДЖАНЕ ........ 55
*Джафарова Л.А.*
ГЛОБАЛЬНОЕ УПРАВЛЕНИЕ ЗДРАВООХРАНЕНИЕМ........ 65
*Гасанов Г.И.*
УГРОЗА ОККУПАЦИИ ЦАРСКОЙ РОССИИ СЕВЕРНЫМ ХАНСТВАМ АЗЕРБАЙДЖАНА И РЕАКЦИЯ ГОСУДАРСТВА ГАДЖАРОВ ........ 73
*Каримов З.Х.*
РОЛЬ БЛАГОТВОРИТЕЛЬНОСТИ В РАЗВИТИИ ПРОСВЕЩЕНИЯ В ШУШЕ (II ПОЛОВИНА XIX ВЕКА-НАЧАЛО XX ВЕКА) ........ 80
*Караева Л.З.*
КОНВЕНЦИЯ О ПРАВОВОМ СТАТУСЕ КАСПИЙСКОГО МОРЯ 2018 ГОДА - ПРАВА И ОБЯЗАННОСТИ ПРИКАСПИЙСКИХ ГОСУДАРСТВ... 86
*Гулиева Л.Д.*
НЕКОТОРЫЕ АСПЕКТЫ МУЛЬТИКУЛЬТУРАЛЬНОГО ОБРАЗОВАНИЯ В ВЫСШИХ УЧЕБНЫХ ЗАВЕДЕНИЯХ АЗЕРБАЙДЖАНА ........ 98
*Мамедова Э.К.*
ПАМБАКСКИЙ СУЛТАНАТ ........ 108
*Маммадова Н.А.*
СТРУКТУРА ОБЩЕСТВЕННЫХ ОРГАНИЗАЦИЙ В СЕВЕРНОМ АЗЕРБАЙДЖАНЕ В НАЧАЛЕ XX ВЕКА: ОТКРЫТИЕ И ДЕЯТЕЛЬНОСТЬ ФИЛИАЛОВ ........ 115
*Солтанова Н.Б.*
ПОЯВЛЕНИЕ, ФОРМИРОВАНИЕ, РАЗВИТИЕ ЧЕЛОВЕКА И КОЛЛЕКТИВОВ НА ИСТОРИЧЕСКОЙ ТЕРРИТОРИИ АЗЕРБАЙДЖАНА ........ 132

## *Педагогико-психологические науки*

***Абасова С.А.***
ПСИХОПАТОЛОГИЧЕСКИЕ ВАРИАНТЫ ЛИЧНОСТИ ПРИ ДЕТСКОМ ЦЕРЕБРАЛЬНОМ ПАРАЛИЧЕ И НАРУШЕНИЕ ФОРМИРОВАНИЯ ОБРАЗА «Я» ........ 140
***Асланова С.Р.***
СРАВНЕНИЕ ДИСЛАЛИИ И СТЕРТОЙ ДИЗАРТРИИ ........ 148
***Алиева Л.Х.***
ТЕХНОЛОГИЯ СТРАТЕГИЧЕСКОГО ПЛАНИРОВАНИЯ В УПРАВЛЕНИИ УНИВЕРСИТЕТОМ ........ 155
***Аскерова Е.Б.***
СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКИЙ АНАЛИЗ ЛИЧНОСТИ ПОДРОСТКА..... 167
***Гасанова М.Ф.***
ЗАВИСИМОСТЬ ВОСПРИЯТИЯ ИНФОРМАЦИИ ОТ СТРУКТУРНЫХ КОМПОНЕНТОВ ЛИЧНОСТИ СТУДЕНТА В ВУЗЕ ........ 176
***Ли Исюань***
ДИАГНОСТИЧЕСКИЕ МЕТОДЫ ОБСЛЕДОВАНИЯ АРТИКУЛЯТОРНОЙ МУСКУЛАТУРЫ У ДЕТЕЙ С ДЕТСКИМ ЦЕРЕБРАЛЬНЫМ ПАРАЛИЧОМ..... 184
***Мурадова Г.Ч.***
ВЛИЯНИЕ РАЗВИТИЯ ПОЗНАВАТЕЛЬНЫХ ПРОЦЕССОВ НА УЧЕБНУЮ ДЕЯТЕЛЬНОСТЬ УЧАЩИХСЯ НАЧАЛЬНЫХ КЛАССОВ ........ 190
***Саламова А.Е.***
ОСОБЕННОСТИ ЭМОЦИОНАЛЬНОГО РАЗВИТИЯ ПОДРОСТКА ........ 200
***Салимзаде А.Т.***
ПСИХОЛОГИЧЕСКИЕ ОСОБЕННОСТИ МЛАДЕНЧЕСКОГО ПЕРИОДА.......... 207
***Шахвеледли Гадимова Т.А.***
ТРАДИЦИОННЫЕ И СОВРЕМЕННЫЕ СПОСОБЫ УСТРАНЕНИЯ ЗАИКАНИЯ ........ 215

# TABLE OF CONTENTS

## *Humanitarian sciences*

***Aghakishiyeva G.M.***
ETHNOGRAPHIC DIALECTISMS DESIGNATING THE NAMES OF CLOTHES AND THE PECULIARITIES OF THEIR USE IN A.JAFARZADE'S NOVEL IN THE INDEPENDENCE PERIOD ........................................................................... 9
***Dadashli Y.B.***
THE IDEA OF TURKISM IN THE POEMS OF NIZAMI GANJAVI ....................... 15
***Aliyeva G.A.***
EVE OF INDEPENDENCE AS A NEW STAGE OF AZERBAIJANI FREE VERSE 26
***Ibishov A.R.***
HIGH ASSESSMENT OF SPIRITUAL FEELINGS AND WORDS IN BAKHTIYAR VAHABZADE'S LYRICS …………………………………………........ 37
***Mammadov Kh.B., Chalabiyeva Kh.T.***
COMPARATIVE TYPOLOGY OF "SALT" CONCEPT PAREMIOLOGICAL UNITS IN DIFFERENT LANGUAGES …………………………….…………. 47

## *Social sciences*

***Jabbarova E.O.***
HISTORY OF ORGANIZATION OF MUSEUM WORK IN AZERBAIJAN ............ 55
***Jafarova L.A.***
GLOBAL HEALTH GOVERNANCE ………………………................................. 65
***Hasanov H.I.***
THE DANGER OF OCCUPATION OF THE NORTH KHANATES OF AZERBAIJAN BY TSARIST RUSSIA AND THE REACTION OF THE GAJAR STATE ………………………………………………………........................... 73
***Karimov Z.H.***
THE ROLE OF CHARITY IN THE DEVELOPMENT OF ENLIGHTENMENT IN SHUSHA (SECOND HALF OF XIX CENTURY - BEGINNING OF XX CENTURY) ………………………………………………………………………… 80
***Garayeva L.Z.***
CONVENTION ON THE LEGAL STATUS OF THE CASPIAN SEA OF 2018 – THE RIGHTS AND OBLIGATIONS OF THE CASPIAN STATES ........................... 86
***Guliyeva L.D.***
SEVERAL ASPECTS OF MULTICULTURAL EDUCATION IN HIGHER EDUCATIONAL INSTITUTIONS OF AZERBAIJAN ……………………………….. 98
***Mamedova E.K.***
THE PAMBAK SULTANATE …………………………………………………….. 108
***Mammadova N.A.***
STRUCTURE OF PUBLIC ORGANIZATIONS IN NORTH AZERBAIJAN AT THE BEGINNING OF THE XX CENTURY: OPENING AND ACTIVITY OF BRANCHES ……………………………………………………..………............ 115
***Soltanova N.B.***
THE FIRST SEPS OF OUR ANCESTOR APPEARANCE, FORMATION, DEVELOPMENT OF HUMAN AND TEAM IN THE HISTORICAL TERRITORY OF AZERBAIJAN ……………………………………………………………..…. 132

## *Pedagogical-psychological sciences*

***Abasova S.A.***
PSYCHOPATHOLOGICAL PERSONALITY VARIANTS IN CEREBRAL PALSY AND VIOLATION OF THE FORMATION OF THE "I" IMAGE .............................. 140
***Aslanova S.R.***
COMPARISON OF DYSLALIA AND ERASED DYSARTRIA ................................ 148
***Aliyeva L.X.***
STRATEGIC PLANNING TECHNOLOGY IN UNIVERSITY MANAGEMENT..... 155
***Asgerova Y.B.***
SOCIO-PSYCHOLOGICAL ANALYSIS OF ADOLESCENT PERSONALITY........ 167
***Hasanova M.F.***
DEPENDENCE OF PERCEPTION OF INFORMATION ON STRUCTURAL COMPONENTS OF STUDENT PERSONALITY IN UNIVERSITY ......................... 176
***Li Yixuan***
DIAGNOSTIC METHODS OF EXAMINATION OF ARTICULATORY MUSCLES IN CHILDREN WITH CEREBRAL PALSY ............................................ 184
***Muradova G.Ch.***
THE IMPACT OF THE DEVELOPMENT OF COGNITIVE PROCESSES ON THE LEARNING ACTIVITIES OF PRIMARY SCHOOL STUDENTS ............................. 190
***Salamova A.E.***
FEATURES OF EMOTIONAL DEVELOPMENT OF THE ADOLESCENT ............ 200
***Salimzade A.T.***
PSYCHOLOGICAL FEATURES OF THE INFANT PERIOD .................................. 207
***Shahvaladli Gadimova T.A.***
TRADITIONAL AND MODERN WAYS TO ELIMINATE STUTTERING ............. 215

# Humanitar elmlər

*UOT 39: 811.512.162*

***G.M.Ağakişiyeva***
*Bakı Slavyan Universiteti*
*gulnar.rehimli.90@mail.ru*

## Ə.CƏFƏRZADƏNİN MÜSTƏQİLLİK DÖVRÜ ROMANLARINDA GEYİM ADLARI BİLDİRƏN ETNOQRAFİK DİALEKTİZMLƏR VƏ ONLARIN İŞLƏNMƏ XÜSUSİYYƏTLƏRİ

***Açar sözlər:*** *etnoqrafiya, dialektizm, tarixilik, lüğət, roman*
Məqalə müstəqillik dövrü Ə.Cəfərzadənin yazdığı romanlarda geyim adlarından ibarət etnoqrafik dialektizmlərin təhlilinə həsr edilmişdir. Hər bir xalqın milli mənsubiyyətini, onun tərzini, psixologiyasını, dünyagörüşünü əks etdirən xalq geyimləri xalqın həyat və məişətinin ayrı-ayrı məsələlərini araşdırmaq üçün bizə etnoqrafik material verir. Tədqiqata cəlb etdiyimiz Ə.Cəfərzadənin romanlarının dilində işlənmiş geyim adları bildirən etnoqrafik dialektizmlər dilimizin tarixi keçmişini, məişətini, həyatını, düşüncə tərzini, psixologiyasını öyrənmək baxımından bizə zəngin və maraqlı material verir.

***Г.М.Агакишиева***

## ЭТНОГРАФИЧЕСКИЕ ДИАЛЕКТИЗМЫ, ОБОЗНАЧАЮЩИЕ НАЗВАНИЯ ОДЕЖДЫ И ОСОБЕННОСТИ ИХ УПОТРЕБЛЕНИЯ В РОМАНАХ А.ДЖАФАРЗАДЕ ПЕРИОДА НЕЗАВИСИМОСТИ

***Ключевые слава:*** *этнография, диалектизм, историчность, словарь, роман*
Статья посвящена описанию этнографических диалектизмов, обозначающих название одежды в романах, написанных А.Джафарзаде в период независимости. Народная одежда, отражающая национальную принадлежность, самобытность каждого народа, его стиль, психологию, мировоззрение, дает нам этнографический материал для изучения различных вопросов жизнедеятельности и быта народа. В статье особое внимание уделяется исследованию этнографических диалектизмов, обозначающие названия одежды, использованные в романах А.Джафарзаде. Данные этнографические диалектизмы представляют собой богатый и интересный материал с точки зрения изучения исторического прошлого, быта, образа мышления и психологии народа.

***G.M.Aghakishiyeva***

## ETHNOGRAPHIC DIALECTISMS DESIGNATING THE NAMES OF CLOTHES AND THE PECULIARITIES OF THEIR USE IN A.JAFARZADE'S NOVEL IN THE INDEPENDENCE PERIOD

***Keywords:*** *ethnography, dialectism, historicity, vocabulary, novel*

The article is devoted to the analysis of ethnographic dialectisms consisting of names of clothes in the novels written by A.Jafarzadeh during the independence period. Folk costumes reflecting the national identity of each nation, its style, psychology, worldview gives us ethnographic material to study various aspects of the life and way of life of the people. Ethnographic dialectisms expressing the names of clothes developed within the novels of A.Jafarzadeh involved in the research gives us rich and interesting material in terms of studying the historical past, life, way of thinking, psychology of our language.

Etnoqrafik dialektizmlər xalqımızın maddi mədəniyyətinin zənginliyini, adət-ənənələrinin tarixiliyini və qədimliyini özündə əks etdirən və dilimizin lüğət tərkibinin zənginləşməsində mühüm rol oynayan milli sözlərdir. Xalqımızın keçmiş adət-ənənələrini, onun yaratdığı maddi mədəniyyət nümunələrini, yaşayış tərzini, başlıcası, dil xüsusiyyətlərini və s. öyrənmək baxımından dialekt və şivələrdə məişət leksikasının tədqiqi çox vacibdir [1, s.269].

Maddi mədəniyyətin digər sahələri kimi, xalq geyimləri də hər bir xalqın həyat və məişətinin ayrı-ayrı məsələlərini araşdırmaq üçün zəngin etnoqrafik material verir. Qeyd edək ki, xalq geyimləri hər bir xalqın milli mənsubiyyətini, onun tərzini, psixologiyasını, dünyagörüşünü əks etdirir. “Azərbaycan geyim mədəniyyətinin formalaşmasında təbii-coğrafi şəraitlə yanaşı, xalqın mənəvi-əxlaqi, psixoloji-ideoloji baxışları, dünyagörüşü, sosial-iqtisadi və mədəni həyatı da əhəmiyyətli rol oynamışdır. Azərbaycan ərazisində məskunlaşan ilk insanların geyimləri təbii əldə edilən materiallardan olmaqla, istifadə tərzinə görə bürüncək, sarıq, örtmə və geymə kimi müxtəlif variantlarda özünü göstərmişdir” [4, s.83].

Bədii əsərlərdə işlənən və xalqımızın tarixi keçmişi, məişəti ilə əlaqədar olan leksik vahidlər dilimizin lüğət tərkibinin qədim qatını təşkil edir.

Bu baxımdan Ə.Cəfərzadənin romanlarında işlənmiş geyim adlarından ibarət etnoqrafik dialektizmlər bizə araşdırma aparmaqda zəngin material verir. Həmin dialektizmləri nəzərdən keçirək:

Üst geyim adları bildirən etnoqrafik dialektizmlər:

Çəpkən. Bu söz Bərdə, Cəbrayıl, Gəncə, Qarakilsə, Oğuz, Şamaxı, Tərtər, Yevlax dialektlərində qolsuz qadın paltarı mənasında işlənir [2, s.96]. Eyni zamanda izahlı lüğətdə qolları çapıq, qıraqları baftalı, astarlı qadın geyimi mənasında işlənmişdir.

Türk ədəbi dilində çepken formasında işlənən bu söz qolları kəsik,

kənarlarına qaytan tikilmiş uzun köynək mənalarını bildirir [18, s.199].

Y.Akdoğanın müəllifi olduğu "Azərbaycan türkcəsindən Türkiyə türkcəsinə böyük sözlük" lüğətində isə çəpkən sözü çeveken/çepken formalarında işlənərək "çarşab", "baş örtüyü" mənalarını bildirir [17, s.150].

İ.Z.Eyuboğlu çepken sözünün etimologiyası haqqında yazır: "ceb (sol) ilə ken (qoparan, çıxaran) sözündən cebken/cebken/cepken (qolları kəsikli qısa, yaxasız geyim) əmələ gəlib" [19, s.80].

Ağ yerlik üstündəki zər naxışları günəşdə qızıl kimi yanan uzun don geymişdi, üstündəki çəpkən yenə də zər bəzəkli mavi atlazdan idi [8, s.364].

Arxalıq. Türk mənşəli geyim adı olan arxalıq leksik vahidi arxaikləşərək artıq dilimizin lüğət tərkibindən çıxaraq əksər dialekt və şivələrdə öz işləkliyini saxlamışdır. Biz bu cür sözlərə tədqiqata cəlb etdiyimiz bədii nəsr nümunələrində rast gəlirik.

Türk ədəbi dilində arxalıq sözü evdə geyilən qolsuz, qalın, qısa gödəkçə anlamında işlənir [18, s.229].

Azərbaycanda geniş yayılmış üst geyim elementlərindən biri də arxalıq olmuşdur. Varlılarda tirmə, tafta, atlas, xara, zərxara, məxmər, darayı, qanovuz və b. parçalardan, kasıblarda isə sətin, qara lastik və digər ucuz parçalardan tikilən arxalıq Abşeronda "don", Azərbaycanın qərb bölgələrində isə "küləcə" adı ilə yayılmışdır [4, s.102].

Arxalıq leksik vahidi Nuxa dialektində üst geyim mənasında işlənir.

Tat dilinin Ərəsküş-Dağ Quşçu ləhcəsində arxalıq sözü mənasında qaba sözü işlənir [15, s.164].

Qərbi Azərbaycanın Ağbaba şivəsində də işlənən arxalıq sözü kişilərin geyindiyi ətəkli, yüngül paltar [5, s.28].

Etimoloji lüğətdə arxalıq paltar növüdür və arxa (dal) sözündən əmələ gəlib. "Arxaya geyilən" (çiyinə salınan) mənasını verir. Sözün başqa mənası da var və rus dilindəki "чересседельник" anlamına uyğun gəlir [10, s.23].

İzahlı lüğətdə köhnəlmiş söz kimi verilən arxalıq sözü yaxası düyməli, beli büzməli, ya büzməsiz üst paltar [3, s.133].

Çənəsinin altınacan qarmaqlanmış donun üstündən "bəhliqol" arxalıq geymişdi [6, s.59].

Alt geyim adları bildirən etnoqrafik dialektizmlər:

Çaxçur. Azərbaycanın qadın alt geyim kompleksinə daxil edilən çaxçur, bir qayda olaraq, şəhər əhalisinin, xüsusilə də varlı və kübar ailələrin geyimi kimi mövcud olmuşdur. Ayağı büzməli şalvarı xatırladan bu geyim növü Yaxın və Orta Şərq ölkələrində, Orta Asiya və Qafqaz xalqları arasında geniş yayılmış, Ön Asiya vasitəsilə Azərbaycana da keçmişdir. Q.T.Qaraqaşlı çaxçurun Azərbaycanda yayılmasını farsların, xüsusilə də fars ruhanilərinin təsiri ilə əlaqələndirir [4, s.94].

Bu söz Bakı, İsmayıllı, Şamaxı dialektlərində, Kürdəmir şivəsində isə carcur formasında işlənərək qadın şalvarı mənasını verir [2, s.85].

Çaxçur sözü Naxçıvanın Cəhri şivəsində də qadın şalvarı anlamını bildirir [15, s.62].

İzahlı lüğətdə arxaik söz kimi işlənən çaxçur sözü keçmişdə qadınların geydikləri balağı büzməli enli şalvar növü anlamında izah olunur [3, s.437].

Çaxçur/carcur «qadın şalvarı». Tat dilində bu söz çaxçür//çaxçur kimi işlənərək, «corab» mənasını bildirir [15, s.216].

Arvadın başında qara çadra, üzündə ağ rübənd, ayaqlarında qara çaxçur və nəleyin vardı [9, s.60].

Ayaq geyim adları bildirən etnoqrafik dialektizmlər:

Məst. İ.M.Otarov bu leksik vahidin mes/mesi (qaraçay-balkar), mesi (tatar) və başqa türk dillərində də işləndiyini göstərmişdir [1, s.271].

Türk ədəbi dilində mest/mes leksik vahidi yumşaq dəridən düzəldilən evdə və ya çöldə rezin ayaqqabı ilə geyilən yüngül, rahat alçaq dabanlı ayaqqabı mənasında işlənir [18, s.158].

Bu leksik vahid mes/məs/məh formalarında Quba dialektində ayaqqabı mənasında işlənir [14, s.255].

Belində qatar, ayaqlarında məst, çiynində tüfəng vardı [6, s.5].

Çarıq təsərrüfat işləri zamanı qadınların corab və badışın üstündən geydikləri ayaq geyimidir. Bu geyim növü həm qadın, həm də kişi ayaq geyimidir. Qadın və kişi çarıqlarının tikilmə tərzi və materialı heç bir fərq olmasa da, qadın çarığı ölçüsünün kiçikliyinə görə seçilirdi [4, s.116]. Çarığı yoxsul və ortabab əhali zümrəsi geyirdi və daha çox elat qadınlar üçün xarakter idi [11, s.148].

Qərbi Azərbaycanın Ağbaba şivəsində işlənən çarıq sözü mal gönündən tikilmiş ayaqqabı növü anlamını verir [5, s.52].

Çarıq – tuva dilində yol əvəzinə, yoruq, çoruq sözləri işlədilir. Çarıq və yerik (yoruq, yol) eyni kökə malik ola bilər. Deməli, çarıq yerimək sözü zəminində əmələ gəlib [10, s.65].

Çarıq sözü Nuxa dialektində də eyni mənada işlənir.

İzahlı lüğətdə çarıq sözü keçmişdə kəndlilərin geydiyi aşılanmış göndən tikilən ayaqqabı növü mənasında izah olunur [3, s.447].

Sonra da patava-çarıq geyildi [7, s.145].

Baş geyim adları bildirən etnoqrafik dialektizmlər:

Dingə. Bu leksik vahid Borçalı, Gəncə, Hamamlı, Kürdəmir, Qazax, Ordubad, Saaatlı, Şamaxı dialektlərində başa bağalanan bəzək geyimi anlamında işlənir [2, s.135].

Naxçıvan, Şirvan və qərb bölgələrində qadın geyim dəstinə daxil edilən dingə söyüd və tənək çubuqlarından "çənbər" adlanan dingə səbətinin üzərinə şal sarımaqla qurulurdu. Başda möhkəm dayanması əndazəsinin pozulmaması üçün adətən dingəyə qızıl qarmaq bənd edər, üstündən isə örpəklə bağlayardılar. [4, s.110].

"Azərbaycan etnoqrafiyası"nda (II cild) dingə ilə bağlı belə bir məlumata

rast gəlirik: "Naxçıvanda, xüsusilə də Ordubad bölgəsində qadınların geydikləri belə baş papağı – "kərkə", ahıl qadınların geydikləri isə daha arxaik baş geyimi hesab olunan "dingə" adlanırdı. Kərkə qaytanlarla və kəsmə metal lövhələrlə bəzədilirdi. Dingənin üzərinə vurulan bəzəklər və zinət şeyləri onun sahibinin maddi vəziyyətini əks etdirirdi. Yoxsul və ortabab ailədən olan qadınların dingəyə vurduqları bəzəklər üzəri gümüş pullu "tetir" və "qabaqlıq"dan, həmçinin tunc qarmaqdan ibarət olurdu. Varlılarda isə bütün bunları qızıldan, az miqdarda isə gümüşdən hazırlanmış zinət şeyləri (pərək, aypərək və s.) tamamlayırdı. Şirvan bölgəsində dingə digər bölgələrdən fərqli olaraq çubuqlardan deyil, birbaşa baş şalını dingə səbəti formasında bağlamaqla qurulurdu. Dingə bütün Cənubi Qafqaz üçün xarakterik baş geyimi olmuşdur [4, s.110].

Ağbaba şivəsində dingə leksik vahidi tac formasında baş bəzəyinin əsasını təşkil edən dairəvi ağac qasnaq mənasını bildirir [5, s.79].

Xatın arvadın qara şal dingəsinin hər iki tərəfindən çal birçəkləri çəngə-çəngə çıxmışdı [6, s.37].

Çutqu/çutqi/çutğu/çuqqu geymə (qoyma) tipli qadın baş geyimlərindən biri də çutqu idi. Azərbaycanın şimal və şimal-şərq bölgələrində geniş yayılmış bu geyim tipi qadının saçlarını və hörüklərini içərisinə qabqardığı ayağı açıq torbanı xatırladır, həm gigiyenik, həm də əməli mahiyyət daşımaqla, qadın gözəlliyinə xüsusi gözəllik verirdi. Başa çutqu bağladıqda təsək qoyulmazdı. Çutqunun həm gündəlik, həm də bayramlıq növləri olurdu. Şəki etnoqrafik bölgəsində, eləcə də Qax rayonunun azərbaycanlı və saxur əhalisi arasında qadın çutqusu "tülü" adı ilə məlum idi [4, s.109].

Bu söz çuqqu formasında Qəbələ, çutqu formasında isə Dərbənd, Quba, Mingəçevir, Şamaxı dialektlərində qadın yaylığı anlamında işlənir [2, s.107].

Quba dialektində çutqi formasında işlənən bu leksik vahid uclarında ip olan ləçək mənasında işlənir [14, s.208].

Bu söz – çutqi/çutqabaği sözü Bakının Novxanı və Şağan şivələrində çutqi formasında işlənərək qadınların başlarına qoyduqları bəzək mənasında işlənir [16, s.199].

Dərbənd dialektində bu leksik vahid üstü zər haşiyəli, bir ucu saçaqlı iri şarf formalı baş örtüyü mənasında işlənir [1, s.272].

Çutqu sözünün izahı ilə bağlı A.N.Mustafayev "Şirvanın maddi mədəniyyəti" adlı əsərində yazır: "XIX əsrə qədər tikili baş geyimlərinin ən geniş yayılan tipi çutqu idi. Eni 25-30 sm olan çutqu ayağı açıq torbanı xatırladırdı. Çutqunu bahalı ipək parçadan tikirdilər. Çox vaxt onun astarı çitdən olurdu. Çutqunun bəzəyinə xüsusi fikir verilirdi. Onun ətəyinə saçaqlı "pürçüm" tikilirdi. Ondan yuxarıda dar bafta, onun üstündən isə 8 sm, enində zərxara və enli bafta olurdu. Çutqu geyilərkən onun qabağına adətən "çutquqabağı" tutulardı. Çutqunu başa bağlamaq üçün onun künclərinə yarım metr uzunluğunda ucu "pitik" və "qotazla" qaytan tikilərdi. Müəllif R.Əfəndizadəyə istinad edərək, çutqunun Şəkidə

tülü formasında işlənildiyini göstərmişdir [13, s.91].

Murad ağa onun çutqudan ucları çıxmış cığalarını sığalladı [7, s.32].

Qeyd edək ki, ünsiyyətə xidmət edən dil daim inkişafda olur və yenilənir. İctimai hadisə olan dil insanların ünsiyyətinə və münasibətinə xidmət edir və bu zaman dilimizə müxtəlif səbəblərlə əlaqədar olaraq yeni sözlər daxil olur və ya dildə öz işləkliyini itirən sözlər köhnələrək dilin lüğət tərkibindən çıxır. Dilin lüğət tərkibindən çıxaraq öz işləkliyini itirən sözlər uzun zaman dialekt və şivələrdə qorunaraq mühafizə olunur. Buna görə də arxiv rolunu oynayan dialektizmlər dilin daxili imkanları hesabına zənginləşməsində etibarlı mənbələrədən biridir.

Göründüyü kimi, Ə.Cəfərzadənin romanlarında işlənmiş geyim adlarından ibarət etnoqrafik dialektizmlər dilimizin tarixi keçmişini, məişətini, həyatını, düşüncə tərzini, psixologiyasını öyrənmək baxımından bizə zəngin və maraqlı material verir.

**ƏDƏBİYYAT**


1. Azərbaycan dilinin Dərbənd dialekti. Bakı: Elm, 2009, 448 s.
2. Azərbaycan dilinin dialektoloji lüğəti. Bakı: Şərq-Qərb, 2007, 568 s.
3. Azərbaycan dilinin izahlı lüğəti: 4 cilddə. I c., Bakı: Şərq-Qərb, 2006, 744 s.
4. Azərbaycan etnoqrafiyası: 3 cilddə, II c., Bakı: Şərq-Qərb, 2007, 384 s.
5. *Bayramov A., Bayramova A.* Ağbaba şivəsi sözlüyü. Bakı: “AM965” MMC, 2014, 280 s.
6. *Cəfərzadə Ə.* Bir səsin faciəsi. Bakı: Udulu, 1997, 144 s.
7. *Cəfərzadə Ə.* Eldən-elə. Bakı: Şərq-Qərb, 2006, 384 s.
8. *Cəfərzadə Ə.* “Gülüstan”dan öncə. Bakı: Xan, 2016, 240 s.
9. Cəfərzadə Ə. Zərrintac-Tahirə. Bakı, 1996, 206 s.
10. *Əhmədov B.İ.* Etimologiya lüğəti. Bakı: Altun kitab, 2015, 288 s.
11. *Həvilov H.A.* Azərbaycan etnoqrafiyası. Bakı: Elm, 1991, 256 s.
12. *Quliyev Ə.A., Əliyeva N.Y.* Naxçıvan dialekt və şivələrinin lüğəti. Naxçıvan: Əcəmi, 2017, 296 s.
13. *Mustafayev A.N.* Şirvanın maddi mədəniyyəti. Bakı: Elm, 1977, 157 s.
14. *Rüstəmov R.Ə.* Quba dialekti. Bakı: Azərbaycan SSR EA, 1961, 274 s.
15. *Soltanov A.K., Soltanov M.C.* Tatca-Azərbaycanca, Azərbaycanca-Tatca lüğət. Bakı: Qanun, 2013, 260 s.
16. *Şirəliyev M.Ş.* Bakı dialekti. Bakı: Azərbaycan SSR EA, 1957, 224 s.
17. *Akdoğan Y.* Azerbaycan türkcesindən Türkiye türkcesine Büyük sözlük. İstanbul: Beşir Yayınevi, 1999, 836 s.
18. *Altaylı S.* Azerbaycan türkcesi sözlüğü I. İstanbul: Milli eğitim basımevi, 1994, 622 s.
19. *Eyuboğlu İ.Z.* Türk Dilinin Etimoloji Sözlüğü. İstanbul: Sosyal Yayınlar, 1998, 782 s.


Redaksiyaya daxil olub 23.04.2022

*UOT 82-1.512.162*

***Y.B.Dadaşlı***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin Cəlilabad filialı*
*yadulla@mail.ru*

# NİZAMİ GƏNCƏVİNİN POEMALARINDA TÜRKÇÜLÜK İDEYALARI

***Açar sözlər:*** *türkçülük, vətənçilik, humanizm, milli ideyalar, türklərin milli xüsusiyyətləri*

Məqalədə dünya şöhrətli Azərbaycan şairi və filosofu N.Gəncəvinin poemalarında humanist və demokratik fikirlərin, milli və bəşəri düşüncələrin, türkçülük ideyalarının geniş ifadəsini tapmasından danışılır. Nizami ədəbi məktəbinin yetirdiyi Ə.Nəvai, Ə.X.Dəhləvi, M.Fizuli, A.Ərdəbili kimi qüdrətli şairlərin Nizami sənətinə verdiyi qiymət diqqətə çatdırılır. Öncə dahi sənətkarın öz sənətinə, xalqına sonsuz məhəbbəti, soykökünə milli adət-ənənələrinə bağlılığı haqqında məlumat verilir. Məqalədən anlaşılır ki, Nizami öz türkçülük ideyalarını bütün poemalarında açıqlamış, türklərin vətənpərvərliyini, igidliyini, qəhrəmanlığını tərənnüm etmişdir. İran şahı Xosrov cəsur türk döyüşçülərindən hazırlanmış ordunun gücü ilə Bəhram Çubinə qalib gəlmiş, İsgəndər rus qoşunları ilə döyüşdə geniş ərazidə məskunlaşan türklərin köməyinə arxalanmışdır.

Tədqiqatçı Nizaminin türkçülük ideyaları əsasında vətənpərvərlik ideyalarının dayandığını, şairin Bərdə və Gəncənin təbii gözəlliklərini məhəbbətlə tərənnüm etdiyini açıqlamışdır. Bununla yanaşı, türk qadınlarının zahiri və mənəvi gözəlliyi, iti ağlı və dərin düşüncəsi və qəhrəmanlığı, qayğıkeşliyi və əxlaqi keyfiyyətlərini Şirin, Məhinbanu, Nüşabə kimi obrazların simasında şairin qələmə aldığını bildirmişdir.

***Я.Б.Дадашлы***

## ИДЕИ ТЮРКИЗМА В ПОЭМАХ НИЗАМИ ГЯНДЖЕВИ

***Ключевые слова:*** *тюркизм, патриотизм, гуманизм, национальные идеи, национальные особенности тюрков*

В статье говорится о гуманистических и демократических идеях, национальных и общечеловеческих взглядах, а также идеях тюркизма в поэмах всемирно известного Азербайджанского поэта, философа Низами Гянджеви. Представители литературной школы Низами выдающиеся поэты А.Наваи, А.Х.Дахлави, М.Физули и А.Ардабили высоко оценили творческую деятелъностъ великого поэта. В первую очередь дается информация о безграничной любви великого Низами к своей родине, своему народу, привязанностъ к родовым корням и народным традициям. Из этого становится ясно, что поэт выражал свои идеи тюркизма во всех своих поемах, широко раскрыл тему героизма и патриотизма тюрок. Силой армии, собранной из храбрых воинов тюрок, Шах Ирана Хосров победил Бахрама Чубина, в битве с русскими войсками Александр Македонский полагался на помощь тюрок, расселившихся на территории этих земель.

Исследователь дает сведение о том, что в основе идей тюркизма Низами стоит патриотические идеи, говорится о воспевании поэтом с любовью естественной красоты Барды и Гянджи. При этом в образе Ширин, Махин Бану, Нушабы поэтом описывается внешняя и духовная красота, острый ум и глубокое мышление и героизм, заботливость и нравственные качества тюркских женщин.

***Y.B.Dadashli***

**THE IDEA OF TURKISM IN THE POEMS OF NIZAMI GANJAVI**

***Keywords:*** *turkism, patriotism, humanism, national ideas, the turks national pecularities*

The article talks about humanistic and democratic ideas, national and universal views, as well as the ideas of Turkism in the poems of the world-famous Azerbaijani poet, philosopher Nizami Ganjavi. Representatives of Nizami's literary school, outstanding poets A.Navai, A.Kh.Dakhlavi, M.Fizuli and A.Ardabili highly appreciated the creative activity of the great poet. First of all, information is given about the boundless love of the great Nizami for his homeland, his people, attachment to ancestral roots and folk traditions. From this it becomes clear that the poet expressed his ideas of Turkism in all his poems, widely revealed the theme of heroism and patriotism of the Turks. The Shah of Iran Khosrov defeated Bahram Chubin with the strength of an army assembled from the brave warriors of the Turks, Alexander the Great relied on the help of the Turks who settled on the territory of these lands in the battle with the Russian troops.

The researcher gives information that Nizami's ideas of Turkism are based on patriotic ideas, it is said that the poet sang with love the natural beauty of Barda and Ganja. At the same time, in the image of Shirin, Makhin Banu, Nushaba, the poet describes the external and spiritual beauty, sharp mind and deep thinking and heroism, caring and moral qualities of Turkish women.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamı ilə 2021-ci ilin "Nizami Gəncəvi ili" adlandırılması və dahi şairin anadan olmasının 880 illik yubileyinin keçirilməsinin qərara alınması nizamişünaslığın inkişafına geniş imkanlar yaratmış, böyük mütəfəkkirin əsərlərinin yenidən nəşr olunması, yaradıcılıq problemlərinin əsaslı şəkildə araşdırılması zəruriyyətini meydana çıxarmışdır. Dünya şöhrətli Azərbaycan şairi və filosofu, humanist və demokratik ideyalar carçısı N.Gəncəvini (1141-1209) az qala 900 ilə yaxın bir zaman bölümü bizdən cismən ayırsa da, mənən gündən-günə, ildən-ilə, əsrdən-əsrə yaxınlaşdırır, doğmalaşdırır, bizə fəxrlə, qürurla, iftixarla "Nizami bizim müasirimizdir" söyləməyə tamamilə haqq qazandırır. Bu da təbiidir, çünki Nizaminin poemalarında poetik ifadəsini tapan milli və bəşəri ideyalar, humanist və demokratik fikirlər, vətənçilik duyğu və düşüncələri onu əbədiyaşar dahi sənətkara çevirmiş, ona ümumxalq məhəbbəti qazandırmış, onu əbədiyyət üfüqlərinə qovuşdurmuşdur. Nizaminin yaratdığı ədəbi məktəb Ə.Nəvai, M.Füzuli,

Ə.X.Dəhləvi, A.Ərdəbili kimi dahi söz sənətkarlarını yetirmişdir. Bu sənətkarlar da öz əsərlərində böyük Nizaminin adını dəfələrlə çəkmiş, onun qüdrətli şair olduğunu dönə-dönə etiraf etmişlər.

Böyük və qüdrətli şair M.Füzuli (1494-1556) "Leyli və Məcnun" poemasında Nizamini özünün ustadı, özünü isə onun şagirdi adlandırmış, "Leyli və Məcnun" mövzusunda poema yazmağın çətinliyini xatırlatmışdır. XV əsrin böyük özbək şairi Ə.Nəvai: "Nizami sənəti o qədər əzəmətli və çəkilidir ki, onu ölçmək üçün göylər qədər böyük tərəzi, yer kürəsi kimi iri ölçü vahidi lazımdır" (1, s.187) sözlərini yazmaqla Nizami şəxsiyyətinin qüdrətini və əzəmətini, Nizami poeziyasının möhtəşəm sənət abidəsi olduğunu bir daha təsdiqlədi. Görkəmli rus şərqşünas alim, akademik N.Y.Marr (1864-1934) Sankt Peterburq Dövlət Universitetinin Şərqşünaslıq fakültəsində təhsil aldığı illərdə (1883-1888) klassik şərq ədəbiyyatını öyrədən görkəmli müəllimlərini sonralar xatırlayaraq yazırdı: "Müəllimlərim deyərdilər: Dünya hələ Nizami səviyyəsində ikinci bir sənətkar yetirməmişdir".

Nizami özü də hələ akademik N.Y.Marrın müəllimlərindən təxminən 700 il əvvəl poeziyanın əzəmətli zirvəsinə ucalmaq iddiasına düşənlərə romantik iddialardan əl çəkməyi məsləhət görür, bu zirvəni məhz Nizaminin fəth etdiyini söyləyirdi. "Söz mülkündə büsat quran" dahi şair " Leyli və Məcnun " poemasında oğlu Məhəmmədə müraciətlə yazırdı:

Görürəm şöhrətdə ləyaqətin var,
Şeirdə, sənətdə məharətin var.
Şairlik eləmə! Dövrə bax ki, bir,
Tərif əvəzinə pislənir şeir.
Şeirdən ucalıq umma dünyada,
Çünki Nizamiylə qurtardı o da" (7, s.51).

Bu misralarda şair oğlu Məhəmmədin şairlik istedadını yüksək qiymətləndirsə də, şairlik etməyi Məhəmmədə və onun şəxsində dövrünün şair olmaq istəyən gənclərinia məsləhət görmür. Çünki Nizami aşkar görürdü ki, zəmanəsində şeirə layiq olduğu dəyər verilmir, ən kamil poeziya nümunələri belə təriflənmək əvəzinə pislənilir. Buna baxmayaraq, dahi şair ruhdan düşmür, zəmanənin bütün zərbələrinə bacarıqla sinə gərir, poeziya yollarında inamla addımlayır, dəyərli lirikası və mənzum poemalarında qaldırdığı bəşəri dəyərlərin onu zaman-zaman yaşadacağına bütün varlığı ilə inam bəsləyirdi. Şübhəsiz ki, milli və ümumbəşəri dəyərlərin ifadəçisinə çevrilməsi, poemalarında poetik inikasını tapan, dərin humanizm və demokratizm məfkurəsi, qəhrəmanlıq motivləri, ictimai fəlsəfi və əxlaqi-didaktik əhvali-ruhiyyə Nizami şəxsiyyətinə şərəf gətirən və Nizami poeziyasının əzəmətini və qüdrətini, əbədiyaşarlığını təsdiqləyən ən mühüm amillərdəndir. Nə qədər ki, dünya duracaq, o qədər də Nizami şəxsiyyəti, Nizami əsərləri və Nizami ideyaları yaşayacaqdır.

Nizami bütün varlığı ilə öz vətəninə, xalqına, öz soykökünə, xalqının min

illər boyu yaratdığı adət-ənənələrə, azərbaycançılıq və türkçülük amalına qırılmaz tellərlə bağlı olan, vətənini və xalqını, bütün türk dünyasını sonsuz məhəbbətlə sevən qüdrətli söz sənətkarıdır. Türkçülük ideyaları onun poemalarından qırmızı xətlə keçir, poeziyasının leytmotivini təşkil edir. Türkçülük nədir və onu hansı xüsusiyyətlər səciyyələndirir?" sualına biz filologiya üzrə elmlər doktoru Aybəniz Əliyevanın (Kəngərli) "Azərbaycan romantiklərinin yaradıcılığında türkçülük" (Bakı, 2002) monoqrafiyasında aydın cavab tapırıq. Alim yazır: "Türkçülük millətçilik, millətsevərlik türk millətini yüksəltmək, türk millətinə bağlılıq deməkdir. Türkçülük türk millətçiliyi, türk millətinin ideologiyası deməkdir və millət, dil, din, əxlaq, etika, estetika baxımından ortaq olan fərdlərin bütünü olduğu üçün türk milləti anlayışı dünyanın harasında yaşamasından asılı olmayaraq əsir və hürr bütün dünya türklərini özündə birləşdirir. Türk millətinin vahid ideoloqu olaraq türkçülük ilk növbədə bütün türklərin bir millət olması ideyası ilə ortaya atılır (2, s.76).

Əslən türk oğlu türk olan ölməz Nizami bütün yaradıcılığı boyu təkcə Azərbaycan Yaxın və Orta Şərq ölkələrində yaşayan türklərin deyil, tarixi zəruriyyət üzündən dünyanın müxtəlif ölkələrinə səpələnmiş türklərin qəhrəmanlıq salnaməsini yaradır, türkləri səciyyələndirən başlıca əlamətləri xarakterizə edir, türk şərəf və ləyaqətindən iftixarla söz açırdı. O, əsərlərində türkçülük ideologiyasını təbliğ edirdi. Təsadüfi deyildir ki, Azərbaycanın görkəmli dövlət xadimi və publisisti M.Ə.Rəsulzadə "Azərbaycan şairi Nizami" monoqrafiyasında dahi şairin "əsərlərini farsca yazmasına baxmayaraq, məzmun və hissiyyat nöqteyi-nəzərindən azərbaycanlı bir türk təfəkkürünə malik olduğunu" diqqətə çatdırır, Nizamidə türklük probleminə, Nizaminin türkçülük görüşlərinə aydınlıq gətirirdi. M.Ə.Rəsulzadə yazırdı ki, amma yəqin ki, heç bir yerdə və farsca yazılmış heç bir əsərdə "türk" məfhumu Nizamidə olduğu qədər sevgi və məntiqi bir silsilə ilə ifadə edilməmişdir (10, s.311). "Xəmsə"ni təhlilə çəkən müəllif burada "türk" sözünün 80-dən artıq məna çalarında işləndiyini müəyyən etmişdir. M.Ə.Rəsulzadənin qənaətinə görə, "türk" sözü Nizamidən əvvəl "ağlıq" və "gözəllik", Nizaminin dövründə isə "yüksəklik", "paklıq" və "gözəllik" anlamlarında işlənmişdir. O, Nizami poeziyasında işlənən "türk" isim və sifətini ümumiləşdirərək bu nəticəyə gəlir: "Nizami "türk" deyir – gözəl, mərd, qəhrəman, döyüşçü, sərkərdə, bilici, ər, rəhbər və başçı nəzərdə tutur, "Türklük" deyir – gözəllik, yaxşılıq, təmizlik, doğruluq, mərdlik, qəhrəmanlıq, sərkərdəlik, başçılıq demək istəyir, türküstan" deyir – vəfa, doğruluq və istənilən yerə qovuşmaq (vüsal) nəzərdə tutur" (10, s.311-312). M.Ə.Rəsulzadə onu da vurğulayır ki, Nizami gözəl gözü türk gözünə, şirin gülüşü türk gülüşünə, yasəməni türk gözəlinə bənzədir, Məcnunun sevgilisi Leylinin ətrafına toplaşan ərəb qızlarına "Ərəbistanda yaşayan türklər" deyir. Bununla yanaşı olaraq, Nizami "türklük" sözünü qəhrəmanlıq, əzmkarlıq mənasında işlədir. "Xosrov və Şirin" poemasında göstərilir ki, Xosrov şah öz hakimiyyətini ələ gətirmək üçün Rum qeysərindən qoşun istəyir. Hər iki iranlı şah

– Xosrov və Bəhram döyüş meydanında üz-üzə gəlir. Xosrovun türklərdən ibarət əzəmətli cəngavər döyüşçüləri Bəhramın iranlılardan ibarət qoşunu üzərində qələbə çalır. Nizami:

Türk kimi bir döyüş başladı həm də,
Türk gərənayları səslənən dəmdə (5, s.148)

misralarında türklərin qəhrəmanlıqlarından fərəhlə söz açır, onların igidliyi ilə öyünür, digər tərəfdən "türk" sözünü şücaət, qəhrəmanlıq mənasında işlədir.

Nizami poemalarının leksikonunda "türk" sözü ədalət anlamında da işlədilir, türklərin qəhrəmanlıq tarixi, humanist baxışları, yüksək əxlaqı və mənəvi keyfiyyətləri önə çəkilir, şair öz türk soykökü ilə qürurlanır. "Sirlər xəzinəsi" poemasının "Qarı və Sultan Səncər dastanı" hekayəsində şair "haqsızlığın odunda yanan türk əsilli bir qarı ilə sonuncu Səlcuq hökmdarı Sultan Səncəri (1118-1157) qarşılaşdırır. Qarı darğanın ədalətsizliyindən, yaşadığı küçədə bir nəfərin öldürülməsində onu günahlandırmasından, şahın günahsız xalqa zülm etməsindən acı-acı şikayətlənir.

Bu zülmə, haqsızlığa dözmək çətindir, çətin.
Mənim abrım tapdanır, səninsə ədalətin (4, s.85),

- deyən qarı Sultan Səncəri zülmkarlıqdan əl çəkməyə, nəfsin, tamahın qulu olmamağa, ölkəni ədalətlə idarə etməyə, günahsız qarıların ağ birçəyindən utanmağa çağırır. Qarı Sultan Səncərə türklərin şanlı, şərəfli tarixindən ibrət götürməyi, xalqın qayğısına qalmağı məsləhət görür. Eyni zamanda ölkənin talan olunmasında, ellərin zülmə düçar olmasında haqlı olaraq hökmdarı günahlandırır:

Aləmi alt-üst edib talamısan elləri,
Xalqa xeyrin dəyibmi şah olan gündən bəri?
Şan-şöhrəti dünyaya sığışmazdı türklərin,
Ölkəsi ədalətlə güllü yazdı türklərin.
Zalımlığın bəllidir, işin-peşən talandır,
Sən ki hindli quldursan, türk olmağın yalandır (4, s.86)

misralarından aydın görünür ki, Sultan Səncər xalqa zülm etməklə ədalətsiz bir hökmdar kimi tanınmış, xalqın nifrətinə səbəb olmuş, ölkəni xarabazara çevirməklə dövlətin parçalanmasına, Azərbaycanın İraq sultanlığına qatılmasına gətirib çıxarmışdır.

"Qarı və Sultan Səncər dastanı" hekayəsində şairin oxucuya çatdırmaq istədiyi dəyərli qayə bir də bundan ibarətdir: Türklər heç bir vaxt ədalətsizlik etməzlər, heç bir xalqa, heç bir kəsə zülm etməzlər. Doğrudan da belədir.

Türklər tarix boyu ədalətsizlik etməmiş, ancaq həmişə ədalətsizliyin qurbanına çevrilmişlər. Nizaminin türkçülük ideyaları "İskəndərnamə" poemasında özünə yer almışdır. Poemanın məzmunundan aydın olur ki, İskəndər Qıpçaq çölündə rus qoşunları ilə qarşılaşır, rusların vahiməli olması İskəndəri qətiyyən qorxutmur, onun qələbəyə inamını daha da artırır. "Ruslarla döyüşdən indi qorxmaram" söyləyən İskəndər rusları bir selə, özünü isə bir dağa bənzədir. "Xəzər

dağından Çin suyuna qədər", başqa sözlə desək, Qafqaz dağlarından Şimalı Çin və Cənubi Çin dənizlərinə qədər böyük bir ərazidə məskunlaşan türklərin köməyinə arxalanır. Şair rus və türk qoşunlarının qızğın döyüşlərində türklərin şücaətini belə səciyyələndirir:

Hər iki tərəfdə sədd çəkdi əsgər,
Laciverd göy kimi ucalmış yerlər.
Zorba türk borusu etdikcə şiddət ,
Türklərin qoluna gəlirdi qüvvət.
Coşduqca yer yaran at kişnəməsi,
Balığa çatırdı yerin naləsi (9, s.327).

Döyüş səhnəsini təsvir edən bu misralarda türklərin mübarizliyinin, cəsurluğunun məhəbbətlə təsvir olunması bir tərəfdən İskəndərin türklərə hüsnrəğbətinin bariz nümunəsidirsə, digər tərəfdən də dahi şairin mənsub olduğu türk qövmünə sonsuz sayğısının poetik ifadəsidir. Nizami Hindistandan Çinə səfər edən İskəndərlə türk əsilli Çin xaqanını qarşılaşdırmaqla türklərin qonaqpərvərliyini bir daha təsdiqləyir. Poemanın iki Xaqanın İskəndəri qonaq etməsi" hekayəsindən anlaşılır ki, Çin xaqanı öz qoşunu ilə Çinin ətəklərinə gəlib çıxan İsgəndəri mehribanlıqla qarşılayır və öz sarayına apararaq onun şərəfinə ziyafət təşkil edir. Qonağı hörmətlə qarşılayan xaqan ona qiymətli hədiyyə alaraq "səhər küləyindən iti yeriyən", "qaçmaqda ceyrandan iti", "atəşdən qızğın", "sudan yumşaq" bir at, ovçu quş və "gülüzlü, dodağı şəkərlə dolu, ənbər qoxulu" qaragöz bir türk gözəli olan kəniz bağışlayır. Nizami "Taysız gözəl" adlandırdığı türk qızının parlaq obrazını məhəbbətlə yaradaraq yazır:

Budur at, ovçu quş və gözəl kəniz,
Əzizdir, bunları sən də tut əziz.
Nə kimsə belə at minmişdir hələ,
Nə belə bir quşu keçirmiş ələ.
Deməyə nə hacət, bir zaman gələ,
Hər biri göstərər böyük bir hünər.
Gülüzlü kənizdir belə bir gözəl ,
Gözəllikdə yoxdur özünə bədəl.
Anadangəlmədir onda üç xislət,
Onun dördüncüsü tapılmaz, əlbət.
Birinci, gözəldir, bərabəri yox,
Can alır, cənnətdə belə pəri yox.
İkinci, güclüdür, həm də döyüşkən,
Qaçmaz döyüş günü mərd kişilərdən.
Üçüncü, yox səsdə ona bir bədəl,
Şən-şaqraq nəğməsi Zöhrədən gözəl (9, s.308).

Poemadan nümunə gətirdiyimiz bu parçada at və ovçu quş türk hünərinin, türk igidliyi və şücaətinin simvolu kimi mənalandlrılır, zahiri və mənəvi gözəlliyi,

əxlaqı saflığı, könül oxşayan məlahətli səsi, gücü və döyüşkənliyi ilə rəğbət qazanan türk gözəli türk qəhrəmanlığının bariz nümunəsi kimi səciyyələndirilir. Göründüyü kimi, Nizami kəniz biçimində türk gözəlinin mənəvi keyfiyyətlərini yüksək sənətkarlıqla təsvir etməklə əslində türk psixologiyasının yüksək milli və bəşəri səciyyəsini diqqətə çatdırır. Nizami Gəncəvinin türkçülük ideyalarının qayəsində vətənçilik motivləri dayanır. Nizami doğulub boya-başa çatdığı, suyu, havası ilə qidalandığı, təhsil aldığı, Azərbaycanımızın dilbər guşələrindən biri olan Gəncə şəhərini əsərlərində dönə-dönə, məhəbbətlə, ilhamla təsvir edir. Əzəldən türklərin məskəni olan doğma yurdu ilə qürurlanır, ülvi sözləri ilə Gəncənin Zöhrə ulduzu kimi Tərəzi bürcünə ucaldığını diqqətə çatdırır. "Sirlər xəzinəsi" poemasında: "Gəncə mənim Harutu yandıran Babilimdir", - deyən şair insanın yalnız öz vətənində xoşbəxt ola biləcəyi qənaətinə gəlir. Dahi şair bütün çətinliklərə baxmayaraq, özünü doğma vətənində xoşbəxt sayır. "Sirlər xəzinəsi "poemasının 1981-ci il nəşrinə yazdığı ön sözdə professor Rüstəm Əliyev Nizaminin vətənçilik hissləri ilə yaşayan qüdrətli bir sənətkar olduğunu açıqlayır: "O sonralar əsərlərində insanın yalnız öz vətənində, doğma yurdunda (böyük həyat çətinliklərinə məruz qalsa da) xoşbəxt olacağını dəfələrlə qeyd etmişdir. "Sirlər xəzinəsi" poemasının sonunda şair doğma Gəncə şəhərinə olan çılğın məhəbbətini ata bilmədiyi bir boyunbağıya bənzədərək deyir: "Əgər Gəncə boynuma düyün salmış bir boyunbağı olmasaydı, mən İranın bütün xəzinələrini öz şeirlərimlə fəth edərdim. "Başqa sözlə, əgər şair öz doğma şəhərindən ayrılmaq qüdrətinə malik olsaydı, o, xilafətin mərkəzi Bağdada köçüb öz misilsiz söz sənətinə böyük xəzinələr yığardı (4, s.7). Şair "Sirlər xəzinəsi" poemasının "Əsərin bitməsi" hissəsində doğma şəhəri Gəncəyə bağlılığını aşağıdakı misralarda təsdiqləyir:

Şairliyim saxlayıb dustaq kimi Gəncədə,
Mənəm indi dünyanın söz hakimi Gəncədə.
Boğazımı gör necə düyünləyibdi Gəncə,
Yoxsa İraq xəzinəsi mənim olardı, məncə" (4, s.153).

Bu misralar Nizaminin vətənpərvər şair olmasının sübutu kimi diqqəti çəkir. Nizami doğma yurdu Azərbaycana sonsuz sevgi ilə bağlılığını "İskəndərnamə" poemasının "İskəndərin Bərdəyə gəlməsi və Nüşabə ilə görüşməsi" fəslində poetik bir dillə, sənətkarlıq məharəti ilə təsvir etmişdir. Şair onuncu yüzildə Arranın mərkəzi olan Bərdə şəhərinin füsunkar təbii gözəlliklərini, yaşıl meşələrini, söyüdlü çöllərini, qırqovul yuvasına bənzəyən sərv ağaclarını, turaclı, kəklikli oylaqlarını məhəbbətlə qələmə alır, vətəninin dilbər guşəsinin təbii zənginliklərindən qürurla söhbət açır:

Bərdə nə gözəldir, necə qəşəngdir,
Yazı da, qışı da güldür, çiçəkdir.
İyulda dağlara lalələr səpər,
Qışını baharın nəsimi öpər.

O yaşıl meşəsi cənnətə bənzər,
Şən ətəklərinə bağlamış kövsər.
Yem üçün gələr quş bu gözəl yurda,
İstəsən "quş südü taparsan burda.
O yaşıl yerləri dolaşıb gəzsən,
Şənlikdən başqa bir xəyal görməzsən (9, s.203).

Nizami "sevimli gülşən", "xəzinə saçan diyar", "mərdlər, gözəllər yurdu" adlandırdığı 9-10-cu yüzillərdə təkcə Qafqazda deyil ,Yaxın və Orta Şərqdə çox inkişaf etmiş şəhərlərdən biri olan Bərdənin onuncu yüzildə rus qoşunları tərəfindən istila olunmasından, şəhərin xarabazara çevrilməsindən kədərləndiyini bildirir. Şair xalqımızın rus qoşunlarına qarşı amansız döyüşməsi, düşmənin üzərində qələbə çalınması, rusların yurdumuzdan qovulması səhnəsini təsvir etməklə istilaçı ruslara nifrət bəslədiyini açıqlayır. Bərdənin əvvəlki gözəlliyinin özünə qaytarılacağına dərin inam bəslədiyini ifadə edir. Nizaminin türkçülük görüşlərinin aşkarlanmasına köməklik göstərən amillərdən biri də poemalarinda parlaq obrazlarını yaratdığı Şirin, Leyli, Fitnə, Məhin banu, Nüşabə kimi türk xanımlarıdır. Nizaminin poemalarında adıçəkilən qadınlar zahiri və mənəvi gözəlliyi, iti ağılı və dərin düşüncəsi, mərdliyi və qəhrəmanlığı, yüksək əxlaqı və zəngin mənəviyyatı ilə insanlığın zirvəsinə ucalır, türk qadınlarının vətənçilik amalını təcəssüm etdirirlər.

Qadınlığa yüksək bəşəri münasibət bəsləyən Nizami "Xosrov və Şirin" poemasında Şirin obrazını yaratmaqla Yaxın Şərq ədəbiyyatında ilk dəfə yüksək əxlaqi keyfiyyətlərə malik türk-Azərbaycan qadınını oxuculara tanıtmışdır. Poemanın 1982-ci il nəşrinə yazdığı "Ölməz məhəbbət dastanı" adlı ön sözdə akademik H.Araslı poemanın qadın qəhrəmanı Şirini belə səciyyələndirir: "Yaratdığı bu ideal qadın obrazı ilə çox tez itirdiyi sevimli qadını Afaqa əbədi abidə ucaltdığını qeyd edən şair onu vətən qızlarına xas cəsarət, qürur, ismət, mənəvi yüksəklik, mərdlik kimi gözəl sifətlərlə səciyyələndirmiş, öz qəhrəmanını hər cür yaramaz, alçaq hərəkətlərdən uzaq, zəhmət və hünəri qiymətləndirməyi bacaran həssas bir adam, yaxşı dost, vəfalı ömür yoldaşı kimi əbədiləşdirmişdir" (5, s.9). Nizami qadınlıq haqqında humanist fikirlərini Şirinin simasında ümumiləşdirmiş, tarixdən götürdüyü Şirinin şəxsində türk qadınlarının yüksək mənəvi keyfiyyətlərinə böyük dəyər vermişdir. Elmi, biliyi yüksək dəyərləndirən Fərhadın simasında əməyə və əməkçi insana rəğbət bəsləyən Şirinin ilk məhəbbətinə ömrünün sonuna qədər sədaqətli olması, namuslu qadın qürurunu qoruyub saxlaması, İran şahı Xosrovu mənəvi-əxlaqi baxımdan tərbiyələndirməsi Nizaminin türk- Azərbaycan qadınına sonsuz sayğısının parlaq nümunəsidir. Şirin obrazını yüksək sənətkarlıqla yaratmaqla şairin Azərbaycan türklərinə məxsus əxlaq qaydalarını, milli adət-ənənələrini, onları səciyyələndirən başlıca amilləri diqqətə çatdırmaq məqsədini izləməsi poemada açıq-aydın görünür. Öncə Şirin "qara gözlü türkəm" deməklə özünün türk soyköklü bir qadın olmasını Xosrova

bildirir, türklüyü ilə haqlı olaraq öyünür. Eşqə, məhəbbətə əvvəllər əyləncə kimi baxan, Şirinin ağıllı məsləhətləri ilə mənəvi baxımdan kamilləşən Xosrov aşiq olduğu Şirinin mənəvi saflığını, mehribanlığını, azad, ləkəsiz bir ömür sürdüyünü, hər cür hörmətə layiq olduğunu və onunla fəxr etdiyini diqqətə çatdırır. Təsadüfi deyildir ki, oğlu Şiruyənin göndərdiyi qatilin əli ilə ağır yaralanan Xosrov susuz can verməyə razı olur, lakin Şirini yuxudan oyatmağa qıymır. Şirin Xosrovun məzarı üzərində özünü öldürməklə ilk məhəbbətinə sadiq qaldığını sübuta yetirir. Şirin Xosrovu öncə Şapurun göstərdiyi şəkillər vasitəsilə qiyabi yolla tanıyır. Zaman keçdikcə ağıllı məsləhətləri, dəyərli sözləri, öyüd-nəsihətləri ilə Xosrovun əxlaqını saflaşdırır. Bu dönəmdə Şirinin türklərə məxsus bir sıra məziyyətləri aşkara çıxır. Şirin onunla kəbinsiz ailə qurmağa çalışan Xosrova daha sərt cavab verir:

And olsun fitrətə qida verənə,
Əqlə can, canasa səfa verənə
Ki, şah olsan belə, kəbinsiz yenə
Yetişə bilməzsən istəklərinə (5, s.276).

Bu misralardan aydın görünür ki, namus, ar, həya, qeyrət həm Şirin üçün, həm də bütün türklər üçün müqəddəsdir. Bu müqəddəs amal bu gün də yaşayır. Digər tərəfdən doğma vətənini dərin məhəbbətlə sevən Şirin Bəhram şah tərəfindən hakimiyyətdən salınan Xosrovu öz vətənini azad etməyə çağırır. Məhz Şirinin təhriki ilə Xosrov Pərviz çoxlu qoşun toplayaraq qızğın döyüşə başlayır, Bəhramın qoşunu üzərində qələbə çalaraq yenidən taxt-tacına sahib çıxır.

Dünyada zülm etmək qoçaqlıq deyil,
Rəiyyət bəsləmək çox yaxşıdır, bil (5, s.319)

- deyən Şirin yüngül həyat tərzi keçirməkdən, eyş-işrətdən əl çəkməyi, ölkəni ədalətlə idarə etməyi, xalqın qayğısına qalmağı, Dara, Cəmşid kimi zülmkar şahların faciəli taleyindən ibrət götürməyi, dünyada yaxşı bir ad qoymağı Xosrova məsləhət görür. Şirinin ağıllı, dəyərli öyüd-nəsihətləri Xosrovu müsbət mənada tamamilə dəyişdirir, onu elmi biliklər qazanmağa, fəlsəfi məsələlərlə maraqlanmağa təhrik edir. Sarayda yaşayan böyük alim Büzürgümid "Kəlilə və Dimnə"dən didaktik mahiyyətli qırx məzmun danışmaqla Xosrova əxlaq dərsi verir. Məhz bunun nəticəsidir ki, Xosrov:

Etdiyi zülmdən peşiman oldu,
Ədlin sarayına təməl qoyuldu (5, s.331).

Göründüyü kimi, Xosrovun zülmkarlıqdan əl çəkməsi, ədalətli bir padşaha çevrilməsi də Şirinin adı ilə bağlıdır.

Şirin Bərdə hakimi olduqdan sonra ölkəni ədalətlə idarə edir, xalqla ədalətlə davranır. O, məhbusları zindandan azad edir, heç bir əkinçidən xərac almır, ölkədə bolluq olur, dünyada zülmdən əsər-əlamət qalmır.

"Xosrov və Şirin" poemasının əsas obrazlarından biri də Bərdə hakimi Məhinbanudur. Arrandan başlamış Ərmənə qədər əsasən türklərin yaşadığı böyük

bir əraziyə hökmranlıq edən bu türk hökmdarı həm ədaləti, həm əxlaqi keyfiyyətləri, həm də qayğıkeşliyi ilə seçilir. Xosrovla Şirinin məhəbbət macəralarından xəbər tutan Məhinbanu "bütün gözəllərin sultanı" saydığı Şirinə öyüd-nəsihət verərək onu türklər üçün ən müqəddəs sayılan namusunu qorumağa, halal bir qadın olmağa səsləyir. Onu da xatırladır ki, əgər Xosrov:

Görsə ki, vəfalı, ismətli qızsan,
Elçi göndərəcək adətlə, inan.
Adın bu dünyada namuslu qalar,
Olarsan cahanda böyük hökmdar.
Əgər o aydırsa, biz afitabıq,
O, Keyxosrov, bizsə Əfrasiyabıq (5, s.118).

Sonuncu iki misrada şair Xosrovun İran şahı Keyxosrovun nəslinə, Şirinin isə Turan hökmdarı Əfrasiyabın nəslinə mənsub olduğunu vurğulayır, Əfrasiyabın nəslini Günəşə, Keyxosrovun nəslini isə Günəşdən nur alan Aya bənzətməklə türklərin şanlı, şərəfli, şöhrətli bir soykökə malik olduqlarını aydınlaşdırır.

"İskəndərnamə" poemasının qadın qəhrəmanı, Bərdə hökmdarı Nüşabə Nizami dühasının qüdrəti ilə cismani və mənəvi gözəlliyi ilə göz oxşayan, xoş söhbətləri ilə ruha qida verən, ürəyitəmizliyi, xoşxasiyyətliyi, yüksək əxlaqi keyfiyyətləri ilə həmvətənlərinin fövqündə dayanan bir insan kimi diqqəti çəkir. Nizaminin yüksək dəyər verdiyi Nüşabə otuz min qılınc oynadan, igid və qəhrəman türk qızından ibarət qoşuna başçılıq edir, sarayına bacarıqlı türk qadınlarını toplayır. Onun qəzəbindən qorxaraq heç bir kişi yaşadığı şəhərə ayaq basmır. Nüşabə hökmranlıq etdiyi ölkəni gülüstana çevirir. Ad-sanı, ağlı və qoçaqlığı ilə şöhrətlənir. O, dünya fatehi makedoniyalı İskəndərin Bərdəyə gəlişini eşidəndə müəyyən hazırlıq görür, elçi sifəti ilə Nüşabənin sarayına gələn İskəndərin şahlıq qüruru ilə davranmasından onun elçi deyil, İsgəndərin özü olması qənaətinə gəlir. İskəndər elçi olduğunu sübuta yetirməyə çalışır, lakin Nüşabə şəklini göstərməklə onun İskəndər olduğunu sübuta yetirir. Nüşabə İskəndəri mehribanlıqla qarşılayır, özünü cəsarətli aparır və padşaha kəskin cavab verir:

Erkək tinətliyəm, olsam da qadın,
Hər işi bəllidir mənə dünyanın.
Mən də bir aslanam, düşünsən bir az,
Aslanın erkəyi, dişisi olmaz (9, s.212).

Nüşabənin tapşırığı ilə İskəndərin şərəfinə verilən ziyafətdə bütün əyanlara yemək verilir, İskəndərin qarşısına isə içərisində ləl, qızıl, dürr və yaqut olan bir xonça qoyulur. İskəndər daş-qaşın yeyilməli olmadığını deyəndə, Nüşabə ona ağıllı və məntiqli cavab verir:

Faydasız, yaramaz daş üçün
Bu qədər vuruşmaq, çarpışmaq neçün?
İndi ki, yeməyə yaramaz bu daş,
Dünyada onunla ucalarmı baş?

Dəyərsiz bir daş ki, olmayır yemək,
Onuncun bu qədər zəhmət nə gərək?
Deyilsənsə daşa pərəstiş edən,
Daşını yüngül et, yerində qal sən (9, s.217).

İskəndər Nüşabənin ağıllı cavablarına heyran qalır, fikri doğru olan, uzaqgörənliyi ilə seçilən bu türk hökmdarı ilə müqavilə bağlayaraq onun ölkəsinə toxunmur. Nüşabə ağlı, fərasəti, tədbiri ilə öz ölkəsini və xalqını İskəndərin istilasından qoruyur.

Göründüyü kimi, poemalarında poetik ifadəsini tapan türkçülük ideyaları Nizami Gəncəvini səkkiz yüz ildən artıqdır ki, yaşadır, şöhrətləndirir, konkret zamanın çərçivəsindən çıxararaq əbədiyyətə qovuşdurur, əbədiyaşar, qüdrətli bir sənətkara çevirir. Dahi şair "Xosrov və Şirin" poemasında:

Yüz il sonra sorsan bəs o hardadır,
Hər beyti səslənər burda, burdadır ! (5, s.362)-

misralarını yazmaqla poeziyasının onu dünya durduqca yaşadacağına inamını ifadə etmişdir.

## ƏDƏBİYYAT


1. *Azadə R.* Nizami Gəncəvi (Həyatı və sənəti). Bakı: Elm, 1979, 278 s.
2. *Əliyeva (Kəngərli) A.* Azərbaycan romantiklərinin yaradıcılığında türkçülük. Bakı: Elm, 2002, 386 s.
3. *Mikayılov Ş., Bəkirova A.* Ümumi orta təhsil məktəblərinin ədəbiyyat dərslərində təlim materialına yeni yanaşmanın əsas istiqamətləri / Metodik vəsait. Bakı: Araz, 2011, 169 s.
4. *Nizami Gəncəvi.* Sirlər xəzinəsi. Bakı: Yazıçı, 1981, 292 s.
5. *Nizami Gəncəvi.* Xosrov və Şirin. Bakı: Yazıçı, 1983, 359 s.
6. *Nizami Gəncəvi.* Xosrov və Şirin" (filoloji tərcümə). Bakı: Elm, 1981, 359 s.
7. *Nizami Gəncəvi.* Leyli və Məcnun. Bakı: Lider, 2004, 276 s.
8. *Nizami Gəncəvi.* Leyli və Məcnun (filoloji tərcümə). Bakı: Elm, 1981, 241 s.
9. *Nizami Gəncəvi.* İskəndərnamə. Bakı: Yazıçı, 1982, 254 s.
10. *Rəsulzadə M.Ə.* Əsərləri: 5 cilddə, II c., Bakı: Təhsil, 2014, 367 s.
11. *Səfərli Ə., Yusifov X.* Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı. Bakı: Maarif, 1982, 497 s.


Redaksiyaya daxil olub 27.04.2022

Pedaqoji Universitetin Xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası –2022, C.70, №2, s. 26-36
Transactions of Pedagogical University. Series of humanitarian, social, pedagogical and psychological sciences – 2022, V.70, №2, pp. 26-36

*UOT 82-09*

***G.A.Əliyeva***
*Bakı Slavyan Universiteti*
*gultekin392@mail.ru*

# MÜSTƏQİLLİK ƏRƏFƏSİ AZƏRBAYCAN SƏRBƏST ŞEİRİNİN YENİ MƏRHƏLƏSİ KİMİ

***Açar sözlər:*** *müstəqillik, sərbəst şeir, ərəfə, yeni mərhələ, Cəbrayılzadə, Mirseyid*

Məqalədə müstəqillik ərəfəsi sərbəst şeirin yeni mərhələ imkanları araşdırılır. Göstərilir ki, bu dövrdə poetik düşüncədə böyük dəyişikliklər baş verir, yeni bir siyasi era başlayır. Bu dəyişim sərbəst şeirə yeni simaların gəlməsi ilə baş verir. 70-80-ci illərdə yaradıcılığa başlayan Vaqif Cəbrayılzadə və Adil Mirseyid yaradıcılığında sərbəst şeirin imkanları daha da genişlənir və zənginləşir. V.Cəbrayılzadə və A.Mirseyid poeziyasında modernizm və postmodernizmin təzahürləri formalaşır. Bu şairlərin yaradıcılığı ilə həm də sərbəst şeirin poetik ifadə vasitrələri zənginləşmiş, ritm və intonasiyası dəyişmişdir. Sərbəst şeirin poetik dili, bədii təsvir və ifadə vasitələri dəyişdiyi kimi, obrazlar sistemi də dəyişir və yeniləşir. V.Cəbrayılzadənin sərbəst şeirləri poetik struktur baxımından yeni və orijinaldır; sanki şair sözlər, ifadələr və söz qrupları ilə ilmə toxuyur. V.Cəbrayılzadənin bir çox şeirlərində mövzu ilə forma vəhdətdə çıxış edir; onun poetik lirik dünyasındakı sehrli, magik düşüncə bu zaman tragik hadisə və predmetlərə baş vurur. A.Mirseyidin poeziyası modernizm cərəyanının ən yaxşı nümunələrini özündə ehtiva edir. Onun poeziyasında Qərb modernizmi Şərq təsviri sənət elementləri, eləcə də caz havası ilə zənginləşir.

***Г.А.Алиева***

## КАНУН НЕЗАВИСИМОСТИ КАК НОВЫЙ ЭТАП АЗЕРБАЙДЖАНСКОГО СВОБОДНОГО СТИХА

***Ключевые слова:*** *независимость, свободный стих, канун, новый этап, Джабраилзаде, Мирсеид*

В статье исследуются возможности нового этапа свободного стиха накануне независимости. Показано, что в этот период происходят большие изменения в поэтическом мышлении, начинается новая политическая эра. Эти изменения происходят с появлением новых лиц в свободном стихе. Вагиф Джабраилзаде и Адиль Мирсеид, начавшие свою творческую деятельность в 1970-1980 годах, расширили и обогатили возможности свободного стиха. Проявления модернизма и постмодернизма формируются в поэзии В.Джабраилзаде и А.Мирсеида. Творчество этих поэтов также обогатили средства поэтического выражения свободного стиха, изменили ритм и интонацию. По мере изменения поэтического языка, художественного описания

и средств выражения свободной поэзии меняется и система образов. Свободный стих В.Джебраилзаде нов и оригинален с точки зрения поэтической структуры, как будто поэт вяжет петли словами, фразами и словосочетаниями. Во многих стихотворениях В.Джебраилзаде форма соединена с темой; чудесная, волшебная мысль в его поэтическом лирическом мире затем превращается в трагические события. Поэзия Мирсеида содержит в себе лучшие образцы модернизма. В его поэзии западный модернизм обогащается элементами восточного изобразительного искусства, а также атмосферой джаза.

***G.A.Aliyeva***

## EVE OF INDEPENDENCE AS A NEW STAGE OF AZERBAIJANI FREE VERSE

***Keywords:*** *independence, free verse, eve, new stage, Jabrayilzadeh, Mirseyid*

The article explores the possibilities of a new stage of free verse on the eve of independence. It is shown that during this period great changes take place in poetic thought, a new political era begins.This change occurs with the arrival of new faces in free verse. Vagif Jabrayilzade and Adil Mirseyid who began their creative works in 1970-1980, expanded and enriched the possibilities of free verse. Manifestation of modernism and postmodernism are formed in the poetry of V.Jabrayilzade and A.Mirseyid. The works of these poets also enriched the means of poetic expression of free verse, changed the rhythm and intonation. Just as the poetic language of free verse, the means of artistic description and expression have changed, so has the system of images changed and renewed. V.Jabrayilzade's free verse are new and original in terms of poetic structure; as if the poetic knitting a loop with words,phrases and word groups. In many poems of V.Jabrayilzade the form is united with the theme; the miraculous, magical thought in his poetic lyrical world then turns into tragic events. Mirseyid's poetry contains the best examples of modernism in itself. In his poetry, Western modernism is enriched with elements of Eastern fine arts,also with the atmosphere of jazz.

Bu illərdə sərbəst şeirə gələn gənc şairlərin şeirləri təkcə semantik-ritmik cəhətdən fərqlənmirdi, həm də obrazlılıq, assosiativlik, emosionallıq cəhətdən mövcud poetik nümunələrdən əsaslı dərəcədə seçilirdi. Artıq onların qarşısında 60-cı illər sərbəst şeirinin məhsuldar təcrübəsi və Ə.Kərim faktoru vardı. Bu zaman milli sərbəst şeir özünün yeni mərhələsini yaşayırdı. Ə.Kərimdən sonra Ə.Salahzadə, V.Səmədoğlu, N.Həsənzadə, İ.İsmayılzadə kimi orijinal poetik yol keçən şairlər bu yolda ən yaxşı əsərlər yazmışdılar. Müstəqillik ərəfəsi sərbəst şeirini bütün parametrləri ilə yeni mərhələ adlandırmaq olar; təkcə ona görə yox ki, bu dövrdən xalqın siyasi təfəkküründə olduğu kimi, poetik düşüncəsində də böyük dəyişikliklər baş verir, yeni bir siyasi era başlayır. Çox zaman ədəbiyyatın inkişafını tarixi hadisələrlə

uyğunlaşdırmaq doğru nəticələrə gətirib çıxarmır. Ona görə ki, ötən əsrin 20-ci illərindən start götürən bu poetik forma mərhələ-mərhələ irəliyə doğru böyük bir yol keçmişdir. Müstəqillik dövründə isə sərbəst şeirin inlkişafını şərtləndirən amillərin çoxluğu və özünəməxsusluğu onu əvvəlki mərhələlərdən fərqləndirir. Bu dövrün sərbəst şeir xüsusiyyətlərini aşağıdakı şəkildə ümumiləşdirmək olar:

1. Dövrün sərbəst şeiri özündən əvvəlki ənənəni yeni mərhələdə inkişaf etdirir.

2. Sərbəst şeirin poetikası zənginləşir və yeniləşir.

3. Bu mərhələdə sərbəst şeiri bundan əvvəlki dövrdəkindən çox şairlər yazıb yaradır, sərbəst şeir axını baş verir və bu poetik forma, belə demək mümkünsə, bir qədər də kütləviləşir.

4. Sərbəst şeir fərdi üslubların çoxluğuna qovuşur.

5. Sərbəst şeirin dili, poetik formasında dəyişikliklər olur, danışıq nitqi və nəsr elementləri (epiklik) artır.

6. Poeziya siyasi təfəkkürdən gələn azadlığa qovuşduğu üçün sərbəst şeir də ideya və poetika cəhətdən azad prinsiplərlə yazılır, yəni Azərbaycan sərbəst şeiri Qərb poeziyasına bir qədər də yaxınlaşır.

7. Sərbəst şeirin poetik dili, bədii təsvir və ifadə vasitələri dəyişdiyi kimi, obrazlar sistemi də dəyişir və yeniləşir.

Altmışıncıların gətirdiyi yeni bədii estetik prinsiplər özündə 70-ciləri və 80-ciləri formalaşdırırdı. Doğrudur, bu dövrdə yazılan bəzi poetik parçalar yalnız təcrübə xarakteri daşıyır, poetik ömrü az olur. Eksperimentlər hər vaxt özünü doğrultmur, bu cür hallara indi özünü təsdiq etmiş o zamankı gənclərin yaradıcılığında daha çox rast gəlinir. Bunlardan biri müstəqillik ərəfəsində poeziyaya gəlmiş Vaqif Cəbrayılzadədir. O, ilk şeirlərini "Vaqif Cəbrayılzadə", daha sonra "Vaqif Bayatlı", bir qədər sonra "Vaqif Bayatlı Odər" imzaları ilə dərc etdirmişdir. Vaqif Cəbrayılzadə-Vaqif Bayatlı-Vaqif Bayatlı-Odər sərbəst şeirlərinin arasında struktur, ideya, semantika cəhətdən böyük dəyişikliklər var və bu dəyişikliklər sərbəst şeirin inkişaf yolunu da şərtləndirir. Tənqidçi E.Akimova da bu fikirdədir ki: "V.Bayatlı Odər 70-ci illərin sonunda ədəbiyyata gəlsə də, poetik istedadı daha çox 80-ci illərdən etibarən parlamağa, poeziyanın yenilik axtarışlarında Cəbrayılzadə imzası ilə sabitləşməyə başlamışdı" (1, s.298).

Vaqif Cəbrazyılzadə məhz yeni ədəbi təcrübə üzərində ədəbiyyata gəlmişdir. Bundan başqa ən mühüm faktorlardan biri onun Qərb fəlsəfəsini yaxşı bilməsi idi. O, sərbəst şeirin dünyada ən görkəmli nümayəndələri Ş.Bodler, P.Varlen, K.Apolliner, P.Eluar, O.Mandelştam, M.Svetayeva kimi məşhur simaların yaradıcılığı ilə yaxından maraqlanır və onlardan tərcümələr edirdi. Bu illərdə şairin maraq dairəsi üçün sərbəst şeirin imkanları da tamamilə buna imkan verirdi. Burası həqiqətdir ki, V.Cəbrayılzadənin ədəbiyyata gəlişi ilə sərbəst şeir sferası yalnız mövzu baxımından deyil, semantika, struktur,

poetik düşüncə sistemi ilə də dəyişdi və yeniləşdi. İlk şeirlərinin birində ("Dağlardan da güclü") "Nə var, nə var bu dünyada/bir bala sərçənin/bir adam üstündəki/göyüzündən böyük?!" söz qrupları ilə yeni poetik semantika gətirmək istəyini büruzə verdi. Sərbəst şeiri təşkil edən misralar, misraları təşkil edən bənzətmələr və təşbehlər yeni idi. "Bir isti yay gecəsi /yağmur kimi sevdilər məni", "Su kimi torpağa çəkildi getdi", "gilənar yağış", "yosun-yosun saçlar" və s. fikir və ifadə modelləri sərbəst şeirin modifikasiyasını dəyişməyə xidmət edirdi. Onun şeirlərində sirayətedici və təsirləndirici "ay işğına tutulmuş" mistik-lirik bir əhval-ruhiyyə var. "Bir bala çərçənin göyü" miniatür obrazı yeni şeirin gələcək obrazlarından birinə çevrildi. Şeirdə rəmzlərdən istifadə olunmuşdu; burada "...göy rəmzi, simvolik bir obraz idi və canlının ilkin, qeyri-məhdud yaşamaq imkanını göstərirdi. Bu, əslində azadlıq ideyasının poetik şəkildə ümumiləşdirilmiş, təbiətə fəlsəfi münasibəti əks etdirən bir məqam idi" (4, s.38).

V.Cəbrayılzadə ilk şeirilərindən başlayaraq xırda hisslərdən daha çox böyük problemlərdən yazdı. Onu düşündürən məsələləri poetik obrazlar vasitəsilə "danışdırmağı" bacardı. Müharibə və sülh problemlərini "Bir göyərçin qanadı altda", "Min illərin uşağı", "Ağ yaylıq ağ gündü oğul", "Bir ocaq başında" və s. şeirlərində poetik şəkldə ifadə edirdi. Ən əsası isə şair kiçik bir poetik bölgüdə bir lövhə yarada bilirdi. Bütün bunlar şairin poetik rəmzləri hesabına reallaşırdı. Sonrakı dövrdə də rəmzilik və simvollaşdırma V.Cəbrazyılzadə poeziyasının əsas xüsusiyyətlərindən biri olur və yaradıcılığının bütün mərhələlərində müəyyən dəyişikliklərlə boy göstərir. Bu simvollardan biri göy və göyüzüdür. Bu obrazlar V.Cəbrayılzadə şeirinin ən işlək obrazlarındandır. "Sevgisi göyərdi şairlərin", "göyləri bir şairlər", "bir yarpaq göyüzü", "gözlərində solan o göyüzü", "şairlərin göyü", "yaşaran göyün altında" və s. simvolik obrazlar yalnız bir şeirində işlənmiş obrazlarından idi. Rus şairi M.Sevetayevaya yazdığı "Bir yarpaq göyüzü yaşar" şeirində də bu obrazdan istifadə edərək "Bu dünyada torpağından böyük olur/ancaq şairlərin göyü..." fikri ilə assosiativ uyğunluq yarada bilmişdi. Ümumiyyətlə, V.Cəbrayılzadənin insan obrazı sanki göylə bağlıdır, onunla yaşayır və nəfəs alır. Onun şeirlərinin ana xəttində insan-torpaq-səma üçlüyü ən başlıca xətt olur. Lirik qəhrəmanın xəyalı daim "göyüzü"ndə hərlənir, bir məkanın əbədi sakini quş da səmadan ayrı yaşaya bilmir. İnsan torpaqsız yaşaya bilmədiyi kimi, quş da səmasız yaşaya bilməz. Şair isə insanı da quş kimi göyüzündə təsvir və təsəvvür edirdi:

Öz gözündən uzaq, -
yoruldu quşun qanadları
Endi göy,
qalxdı dəniz (3, s.23).

Şairin "Bu göyüzündən o yana Tanrıyla öyünən körpə su", "Bütün kainat, bütün göyüzü – Tanrının qapısı ağzı", "Göyüzünün peyğəmbərin ayağı altına gəlməyi", "Hərənin öz eşqi boyda göyə çevirir Allah", "Göyüzündən – Allahın ayağı altından nurdən dənləməyə", "Göyüzü yaşından ilahi doğma, üzü göz yaşəndan ilahi ətirli" və s. onlarla şeirlərində göyüzünə müraciət edilir, bəzən ideallaşdırılır, bəzən isə ondan canlı varlıq olaraq danışılır. "Göyüzü" şairin ən çox tapındığı məkan və ən çox müraciət etdiyi simvolik obrazlardandır. Bu cəhətdən "Göyüzünün peyğəmbərin ayağı altına gəlməyi" şeiri həm obrazların orijinallığı, həm də göyüzü semantikasının fərqliliyi cəhətdən olduqca zəngindir. Lirik qəhrəmanın toxuduğu "göyqurşağı" indi daha fərqli görünür, elə bil toxuduğu "göyqurşağı deyil, “nəsə /bu dünyada hər şeydən/daha gözəl, daha təzə,/həm elə bil görünür/həm də görünmür gözə". Lirik qəhrəman sanki başqa bir dünyanın adamıdı, burada hər şey Tanrıya bağlıdı:

Göyü toxuya-toxuya
O, eşqdən ağlayırdı,
O oxunmurdu daha,
ancaq bilmirdi göz yaşı
çoxdan çatıbdı Allaha,
həm də bilmirdi, Tanrı
Tanrıqurşağı deyibdi
toxuduğunun adına,
o qurtaracaq bir göyüzü,
enib gələcək göylərdən
onun ayağı altına (2, s.18).

V.Cəbrayılzadənin şeirlərində göyüzü ilə yanaşı, paralel çıxış edən obrazlardan biri də Allahdır. Onun sovet dövründə şeirlərində az-az adı çəkilsə də, sonrakı proseslərdə, demək olar, şeirlərinin bu və ya digər şəkildə hamısında Allah adı çəkilir, ona müraciət olunur. Lakin bu heç də Allahın obrazını yaratmaq iddiasından irəli gəlmir, şairin belə bir məqsədi də yoxdur. Şairin bütün şeirlərindəki lirik qəhrəman Allahı dərk etməyə çalışır, ona doğru yol gedir. Onun qəhrəmanları Allaha aparan yolu axtarır, arayır. "İlahi yol" şeirinin qəhrəmanı "Hər an üzü Allaha tək bir yol olar ancaq,/Allah görünməz, duyular ancaq", -deyimində olduğu kimi, ilahi qüvvəyə çatmağın yolunu arayır. Şairin bu şeirləri lirik qəhrəmanın (həm də şairin şəxsiyyətinin!) ruhi vəziyyətinin poetik detallaşdırılması kimi mənalanır. Bəzən şair cəmi bir neçə sətirdə ölüm, həyat, dünya ilə bağlı düşüncələrini qələmə alır və obraz yaradırdı. "Ölsəm, ölsəm, ölsəm,/ bir də min il sonra dirilsəm/bu dünyada hər şeyin sonunu bilsəm?!"-poetik bölgüsündə həyatın, dünyanın fəlsəfəsini açmağa çalışır.

V.Cəbrayılzadənin sərbəst şeirləri poetik struktur baxımından yeni və orijinaldır; sanki şair sözlər, ifadələr və söz qrupları ilə ilmə toxuyur. Buraya

nəyi isə əlavə etmək çətindir, yaxud buradan nəyi isə çıxarmaq, sökmək çətindir. Şeirlərində hadisə və predmetlərin ən gözlənilməz əlamətlərini bədii mətnə gətirir və tamamilə yeni bədii təsvir və ifadə vasitələrindən istifadə edir. Şeirdə lirik qəhrəmanın daxili hiss və həyəcanları son dərəcə emosional və ekspressiv ifadələrlə verilir. Cümləni təşkil edən və fikri ifadə edən söz vahidləri bir-birilə yalnız qrammatik cəhətdən birləşmir, həm də semantik cəhətdən ona bağlı olur. Sərbəst şeirlərin çoxunda lirik qəhrəmanın sualları, həyəcanları görünür. Bu şeirlər çox zaman müstəqil əsər təsiri bağışlayır. Bəzi şeirlərində nağıl elementlərinə çox yer verilir. "Başsız atlılar" şeirində də folklor motivləri üstünlük təşkil edir. "Gəlirəm bir bulağa,/qara göz olmağa/qara daş olmağa/bir cüt göyərçinə/qardaş olmağa", - sözlərində bütöv bir nağıl aurası mövcuddur.

V.Cəbrayılzadə şeirə yeni funkisonallıq gətirməyə çalışdı və şeirlərini də bu istiqamətdə yazmağa başladı. Onun fikrincə, şeir izah edilməməlidir, daha çox izah etməlidir. Başqa sözlə, şeir öz təsir gücü ilə şüuraltının işlədiyi və işlətdiyi dərinliklərə qədər bizə məlum dünyanı darmadağın edib yeni dünya açmalıdır. Şair şeirin missiyasını bu cür funksionallaşdırır: "Dünyada elə şeylər var/Gözlərin,/onları ancaq/Dünyada elə səslər var/qulaqlarını yumub eşidə bilərsən, onları ancaq/Dünyada elə sevgilər var/səninlə nəfəs alar,/sənin deyil ancaq,/onlar bir zamanlar,/sən bu dünyada olmayanda da,/səninlə bu dünyada yaşayacaq" (2, s.65). Bu cür mətnlər V.Bayatlı sərbəst şeirinə epik, nəsr elementləri gətirirdi.

V.Cəbrayılzadənin şeirlərində hər şey adilikdən çıxıb mistik bir auraya bürünür; həyat, dünya, ölüm ülvi duyğularla təsvir edilir. Hər bir sətir, yaxud sətir bölgüsünün özünün poetik məntiqi olur. Burada ümumiləşdirilmiş mühakimə olmur, fikir və hisslərin təbiiliyinə, ilkinliyinə müraciət olunur. Sərbəst şeirin strukturu V.Cəbrayılzadə yaradıcılığında yeni bir modelləşməyə çatır; poetik mətn fərqli bir harmoniya yaradır, sətirlər və poetik fikirlər arasında ölçüsüzlük yeni bir həddə çatır. Bu zaman poetik məntiqin necə tamamlanacağını əvvəlcədən kəsdirmək olmur. Şair hadisə və predmetlərin özünəməxsus əlaqə formalarını tapır və bunu təzadlı söz birləşmələri ilə estetik düşüncə qapsamı sərgiləyir. Şairin bədii mətni ardıcıl, davamlı, bəzən də süjetli şəkildə söylənilir. İlk şeirlərindən olan "Unutdular məni, unutdular" şeirində olduğu kimi. Şeirin ilk bölgüsündə şair "könül bağladığım adamlar,/sirr verib sirrini saxladığım adamlar,/yanlarında ağladığım adamlar, dünya gələ, gedə/çıxmaz yadımdan", -deyə informasiya hazırlığı görür. Sonrakı ikinci bölgü də bu şəkildə davam edir: "əlim əllərindən çəkilməmiş,/yıxıq könüllər tikilməmiş/qonur gözlərimə/qara torpaqlar tökülməmiş/unutdular, məni unutdular..." (3, s.26).

V.Cəbrayılzadənin bir çox şeirlərində mövzu ilə forma vəhdətdə çıxış edir; onun poetik lirik dünyasındakı sehrli, magik düşüncə bu zaman tragik

hadisə və predmetlərə baş vurur. Bəzən şeirlərinə qəhrəman olaraq bir tragik şəxsiyyəti seçir və böyük mətləblərdən söhbət açırdı. "Donurdu Hadinin əlləri" şeirinin baş qəhrəmanı da bu qəbildəndir. Böyük romantik şair Hadinin faciəli taleyini şeirinə qəhrəman seçməsi təsadüfi deyil. Lakin şair obraza ənənəvi kontekstdə yanaşmır, onun həyatının sadə bir detalı üzərində duraraq onun kimliyini bizə tanıdır. Hadini yetişdirən məmləkəti şair "Soyuğu başladı yetim bir məmləkətin,/Keçən ilin soyuğu qıçında/kasıb qaçıb gizlənmişdi/cındırının içində./Soyuq ayı dərisindən də keçirdi,/kasıbın cındırından keçmədi,\-Gözümüz aydın!/Kasıb soyuqdan küsüb!", - girişindən sonrakı bölgüdə də bu məmləkətdə baş verən hadisələr "kasıb-soyuq" simvolizmi davam edir. Belə zamanlarda ("hamı qaçıb gizlənəndə") "hətta şeytanın da ayağı" bu dünyadan çəkiləndə, "sınıq pəncərələrə tutulmuş qəzet kimi" dünyanın soyuğu şairlərə gəlir. Lakin nə etməli; şair sonrakı bölgüdə Hadinin donan əllərini burdan keçən atlının atının ağzında qızdırır, atlı atı qamçıladıqca atın ağzından çıxan od Hadinin əllərini qızdırır. Daha sonra Hadini ürəyinin yanından sata bilmədiyi şeirlərini çıxarıb şeirlərinə od vuran kimi təsvir edir; "orda əli ürəyinə dəydi,/orda ürəyi əlinin içində/əli ürəyinin içindəydi". Şair burada Hadinin ürəyi ilə xalq üçün yanan başqa bir şair – Sabirin ciyərini müqayisə edərək hər ikisini simvollaşdırır.

Müstəqillik ərəfəsində ədəbiyyata gəlmiş Adil Mirseyid 70-ci illərin sonu 80-ci illərin əvvəllərində öz poetik yolunu müəyyənləşdirir və tam olaraq fərdi üslubunu formalaşdırır. Lakin şairin nəşr edilən kitablarının hamısı 90-cı illərə aiddir. "Güzgüdəki adam" və "Bulud adam" şeirlər kitablarından sonra "Vernisaj adam", "Ay süvarisi", "Amor Fati" şeirlər kitabını nəşr etdirib. Bu müddətdə şeirlləri ingilis, fransız, rus, ispan, eston və s. dillərə tərcümə edilmişdir. Onun şeirləri mövzu və ideyasına görə istər özündən əvvəlki, istərsə də müasirlərinin şeirlərindən fərqlənir. Şair şeirlərində demək olar ki, durğu işarələrindən istifadə etmir, şeirdə səs quruluşuna, yeni və orijinal bədii təsvir və ifadə vasitələrinə böyük əhəmiyyət verir. Durğu işarərələrindən istifadə etmədiyi üçün şeirdə intonasiya əhəmiyyətli rol oynayır və durğu işarələrini intonasiya əvəz edir. Doxsanıncılar yaradıcılığında şeirlərinin xüsusi intonasiya təşkil etdiyi şairlərdən biri kimi, modernizmə, fransız rəssamlığına meyili aşkar görünür. Bu isə şairin həm də rəssam olmasından irəli gəlirdi. Yaradıcılığının modernizm xüsusiyyətini önə çəkən tənqidçi Tehran Əlişanoğlu şairin "üslub-fənd vasitələrindən maksimum bəhrələnməsi"ni yüksək qiymətləndirərək belə bir qənaətə gəlir: "...Adil Mirseyidi də milli modernizmin yükünü hər biri özgə cür çəkən (həmincə) şairlərimiz arasında ayıran, fərqli-seçimli edən məhz budur" (5, s.145-146).

A.Mirseyid rəssamlıq təhsili aldığından şeirlərində poetik üslubla rəssamlıq üslubunun qovuşuğu baş verir; onun şeirləri sərbəstdə olmasına baxmayraq, rəssamlıqda daha dərin kök salmış impressionizm, kubizm,

sürrealizm kimi avanqard rəssamlıq cərəyanlarının vəhdətinə malikdir. Şeirlərində tablo yaratmaq, portret qurmaq, insan peyzajları sərgiləmək başlıca yer tutur. Təsvir və ifadə vasitələri ilə rəssamlığın ifadə vasitələri qovuşuq şəkil alır. "Pəncərə ağac", "bulud bahar" epitetləri bir tablo yaradır. Rəsmlərin, fırçaların, rənglərin tənhalığı içində yaratdığı şair tablosu elə özünün tərcümeyi-halının ifadəsidir. "Bu otaqda rəsmlərin fırçaların tənhalığın içində" onu ona "düşmən edən bir faciə xaosu"nu təsvir edir. Hər şey tabloda olduğu kimidir – "divar saatının əqrəblərindən" "vaxt süzülür damcı damcı", "döşəmədə laxtalanır vaxtın qanı". Şair "uzun güzgüdə ömrü boşuna umudlarla yaşamış bir adam"ın taleyini yazır. Bu adam "yalnızlıqdan sərxoşdu bu axşam", "adama elə gəlir divar saatındadır canı", "saat susan kimi o da öləcək". Şair yenidən əvvəlki tabloya qayıdır və "yaradandan küsən" insanın portretini tamamlayır:

bahar bulud ağac pəncərə
tənhalıq rəsmlər fırçalar rənglər
vaxtın qanı damcı damcı damır güzgüyə
rənglərə fırçalara rəsmlərə ağ kətana
yaradandan küsmüşəm
məni xilas elə ana (6, s.25).

Adil Mirseyidin obrazları özünəməxsusdur, heç kiminkinə bənzəmir; bütöv bir obrazlar sistemidir. Bu obrazların görünüşü, düşüncəsi, təmsil olduğu düşüncə və qatlar tamamilə müxtəlifdir. Onun obrazlarında çağdaş dünyanın elementləri, xüsusiyyətləri var. Bu obrazlar milli ərazilər və xüsusiyyətlərlə yanaşı, dünyanın rənglərini özündə ehtiva edir; burada yapon, fransız, şərq düşüncəsi də özünü göstərir. Onun poetik obrazı özünü bir yerə bağlamır, dünya ilə yaşayır və nəfəs alır:

ah misirdə olaydım
çiməydim nil çayında
ordan məktub yazaydım
sənə yağmur ayında (6, s.78).

A.Mirseyidin poeziyası modernizm cərəyanının ən yaxşı nümunələrini özündə ehtiva edir. Azərbaycan ədəbiyyatında modernizmin başlanğıcı 60-cı illərdən başlasa da (60-cı illərdə ədəbiyyatda modernizm hadisəsi ilə bağlı tənqidçi Vaqif Yusiflinin fikirləri ilə biz də razılaşırıq (9, s.244-248), 90-cı illərdə, yəni müstəqillik dövründə yeni mərhələyə daxil olur. Əslində bu dövrdə modernizm bütün parametrləri ilə poeziyada məhz Adil Mirseyid yaradıcılığı ilə öz əskini tapır. V.Yusifli də bu fikirdədir ki: "...Adil Mirseyid modernist təmayülün yeni dalğasını poeziyaya gətirməkdə mühüm rol oynadı" (8, s.358). Burada bir məsələni də qeyd etmək lazımdır. A.Mirseyidi modernist şeirin nümayəndəsi olmaqla yanaşı, həm də modernizm ədəbi cərəyanının nümayəndəsi hesab etmək olar. Modernist şeirlə modernizmin fərqləri isə çoxdur. Əgər modernist şeir özündə novator xüsusiyyətləri əks etdirirsə,

modernizm novatorluqla yanaşı, yeni bir "izm"in izi ilə gedir və mahiyyət etibarilə modernist şeirdən fərqlənir. Azərbaycan poeziyasında modernist şeirin nümayəndələri çox olsa da, modernzim cərəyanının nümayəndələri çox azdır. Tənqidçi-ədəbiyyatşünas Elnarə Akimova 90-cı illərdə yeni bir "izm" axtarıcılığını təsdiq edərək yazır: "1990-cı illərdən başlayaraq milli poeziyamıza modernist cərəyanların tətbiqi prosesi başladı. Poeziyanın bütünlüklə ritmi, avazı, düşüncə yönü "izm" axtarıcılığına doğru istiqamətləndi. Kommunist partiyasının... sosialist realizmi metodunun rəsmi hökmfərmalığına bilmərrə son qoyulmasa da,.. bir-birindən fərqlənən müxtəlif yaradıcılıq metodu istiqamətini üzə çıxardı..." (1, s.388) Bu cəhətdən A.Mirseyidin yaradıcılığı modernizm cərəyanının xüsusiyyətlərinə cavab verir. Yaradıcılığa 80-ci illərdə gələn A.Mirseyidin şeirləri 90-cı illərdə milli poeziyanın ümumi axarından ayrılır və yeni bir stixiya ilə gedir. 90-cı illərin ictimai-siyasi təfəkkürdəki inkişafı poetik dərketmənin yollarını və istiqamətlərini də dəyişməyə yönəltdi. Modernizm yeni poetik formalardan və bədii təsvir və ifadə vasitələrdən istifadədən daha çox həm də fikir cərəyanıdır. Məsələn, Vaqif Səmədoğlunun "XXI əsrə keçəcəyik bir azdan, keçmək olmur Arazdan" poetik birləşməsində modernizmin ifadəsini görmək mümkündür. Fikrimizcə, tənqidçi Tehran Əlişanoğlu A.Mirseyidi V.Səmədoğlu, R.Rövşən, V.Bayatlı ilə yanaşı, modernizmin nümayəndəsi olaraq təqdim etməkdə haqlıdır. A.Mirseyidin poeziyasında modernizm forma ilə yanaşı, düşüncə faktorunda da üzə çıxır. Məsələ heç də şairin şeirlərində durğu işarələrindən istifadə etməməsindən getmir, fikrin, poetik düşüncənin modernizm fəlsəfəsini özündə əks etdirməsindən gedir. Onun şeirləri modernizm estetikasının stereotipləri ilə qurulur, fikrin ifadəsində bu ədəbi cərəyanın xüsusiyyətləri hər cəhətdən özünü göstərir. "IN MEMORIAM", "Kətan, yağlı boyalar", "Kompozisiyalar", "Sonatalar", "Kapriççolar, "Güzgüdəki adam" "Paris motivləri", "Vağzal eskizləri" və "Quma çəkilmiş rəsmlər" silsilə şeirlərində Avropa modernizminin yeni mərhələdə davamını görmək olur. Onun poeziyasında Qərb modernizmi Şərq təsviri sənət elementləri, eləcə də caz havası ilə zənginləşir. Onun modernizm cərəyanının nümayəndələri olan rəssamların əsərləri haqqında yazdığı "Modernizmin anatomiyası", "Remnato Quttuzonun qırmızı rəngi", "Dahinin qulağı... (Van Qoq və Qogen)" və s. məqalələri şairin özünün modernizm dünyasını da aydın göstərir. A.Mirseyid modernizmindəki bu qovuşuqluq poemalarınnın mövzu dairəsi, fəlsəfi-estetik dünyagörüşündə də görünür. "Caz", "Payız hannibalizmi, "Cariqulum vitae" (tərcümeyi-hal və yaxud ömür salnaməsi), "Klassikal müzik for meditation" (klassik musiqi ilə meditasiya) və "Metropol röyaları" poemalarında yeni poetik variasiyalardan istifadə olunur. Lirik qəhrəmanın "göydə ay yerdə ölüm//hara gedim mən gülüm" sualına "bir gün ölüm mələyim çıxacaq bir güzgüdən//eyni musiqini

dinləyəcəyik həmən", - deyə cavab verir. Şairin gəldiyi poetik qənaət orijinal poetik variasiyadır:

tenor saksafon
molbertdə yarımçıq bir kompozisyon
hansı röyada gizlənim ay çəkib aparmasın məni
söylə harda yuva qurum
yağmur yağmasın pəncərəmə
mən Pikassonun minotavrı kimiyəm bu gecə
bu son sevda son umud
qəhr oldum məni unut (7, s.76).

A.Mirseyidin sərbəst şeirləri struktur və ideya baxımından mürəkkəbdir, ideya miqyası geniş və hüdudsuzdur; poetik fikrin ifadəsində dilin bütün imkanlarından istifadə edilir. Modernizm cərəyanında olduğu kimi, A.Mirseyidin şeirlərində də dünyanın, həyatın dərk edilməsi prosesi təsvir edilir. Çox zaman bu dərketmədə həyatdan irəli gələn, yaxud şairin özünün yaratdığı fikrin, ideyanın qarışıqlığı, xaosu baş verir. Şairin poetik qəhrəmanı sanki böyük sarsıntı içərisində çabalayır, həyatın gərdişindən ümidsizləşir, qorxu hissi keçirir, poetik qəhrəmanları daim vəziyyətdən çıxış yolları axtarır. Bu şeirlərin hər birindən ölüm metafizik bir nəsnə kimi keçir. Allahından ölüm diləyən, lakin fikrini dəyişib hələ yaşamaq istəyən obrazın duasında şair ölümün insan üçün mahiyyətini açmağa çalışır: "səndən ölüm diləmişdim//allah mənə ölüm göndər demişdim" duasını "allah bağışla bəndəni//bu gecə öldürmə məni", - deyə dəyişməyə məcbur edən nədir? Şair burada poetik qəhrəmanın iki obrazını yaradır. O, Allahın bir quludur, ancaq eyni zamanda da şairdir. O, özü də bilir ki, həm qul, həm də şairdir. Bu iki bir-birinə zidd qütblər poetik qəhrəmanı düşünməyə vadar edir: "qulamsa şairliyimi al məndən//şairəmsə gəl məni qul eləmə".

Beləliklə, müstəqillik ərəfəsi Azərbaycan sərbəst şeirinin iki nümayəndəsinin yaradıcılığına nəzər saldıq. Bu şairlərin sonrakı yaradıcılığı da sərbəst şeirin inkişafında mühüm rol oynayır. Bu dövr sərbəst şeiri özünün poetikası baxımından yeniləşir. V.Cəbrayılzadə və A.Mirseyid poeziyasında modernizm və postmodernizmin təzahürləri formalaşır. Bu şairlərin yaradıcılığı ilə həm də sərbəst şeirin poetik ifadə vasitələri zənginləşmiş, ritm və intonasiyası dəyişmişdir.

**ƏDƏBİYYAT**

1. *Akimova E.* Düşüncə zamanı ədəbi tənqid diskurs kimi. Bakı: Elm və təhsil, 2019, 600 s.
2. *Bayatlı V.* Yupyumru bir eşq ilə. Bakı: Çinar-çap, 2008, 268 s.
3. *Cəbrayılzadə V.* Unudulacaq bütün sevdalar. Bakı: Yazıçı, 1986, 110 s.
4. *Ələkbərli N.* Ədəbiyyat və əbədiyyət. Bakı: Nurlan, 2009, 384 s.

5. *Əlişanoğlu T.* Şeirimizin gümüş dövründən fraqmentlər // Tənqid.net, 2011, №8, s.145-162
6. *Mirseyid A.* Bulud adam. Bakı: Vektor, 1996, 186 s.
7. *Mirseyid A.* Ay süvarisi. Bakı: Vektor, 2008,162 s.
8. *Yusifli V.* Poeziyanın yolları və illəri (1960-2000-ci illər). Bakı: Mütərcim, 2009, 404 s.
9. *Yusifli V.* Modernist şair Adil Mirseyid // Tənqid.net, 2012, №9, s.244-248

Redaksiyaya daxil olub 30.04.2022

*UOT 82.(091)*

***A.R.İbişov***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin Cəlilabad filialı*
*ibishov.59@mail.ru*

# BƏXTİYAR VAHABZADƏ LİRİKASINDA MƏNƏVİ DUYĞULARIN VƏ SÖZÜN YÜKSƏK QİYMƏTLƏNDİRİLMƏSİ

***Açar sözlər:*** *B.Vahabzadə, şair, lirika, poeziya, sənətkarlıq, novatorluq, zaman problemi, kosmos, sözün dəyəri, ana dili*

Məqalədə B.Vahabzadə poziyasının populyarlığının səbəbi, onun xalq həyatı və xalq şeiri ənənələri ilə qırılmaz tellərlə bağlılığı açıqlanılır. B.Vahabzadə ana dilini xalq ədəbiyyatından öyrənir, bu ədəbiyyat vasitəsilə onun rəngarəng ifadə imkanlarını, onun nələrə qadir olduğunu müəyyən edir. Çünki folklor ana dilinin bütün ifadə və çalarlarını özündə toplayır, ana dilinin əks-sədasına çevrilir.

B.Vahabzadənin ədəbiyyata lirik şair kimi gəlməsi onun bütün yaradıcılığı boyu başlıca əsərlərinin mahiyyətini müəyyən edən xüsusiyyət olaraq qalmışdır. Şairin sənətdə yolu predmet və hadisələrin, fikir və duyğuların zahiri əlamətlərindən mahiyyətinə, kökünə doğru gedən yoldur. O, həyatın adi görünən hadisələri və insanlar arasındakı sirli əlaqə və münasibətləri daha da mənimsəyir, bu barədə öz fikirlərini söyləyir**.**

B.Vahabzadənin lirikasında sözlərin şirinliyi özümüz də hiss etmədən bizim varlığımıza, mənəviyyatımıza süzülmüşdür. Bu şirin, bu doğma səslər, sözlər bizim yaddaşımıza sehirli nağıllar kimi həkk olunmuşdur.

***А.Р.Ибишов***

## ВЫСОКАЯ ОЦЕНКА ДУХОВНЫХ ЧУВСТВ И СЛОВ В ЛИРИКЕ БАХТИЯРА ВАГАБЗАДЕ

***Ключевые слова:*** *Б.Вагабзаде, поэт, лирика, поэзия, мастерство, новаторство, проблема времени, пространство, значение слова, родной язык*

В статье раскрывается причина популярности позиции Б.Вагабзаде, ее связь с жизнью народа и традициями народной поэзии. Б.Вагабзаде учит родной язык из народной литературы, через эту литературу он определяет ее возможности красочного выражения, на что он способен. Поскольку фольклор содержит все выражения и оттенки родного языка, он становится отголоском родного языка.

Приход Б.Вагабзаде в литературу как поэта-лирика оставался чертой, определявшей суть его основных произведений на протяжении всей его творческой деятельности. Творческий путь поэта – это путь от внешних признаков предметов и событий, мыслей и чувств к сущности и корню. Далее он

исследует, казалось бы, обычные события жизни и загадочные связи и отношения между людьми, и высказывает о них свое мнение.

В лирике Б.Вагабзаде сладость слов, сама того не осознавая, просачивается в наше бытие и духовность. Эти сладкие, родные звуки, эти слова пронизаны в нашу память как волшебные сказки.

***A.R.Ibishov***

## HIGH ASSESSMENT OF SPIRITUAL FEELINGS AND WORDS IN BAKHTIYAR VAHABZADE'S LYRICS

***Keywords:*** *B.Vahabzade, poet, lyric, poetry, craftsmanship, innovation, time problem, space, word value, mother tongue*

The article explains the reason for the popularity of B.Vahabzadeh's position, its connection with the life of the people and the traditions of folk poetry. B.Vahabzadeh learns his native language from folk literature, through this literature he determines its possibilities of colorful expression, what he is capable of. Because folklore contains all the expressions and shades of the mother tongue, it becomes an echo of the mother tongue.

B.Vahabzadeh's coming to literature as a lyric poet remained a feature that determined the essence of his main works throughout his career. The poet's path in art is the path from the outward signs of objects and events, thoughts and feelings to the essence and root. He further explores the seemingly ordinary events of life and the mysterious connections and relationships between people, and expresses his views on them.

In B.Vahabzadeh's lyrics, the sweetness of the words, without even realizing it, is filtered into our existence and spirituality. These sweet, native sounds, these words are engraved in our memory like magic tales.

Azərbaycan poeziyasının sənətkarlıq baxımından kamilləşməsində iki mühüm amil – şifahi xalq şeiri ənənələri və xalq musiqisi həlledici rol oynamışdır. B.Vahabzadənin poeziyasının populyarlığının bir səbəbi də onun xalq həyatı və xalq şeiri ənənələri ilə qırılmaz tellərlə bağlılığındadır.

B.Vahabzadənin istedadlı bir sənətkar kimi novatorluğu şəxsi istəyindən yox, həyata və hadisələrə poetik münasibətindən doğan təbii bir keyfiyyətdir. Ənənəvi mövzuları qələmə alanda da onun öz səsi, öz münasibətini dərhal gözə dəyir. O, məlum hadisələri şeir dilinə çevirərkən başqalarının işlətdiyi naxışları təkrar etmir.

Poetik mündəricə, fəal, yüksək mənəvi duyğuların təsdiqi B.Vahabzadənin lirikasının başlıca cəhətidir. "Məktəb şeirləri", "Uçuş", "Bir ürəkdə dörd fəsil" , "Əlvan çiçəklər", "Sahilə çıxmaq istəyirəm..." və s. şerlər müəllifin oxucuya yeni hiss, yeni fikir aşılamağa, oxucu üçün yeni bir həqiqət

açmağa, oxucunu yüksək milli və bəşəri ideallara ruhlandırmağa, onda estetik zövq tərbiyə etməyə çalışdığını göstərir.

Ürək insanın ruhi hallarını əks etdirən gözəgörünməz bir güzgüdür. Onun ən dərin guşələrini görmək üçün həssas ürəklə baxmaq lazımdır.

B.Vahabzadə şeirlərini əvvəldən axıradək çağlayan həssas bir ürəyin müşayiət etdiyini "Bir ürəkdə dörd fəsil" kitabının hər səhifəsində duyuruq. Bir gün, bəzən isə bircə saat ərzində insan qəlbi neçə dəfə tutub-açılır, dolub-boşalır, bir-birinə tamamilə zidd olan neçə-neçə duyğulara öz qoynunda yer verir.

Dörd fəsil yaşayır bir ildə torpaq,
Qış qış kimi gəlir, bahar bahartək.
Bir saat ərzində bəs nədən ancaq,
Dörd fəsil yaşayır bəzən bir ürək [5, s.166].

Doğrudan da müasir insan, onun parlaq əməlləri, düşüncə və duyğuları, bütün bunların mənbəyi olan insan qəlbi, bu qəlbin sevinci, təlatüm və tufanları B.Vahabzadənin lirikasının əsas materialını təşkil edir.

B.Vahabzadə predmet və hadisələrin mahiyyətinə nüfuz etməyi, onları dərindən mənalandırmağı və poeziyanın dilinə çevirməyi bacaran qüdrətli bir sənətkardır. Şairin yaradıcılığındakı bu mühüm keyfiyyətlər ilk baxışda diqqəti cəlb edir. Əziz adamlarımızı son mənzilə yola salarkən dərin hörmət əlaməti olaraq biz onları çiçəklərlə müşayiət edir, qəbirlərini də bir gülzara çeviririk. Şair Bəxtiyar Vahabzadə bu mərasimin özündə də insanı yüksəldən, onun gözəllik duyğularının intəhasızlığını təsdiq edən poetik bir əlamət görür.

Qəbirlərin üstünü qoy bəzəsin çiçəklər,
Göz yumulandan sonra gözəllikdən kam alıb
bəlkə doya ürəklər! [3, s.101].

"Barmaqlar" şeirində şairin lirik "Mən"i dünyanın uğursuz bir sonluğa yaxınlaşmasının qarşısını almaq, "düyməyə uzanan barmaq"ları kəsmək naminə insanları birliyə çağırır.

İnsan idrakının yaratdıqları,
İnsan idrakının hədəsindədir.
Gəlin, ey insanlar, birləşək barı,
Dünyanın taleyi məndə, səndədir [5, s.160].

Dünya üçün şəxsi məsuliyyət müasir fəlsəfi lirikanın əsas mövzusudur. Şeirin ümumi pafosu, poetik cövhəri, yığcam, təsirli fikir və emosiyası ilə dolu sətirləri oxucunu ümidlə yaşamağa və mübarizə yollarına çağırır.

Elmi nailiyyətlər bir tərəfdən insanda maddi-mənəvi rifah yaradırsa, digər tərəfdən insanı təbiət və təbiilik, planetin taleyi üçün təhlükə təşkil edə biləcək ifrat problemlər qarşısında qoyurdu.

İnsanlığın gələcəyi elmi-texniki kəşflərdən, hansı məqsədlərlə istifadə olunacağından bilavasitə asılı idi. Məsələn, məhz bu tərəfi ədəbiyyatda, o

cümlədən şeirdə vətəndaş narahatlığı, sənətkar fəallığı doğurmuş, insanın zaman qarşısında məsuliyyəti mövzusunu poeziyada ön plana çəkmişdi.

B.Vahabzadə insanın kosmosa uçuşu kimi ötən əsrin ən yeni hadisəsinin poetik həlli üçün, elmi-texniki tərəqqinin möcüzələrindən birini kəşfi üçün ən müasir şeir formasını, ənənəvi qoşma şəklini seçir və bununla da formanın özünün müəyyən dərəcədə yeniləşməsinə nail olurdu.

Allah deyə-deyə min il, milyon il
Dikildi insanın gözü göylərə.
Əvvəlcə xəyalı gəzdi səmanı,
Hələ getməsin də özü göylərə.

Yazdı zəkasının təntənəsini
İnsan ayağının izi göylərə,
Demə Allahımız zəhmətimizmiş,
Ucaltdı torpaqdan bizi göylərə [3, s.155].

Bu şeirdə ənənəvi forma müasir məzmunu mənimsəməyə maneçilik törətməmişdir. Poeziyada ənənə və novatorluq hər şeydən əvvəl forma və məzmun vəhdətinə nail olma problemidir. Bəxtiyar Vahabzadə kosmos mövzusu üçün qoşmanı seçmişdir və bununla da sübut etmişdir ki, qoşma ancaq ənənəvi məzmun üçün yararlı ola bilməz.

Forma axtarışı janr sahəsində də gedirdi. Xüsusilə şairlərin heca vəzninin yeni daxili imkanlarını açmaq, axtarmaq səyləri təqdirəlayiq bir təşəbbüs idi. Heca vəzninin ayrı-ayrı formalarını qəlib sxem halında yox, məzmunun tələbinə uyğun olaraq dəyişdirmək, yeni quruluşunu yaratmaq B.Vahabzadənin poeziyasında səmərəli bir təmayül halını almışdı.

B.Vahabzadə "Noe", "Latın dili" şeirində hecanın bölgü imkanlarını genişləndirmiş, ondördlüyün və onaltılığın sonuna hecanın yeddiliyini və dördlüyünü artırmaqla fikrin daha sərrast ifadəsinə nail olmuşdur.

B.Vahabzadənin "Neo" şeiri mahiyyəti, mövzusu etibarilə siyasi lirikanın gözəl nümünəsidir. Lakin burada şair publisist müraciət üslubunu yox, təsvir, mühakimə yolunu seçmişdir və buna görə də şeirin təsiri güclüdür, məzmunu yaddaqalandır.

Real həyat faktına istinad edib onu bədii ümumiləşdirmə səviyyəsinə qaldırmaq Bəxtiyar Vahabzadə poeziyasının əlamətdar xüsusiyyətlərindəndir. Bu cəhətləri nəzərə alıb qətiyyətlə demək olar ki, canlı həyat təcrübəsindən çıxış etdiyinə görə onun şeirlərində lirika ictimai məzmunludur, müəyyən fikirlərin təsirli, emosional təsdiqindən ibarətdir. Şairin Afrika və Asiya yazıçılarının Daşkənd müşavirəsinin təəssüratı ilə yazdığı "Neo" şeiri maraq doğurur.

Bəxtiyar Vahabzadənin "Neo" şeirindən aşağıdakı misralara diqqət edək:

Bir salonda iki qitə
Hər qitədə neçə millət....
Hər natiqin çiyinləri arxasında.
bir məmləkət
dayanıbdır...
Oyanıbdır
yuxusundan
Afrikanın, Asiyanın
qaralar [5, s.180].

B.Vahabzadənin yuxarıda qeyd etdiyimiz şeiri onaltılıq hecasındadır. Lakin şair fikri kəskinləşdirmək üçün axırıncı misranı parçalayıb iki müstəqil misra şəklində yazmışdır. Bu parçalanma əvvəlki misra ilə əsaslı şəkildə bağlıdır.

Gözlənilməz assosiasiya doğurmaq üçün bir-birinə əks olan anlayışların və sözlərin yanaşı işlədilməsi də B.Vahabzadənin poetikasına xas üsullardandır.

Şeir bir ürəyi isidə bilməz
Şairin ürəyi göz-göz olmasa [3, s.57].

Qeyd etdiyimiz nümunəyə şairin sadəcə oxucunu heyrətləndirmək səyi kimi baxmaq olmaz. Bu, təkcə fikri, əhval-ruhiyyəni qəsdən kəskinləşdirmək təzahürü deyil. Həmin obrazlar sistemi şairin əsrə, zamana münasibətini əks edir, onların bu və ya digər hadisələrin təsiri altında yaşadıqları hisslərin mürəkkəbliyini əyaniləşdirir.

**Müasirlik** sənətkarın novatorluğunun əsas amillərindən biridir. Müasir olmayan sənətkar novator ola bilmədiyi kimi, novator olmayan sənətin də müasir olması qeyri-mümkündür. Müasirlik və novatorluq ayrılmaz şəkildə əlaqəli, bir-biri ilə şərtlənən kateqoriyalardır. Şeirimizin altmışıncı illər mərhələsində Bəxtiyar Vahabzadə də ən yaxşı şairlər cərgəsində müasirliyi mövzu, məzmun və formada duya bilirdi.

B.Vahabzadənin "Anam haqqında şeirlər" lirik əsərində fikrin obrazlı ifadəsi yeni olmaqla bərabər, həm də öz gözələnilməzliyi, fəlsəfi ümumiləşdirmə dərinliyi ilə oxucunu ələ ala bilir.

Nədən məzarlıqda vaxt düşmür yada?
Demə o burda da, burda da varmış.
Ölülər məskəni məzarlıqda da
Zaman qədəm-qədəm addımlayırmış [3, s.20].

Görkəmli Azərbaycan tənqidçisi, professor Y.Qarayev bu şeir haqqında yazmışdır: "Qəbristanda məzar-məzar addımlayan zamanın hərəkətini şair cisimləşdirmiş və əyaniləşdirmişdir" [9, s.121].

B.Vahabzadənin "Sürət", "Nəsə çatmır" şeirlərindəki lirik "mən" zamanın qoyduğu vaxt ölçülərinə və hüdudlarına sığmır, əqli-mənəvi inkişafın bugünkü səviyyəsi ilə qənaətlənmir. Ona görə ki, insanın sonsuz istək və

arzular silsiləsini bir ömrün hüdudları daxilində həyata keçirmək qeyri-mümkündür.

Buna görə şairlər ömür üçün “sonsuzluq” kimi yeni bir vaxt vahidi tələb edirlər. Onun onsuzluğu ilə arzuların tükənməzliyi arasında bir mütənasiblik axtaran, lakin onu tapmayan həməsrimizin mənəvi arzusunu şair aşağıdakı misralarda diqqətimizə çatdırır:

Sonu olan ömrü istəmirəm mən,
Çıxaydım zaman çərçivəsindən [5, s.163].

Bəs zaman çərçivəsindən çıxmağın hansı sürət ölçüləri və imkanları mövcuddur? Qatar və təyyarə əsrin sürətindən geri qalır. Hətta işıq sürəti ömrün uzaq səfərləri üçün az yararlıdır. Belə olan halda şairin lirik “məni” fikir sürəti istəyir. Müasir Azərbaycan poeziyasında yeni lirik qəhrəmanın bu əhvali-ruhiyyəsinin B.Vahabzadə tərəfindən dəqiq ifadə edildiyini görürük.

Mən əsrin oğluyam,
əsrin.
Darıxmamaqçın mənə
Fikrimin sürətini verin! [5, s.163]

Bu motiv B.Vahabzadə lirikasında müxtəlif məzmunda inkişaf edən poetik ideyaların başlıcasıdır. Ümumiyyətlə, vaxt hissi, zaman problemi şairin poeziyasında düşüncələrinin əsas predmetidir. Əlbəttə, belə keyfiyyətin əks tərəfi də ola bilər.

Yəni poeziyada həddindən artıq fikrə, mühakiməyə meydan vermək şeiri estetik təravətdən məhrum edə bilər. B.Vahabzadənin lirikası belə ifrat mühakiməçilikdən uzaqdır. Bunun səbəbini akademik Məmməd Arif düzgün izah edərək şairin “Səni görürəm, səni” şeirinə münasibətdə yazır: şeirdə hicranın, ayrılığın məhəbbətdən ayrı olmadığını ifadə edən fikir “o qədər təzə olmasa da, təzə kimi səslənir, çünki səmimidir, şairin həyatla təmasından doğan bir qığılcımdır ki, şeir ocağı onunla od tutub alışır...” [7, s.110]

Kosmos mövzusunun şairin poeziyasında xalis, məhz insani mövzu planında inkişaf etməsi də şeirin maraqlı təmayüllərindən biri kimi diqqəti çəkir.

Kosmos mövzusu Bəxtiyar Vahabzadənin şeirində isə tamam başqa bir cəhətdən – insan ağlının möcüzəsini hiss etdirmək baxımından mənalıdır. İnsanın iki saat kosmosda olması hadisəsi, insan ağlının lirik-romantik tərənnümü şairin əlində bədii materiala çevrilmişdir.

Şair bu fakt üzərində öz poetik mühakimələrini davam etdirir, öz mühakimələrini ətə-qana doldurur:

Bizimçün yenidən göylər doğuldu,
İndi ayrı gözdə baxırıq ona.
Bir-iki saatın bir cavab oldu
Min alim ömrünün suallarına [3, s.155].

Yazıçı Mehdi Hüseyn doğru yazır ki, B.Vahabzadənin bu şeirində ümumiyyətlə insanın rəşadətindən, insanın gözəlliyindən və böyüklüyündən söhbət gedir [8, s.221].

Ümumiyyətlə, 1960-cı illərdə kosmos poeziya üçün yeni bir mövzu idi.

B.Vahabzadənin "Baş", "Antena", "Elm-əxlaq" və s. şeirlərində zamanın dramatizmini əks etdirə bilən kəskin fəlsəfi-əxlaqi ziddiyyətlər poetik təhlilə çevrilirdi. "Baş" şeirində ifadə olunan fikir istiqaməti bundan ibarətdir ki, təbiətin nailiyyətlərindən sui-istifadə edilərsə, bəşəriyyətin mənəvi həyatında bir hərc-mərclik başlanar, nadanlıqla dahilik bir-birini əvəz edər.

"Baş dəyişirsə", əqidə də dəyişər. Yaşamaq xatirinə məsləki dəyişmək, xırdalanmaq, cılızlaşmaq deməkdir. Odur ki, insan təbii bütövlüyünü və ahəngdarlığını qoruyub saxlamalıdır.

"Antena" şeirində ağlın hissi, duyğunu qabaqlaması kimi sırf poetik bir mövzu B.Vahabzadəni ilhama gətirmişdir. Əsrin əsəblərini titrədən antenalar insanın beynini soyuq məlumatlar və mühakimələr qutusuna çevirmişdir. Dərk etmək orqanı olan beyin insanların mənəvi əzabını duya bilməz. Şairi düşündürən bu məsələdir, o, çıxış yolu axtarır. Əzablı suallar içində çırpınan şair bu nəticəyə gəlir ki, ürəyin səlahiyyətli hakimiyyətinə nail olmaq lazımdır.

Dəmirdən yox,
amandır,
Duyğumuzun telindən
Bir antena qoyaq biz
Uzaqları bilirik,
Yaxınları duyaq biz [5, s.174].

B.Vahabzadə "Fəryad" şeirində vulkan nəticəsində məhv olmuş qədim Pompey şəhərinin xarabaları fonunda tarixlə müasirliyi qarşılaşdırır, bu hadisədən çıxış edərək müasirlərini nüvə müharibəsi problemi ətrafında düşünməyə çağırır. Şair göstərir ki, indi biz təbiətin qəzəbinə düçar olmuş bir şəhərin sakinlərinin daşlaşmış fəryadını, münasibətini düşünüb ah çəkirik.

Əgər dünya batırsa,
Bu dərdə ah çəkməyə
Bir nəfər qalacaqmı
Dağılmış yer üzündə? [3, s.301]

B.Vahabzadə ümumən sözə yüksək qiymət verir, məna hüdudsuzluğuna da, forma gözəlliyinə də nəzər salır. O, sözün şöhrətini, varlığını hər şeydən əvvəl, insanla bağlayır və belə bir maraqlı fikir irəli sürür

- Qurudan da çoxdur, bu dünyada su,
Bəs niyə dünyanın adı yer oldu?
İnsandır şöhrəti bütün aləmin,
O, yerdə yaşadı, yerdə doğuldu [3, s.218].

Şairin fikrincə, söz mülkü yüksək və əbədidir, ona görə söz mülkünə sahib olanlar da əbədi yaşayır. O, bu mənada Füzulini şahlar və sultanlarla müqayisə edir, onların gəldi-gedər olduğunu, şairin isə həmişəlik yaşadığını göstərir.

B.Vahabzadə onu da vurğulayır ki, şairlərin fikirləri, arzu və istəkləri onların sözlərində yaşayır. Söz ölmədiyi, əbədi olduğu üçün fikir də ölmür, yaşayır. Şair şeirdə sözü qoşalaşdırır, birini digəri ilə tərifləndirir, birini digəri üçün başlıca meyar hesab edir.

B.Vahabzadənin "Şairlər" şeirindəki aşağıdakı sətirlərə diqqət yetirək:

Şairlər, şairlər, bircə söz üstə
Sübhədək yaxdınız ürəyinizi...
Min əzab çəkdiniz siz yaşayırkən,
Ölüb yaşadınız sözlərinizdə [3, s.57].

Ədibin fikrincə, söz abidələri əsrlərin dolanbac yollarından keçə-keçə gəlib bütün nəsillərin malı olur, əhəmiyyətini də, gözəlliyini də saxlayır. Səs və söz abidələrinin daş abidələrindən fərqi ondadır ki, daş abidələr zamanın tufanları qarşısında əriyib vaxt keçdikcə öz təravətini itirir, səs və söz abidələri əksinə, zamandan-zamana daha da canlanır, yeniləşir və gözəlləşir. Bu abidələri duyan, hiss edən, yaşayan ürəklərdə yarandığı üçün zaman ona bəd üzünü göstərə bilmir.

B.Vahabzadə bədii sözün gücünü ümumən sözün potensial imkanları ilə bağlayır. O, belə hesab edir ki, sənətkarın sözdən istifadə bacarığı sözün rəng və çalarlarını üzə çıxarır, sözün fəaliyyətinə meydan verir. Lakin söz öz-özlüyündə böyük daxili imkanlara malikdir. Məhz buna görə də ədib sözə təkcə bir lüğət vahidi, bir nitq vahidi kimi yanaşmır, həm də hər iki baxımdan onu mənalandırır. Şairə görə, söz ürəkdən od, qandan rəng alır.

Söz fikrin, düşüncələrin ifadəsidir. İnsanın sözü onun aynadakı əksidir.

Beləliklə, sözün mahiyyəti, gücü, təsir dairəsi, söz və məna, söz və insan, söz və zaman münasibətləri sözün daxili strukturunu – məna çalarını müəyyən edir, bu əsasda sözün təsir istiqaməti formalaşır.

Güllə yarasına nə var?
Tez gedər,
Getməz söz yarası, eyham yarası [3, s.132].

Şair bu fikirdədir ki, söz insanın əqidəsi, əməli ilə həmahəng olanda daha da mənalanır, ürəyə yatır, təsiri də artır. Şairin sənətdə yolu predmet və hadisələrin, fikir və duyğuların zahiri əlamətlərindən mahiyyətinə, kökünə doğru gedən yoldur. Əsərdən əsərə o, həyatın adi görünən hadisələri və insanlar arasındakı əsrarlı əlaqə və münasibətləri daha da dərindən mənimsəyir, bu barədə öz fikirlərini söyləyir, həm də bu özünüifadə sənətkarlıqla səmimiyyətin ahəngdar vəhdətində təzahür edir. Onun şeirinin özünəməxsusluğu bir də məhz elə burada özünü göstərir.

Bu özünəməxsusluq onun poetik nümunələrində sözlə obrazlı şəkildə ifadəsini tapır. Şairin istək və arzuları başqadır: şairə görə, söz və əməl bir-birini təsdiqləməli, tamamlamalı, söz əməlin dili, əməl isə sözün poetik ifadəsinə çevrilməlidir.

"Həqiqət nazilər, amma üzülməz" ifadəsi Bəxtiyar Vahabzadə əsərlərində müxtəlif ifadə formalarında tez-tez səslənir. Şairin hər an böyük amalı insanın mənəvi keyfiyyətini müdafiə və təbliğ edir.

"Qaliley" şeirində şair keçmişlərə, tarixə qayıdır, haqq söz deyənlərin dəhşətli aqibətini, eyni zamanda həqiqətin, doğru sözün qüdrətini göstərir.

Dedi: -Yer fırlanır... inanmadılar,
Onlar ona güldü, o da onlara.
Dedi: - Həqiqətə şübhənizmi var?
Dedilər: - Haqq deyən çəkilir dara.

O dedi: - Fırlanır, fırlanacaq yer,
Buna gülsəniz də, gülməsiniz də.
Yerdən dərs götürüb ölənə qədər,
Məgər fırlanmırıq həyatda biz də?... [5, s.161]

B.Vahabzadənin müxtəlif illərdə ana, məktəb, ana dili mövzularında yazdığı şeirləri müəyyən estetik zövq aşılamaqla yanaşı, həm də ciddi tərbiyəvi əhəmiyyətə malikdir. "Ana", "Ağ saçlar", "İlk cığır", "Sənə üzük nə gərəkdir" əsərləri, xüsusən də "Ana dili" şeiri balalarımızın xalqa sədaqətli vətəndaşlar kimi tərbiyə olunub yetişdirilməsi məqsədini izləyir:

Bu dil bizim ruhumuz, eşqimiz, canımızdır,
Bu dil bir-birimizlə əhdi-peymanımızdır.
Bu dil tanıtmış bizə bu dünyada hər şeyi,
Bu dil əcdadımızın bizə miras verdiyi
Qiymətli xəzinədir... Onu gözlərimiztək
Qoruyub nəsillərə biz də hədiyyə verək! [3, s.8]

Beləliklə də, şair ana dilini xalqın mənəvi varlığının, tarixi yaddaşının daşıyıcısı olan qüdrətli bir nemət kimi mənalandırır, onu yaşatmağı, daha da zənginləşdirməyi hər bir vətən övladının qeyrəti, namus sınağı kimi mənalandırır.

B.Vahabzadə qəlb şairi, ürək sərrafıdır. Şəhər, kənd, ana təbiət də, hələlik səsimiz yetməyən naməlum kəhkəşanlar da Bəxtiyarın əsərlərində ilk növbədə lirik qəhrəman qəlbinin dərinliklərindədir. Əsrlər boyu ən qüdrətli sənətkarlar tərəfindən tərənnüm olunan təmiz insani hisslər, saf sevgi duyğuları bu qəhrəmanın ürəyindən su içərək yeni şeirlərə çevrilir. Şairin poetik düşüncələrinin, milli və bəşəri duyğularının bədii ifadəsi vətəndaşlıq qayəsinin, milli ruhunun bədii təsdiqi kimi səslənir.

## ƏDƏBİYYAT

1. Azərbaycan sovet ədəbiyyatı. Bakı: Maarif, 1988, 531 s.
2. *Arif M*. Seçilmiş əsərləri: 3 cilddə, I c., Bakı: Elm, 1967, 620 s.
3. Hüseyn M. Seçilmiş əsərləri: 3 cilddə, II c., Bakı: Avrasiya-press, 2005, 320 s.
4. *Qarayev Y.* "Anam haqqında şerlər"ə müqəddimə. Bakı, 1974, 298 s.
5. *Nəbiyev B*. Ədəbi düşüncələr. Bakı: Gənclik, 1971, 321 s.
6. *Vahabzadə B.* Seçilmiş əsərləri: 2 cilddə, I c., Bakı: Öndər, 2004, 360 s.
7. *Vahabzadə B.* Seçilmiş əsərləri. Bakı: Gənclik, 1967, 364 s.
8. *Vahabzadə B.* İnsan və zaman. Bakı: Azərnəşr, 1964, 328 s.
9. *Vahabzadə B.* Seçilmiş əsərləri. Bakı: Azərnəşr, 1974, 411 s.

Redaksiyaya daxil olub 17.03.2022

*UOT 81*

***X.B.Məmmədov, X.T.Çələbiyeva***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*kankishimamedov_53@mail.ru*
*xedicechelebi1970@gmail.com*

# "DUZ" KONSEPTLİ PAREMİOLOJİ VAHİDLƏRİN AZƏRBAYCAN VƏ RUS DİLLƏRİNDƏ MÜQAYİSƏLİ TİPOLOGİYASI

***Açar sözlər:*** *duz, duz-çörək, Azərbaycan folkloru, rus folkloru, paremioloji vahidlər, müqayisəli tipologiya*

Məqalədə "duz" leksemi ilə bağlı Azərbaycan və rus dillərində paremioloji vahidlər nəzərdən keçirilir. Qeyd edilir ki, denotativ, obrazlı və öyrədici xarakterə malik olan paremioloji vahidlərin hər bir xalqın unikal lüğət fondunun linqvistik mənzərəsinin əhatəli şəkildə xarakterizə edilməsində müstəsna əhəmiyyəti vardır. Araşdırmalar göstərir ki, mövzu ilə bağlı hər iki dildə kifayət qədər nümunələrə rast gəlmək mümkündür. Əlbəttə, bu yazıda adıçəkilən nümunələr bu mənzərəni tam əhatə etmir. Bu siyahını artırsaq, bəlkə də bir kitaba sığmaz. O da qeyd olunur ki, tarixdə duzun kəşf olunması bəşər sivilizasiyasının beşiklərindən biri hesab olunan Naxçıvanın adı ilə bağlı olduğuna görə bu bölgədə duzla bağlı yaranan əfsanələr, rəvayətlər, atalar sözləri və nağıllar digər bölgələrlə müqayisədə daha çoxdur. Sözsüz ki, bu nümunələrin çoxluğu bir tərəfdən duzun tarixinin bəşəriyyətin yaranma tarixi ilə üst-üstə düşdüyünü göstərirsə, digər səbəbi də ulularımızın bu müqəddəs nemətə olan hörmət və ehtiramı ilə bağlıdır. Bu araşdırmada bir çox rus atalar sözlərinin Azərbaycan dilinə tərcümə edilmiş variantları da əks olunmuşdur.

***Х.В.Мамедов, Х.Т.Челябиева***

# СРАВНИТЕЛЬНАЯ ТИПОЛОГИЯ ПАРЕМИОЛОГИЧЕСКИХ ЕДИНИЦ С КОНЦЕПТОМ "СОЛЬ" НА АЗЕРБАЙДЖАНСКОМ И РУССКОМ ЯЗЫКАХ

***Ключевые слова:*** *соль, соль-хлеб, азербайджанский фольклор, русский фольклор, паремиологические единицы, сравнительная типология*

В статье рассматриваются паремиологические единицы азербайджанского и русского языков, относящиеся к лексеме «соль». Отмечено, что паремиологические единицы денотативного, образного и образовательного характера имеют исключительное значение в комплексной характеристике языкового ландшафта уникальной лексики каждого народа. Исследования показывают, что есть много примеров на обоих языках по данной теме. Конечно, приведенные в статье примеры не полностью показывают эту картину. Если мы увеличим этот список, он может не уместиться в одной книге. Также отмечается, что открытие соли в истории связано с именем Нахичевана, одной из колыбели

человеческой цивилизации. В связи с этим, мифы, пословицы, легенды, сказки о соли в этом регионе более распространены, чем в других. Конечно, множество этих примеров, связано с одной стороны, с историей происхождения человечества, с другой стороны, это связано с уважением и почтением наших предков к этому священному благу. В этом исследовании отражены версии многих русских пословиц, переведенных на азербайджанский язык.

***Kh.B.Mammadov, Kh.T.Chalabiyeva***

## COMPARATIVE TYPOLOGY OF "SALT" CONCEPT PAREMIOLOGICAL UNITS IN DIFFERENT LANGUAGES

***Keywords:*** *salt, salt-bread, Azerbaijani folklore, Russian folklore, paremiological units, comparative typology*

The article deals with the paremiological units of the Azerbaijani and Russian languages, relating to the lexeme "salt". It is noted that paremiological units of denotative, figurative and educational nature are of exceptional importance in the complex characteristic of the linguistic landscape of the unique lexicon of each nation. Research shows that there are many examples in both languages on this topic. Of course, the examples given in the article do not fully show this picture. If we enlarge the list, it may not fit into one book. It is also noted that the discovery of salt in history is associated with the name of Nakhichevan, one of the cradles of human civilization. Because of this, myths, proverbs, legends, and tales about salt are more common in this region than in others. Of course, many of these examples, on the one hand, related to the history of the origin of mankind, on the other hand, it is related to the respect and reverence of our ancestors for this sacred good. This study reflects the versions of many Russian proverbs translated into Azerbaijani.

Etnomədəniyyətşünaslıq, regionşünaslıq, eləcə də dil və təfəkkür əlaqələri ilə bağlı problemlərin tədqiqi ilə əlaqədar olaraq paremioloji vahidlərin müxtəlif dillərdə müqayisəli tipologiyası öz prioritetliyini bu gün də qoruyub saxlayır. Əlbəttə, bu da mövzunun aktuallığından xəbər verir. Şumerlərdə də müqəddəs sayılıb səcdə edilmiş "duz" leksemi ilə bağlı Azərbaycan və rus dillərində paremioloji vahidlər nəzərdən keçirilir.

"Duz" sözü fars dilindəki “duzəx” sözündən götürülüb, mənası “cəhənnəm” deməkdir (1, s.92). Duzdan çox istifadə etmək ziyanlı olduğuna görə ona bu adı veriblər. "Duz" sözü həm də "yandıran", "yandırıcı" deməkdir (3, s.129). Doğrudan da çox istifadə edəndə duz adamı yandırır. Onu da qeyd edək ki, xörək duzu ilk dəfə mətbəxə türklər tərəfindən, daha dəqiq desək, Nuh peyğəmbərin nəvəsi Adəm oğullarından olan Türk xanın oğlu Tütək xan tərəfindən daxil edilmişdir. Belə deyirlər ki, çöldə kabab yeyərkən əlindəki ət tikəsi yerə düşmüş və o, öz qismətini götürüb yeyərkən tikənin çox dadlı olduğunu hiss etmiş və məlum olmuşdur ki, bu duzdur (4, s.35-36).

Tarixdə duzun kəşf olunması bəşər sivilizasiyasının, beşiklərindən biri hesab olunan Naxçıvanın adı ilə bağlı olduğuna görə bu bölgədə duzla bağlı yaranan əfsanələrin, rəvayətlərin, atalar sözlərinin və nağılların digər bölgələrlə müqayisədə daha çox olduğunun şahidi oluruq.

Azərbaycan dilində "duz" ilə bağlı paremioloji vahidləri iki qrupa bölmək olar:

1) Yalnız "duz" adı ilə bağlı vahidlər;

2) "Duz-çörək" komponenti ilə bağlı vahidlər.

Əvvəlcə "duz" adına olan paremioloji vahidlərə diqqət edək: Adamı tanımaq üçün onunla bir pud duz yemək lazımdır; Axşamdan duza gedən çox olar; Ana ilə qız, halva ilə duz; Aşın tamı duz ilə, adamı tanı söz ilə; Ata duzlu yeyib, oğlunu susuzluq yandırır; Az aşın duzu döylü; Balama nəzər edənin gözləri duz kimi çırtıldasın; Bir gün duz yediyin yerə qırx gün salam ver – Qırğızlarda da bu məsəl var, amma bir qədər fərqli: "Bir gün duz yediyin yerə min gün salam göndər". Mənası belədir: Yəni heç vaxt nankorluq etmə, sənə xeyir verən insanlara, yerlərə, məkanlara sədaqətli ol. Yediyinə hörmətlə yanaş. Sənə edilən yaxşılığı unutma və onun qədrini bil”; Dadsız aşa duz neyləsin, ağılsız başa söz neyləsin; Dəvəni toya cağırdılar. O da ağladı ki, məni ya Naxçıvana duza göndərirlər, ya da Bərgüşada – düyüyə – bu deyimdə “Bərgüşada” əvəzinə "Xanlığa - düyüyə" variantı da var; Dostsuz başım, duzsuz aşım; Duz duzdaxda, eşşək tövlədə, duz alan çağırır; Duz kəsən düz olar, duz kəsən namərd olmaz; Duz kimi hər aşa girər; Duz yalamış inək quyuya baxan kimi baxır; Duz yerə töküləndə savaş olar, gərək duzun üstünə qənd qoyasan; Duz yerinə buz yalama; Duza dönük çıxan murada çatmaz; Duzdan duzlu olma, baldan şirin; Duzdan ləziz, sudan əziz bir şey yoxdur; Duzla ağarsa da xörəyin-üzü, qaydasında gərək tökəsən duzu; Duzluğa düşən duz olar; Duzsuz adam üzsüz olar; Duzsuz adamdan düzlük görməzlər; Duzu ölçüb at, yağı yox; Duzu yeyib duzlağı batırma; Duzu yeyib, duz qabını/duzdanı sındırmazlar; Duzu yeyib, duzdağı bulıyan; Duzun üzünə gülümsəllər; Duzunu gimrik eyləyən çörəyini də fətir eylər - Gimrik - "dənəvər, iri dənəli" deməkdir; Əlimin/əlinin/çörəyin(m)in duzu yoxdur – bu deyim bir insanın başqalarına etdiyi yaxşılıqlar, qayğılar başa düşülməyəndə, ona qarşılıq verilməyəndə işlənilir; Ətə qurd düşəndə duz vurarlar, bəs duza qurd düşsə, nə edərlər; Hələ duza gedir – naşı, həyat çətinliklərini görməmiş adamlar haqqında deyilir; Hər zad dadıyla, dad da duzuyla; İnək duza aldanar, insan sözə; Qız şələsi/yükü, duz şələsi/yükü; Qızsız ana, duzsuz xörək; Naxçıvanın duzu, qızı, qarpızı - bu deyimdə Naxçıvan duzu tərifl ənir, həmçinin Naxçıvan qız-gəlininin gözəlliyinə, habelə burada dadlı qarpız yetişdirilməsinə işarə olunur; Ömrün duz dağına dönsün; Süfrəni necə düzəltsən də, duzsuz keçinə bilməzsən və s.

İndi isə "duz-çörək"lə bağlı folklorumuzda olan bəzi vahidlərə nəzər yetirək: Duz-çörək adamı tez tutar; Duz-çörək borcdur; Duz-çörək haqqını

bilməyən kor olar; Duz-çörək itməz; Duz-çörək, düz çörək; Duz-çörəyim haqqı; Duz-çörəyin qədrini bilmək gərək; Qazancını itir, malını itir, duz-çörəyi itirmə; İt də duz-çörəyi itirmir və s.

"Duzdan ləziz, sudan əziz bir şey yoxdu" atalar sözündən göründüyü kimi, duz qədər su da insanlara əzizdir. Yeri gəlmişkən, prof. B.Əhmədovun qeyd etdiyi kimi, "su" sözü əsli "cu" kimi olub, maye mənasını əks etdirir (1, 232).

Bəzi Azərbaycan atalar sözlərinin rusca qarşılıqlarına baxaq:

- Duzdan ləziz, sudan əziz bir şey yoxdur - *Без соли невкусно, а без хлеба несытно//Без хлеба несытно, а без соли несладко//Без хлеба смерть, без соли смех* (5, s.812);
- Duz kimi hər aşa girər - *Всюду вхож как медный грош//Наш пострел везде поспел, и не нужен, да досужен//Наш пострел везде поспел: к каждой бочке гвоздь* (2, s.134);
- Duz-çörək kəsmişik - *Мы с ним делили соль-хлеб (hərfi/букв)//Челом били на хлебе да на соли//Дай бог с нами хлеб-соль поводить* (5, s.451);
- Duz-çörək qədrini bilməyən itdən də pisdir - *Тот, кто не ценит соль-хлеб, хуже собаки (hərfi/букв)//И собака на того не лает, чей хлеб ест//И собака старое добро помнит;*
- Duz-çörəyin qədrini bilmək gərək - *Надо ценить соль-хлеб//Хлеб-соль не забывают// Хлеб да соль лихого не попустит* (2, 134);
- Çörəyinin duzu yoxdur - *Его/её хлеб без соли - о труде, который недооценивается;*
- Duz-çörəyə and içmək - *Клясться хлебом-солью*;
- Duz-çörəyi unutmaq - *Забывать хлеб-соль;*
- Duz-çörək yemək - *Водить хлеб-соль;*
- Duz-çörəyi itirmək - *Потерять хлеб-соль* (hərfi/букв);
- Duz-çörəyi tapdalamaq - *Растоптать хлеб-соль - забыть хлеб соль, быть неблагодарным* (hərfi/букв).

Göründüyü kimi, Azərbaycan dilində rus dilindən fərqli olaraq "çörək-duz" ("хлеб-соль") yox, "duz-çörək " ("соль-хлеб ") daha çox işlənir. Amma Azərbaycan dilində olduğu kimi, rus dilində də bəzən "duz" sözü "çörək" sözündən əvvəl gələ bilir: Без соли, без хлеба худая беседа; Без соли невкусно, а без хлеба несытно (5, s.378).

İndi isə bəzi Rus atalar sözlərinin Azərbaycan dilinə tərcümə edilmiş variantlarına nəzər yetirək:

| **Rus atalar sözləri** | **Azərbaycan dilindəki ekvivalenti** |
|---|---|
| Без денег торговать, как без соли хлебать | Duzsuz çörək yemək, pulsuz alver eləmək kimi bir şeydir |

| | |
|---|---|
| Без соли - вкуса нет | Duzsuz dad olmaz |
| Без соли - жизнь не проживешь | Duzsuz həyat yoxdur |
| Без соли и стол кривой | Duzsuz stol stol deyil |
| Без соли и хлеб не естся | Duzsuz çörəyin dadı olmaz |
| Без соли не вкусно, а без хлеба не сытно | Duzsuz dad olmaz, çörəksiz doymaq olmaz |
| Без соли не сладко, без хлеба не сытно | Duzsuz şirin olmaz, çörəksiz doymaq olmaz |
| Без соли хлеб не еда | Duzsuz çörək yemək deyil |
| Без соли хлеб, без соли смех | Duzsuz gülüş duzsuz çörək kimidir |
| Без соли хлебать, что немилого целовать | Duzsuz çörək yemək, istəmədiyin adamı öpmək kimi bir şeydir |
| Без соли, без хлеба – худа беседа | Əvvəl təam, sonra kəlam |
| Без соли, без хлеба за стол не садятся | Duzsuz və çörəksiz süfrəyə oturmazlar |
| Бывает, что и соль закисает | Duz da bəzən turşuyur |
| Боронись хлебом и солью | Çörəyin və duzun qədrini bil |
| Бросать соль в море | Duzu dənizə atmaq |
| В людях форсит, а дома без соли сидит//В людях чванится, а дома соли нет | İnsanların arasında forslanır/özünü öyür, amma evində duzu yoxdur |
| В мед соли не кладут | Bala duz vurmazlar |
| В пословицах нет лжи, в дождевой воде нет соли | Atalar sözündə yalan olmaz, yağış suyunda duz |
| Горсткой соли море не посолить | Bir ovuc duzla dənizi duzlu etmək olmaz |
| Грех куском макать в соль | Bir tikəni duza batırmaq günahdır |
| Дай Бог с нами хлеб-соль поводить | Allah duz-çörəyinizi bol eləsin |
| Друга узнать – вместе пуд (куль) соли съесть | Dostu tanımaq üçün onunla bir pud duz-çörək yemək lazımdır |
| Думай не думай, а лучше хлеба-соли не придумаешь | Nə qədər düşünürsən düşün, yenə də duz və çörəkdən yaxşı heç nə tapa bilməzsən |
| Еде нужна соль, но в меру | Yeməyə duzu ölçüsündə tökmək lazımdır |
| Женщина без стыдливости - пища без соли | Utanmaz qadın - duzsuz yemək kimidir |
| За хлебом-солью все добро | Duz və çörək arxasında hər şey yaxşıdır |

| | |
|---|---|
| За хлебом-солью всякая шутка хороша | Duz və çörək arxasında hər cür zarafat yaxşıdır |
| За хлеб-соль не платят, кроме спасиба | Duz-çörəyə görə "sağ ol" demək kifayət edər |
| Забыл мою хлеб-соль | Duz-çörəyi itirmək/unutmaq olmaz |
| Запас соли не просит | Borca duz istəməzlər |
| И старая кобыла до соли лакома | Qoca atın da duza ehtiyacı var |
| Кинь хлеб-соль назади, очутится впереди | Çörək itməz |
| Когда два повара, суп или пересолен или совсем без соли | İki aşpazın bişirdiyi yemək ya duzlu olar, ya da duzsuz |
| Кто ест соль, тот и воду пьет | Duz yeyən su içər |
| Кто торгует солью, у того и руки соленые | Duz satanın əli duzlu olar |
| Лень без соли обедает | Tənbəl ərindiyindən duzsuz nahar edər |
| Лень добра не делает, без соли обедает | Duzsuz yemək yeyən tənbəldən heç nə gözləmə |
| Лень без соли обедает, без причин спит | Tənbəlin işi duzsuz yemək və yatmaqdır |
| Лень и щи без соли хлебает | Tənbəl kələm şorbasını da duzsuz yeyər |
| Лишняя соль портит пищу | Artıq duz yeməyi korlayar |
| На выпрошенной соли не сваришь супа | Atılmış duzla şorba bişirə bilməzsiniz |
| От хлеба-соли и царь не отказывается | Çörəkdən və duzdan padşah da imtina etməz |
| От хлеба-соли не отказываются | Duz-çörəkdən imtina etməzlər |
| Отец мой жил не ровно: хлеб есть – так соли нет; соль есть – так хлеба нет; а я, добрый молодец, живу ровно: ни хлеба, ни соли | Atam yaxşı yaşamırdı - çörək tapanda duz tapmırdı, duz tapanda da çörək, mənimki isə Allaha qalıb - nə çörək tapıram, nə də duz |
| Пуд соли вместе съесть | Bir yerdə bir pud duz yemək |
| Разговоры большие, а хлеб-соль маленькие | Söz-söhbət çoxdur, amma ortada duz-çörək yoxdur |
| Речь без пословицы, что суп без соли | Atalar sözündən istifadə etməmək duzsuz yemək kimidir |
| С горя пьет: соли не на что купить | Qəmdən içir, duz almağa da pulu yoxdur |
| Хлеб-соль ешь, а правду режь | Duz-çörəyi düz kəsmək gərəkdir |

| | |
|---|---|
| Хлеб-соль кушай, а хозяина слушай | Duz-çörək ye, amma sahibinə qulaq as |
| Хлеб-соль кушал, а нас не послушал | Çörəyimizi, duzumuzu yedi, bizə qulaq asmadı |
| Хлеб-соль не бранит | Çörək və duz danılmaz |
| Хлеб-соль не бранится | Duz-çörək danılmaz |
| Человека узнаешь, когда с ним пуд соли съешь | Bir adamı onunla bir pud duz yeyəndən sonra tanıyırsan |
| Чтобы узнать человека, надо съесть с ним столько соли, сколько он весит | Bir insanı tanımaq üçün onun çəkisi qədər duz yemək lazımdır |
| Щепотка соли делает сахар слаще | Bir çimdik duz şəkəri də şirin edər |
| Пусть тебе / вами хлеб-соль боком выйдут! – Чтобы носом пошло; | Duz-çörək gözündən gəlsin//Duz-çörək tutsun səni/sizi |
| Клянусь хлебом и солью! | Duz-çörək haqqı |

Duz adına tapmacalar da var: Məni təkcə yeməzlər, mənsiz də xörək olmaz, yaxud

Nə burda var, nə orda,
Doludur Naxçıvanda.
Hər şeyi dadlandırır,
Halvanı bulandırır.

Yaxud, "O nədi ki, külüngdən, qılıncdan qorxmur, amma sudan qorxur?" (duz). Doğrudan da yeməyə duz vurmasan, dadı olmaz. "Halvanı bulandırır" isə o deməkdir ki, halvaya duz vurmurlar. Duzla bağlı bayatılarımız da kifayət qədər olmasa da vardır. Aşağıdakı bayatılara diqqət edək:

Naxçıvanın duz dağı,
Duz qayası, duz dağı.
Çəkdi yar sinəm üstə,
Dağ üstündən yüz dağı.

və ya

Naxçıvanın, duzu var,
Büllur kimi duzu var.
İki könül bir olsa,
Kimin ona sözü var.

Duz Azərbaycanda həm də xalqın inanc yeri, inamı olmuşdur. Ona görə də "Duz haqqı" ifadəsi bu gün də işlənməkdədir. Yaxud: "Duz yerə töküləndə

savaş olar, gərək duzun üstünə qənd qoyasan”. "Duz-şörək mənə qənim olsun" ifadəsi də insanların duza olan and-amanı ilə bağlıdır.

Beləliklə denotativ, obrazlı və öyrədici xarakterə malik olan paremioloji vahidlərin, hər bir xalqın unikal lüğət fondunun linqvistik mənzərəsinin əhatəli şəkildə xarakterizə edilməsində müstəsna əhəmiyyətə malik olduğunun şahidi oluruq. Əlbəttə, bu nümunələrin çoxluğu bir tərəfdən duzun tarixinin bəşəriyyətin yaranma tarixi ilə üst-üstə düşdüyünü göstərirsə, digər səbəbi də ulularımızın bu müqəddəs nemətə olan hörmət və ehtiramı ilə bağlıdır.

## ƏDƏBİYYAT


1. *Əhmədov B. Etimologiya lüğəti.* B.: Altun kitab, 2015, 288 s.
2. *Həmidov İ., Axundov B., Həmidova L.* Azərbaycanca-rusca, rusca-azərbaycanca atalar sözləri və zərbi məsəllər lüğəti. B., 2009, 560 s.
3. Klassik Azərbaycan ədəbiyyatında işlənən ərəb və fars sözləri lüğəti: 2 cilddə, I c., B., 2005, 416 s.
4. *Məmmədov X.* Folklorun elmi rişələri. Bakı:Elm və təhsil, 2019, 368 s.
5. *Даль В.* Пословицы русского народа. М.: Гос. Изд-во худежеств. литературы, 1957, 991 с.


Redaksiyaya daxil olub 15.03.2022

# İctimai elmlər

*UOT 069*

***E.O.Cabbarova***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki filialı*
*el_cabbarova1980@mail.ru*

## AZƏRBAYCANDA MUZEY İŞİNİN TƏŞKİLİ TARİXİ

***Açar sözlər:*** *muzey, tarix-diyarşünaslıq muzeyləri, xatirə muzeyləri, muzey-ekskursiya şöbəsi, maddi-mədəniyyət nümunələri, eksponat, qərar, sərəncam*

Məqalədə muzey işi tariximizə bir daha nəzər salınmış, Respublikamızda muzeylərin təşkil edilməsi prosesi haqqında ətraflı şəkildə məlumat verilmişdir. Həmçinin qeyd olunur ki, tarixin yetişdirdiyi ən nadir simalardan biri olan dahi, örnək şəxsiyyət, Ümummilli liderimiz Heydər Əliyev muzeylərə xüsusi diqqət və qayğı göstərmiş, məhz onun Azərbaycana rəhbərliyi dövründə muzey quruculuğu işində yeni bir səhifə açılmış, müxtəlif profilli muzeylər yaradılmış, muzeylərin geniş şəbəkəsinin, maddi-texniki bazasının inkişaf etdirilməsi, gözəl binalarda yerləşdirilməsi, inventar və avadanlıqlara təchiz edilməsi, uyğun eksponatlarla komplektləşdirilməsi, ixtisaslı və yüksək bilikli kadrlarla möhkəmləndirilməsinə böyük diqqət yetirilmişdir. Muzey işi sahəsində görülən bütün bu mühüm işlər isə nəticə etibarilə xalqımızın mədəni inkişafına, özünüdərk proseslərinin cərəyan etməsinə, ən əsası isə hər bir vətəndaşımızda vətənə məhəbbət, zəngin keçmişinə və bu gününə dərin hörmət hisslərinin yüksəlməsinə səbəb olmuşdur.

***Э.О.Джаббарова***

## ИСТОРИЯ ОРГАНИЗАЦИИ МУЗЕЙНОГО ДЕЛА В АЗЕРБАЙДЖАНЕ

***Ключевые слова:*** *музей, историко-краеведческие музеи, мемориальные музеи, музейно-экскурсионный отдел, материально-культурные образцы, экспонат, постановление, распоряжение*

В статье еще раз рассматривается история музейного дела, дается подробная информация о процессе организации музеев в нашей республике. Также отмечается, что наш общенациональный лидер Гейдар Алиев, являющийся одной из редчайших фигур истории, гениальной, образцовой личностью, уделял особое внимание и заботу музеям, именно в период его руководства в Азербайджане была открыта новая страница в музейном строительстве, созданы музеи различного профиля, широкая сеть музеев, большое внимание уделялось развитию материально-технической базы, размещению ее в красивых зданиях, оснащению ее инвентарем и оборудованием, оснащению подходящими экспонатами и усилению его специализированными и

высококвалифицированными кадрами. В итоге все эти важные работы в области музейного дела привели к культурному развитию нашего народа, процессу его самореализации, а самое главное, она пробудила в каждом нашем гражданине любовь к Родине, глубокое уважение к ее богатому прошлому и настоящему.

***E.O.Jabbarova***

## HISTORY OF ORGANIZATION OF MUSEUM WORK IN AZERBAIJAN

***Keywords:*** *museum, local history museums, memorial museums, museum-excursion department, material-cultural samples, exhibit, decision, order*

The article once again examines the history of museum work, provides detailed information about the process of organizing museums in our republic. It is also noted that our national leader Heydar Aliyev, who is one of the rarest figures in history, a brilliant, exemplary personality, paid special attention and care to museums, it was during his leadership that a new page in museum construction was opened in Azerbaijan, museums of various profiles were created, a wide a network of museums, much attention was paid to the development of the material and technical base, placing it in beautiful buildings, equipping it with inventory and equipment, equipping it with suitable exhibits and strengthening it with specialized and highly qualified personnel. As a result, all these important works in the field of museum business led to the cultural development of our people, the process of its self-realization, and most importantly, it awakened in each of our citizens love for the motherland, deep respect for its rich past and present.

### Giriş

Xalqımızın şanlı tarixinin, ulu keçmişinin və möhtəşəm mədəniyyətinin inkişaf yolunu əks etdirən Azərbaycan muzeyləri ölkəmizdə zəngin maddi-mədəni və mənəvi irsin qorunması və təbliğ olunması işində çox mühüm bir rol oynayır. Hələ qədim zamanlardan Azərbaycan hökmdarlarının saraylarında, məbədlərdə, həmçinin digər tikililərdə mədəniyyət tariximizin ən müxtəlif dövrlərinə aid qiymətli əşyalar və sənət nümunələri mühafizə edilmişdir. Tarixi və bədii əhəmiyyət daşıyan eksponatların mühüm bir qismi sonrakı dövrlərdə əsas etibarilə şəxsi kolleksiyalarda toplanmışdır. Həmçinin tarixən regionda baş vermiş geosiyasi hadisələr nəticəsində Azərbaycan mədəniyyətinin, elminin, incəsənətinin unikal nümunələri, yüksək estetik dəyərə malik əsil sənət möcüzələri ölkəmizdən aparılmış, dünyanın ən məşhur muzeylərini – Londonun Viktoriya və Albert, Britaniya muzeylərini, Nyu-Yorkun Metropoliten muzeyini, Moskvanın Tarix və Şərq xalqları sənəti muzeylərini, Silah palatasını, Parisdə Luvr muzeyini, İstanbulda Topqapı sarayını, Vyananın, Romanın, Berlinin, Tehranın, Sankt-Peterburqun muzeylərini bəzəmişdir.

Müasir dövrdə muzeylər qloballaşma və həyatın unifikasiyasının neqativ nəticələrinə qarşı dura bilən, tarixi, maddi və mədəni irsi qoruyan mədəniyyət

məbədi hesab edilir və əyani təbliğat vasitəsi kimi xüsusi əhəmiyyət kəsb edir. Respublikamızın müstəqilliyi şəraitində muzeylərimiz yeni fəaliyyət imkanları qazanmışdır. Belə ki, Azərbaycanı xarici aləmə tanıtmaq, xalqimızda zəngin keçmişinə və bu gününə dərin hörmət hissi formalaşdırmaq və onu vətənin tərəqqisi, müstəqilliyi və ərazi bütövlüyü naminə vətənpərvərliyə, fədakarlığa ruhlandırmaq baxımından muzeylərimiz müstəsna əhəmiyyət kəsb edir. Mövzunun aktuallığı və işlənmə zərurəti də məhz bundan irəli gəlir.

Azərbaycanda muzey işi tarixini araşdırarkən görürük ki, muzeylərimizin təşkil olunması prosesi 3 mərhələdə: 1920-1950, 1950-1980, 1980-2000-ci illərdə davam etmişdir.

XX əsrin əvvəllərinə qədər Azərbaycanda muzeylərin yaradılması işi geniş fəaliyyət dairəsində mövcud olmamışdır. Həmin dövrə qədər Azərbaycanda geniş xalq kütləsinin istifadə edə biləcəyi, xalqımızın tarixini, mədəniyyətini əks etdirən maddi-mədəniyyət nümunələrini özündə cəmləşdirən, mühafizə edən, elmi-tədqiqat xarakteri daşıyan muzeylərin yaradılması sahəsində əməli fəaliyyətə başlanılmamışdı. Azərbaycanın tarixini, ictimai-siyasi, mədəni həyatını əks etdirən qiymətli materiallar, maddi-mədəniyyət nümunələri ayrı-ayrı şəxslərin şəxsi kolleksiyalarında saxlanılırdı ki, bu da geniş xalq kütləsi üçün əlçatmaz idi. Bəzi sənədlərə əsasən Şamaxıda, Bakıda ayrı-ayrı şəxslər topladıqları maddi-mədəniyyət nümunələrini bəzi hallarda nümayiş etdirirdilər ki, bütün bunlar da elmi xarakter daşımırdı [13, s.23].

Həmçinin XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycan ərazisində aparılan arxeoloji qazıntılar zamanı üzə çıxarılmış qiymətli maddi-mədəniyyət nümunələrinin bir hissəsi əcnəbi arxeoloqlar tərəfindən ayrı-ayrı ölkələrin muzeylərinə verilərək bu ölkələrin muzeylərinin fondlarını zənginləşdirmiş, şəxsi kolleksiyaların bəzəyinə çevrilmişdir. Əlbəttə, bu nümunələrin ölkədən aparılmasının, itməsinin əsas səbəblərindən biri də burada onları toplayan və qoruyan mərkəzi muzeyin olmaması ilə bağlı olmuşdur. Ümumiyyətlə, Azərbaycanda muzeylərin yaradılmasının əsas təşəbbüsçüləri müəllimlər və ayrı-ayrı ziyalılar olmuşdur. Xalqımızın görkəmli maarifpərvər ziyalıları Azərbaycanın tarixinə, mədəniyyətinə dair arxeoloji, etnoqrafik, numizmatik materialları toplayıb səliqəyə salır, məktəblərdə, kitabxanalarda kiçik muzeylər yaradırdılar. Belə ki, XIX əsrin sonunda (1895) böyük Azərbaycan yazıçısı Cəlil Məmmədquluzadə tərəfindən müəllim işlədiyi Naxçıvanın Nehrəm kənd məktəbində ilk tarix-diyarşünaslıq muzeyi təşkil edilir. Muzeydə tariximizlə bağlı maddi-mədəniyyət nümunələri toplanmışdı. Cəlil Məmmədquluzadə bu sahədəki fəaliyyətinə görə hətta Xalq Məktəbləri müdriyyətinin təşəkkürünü də almışdır [14, s.104].

Respublikamızda yaradılan ilk rəsmi dövlət muzeyi – "İstiqlal" muzeyi olmuşdur. Bu muzey Xalq Cümhuriyyəti dövründə təşkil olunmuşdur ki, bu da xalqımızın mədəniyyət tarixində çox mühüm hadisə idi [7, s.83].

"İstiqlal" muzeyi 1919-cu il dekabrın 7-də Azərbaycan parlamentinin yaradılmasının ildönümü münasibətilə Parlamentin binasında açılmış, 1920-ci ilin aprelində Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra ləğv edilmişdir. Lakin yeni muzeylərin təşkilində mühüm rol oynamışdır [8, s.40].

1920-ci ilin iyununda Y.N.Staneviçin başçılığı altında Bakıda bir qrup müəllimin iştirakı ilə diyarşünas pedaqoqlarının dərnəyi yaradılmışdır [15, s,3]. Bu dərnəyin qarşısına muzey və ekskursiyalar, habelə diyarşünaslıq laboratoriyaları təşkil etmək vəzifəsi qoyulmuşdu. Y.N.Staneviçin rəhbərlik etdiyi Diyarşünaslıq dərnəyi həmin il iyunun 15-də Muzey-ekskursiya şöbəsi adı ilə Xalq Maarif Komissarlığının tərkibinə daxil edildi. [11, s.9].

Şöbənin ilk yığıncağında tədris xarakterli muzeyin təşkil olunması qərara alındı və bu muzey "Doğma diyarın tədris muzeyi" adlandırıldı. 1920-ci ilin iyulunda "İstiqlal" muzeyinin, habelə Pedaqoji muzeyin və bəzi məktəblərdə fəaliyyət göstərmiş diyarşünaslıq kabinetlərinin əşyaları bu muzeyə verildi. Təşkili dövründə məlum oldu ki, bu muzey yalnız tədris çərçivəsində məhdudlaşa bilməz. Buna görə də 1920-ci ilin oktyabrında muzey "Azərbaycan Dövlət Muzeyi" adlandırıldı. Muzey-ekskursiya şöbəsinin, habelə onun nəzdində ayrı-ayrı komissiyaların yaradılmasında, nəhayət, şöbənin Azərbaycan Dövlət Muzeyinə çevrilməsində "İstiqlal" muzeyinin yaradıcıları Məhəmməd Ağayev və Hüseyn Mirzəcamalov yaxından iştirak etmişlər [10, s.10].

Bu hadisədən sonra 1924-cü il sentyabrın 21-24-də Bakıda I Ümumazərbaycan diyarşünaslarının qurultayı keçirildi [16, s.3-14].

Qurultayın işində o dövrün məşhur professorları (И.Фигировски, Д.Головин, Е.Байбаков, И.Аммарин) və həvəskar diyarşünas muzey işçiləri iştirak etmişdilər. Qurultayda 30-dan çox mühazirə dinlənildi. Bu mühazirələrdə əsas yeri bir fikir tuturdu: "Azərbaycanda muzey işinin inkişafı üçün əsas diqqətin muzey kadrlarının yetişməsinə və muzey fondlarının yaranmasına yönəldilməsi". Həmçinin qurultayda bütün muzeylərlə elmi-diyarşünaslıq cəmiyyətləri (Azərbaycanda diyarşünaslıq cəmiyyətlərinin yaradılmasında rus alimlərinin və SSRİ Elmlər Akademiyasının Diyarşünaslıq Bürosunun üzvlərinin əsas rolu olmuşdur) arasında sıx əlaqənin yaradılması məsələsi də müzakirə olunur. Burada qəbul olunan bütün qərarların yerinə yetirilməsi üçün Azərbaycan Dövlət Muzeyinə tapşırıqlar verilir. Bundan sonra 1924-cü ildə Gəncədə [1, v.194], Qubada [2, v.15] və Lənkəranda [3,v.115], 1926-ci ildə Şəkidə [4, v.3], 1928-ci ildə isə Xanlar rayonunda tarix-diyarşünaslıq muzeyləri təşkil olunur. [4, v.1-2].

XX əsrin 40-cı illərindən başlayaraq Azərbaycanda xatirə muzeylərinin də təşkili prosesinə başlanılır. O xatirə muzeyləri ki, milli mədəniyyətimizin ayrılmaz bir hissəsi olub müxtəlif sahələri əhatə etməklə konkret şəxsiyyətin bu sahədəki xidmətlərini ictimaiyyətə nümayiş etdirir, eyni zamanda müəyyən zaman kəsiyində ölkənin yaşadığı ictimai siyasi və mədəni səviyyəli prosesləri maddi sübutlar və dəlililər əsasında göstərməyə çalışırlar. Xatirə muzeyləri həmçinin Azərbaycanın

yetirdiyi milli dühanın rolunu aşkar edir, xalqda özünün görkəmli tarixi şəxsiyyətlərinə qürur hissi formalaşdırır, onu mədəni tərəqqi naminə yeni uğurlara ruhlandırır.

Respublikamızda ilk xatirə muzeyi – Azərbaycan yazıçısı, maarifçisi, materialist filosofu və ictimai xadim, Azərbaycan dramaturgiyası və Azərbaycan ədəbiyyatında ədəbi tənqidin banisi Mirzə Fətəli Axundovun 1940-cı ildə Şəkidə yaradılan ev muzeyi olmuşdur. Belə ki, yazıçının zəngin bədii yaradıcılıq irsinin qorunub saxlanılması, gələcək nəsillərə çatdırılması məqsədilə Azərbaycan SSRİ Xalq Komissarları Sovetinin 1940-cı il 9 yanvar tarixli 37№li qərara əsasən M.F.Axundovun doğulduğu və uşaqlıq illərini keçirdiyi ev muzey elan olunmuşdur [6, s.150].

Həmçinin Respublikamızda 1934-cü ildə Azərbaycan Dövlət Teatr muzeyi [18], 1936-cı ildə Azərbaycan Milli İncəsənət muzeyi [19] və 1945-ci ildə isə N.Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı muzeyi təşkil olunur [20].

Ümumiyyətlə, Azərbaycanda muzey işinə qayğı və diqqət Ümummilli liderimiz Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Milli-mədəni sərvətlərimizin qorunub gələcək nəsillərə çatdırılması sahəsində muzeylərin rolunu layiqincə qiymətləndirən və yeni-yeni muzeylərin yaradılmasının təşəbbüskarı olan Ulu Öndər, dahi şəxsiyyət Heydər Əliyev demişdir: "Milli ənənələrimizin nə qədər dəyərli olduğunu dünyaya gələn yeni nəsillərə çatdırmaq və onları bu ənənələr əsasında tərbiyə etmək üçün muzeylər lazımdır" [21].

70-ci illər Azərbaycanda muzey şəbəkəsinin daha sürətli inkişafı ilə yadda qaldı. Bu da Azərbaycana rəhbərlik edən dahi Öndərimiz Heydər Əliyevin fəaliyyəti və şəxsi təşəbbüsü ilə bağlı idi. Bu dövrdə və sonrakı illərdə Azərbaycanın əksər görkəmli incəsənət və ədəbiyyat xadimlərinin xatirə muzeyləri açıldı. Xatirə muzeyləri Azərbaycan SSR KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin 1970-cı il iyun tarixli "Dahi ədəbiyyat və incəsənət xadimlərinin xatirəsinin əbədiləşdirilməsi haqqında" və Azərbaycan SSR Mədəniyyət Nazirliyinin 1979-cu il 31 oktyabr tarixli qərarına əsasən təşkil edilmişdir. Muzeylərin, o cümlədən xatirə muzeylərinin yaradılmasının zəruriliyi və məqsədəuyğunluğu Ulu Öndər Heydər Əliyevin fikri ilə bir daha təsdiqlənir: "Azərbaycan xatirəsini əbədiləşdirməyi vacib olan dahi şəxsiyyətlərlə şöhrətlənmişdir. Gələcək nəsillər onların həyat və yaradıcılığını bilmir. Bu sahədə müxtəlif vasitələrdən istifadə etmək lazımdır" [9, s.72].

1980-cı il yanvarın 4-də Azərbaycan Respublikasının rəhbər təşkilatının "Muzey işinə aid" qərarından sonra Respublikamızda muzey işi növbəti inkişaf yoluna qədəm qoyur [12, s.65]. Qərarda Respublikamızın bütün rayonlarında tarix-diyarşünaslıq muzeylərinin yaradılması əsas vəzifə kimi qarşıya məqsəd qoyulmuşdur. Bu qərara uyğun olaraq muzeylərə rəhbərlik işini təkmilləşdirmək, metodiki və praktiki köməyin səmərəsini artırmaq, ekspozisiyanın estetik səviyyəsini yüksəltmək və muzey sərvətlərinin uzunömürlülüyünü təmin etmək

üçün Respublika Mədəniyyət Nazirliyi aparatında muzeylər idarəsi, habelə muzey işi üzrə Respublika Elmi-Metodiki Mərkəzi, muzeylərin bədii tərtibatı üzrə muzey sərvətləri və xatirə əşyalarının elmi bərpa mərkəzləri yaradılmışdır. Qərardan sonra demək olar ki, respublikamızın bütün rayonlarında tarix-diyarşünaslıq muzeyləri təşkil edilir. Əgər 70-ci illərdə rayonlarımızda 16 tarix-diyarşünaslıq muzeyimiz var idisə, 1980-cı ildə onların sayı 24-ə, 1985-ci ildə isə 63-ə çatmışdı [17, s.373-386]. 1980-cı il 13 mayda Azərbaycan SSRİ Nazirlər Sovetinin 227 saylı qərarına əsasən Qəbələ rayonunda tarix-diyarşünaslıq muzeyi təşkil edilir [22].

Respublikamızda tarix diyarşünaslıq muzeylərinin yaradılması prosesinin zəruriliyi Ümummilli liderimiz, dahi Öndər Heydər Əliyevin 1982-ci ilin iyulunda muzey işçilərinin Respublika müşavirəsindəki çıxışında xüsusilə qeyd olunmuşdur: "Muzeylər mühüm mədəniyyət ocaqlarına, zəhmetkeşlərin, xüsusilə cavan nəslin ideya, siyasi və mədəni tərbiyəsinin mərkəzinə çevrilmişdir. Muzeylər söz yox ki, hər bir vətəndaşın öz diyarının, rayonunun, kəndinin tarixinə bələd olması üçün də vacibdir. Bir sözlə tarix-diyarşünaslıq muzeylərinin təşkil edilməsi zəruriliyi göz qabağındadır" [9, s.37] Göründüyü kimi, Dahi öndərimiz Heydər Əliyev Azərbaycanın hər bir vətəndaşına öz diyarının, rayonunun, hətta kəndinin belə tarixini bilməsini çox vacib hesab etmiş, buna görə də tarix-diyarşünaslıq muzeylərinin rolunu yüksək qiymətləndirmişdir. O, yenicə yaradılmış muzeylərlə də maraqlanır, imkan olduqca onların ekspozisiyası ilə də tanış olur, buna öz münasibətini bildirir, dəyərli, lazımi məsləhətlərini verirdi.

Heydər Əliyev muzey ekspozisiyalarını da yüksək qiymətləndirmiş və qeyd etmişdir ki, "məharətlə seçilmiş eksponatlar rayonun təkcə zəngin keçmişindən deyil, həm də bugünkü həyatından bəhs edir [9, s.41].

Ulu Öndər Heydər Əliyev bu illərdə Azərbaycan SSR Dövlət Nəşriyyat Komitəsinə, Mədəniyyət Nazirliyinə, Azərbaycan Elmlər Akademiyasına 1980-1982-ci illərdə Azərbaycan və rus dillərində muzey işinə aid xüsusi ədəbiyyatın nəşr edilməsi, qəzetlərdə, jurnallarda, radio və televiziyalarda muzey işinin aktual məsələlərini işıqlandırmaq, istehsalat, sənaye və təchizat müəssisəsi, təsviri incəsənət və muzeylər idarəsinin sifarişinə əsasən keyfiyyətli ekspozisiya avadanlığı hazırlayıb tarix-diyarşünaslıq muzeylərini təchiz etmək haqqında tapşırıqlar vermişdir. 90-cı illərdə də muzey quruculuğu sahəsində yeni uğurlara imza atılır. Belə ki, Azərbaycan Respublikası 1991-ci ilin oktyabrında öz müstəqilliyini elan etdikdən sonra muzey işi sahəsində də müstəqil siyasət yeritməyə başladı. Yeni muzeylərin yaradılması, muzey şəbəkəsinin yeni tələblərə uyğunlaşdırılması, mövcud ekspozisiyaların müasir tələblər baxımından təkmilləşdirilməsi, fondların zənginləşdirilməsi üzrə iş yeni mərhələyə qədəm qoydu. 1992-ci ilin iyulunda muzey işçilərinin müasir şəraitdə muzeylərin qarşısında duran vəzifələrə həsr olunmuş müşavirəsi keçirildi. Bu müşavirədə həmçinin Beynəlxalq Muzeylər Şurasının (ICOM) Azərbaycan Milli Komitəsi təsis edildi [23].

Çox təəssüflər olsun ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi Respublikamızda muzeylərin inkişafına ağır zərbə vurub. Erməni silahlı birləşmələri tərəfindən işğala məruz qalan ərazilərimizdəki tarix-memarlıq abidələri, xatirə-memorial komplekslər və muzey-qoruqlar dağıdılıb, muzey fondlarında mühafizə olunan qiymətli eksponatlar və sənət yadigarları bütünlüklə qarət edilib.

Ümummilli liderimiz Heydər Əliyev 1993-cü ildə respublikada hakimyyətə qayıtdıqdan sonra ağır iqtisadi çətinliklərə baxmayaraq, diqqət və qayğısını muzeylərdən də əsirgəmədi. 1993-cü ilin dekabrında Nazirlər Kabinetində muzey işçilərinin Respublika müşavirəsi keçirildi. Azərbaycan hökuməti 1994-cü ildə muzey işçilərinin müşavirəsinin tövsiyələrini nəzərə almaqla "Respublikada 21 muzey işinin vəziyyəti və onu yaxşılaşdırmaq tədbirləri haqqında" qərar qəbul etdi [10, s.20-21]. Bu qərar yeni mərhələdə Azərbaycanda muzey işinin inkişafı üçün yeni imkanlar yaratdı. Həmçinin Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə 2000-ci ilin mart ayında Milli Məclis Respublikamızda ilk dəfə olaraq "Muzeylər haqqında" Azərbaycan Respublikası Qanununu qəbul etdi [5, s.483-486].

Qanunun birinci maddəsində göstərilirdi ki, "Muzey" – maddi-mədəniyyət abidələrinin komplektləşdirilməsi, mühafizəsi, öyrənilməsi, kütləvi nümayişinin və təbliğinin həyata keçirildiyi mədəniyyət, elmi-tədqiqat müəssisədir; Muzey fondu – Azərbaycan Respublikası ərazisində fəaliyyət göstərən dövlət mülkiyyətində, bələdiyyə mülkiyyətində və xüsusi mülkiyyətdə olan muzeylərdə daimi saxlanılan, qorunan muzey əşyalarının və kolleksiyalarının məcmusu. Muzey fəaliyyəti – elmi, mədəni, mənəvi və estetik tələbatın ödənilməsi məqsədilə insan, onun fəaliyyəti və yaşayış mühiti haqqında, mədəniyyət sərvətlərinin və maddi nümunələrinin əldə edilməsi, qorunması, uçotu, tədqiqi, təbliği və nümayişinin təşkili əsas məsələ kimi muzeylər qarşısında qoymuşdur. Bu qanun ölkəmizdə muzeylərin fəaliyyətinin təşkilati, hüquqi, iqtisadi əsaslarını təşkil edir və bununla bağlı münasibətləri tənzimləyir.

Ümummilli liderimiz Heydər Əliyev tərəfindən verilən bu qanun yeni mərhələdə muzey işinin inkişafına təkan vermiş, nəticədə xalqımızın mədəni inkişafına gətirib çıxarmışdır.

Ulu Öndər Heydər Əliyevə ümumxalq məhəbbətinin təcəssümü olaraq 2005-ci ildən etibarən Respublikanın şəhər və rayonlarında onun həyat və fəaliyyətinə həsr olunmuş Heydər Əliyev muzeyləri yaradılmışdır. Hansı ki, bu muzeylər bu ulu şəxsiyyətin həyat və fəaliyyətini, xalqımızın tarixində və taleyində oynadığı rolu müxtəlif materiallar vasitəsilə vətəndaşlarımızın nəzərinə çatdırmaq baxımından müstəsna rol oynayır.

Ümummilli liderimiz Heydər Əliyev tərəfindən muzey işinin inkişafı üzrə müəyyən edilmiş prioritetlər bu gün Azərbaycan Respublikası Prezidenti İlham Əliyev və Heydər Əliyev Fondu tərəfindən uğurla davam etdirilir. Prezidentimiz

İlham Əliyev tərəfindən imzalanan fərman və sərəncamlar Azərbaycanda muzey işinin inkişafında növbəti uğur və nailiyyətlərin qazanılmasına səbəb olmuşdur.

"Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində İstiqlal muzeyinin yaradılması və İstiqlal abidəsinin ucaldılması haqqında" 2006-cı il 18 dekabr və "Müasir İncəsənət Muzeyinin yaradılması haqqında" 2006-cı il 19 dekabr tarixli sərəncamları ilə muzeylər şəbəkəsinin inkişafında nəzərəçarpan irəliləyiş əldə olunmuşdur [24].

Prezident İlham Əliyevin 2007-ci il 6 mart tarixli "Azərbaycanda muzey işinin yaxşılaşdırılması" haqqında sərəncamı milli-mədəni sərvətlərimizin qorunması, muzey fondlarında mühafizə olunan qiymətli eksponatlar və sənət yadigarlarının gələcək nəsillərə çatdırılması işində mühüm keyfiyyət dəyişikliyinə təkan vermişdir [25]. Həmçinin Prezidentimiz İlham Əliyevin 22 may 2009-cu il tarixli "Azərbaycanın regionlarında fəaliyyət göstərən muzeylərin müasir standartlara uyğun təmirinə, yeni avadanlıq və zəruri eksponatlarla təchizatına dair xüsusi tədbirlər planı"nın təsdiq edilməsi haqqında sərəncamı, habelə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən "Muzey işinə dair məqsədli Dövlət İnkişaf Proqramı (2008-2011-ci illər)"nın hazırlanması muzey işi sahəsində genişmiqyaslı tədbirlərin həyata keçirilməsinə imkan yaratmışdır [26].

Azərbaycan dövlətinin uğurlu mədəniyyət siyasəti nəticəsində son illər muzeylərimizin dünyanın nüfuzlu muzeyləri ilə əlaqələri genişlənib, bu sahədə beynəlxalq əməkdaşlıq sahəsində yeni nailiyyətlər əldə edilib. Hazırda ölkəmizdə 200-dən çox muzey fəaliyyət göstərir və onların ekspozisiyaları azərbaycançılıq məfkurəsini uğurla təbliğ edirlər [27].

Muzey işinə diqqət və qayğı Möhtərəm Prezidentimiz İlham Əliyevin daim diqqət mərkəzindədr. 44 günlük müharibədə qazandığımız uğurlar bu sahəyə də öz müsbət təsirini göstərmişdir. Belə ki, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qüdrətli Azərbaycan Ordusunun azad etdiyi Qarabağda vaxtilə mövcud olan muzeylərin və muzey filiallarının bərpası ilə əlaqədar hazırda nazirlikdə müvafiq işlər həyata keçirilir. Uzun illər erməni vandalizminə məruz qalan mədəniyyət məkanlarının bərpası ilə yanaşı, Qarabağda müasir tələblərə uyğun yeni muzeylər və digər mədəniyyət ocaqları da yaradılacaq. Düşməndən azad edilmiş ərazilərdə işğal muzeylərinin yaradılması da nəzərdə tutulur.

## Nəticə

Beləliklə, bu mövzu üzərində işlədikdən sonra bir daha o nəticəyə gəlirik ki, Azərbaycanda muzeylərin təşkil olunması prosesi özünəməxsus şəkildə inkişaf yolu keçmişdir. Azərbaycanda muzey işinin təşkili tarixindən bəhs edərkən xüsusilə qeyd olunmalıdır ki, məhz Ümummilli liderimiz, ulu Öndərimiz Heydər Əliyevin diqqət və qayğısı sayəsində Respublikamızda muzey quruculuğu işi inkişaf dinamikasının ən yüksək mərhələsinə daxil olmuş, bu sahədə də çox böyük nailiyyətlər, uğurlar qazanılmışdır.

Ümumiyyətlə, Azərbaycan muzeyləri xalqımızın qəhrəmanlıqlarla dolu olan həm tarixi keçmişini, həm də bu gününü, şanlı mədəniyyətini, bir sözlə, bütün ictimai-siyasi, sosial və mədəni həyatını özündə əks etdirən eksponatlarla əhatə olunan ən qiymətli xəzinəmizdir və bu xəzinənin qorunub saxlanılması və gələcək nəsillərə çatdırılması işi isə hər birimizin dövlətimiz qarşısında vətəndaşlıq borcudur.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Dövlət Arxivi. Fond 57, siy. 1, iş 655
2. Azərbaycan Respublikası Ədəbiyyat və İncəsənət Arxivi. Fond 569, siy.1, iş 8
3. Azərbaycan Respublikası Dövlət Arxivi. Fond 57, siy. 1, iş 75
4. Azərbaycan Respublikası Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Arxivi. Fond 4, siy. 1, iş 12
5. Azərbaycan Respublikasının Qanunlar külliyatı. Bakı: Qanun, 2002, 540 s.
6. Azərbaycan SSRİ Hökuməti qərarlarının xronoloji külliyatı (1936-1945). Bakı, 1961, 150 s.
7. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası: 2 cilddə, I c., Bakı, 2004, 440 s.
8. *Bayramov A.* Sənət, sənət məbədləri, sənət fədailəri. Bakı, 2015, 336 s.
9. *Bayramov A.* Heydər Əliyev və muzeylərimiz. Bakı, 1999, 90 s.
10. Bayramov A. Tariximiz, yaddaşımız, sərvətimiz. Bakı, 2007, 140 s.
11. *Hacıyeva Z.* Azərbaycan Dövlət Muzeyi. Bakı, 2012, 152 s.
12. *Əmirxanov S.* Azərbaycan muzeyşünaslığının sürətli inkişafı: 1970-1990-cı illər // Mədəni Maarif, 2011, № 7, s,65-69
13. *Казиев М.А.* Из истории музейного дела в Азербайджане // Изв. А.Н. Азерб.СССР. Серия общественных наук, 1960, №2, с.23-30
14. *Нифталиев М.Б.* Культурное строительство в Нахичеванской АССР (1921-1925). Кировабад, 1957, 104 с.
15. *Пахомов Е.А* Монетная коллекция АЗ.Гос.Музея. Т 1, 68, Баку: Изд. АЗ. Гос.Музея, 1928, 206 с.
16. Резолюции 1-го Всеазербайджанского краеведческого сьезда в Баку, 21-24 сентября 1924 г. Баку: Изд. ООИА, 1924, 14 с.
17. Народное хозяйство Азербайджанской ССР В 1988 г. Статический ежегодник. Баку, 1990, 424 с.
18. Azərbaycan Dövlət Teatr Muzeyi / https://az.wikipedia.org/wiki/
19. Azərbaycan Milli İncəsənət Muzeyi / http://nationalartmuseum.az/about
20. Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi / http://www.nizamimuseum.az/
21. Gənclərin təlim-tərbiyəsində muzeylər xüsusi əhəmiyyətə malikdir / http://medeniyyet.nakhchivan.az/mtbuat-xidmti/xbrlr/1263-2020-05-16-08-58-57.html
22. Qəbələ Rayon Tarix-Diyarşünaslıq muzeyi / https://az.wikipedia.org/wiki

23. Beynəlxalq Muzeylər Şurası (ICOM) Azərbaycan Milli Komitəsi fəaliyyətini genişləndirir /http://old.xalqqazeti.com/az/news/culture/59050
24. Azərbaycanda muzey işinin yaxşılaşdırılması haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı / http://anl.az/down/medeniyyet2007/mart/medeniyyet2007_mart_110.htm
25. İlham Əliyev Azərbaycan Milli İncəsənət Muzeyinin yeni korpusunun açılışında iştirak etmişdir / https://president.az/az/articles/view/8399
26. Azərbaycan muzeyləri milli özünəməxsusluğumuzu dünyaya təcəssüm etdirir / http://anl.az/down/meqale/azerbaycan/2014/may/370652.htm
27. Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə yaradılmış muzeylər milli özünəməxsusluğumuzu dünyaya təcəssüm etdirir / http://nizamimuseum.az/az/news/2140

Redaksiyaya daxil olub 28.03.2022

*УДК 327*

***Л.А.Джафарова***
*Институт Права и Прав Человека НАНА*
*lala-j@hotmail.com*

# ГЛОБАЛЬНОЕ УПРАВЛЕНИЕ ЗДРАВООХРАНЕНИЕМ

***Ключевые слова****: политика, международные отношения, институт Президенства, глобальное здоровье, внешняя политика, глобальное управление (менеджмент)*

В статье анализируется относительное новое научное направление, находящееся на стыке двух дисциплин: политологии и медицины (здравоохранения). Автор рассматривает вопросы, происходящие на глобальном уровне на фоне пандемии коронавируса и проводит анализ значения политического фактора. В статье Глобальное управление здравоохранением (менеджмент) изучается как политический процесс с центральной ролью Института Президенства на примере успешной внешнеполитической деятельности и дипломатии Президента АР Ильхама Алиева. Пандемия коронавируса, являющаяся глобальной угрозой, дала новый импульс для развития научной мысли в контексте политики по противодействию ей. Она доказала, что даже вопросы сугубо медицинского характера в глобальных масштабах имеют политические аспекты, изучение которых представляет собой одно из актуальных направлений в современной науке.

***L.A.Cəfərova***

# QLOBAL SƏHİYYƏ İDARƏÇİLİYİ

***Açar sözlər****: siyasət, beynəlxalq münasibətlər, Prezidentlik institutu, qlobal səhiyyə, xarici siyasət, qlobal idarəetmə (menecment).*

Məqalədə iki fənnin – politologiya və tibb (səhiyyə) – kəsişməsində yerləşən nisbətən yeni elmi istiqamət təhlil edilir. Müəllif qlobal səviyyədə baş verən hadisələri koronavirus pandemiyası fonunda araşdırır və siyasi amillərin əhəmiyyətini təhlil edir. Məqalədə Qlobal Səhiyyə İdarəçiliyi (menecment) Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin uğurlu xarici siyasəti və diplomatiyası timsalında Prezidentlik İnstitutunun mərkəzi roluna malik siyasi proses kimi araşdırılır. Qlobal təhlükə olan koronavirus pandemiyası ona qarşı mübarizənin siyasəti kontekstində elmi fikrin inkişafına yeni təkan verib. Hadisələr onu sübut etdi ki, hətta qlobal miqyasda sırf tibbi xarakterli məsələlərin də siyasi aspektləri var ki, onların öyrənilməsi müasir elmdə aktual sahələrdən biridir.

***L.A.Jafarova***

## GLOBAL HEALTH GOVERNANCE

***Keywords**: politics, international relations, Presidency institution, global health, foreign policy, global governance (management)*

The article analyzes a relatively new scientific direction, located at the intersection of two disciplines: political science and medicine (health). The author examines the issues taking place at the global level against the background of the coronavirus pandemic and analyzes the significance of the political factors. The article studies Global Health Governance (management) as a political process with the central role of the Presidency Institute on the example of the successful foreign policy and diplomacy of the President of the Republic of Azerbaijan Ilham Aliyev. The coronavirus pandemic, which is a global threat, has given a new impetus to the development of scientific thought in the context of policies to counter it. It proved that even issues of a purely medical nature on a global scale have political aspects, the study of which is one of the topical areas in modern science.

События, происходящие в мировой политике, указывают на то, что вопросы, связанные со здравоохранением, привлекают все большее внимание. Особенно острым данный вопрос оказался на фоне пандемии коронавируса – COVID-19. Именно в этот период наметилось четкое обоснование тесной связи политических процессов и здравоохранения. Более того, ученые стали все больше говорить о научном направлении «Глобальное управление здравоохранением» (с англ. Global health governance). Хотя само появление данного направления не является новым, повышенное к нему внимание именно сейчас достаточно обосновано. Например, для Азербайджана успешная внешняя политика, возглавляемая Президентом Ильхамом Алиевым, позволила на фоне пандемии стать первой страной на Южном Кавказе и одной из первых в мире, получившей вакцины и начавшей кампанию по вакцинации [1].

Формирование здравоохранительной политики не только внутри страны, но и на международном уровне имеет тесную связь с политикой руководства различных стран. В данном контексте, говоря об Азербайджане необходимо подчеркнуть лидирующее значение Института Президентства. Так, именно по инициативе Президента АР И.Г.Алиева от имени государств-членов Движения неприсоединения в декабре 2020 года, была не просто созвана Специальная сессия Генеральной ассамблеи ООН, посвященная борьбе с пандемией COVID-19, но также в марте и декабре прошлого года Советом по правам человека и Генеральной Ассамблеей ООН была принята резолюция «Об обеспечения равной, своевременной и универсальной доступности вакцин по приемлемым ценам для всех стран в борьбе с

пандемией COVID-19» [2, 3]. Президент АР неоднократно выступал на различных международных мероприятиях, указывая на необходимость обеспечения справедливости распределения вакцин на глобальном уровне и необходимости недопущения «вакцинного национализма». Более того, в рамках Всемирной Организации Здравоохранения (ВОЗ) Азербайджан и сам неоднократно посылал другим странам гуманитарную помощь. Например, в июле 2021 года Азербайджаном были доставлены по 40 тысяч доз вакцины AstraZeneca в Таджикистан и Боснию и Герцеговину. Все это говорит об активном и успешном вовлечении нашей страны в глобальные процессы в области здравоохранения.

В контексте глобального здравоохранения, различные страны взаимодействуют, исходя из своих национальных интересов. Поэтому на фоне пандемии коронавируса мы, с одной стороны, могли наблюдать консолидацию усилий стран в борьбе против невидимого «общего врага» - вируса; но с другой стороны, страны, пытаясь защитить свои страны, действовали не как союзники, а скорее, как противоборствующие стороны. Особенно наглядно этот процесс проявился при распределении вакцин. Страны с высоким уровнем экономического развития скупали вакцины даже в большем, чем необходимо, количестве, оставив страны с низким уровнем экономического развития, фактически без защиты.

В глобальных вопросах необходима мобилизация солидарности между странами. Однако, не всегда солидарность превалирует над политическими интересами. В глобальных здравоохранительных вопросах, несмотря на наличие множества инструментов, таких как Всеобщая Декларация о правах человека ООН, не существует политических институтов, устанавливающих или обеспечивающих соблюдение, указанных в них принципов. Именно поэтому, некоторые авторы указывают, что интенсификация трансграничных «потоков людей, товаров, услуг и идей» в современном мире меняющихся рисков и возможностей для здоровья, способны влиять на его детерминанты [4]. Т.е. здоровье населения не может быть обеспечено, как считают авторы, только за счет национальных действий. Действительно, пандемия коронавируса показала, что в глобализирующемся мире невозможно обеспечить эффективную борьбу с угрозами общественному здоровью. Именно по этой причине ученые стали указывать на необходимость формирования «процесса управления», т.е. координации национальных действий в вопросах здравоохранения, особенно когда речь идет об инфекционных заболеваниях.

Если говорить о Целях Устойчивого Глобального развития [5], принятых ООН, то необходимо формирование общей стратегии по осуществлению международного сотрудничества. Субъекты международных отношений, главными из которых является государства, должны работать

вместе, с целью предотвращения глобальных угроз и борьбы с ними. Более того, государства обладают широким ресурсом для сотрудничества не только в рамках различных международных структур, но и через реализацию целевых программ оказания гуманитарной помощи или межгосударственного сотрудничества. Тем не менее, реализация глобальных мер на национальном уровне, в первую очередь, зависит от потенциала государства и политической воли его руководства.

**Что такое Глобальное Управление Здравоохранением (ГУЗ)?**

Для того, чтобы дать определение процессу управления, в первую очередь, следует обратить внимание на его участников. Некоторые авторы [6] указывают на центральную роль межправительственных организаций (НПО), созданных для непосредственного решения вопросов здравоохранения в рамках их основного мандата, или, для осуществления более широких усилий, направленных на укрепление международного мира и безопасности в этой области. Однако, очевидно, что, если рассматривать вопрос с политической точки зрения, то, по нашему мнению, нужно сфокусироваться на руководящих институтах государств. Центральным институтом, определяющим внешнеполитический курс, например, в странах с президентской формой правления, является Президент, а Министерство Иностранных Дел реализует меры в соответствии с заданным политическим курсом. На глобальном уровне нет единого центра управления. Если говорить именно об области здравоохранения, то наиболее важным международной специализированной организацией является ВОЗ. Но ее решения не имеют обязательный силы. Как правило, они носят рекомендательный характер. Лишь при определенных усилиях политических сил возможно принятие документов более высокого уровня – Резолюций, Деклараций или Конвенций.

Процессы, связанные с обеспечением государственной безопасности, традиционно лежат в основе как внешней политики, так и внутренней. Безопасность, связанная со здоровьем, возлагается на органы системы здравоохранения. Однако, пример пандемии коронавируса свидетельствует о том, что эти вопросы не являются исключительно медицинскими. Они требуют внимания руководства страны, обеспечения международного сотрудничества и координации предпринимаемых мер. Именно в этом контексте и зародилось направление ГУЗ. Так, Д.Фидлер указывает, что понятие «Глобальное управление здравоохранением» характеризует использование формальных и неформальных институтов, правил и процессов государствами, межправительственными организациями и негосударственными субъектами для решения проблем в области здравоохранения, для эффективного решения которых требуются

трансграничные коллективные действия [7]. Действительно, угрозы планетарного масштаба не могут быть решены отдельно взятым государством в одиночку. Именно поэтому, С.А.Девис, например, выделяет два различных подхода к вопросу: 1) ориентированность на безопасность, стремление связать инициативы в области здравоохранения с задачами внешней или оборонной политики, 2) ориентированный на глобальность, т.е. на укрепление здоровья населения не из-за присущей ему ценности безопасности, а потому, что он способствует благополучию и правам людей [8]. Если анализировать события, происходящие на фоне пандемии COVID-19, мы все можем проследить тонкую, но порой достаточно очевидную связь политических факторов в вопросах раздачи гуманитарной помощи (гуманитарная дипломатия [9]), в приобретении и распределении вакцин (вакцинная дипломатия [10]) и т.д.

Любое управление требует расчета рисков, предполагаемых последствий вовлеченных сторон и т.д. Более того, если говорить о процессе с международной точки зрения, то также необходимо рассматривать экономические и геополитические интересы. Для обеспечения целей глобального здоровья необходима координация усилий государств (сотрудничество), в первую очередь, осуществляемых на национальном уровне. Однако, необходимо отметить, что при переходе национальных действий в плоскость глобальных тенденций и наоборот, появляется множество других факторов, оказывающих большое влияние на процесс. Например, на фоне пандемии коронавируса мы часто в новостях встречали название COVAX (Глобальный доступ к вакцинам COVID-19). Однако, она не является правительственной организацией, это инициатива, реализуемая под совместным руководством Коалиции за инновации в области обеспечения готовности к эпидемиям (CEPI), фондом GAVI (партнерство ряда частных и правительственных организаций), ВОЗ, ЮНИСЕФ и Панамериканской организации здравоохранения (ПАОЗ). Каждая из перечисленных структур в рамках COVAX сама по себе включает значительное число вовлеченных сторон (участников). Т.е. управление глобальным здравоохранением в совокупности взаимодействия различных государств, структур имеет достаточно сложную архитектуру. Если говорить об узком понимании ГУЗ, то можно в центре этой архитектуры расположить ВОЗ. Так, И.Кикбуш и М.М.Сабо предлагают рассмотрение ГУЗ в трех «политических пространствах», т.е. как глобальное управление здравоохранением, глобальное управление в интересах здравоохранения и управление в интересах глобального здравоохранения, излагая транснациональный и сквозной характер управления в сфере глобального здравоохранения [11]. Авторы считают, что взаимодействие институтов управления во всех трех этих политических сферах в конечном итоге

позволяют оказывать решающее значение на вопросы защиты здоровья населения в глобальной перспективе.

**Договор о пандемиях – Политика и Здравоохранение**

Несмотря на наличие множества различных документов международного характера, на фоне пандемии все чаще стали говорить о необходимости принятия специального договора на случай пандемий. К сожалению, непредвиденные ситуации глобального масштаба показывают, что мировое сообщество плохо подготовлено к подобным ситуациям. Действительно, разнообразные декларации, не имеющие правовой силы, трудноисполнимы. Однако, «всемирный» договор нам также кажется вопросом несколько утопическим, поскольку страны, имеющие свои национальные интересы вряд ли будут готовы ими «жертвовать во имя всеобщего блага». Более того, человечество уже имеет важный ресурс в виде ВОЗ, поэтому, на наш взгляд, было бы важно усилить взаимодействие в его рамках. Стоит учесть, что борьба с пандемиями имеет не только медицинский, но и правовой, экономический и научный аспект; и все эти аспекты способна объединить в себе только политика. Поэтому именно с политических консультаций должна начаться разработка стратегии «коллективной борьбы с пандемиями» для всего мирового сообщества. Некоторые авторы, также отмечают связь политики и здоровья, которая отчетливо проявилась на фоне пандемии коронавируса и даже называют это термином – «коронавирусная политика» [12]. Однако, на самом деле, любую совокупность межгосударственных отношений в рамках определенного вопроса можно назвать политикой чего-либо, например, политика вакцинации, политика предотвращения распространения инфекционных заболеваний и т.д.

В ходе своего выступления в сентябре 2021 года глава ВОЗ Т.А.Гебрейесус отметил, что для борьбы с пандемиями важен «подход «Единое здоровье» (One health), который рассматривает взаимосвязь между окружающей средой, здоровьем животных и человека [13]. Считаем в данном контексте очень важным инструментом являются биоэтические принципы [14], ведь именно они охватывают эти, на первый взгляд не связанные, направления. Защита окружающей среды очень важна в контексте защиты здоровья людей, поскольку уже широко известно, насколько, например, негативно сказывается загрязненный воздух. Так, согласно данным ВОЗ, 4,2 миллиона человек ежегодно умирают преждевременно из-за загрязнения наружного (атмосферного) воздуха, а 3,8 миллиона человек умирают от загрязнения воздуха внутри помещений, т.е. всего от всех источников загрязнения воздуха умирает около 7 миллионов человек [15].

Более того, на фоне пандемии на уровне федерального правительства Германии 19 февраля 2021 года была принята «Белая Книга», в которой было обоснована роль и влияние Германии в вопросах решения проблем 21-го века [16]; в центре же положений издания лежали именно биоэтические принципы, такие как «мультикультурализм», «совместное использование благ», отсылка к Целям устойчивого развития ООН, которые сами по себе являются важным фундаментом имплементации данных принципов и т.д. Считаем, что при рассмотрения любого сотрудничества между странами в его основе помимо чисто политических, важную роль также играют и гуманитарные, этические вопросы. Здоровье является той самой универсальной ценностью, которая способна иметь объединяющее значение даже в условиях политических противоречий.

**Заключение**

Сотрудничество стран в рамках противодействия пандемиям основывается на политических факторах. На фоне пандемии коронавируса в Интернете появилось множество работ, посвященных описанию возможности принятия всеобщего договора о борьбе с пандемиями. На данный момент трудно дать однозначный ответ о том, насколько она возможна, и, в случае принятия, насколько будет эффективен подобный договор. Однако, полагаем, что с политической точки зрения, это труднореализуемо. Договор потребует разработки единых, унифицированных стандартов в медицине, что считаем невозможным, когда у стран различный уровень экономического развития. Более того, трудно представить, как будет реагировать на процессы углубления сотрудничества в области медицины мировая экономика, значительную роль в которой играют фармацевтические корпорации. Очевидно, что без торговли между странами экономическое развитие невозможно, но также нельзя не учитывать, что экономика сказывается на развитии медицины: покупка современных лекарств, диагностических аппаратов, проведение профилактических мероприятий и т.д. требуют финансовых вложений. Именно поэтому глобальное управление в вопросах здравоохранения имеет множество противоречий, но также и большой потенциал. Изучение направления ГУЗ в условиях продолжающейся пандемии очень важно для понимания международных процессов в этой области, несомненно влияющих на политическую повестку дня.

## ЛИТЕРАТУРА

1. *Mammadov V.A.* Qualitative Study of Pre-Vaccine Decrease of Mortality from COVID-19 / V.Mammadov, L.Jafarova in Biotechnology to Combat COVID-19. London: IntechOpen, 2022, pp.607-627

2. Представлено выступление в видеоформате Президента Азербайджана, председателя Движения неприсоединения Ильхама Алиева на организованных председателем Генеральной Ассамблеи ООН тематических обсуждениях высокого уровня на тему «Активизация усилий для универсальной вакцинации» / Официальный сайт Президента Азербайджанской Республики, 25 февраля 2022 / URL: https://president.az/ru/articles/view/55525
3. Президент Азербайджана – о «вакцинном национализме» и «зеленом» будущем освобожденных территорий / Организация Объединенных Наций, 23 сентября 2021 / URL: https://news.un.org/ru/story/2021/09/1410562
4. *Dodgson R.* Global Health Governance. A Conceptual review / R.Dodgson, K.Lee, N.Drager. London: Centre on Global Change & Health, London School of Hygiene & Tropical Medicine, World Health Organization, 2002, p.27
5. *Sachs J.D.* From millennium development goals to sustainable development goals // The Lancet, 2012, 379 (9832), pp. 2206-2211
6. *Harman S.* Global Health Governance / S.Harman. London: Routledge, 2011, p.200
7. *Fidler D.P.* The challenges of global health governance / D.P.Fidler. – New York: Council on Foreign Relations, 2010, p.31
8. *Davies S.E.* What contribution can international relations make to the evolving global health agenda? // International Affairs, 2010, 86 (5), pp.1167-1190
9. *Cook A.D.B., Gong L.* Humanitarian diplomacy in the Asia-Pacific: Part I // Asian Journal of Comparative Politics, 2021, 6 (3), pp.183-187
10. *Lee S.T.* Vaccine diplomacy: nation branding and China’s COVID-19 soft power play // Place Branding and Public Diplomacy, 2021, pp.1-15
11. *Kickbusch I., Szabo M.M.C.* A new governance space for health // Global Health Action, 2014, 7 (1), p.23507
12. Coronavirus politics: The comparative politics and policy of COVID-19 / S.L.Greer, E.J.King, E.M.Fonseca [et al.] University of Michigan Press, 2021, 663 p.
13. What is the missing ingredient in global pandemic preparedness and response? /The BMJ opinion, September 16, 2021 / URL: https://blogs.bmj.com/bmj/2021/09/16/what-is-the-missing-ingredient-in-global-pandemic-preparedness-and-response/
14. *Mammadov V.G.* Bioethics–Azerbaijan // Legal and Forensic Medicine. 2013, pp.1071-1116
15. *Roser M.* Data Review: How many people die from air pollution? / Our World in Data, November 25, 2021 / URL: https://ourworldindata.org/data-review-air-pollution-deaths
16. A Multilateralism for the People, Federal Government. White Paper / The Federal Foreign Office. Berlin: Zarbock GmbH & Co. KG, 2021, 148 p.


Redaksiyaya daxil olub 04.04.2022

*UOT 94(479.24)*

***H.İ.Həsənov***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*habil.hasanov.1967@mail.ru*

# AZƏRBAYCANIN ŞİMAL XANLIQLARINA ÇAR RUSİYASININ İŞĞAL TƏHLÜKƏSİ VƏ QACARLAR DÖVLƏTİNİN REAKSİYASI

***Açar sözlər:*** *Çar Rusiyası, Qacarlar, xanlıqlar, Cənubi Qazfqaz, I Aleksandr*

Məqalədə I Aleksandrın Azərbaycan xanlıqlarına münasibətdə yeritdiyi siyasətin I mərhələsində Azərbaycan xanlıqlarını Rusiya imperiyasının nüfuz dairəsində saxlamaq və onların Qacarlar dövləti ilə birləşmələrinə yol verməmək, ikinci mərhələdə isə Azərbaycan və Dağıstan xanlıqlarının Rusiyanın himayəsi altında ittifaqını yaratmaq və bu yolla Qacarlar dövlətinin bölgəyə gözlənilən hücumunun qarşısını almaq siyasəti arxiv materialları əsasında araşdırılmış və mühüm məqamlar tədqiqata cəlb olunmuşdur.

***Г.И.Гасанов***

## УГРОЗА ОККУПАЦИИ ЦАРСКОЙ РОССИИ СЕВЕРНЫМ ХАНСТВАМ АЗЕРБАЙДЖАНА И РЕАКЦИЯ ГОСУДАРСТВА ГАДЖАРОВ

***Ключевые слова:*** *царская Россия, гаджары, ханства, Южный Кавказ, Александр I*

В статье исследуются вопросы, связанные с политикой, проводимой Александром I в отношении азербайджанских ханств. Отмечается, что данная политика преследовала цель на первом этапе сохранить северные ханства Азербайджана в сфере влияния российской империи и допустить присоединения их к государству Гаджаров, а на втором этапе создать в составе Российской империи союз Азербайджана и народов Дагестана, тем самым предотвратить нападения Гаджаров на регион. В статье на основе изучения архивных материалов даются весьма убедительные выводы.

***H.I.Hasanov***

## THE DANGER OF OCCUPATION OF THE NORTH KHANATES OF AZERBAIJAN BY TSARIST RUSSIA AND THE REACTION OF THE GAJAR STATE

***Keywords:*** *Tsarist Russia, the Gajars, Khanates, South Caucasus, Alexander I*

The article deals with the policy of Alexander I towards the Azerbaijan Khanates. The main goal of this policy during the first period was to keep Azerbaijan

Kahanates under the influencer of the Russian Empire and to prevent their unification with the Gajar State. The second phase of the Russian policy was aimed at establishment of the union of Azerbaijan and Daghistan Khanates under the auspices of the Russia and thereby to prevent possible attacks of the Gajar State on the region. All the issues of this policy have been investigated on the base of archive materials and the main points have been analysed in the article.

1801-ci il mart ayının 12-də Rusiyada növbəti hakimiyyət dəyişikliyi baş verdi. Sui-qəsd nəticəsində öldürülmüş I Paveli I Aleksandr əvəz etdi. I Aleksandrın hakimiyyətə gəlməsi Rusiyanın Qafqaz siyasətinin mahiyyətində elə bir dəyişiklik etməsə də, onun intensivliyini xeyli artırdı. Bir tərəfdən İranda öz mövqelərini getdikcə gücləndirən Fətəli şahın Cənubi Qafqazı itaətə gətirmək üçün hazırlıq tədbirlərini gücləndirməsi, digər tərədən isə Gürcüstanda yaranmış kritik vəziyyət I Aleksandr hökumətini real tədbirlər görməyə məcbur edirdi. I Pavel 1801-ci il yanvarın 20-də Kartli-Kaxetiya çarlığı haqqında xüsusi fərman verdi. Fərmana əsasən şahzadə David çar taxtının vəliəhdi titulundan məhrum edilir, çarlığın idarəçiliyi isə general-qubernator təyin edilmiş general-leytenant Knorrinqə həvalə edilirdi [3, д.407, 520]. Bu əslində Kartli-Kaxetiya çarlığının ləğvi və şərqi Gürcüstanın Rusiya tərəfindən işğalı istiqamətində atılmış ciddi bir addım idi. Bu hadisəni həm də Azərbaycan torpaqlarının Rusiya tərəfindən işğalınıa başlanğıc adlandırmaq olar. Belə ki, I Pavelin 20 yanvar tarixli fərmanı həm də əhalisinin əksəriyyətini azərbaycanlılar təşkil edən Qazax, Şəmsəddil, Borçalı və Pəmbək sultanlıqlarının Rusiyanın tərkibinə qatıldığını nəzərdə tuturdu [2, s.28]. I Pavelin dövründə başlanmış Şərqi Gürcüstanın Rusiya tərəfindən işğalı prosesi I Aleksandr tərəfindən davam etdirildi və başa çatdırıldı.

Şərqi Gürcüstanın, Qazax, Şəmsəddil, Borçalı və Pəmbək sultanlıqlarının Rusiyaya ilhaq edilməsi haqqında çar fərmanları Cənubi Qafqazda vəziyyəti hədsiz dərəcədə gərginləşdirdi. Bu fərmanlar ilk növbədə Gürcüstanla qonşu olan Azərbaycan xanlıqlarının və Qacarlar dövlətinin kəskin etirazına səbəb oldu. İrəvan və Gəncə xanları Rusiya hökumətini onlara məxsus torpaqları işğal etməkdə günahlandırmağa başladılar.

1801-1802-ci illər ərzində Rusiya hökumət manifestlərində adları çəkilən Azərbaycan sultanlıqlarını nəzarət altına almaq üçün real addımlar atmağa başladı. Qazax, Borçalı, Şəmsəddil və Pəmbəkə rus qoşunları yeridildi. Rusiyanın hakimiyyəti altında yaşamaq istəməyən yerli əhali arasında kütləvi iğtişaşlar başladı. Şəmsəddil torpaqlarını Gəncə xanlığının tarixi ərazisi hesab edən Cavad xan silaha əl ataraq buraya qoşun yeritdi. Lakin kifayət qədər qüvvəsinin olmaması onun burada möhkəmlənməsinə imkan vermədi. Belə olduqda o, Şəmsəddil əhalisinə müraciət edərək onları öz yaşayış yerlərini tərk edərək Gəncə xanlığının ərazisinə köçməyə çağırdı [3, д.788]. Rus

komandanlığının silahlı yolla Şəmsəddil əhalisinin köçməsinin qarşısını almaq cəhdləri heç bir nəticə vermədi. Qafqaz Arxeoqrafiya Komissiyasının aktlarında Şəmsəddil haqqında verilən məlumatdan aydın olur ki, XIX əsrin əvvəllərində, burada təxminən 2300 ailə yaşayırdı ki, bunun da 1900-ü Cavad xanın çağırışı ilə Gəncə xanlığının ərazisinə köçürülmüşdü [3, д.786].

Cavad xan diplomatik vasitələrlə də Rusiyanı Şəmsəddil sultanlığından əl çəkməsinə çalışırdı. O, Knorrinqə ünvanladığı məktublarından birində yazırdı ki, Şəmsəddil torpaqları son 700 il ərzində onun nəslindən olan hakimlərə məxsus olmuşdur. Bunu əldə rəhbər tutan xan yazırdı: "Şəmsəddili bizə heç kim verməyib və ona görə də onu bizdən almağa və ya başqasına verməyə heç kimin haqqı yoxdur" [2, s.29; 3, д.818]. Lakin rus komandanlığı buna nəinki heç bir əhəmiyyət vermədi, əksinə, ağaları öz tərəfinə çəkməklə Şəmsəddildə möhkəmlənməyə cəhd göstərdi.

Oxşar proseslər İrəvan xanlığı ilə Gürcüstanda yerləşən rus komandanlığı arasında da gedirdi. Onu da göstərmək lazımdır ki, XIX əsrin ilk illərində Rusiya ilə Qacarlar dövlətinin münasibətlərinin kəskinləşməsində İrəvan xanlığında möhkəmlənmək məsələsi az rol oynamamışdı. 1802-ci ilin əvvəllərində Fətəli şah İrəvanlı Məhəmməd xana hədə-qorxu dolu məktub göndərərək tabe olmasını və Naxçıvandan olan qaçqınların qaytarılmasını tələb etdi. Eyni zamanda öz sərkərdələrindən Abbasqulu xana İrəvan üzərinə hücum etmək üçün qoşun toplamaq əmrini verdi [5, s.513-514].

Gözlənilən hücum təhlükəsi İrəvan xanını fəaliyyətə başlamağa məcbur etdi. O, ilk növbədə qalanın möhkəmləndirilməsi və buradakı ərzaq və sursat ehtiyatını artırması üçün tədbirlər gördü. Bununla belə, Məhəmməd xan öz torpaqlarını yalnız öz qüvvəsi ilə müdafiə edə biləcəyinə ümid etmədiyindən kömək və himayə üçün Rusiyaya müraciət etdi. General-mayor Knorrinq yaranmış vəziyyətdən istifadə etmək qərarına gəldi və İrəvan xanına bildirdi ki, münasibətləri rəsmiləşdirmək üçün nümayəndə heyəti göndərsin [5, s.513-514]. Knorrinq eyni zamanda I Aleksandra müraciət edərək İrəvan xanlığını Rusiya himayəsinə götürməyi təklif etdi. O, öz təklifini onunla əsaslandırırdı ki, İrəvan xanlığının Rusiya himayəsinə götürülməsi Gürcüstanın və buradakı rus qoşunlarının təhlükəsizliyi üçün təminat ola bilər [5, s.513-514].

I Aleksandr general-mayor Knorrinqin təklifini müsbət qarşıladı və 1802-ci il aprelin 23-də ona xüsusi sərəncam göndərdi. Sərəncamda göstərilirdi ki, Rusiya İrəvan xanlığının Qacarlar dövləti tərəfindən işğalına laqeyd qala bilməz. Çarın fikrincə, İrəvanı ələ keçirən Fətəli şah bununla kifayətlənməyəcək və gələcəkdə hökmən Gürcüstan üzərinə hücuma keçəcək. Buna yol verməmək üçün isə İrəvan xanlığını Rusiya himayəsinə qəbul etmək və İrəvan qalasında rus qoşunlarını yerləşdirmək lazımdır [5, s.513-514].

I Aleksandrın sərəncamını yerinə yetirən Knoriinq ilk növbədə Gürcüstandakı rus qoşunlarının gücləndirilməsi üçün tədbirlər gördü. Qafqaz

xəttində olan 10 draqun eskadronu, 7 qrenader rotası və 700 nəfərlik kazak dəstəsi Gürcüstana yeridildi. Bu ordu Gürcüstanın İrəvan xanlığı ilə həmsərhəd olan bölgələrində yerləşdirildi. Yaranmış vəziyyət Fətəli şahı İrəvan xanlığı üzərinə hücum etmək fikrindən daşındırdı [5, s.513-514].

Qacarlar təhlükəsinin sovuşması İrəvanlı Məhəmməd xanın Rusiya ilə münasibətlərinə də təsir göstərdi. Xan Rusiya himayəsinə keçməkdən və rus qoşunlarını öz torpaqlarına buraxmaqdan qəti imtina etdi. P.Q.Butkov Məhəmməd xanın mövqeyində baş verən bu dəyişikliyin Rusiyanın düşməni hesab edilən Naxçıvanlı Kəlbəli xanın və gürcü şahzadəsi Aleksandrın təsiri ilə olduğunu bildirir [5, s.513-514]. Əslində isə I Aleksandrın 12 sentyabr 1802-ci il reskripti ilə Pəmbək mahalının Rusiyaya qatılması bu məsələdə həlledici rol oynamışdı.

İrəvanlı Məhəmməd xan Rusiyanın Pəmbək torpaqlarını ələ keçirməsinin qarşısını almağa çalışırdı. O, rus komandanlığına bildirirdi ki, Pəmbək sultanlığı Ağa Məhəmməd şah Qacarın fərmanı ilə İrəvan xanlığına verilmişdir. Xan bu torpaqların rusların nəzarəti altına keçməsinin qarşısını almaq üçün hələ 1801-ci ildə oraya ordu göndərməyə də cəhd göstərmişdi [6, c.403; 7, v.25]. Lakin general-mayor Lazarevin başçılığı ilə rus qoşunlarının buraya yeridilməsi ona öz məqsədinə çatmağa imkan vermədi. Belə olduqda o, Pəmbək əhalisinin İrəvan xanlığının ərazisinə köçürülməsi üçün tədbirlər gördü. Rus tarixçisi N.Dubrovinin verdiyi məlumata görə, 6 min nəfər Pəmbək əhalisi öz yaşayış yerlərini tərk edərək İrəvan xanlığının ərazisinə köçürüldü [6, c.402]. Lakin rus komandanlığının böyük bir hərbi dəstə ilə Pəmbəkə daxil olması vəziyyəti dəyişdirdi. Rusların İrəvan xanlığını hücum hədəfi seçəcəyindən ehtiyat edən Məhəmməd xan Pəmbək əhalisini öz əvvəlki yaşayış yerlərinə qaytarmağa məcbur oldu[2,s.29].

Rusiyanın Şərqi Gürcüstanı və bir sıra Azərbaycan torpaqlarını işğal etməsi Qacarlar dövlətinin də ciddi narahatlığına səbəb oldu.Lakin bu dövrdə Qacarlar dövləti rus işğallarının qarşısını almaq üçün çox zəif idi. Ölkə daxilində siyasi sabitliyin olmaması, müasir tələblərə cavab verən nizami ordunun yaradılmasına yenicə başlanılması Qacarlar dövlətinə Rusiyanın Cənubi Qafqazdakı işğallarına maneçilik törətməyə imkan vermirdi. Bu dövrün beynəlxalq vəziyyəti də Qacarlar dövləti üçün əlverişli deyildi. Rusiyanın sərhədlərinin cənuba doğru genişlənməsini öz mənafeləri üçün təhlükə hesab etmələrinə baxmayaraq İngiltərə və Fransa bunun üçün kifayət qədər maliyyə vəsaiti və hərbi qüvvə ayıra bilmirdi. Onların İranda tez-tez bir-birini əvəz etməsi görülən işlərin səmərəliliyini azaldırdı.

Qacarlar dövləti öz ordusunun sayını və gücünü yaxşı bilir və bu ordu ilə ruslara qarşı uğurlu müharibə aparmağın mümkün olmadığını anlayırdı. Elə bu səbəbdən də Qacarlar dövləti bütün qüvvə ilə Azərbaycan xanlıqlarını və gürcü şahzadələrinin bir çoxunu Rusiyaya qarşı müharibəyə səfərbər etməyə can

atırdı. Rusiya əleyhinə olan qüvvələri ruhlandırmaq məqsədilə yayılan məlumatlarda göstərilirdi ki, Gürcüstandakı rus qoşunları sayca çox azdır və onları buradan qovmaq elə də çətinlik törətməyəcək [7, v.18].

Yaranmış vəziyyətdə Qacarlar dövləti Rusiya əleyhinə olan qüvvələrin birgə çıxışına böyük ümid bəsləyirdi. Bu çıxışın təşkilində sərkərdə Pirqulu xan Qacar və gürcü şahzadəsi Aleksandr əsas rol oynamalı idilər. Arxiv sənədlərindən birində göstərilir ki, "Baba xanın (Fətəli şahın – H.H.) Şuşada olan sərkərdəsi Pirqulu xan və şahzadə Aleksandr qərara gəlmişdilər ki, əvvəlcə birləşmiş qüvvələrlə hücum edib Şəki xanını hakimiyyətdən məhrum etsinlər və onu onların planları ilə razı olan başqası ilə əvəz etdikdən sonra ləzgilərin yaşadıqları ərazidən birlikdə Gürcüstana hücum etsinlər" [7, v.26].

Əldə olan məlumatların təhlili göstərir ki, rus qoşunlarını Gürcüstandan çıxarmaq üçün kifayət qədər gücü olmayan Qacarlar dövləti bu işi bölgədəki Rusiya əleyhinə olan qüvvələri birləşdirmək hesabına həyata keçirməyə çalışırdı. Yaradılacaq bu birlikdə gəncəli Cavad xana və gürcü şahzadəsi Aleksandra böyük önəm verilirdi. Onu da göstərmək lazımdır ki, Gürcüstanın rus qoşunlarından təmizlənməsi və gürcü dövlətinin bərpa edilməsi məsələsində şahzadə Aleksandr daha böyük fəallıq göstərirdi.

Şahzadə Aleksandrın Rusiya əleyhinə yönəlmiş fəaliyyətində Cavad xan da mühüm rol oynayırdı. Əsas məqsədi Gürcüstanı rus qoşunlarından təmizləmək və çar taxtına sahib olmaq olan Aleksandr göstərdiyi köməyə görə Şəmsəddil torpaqlarını Gəncə xanlığına qaytaracağı haqqında Cavad xana söz vermişdi. Ruslara qarşı hərbi əməliyyatlar keçirmək üçün lazım olan döyüşçülərin toplanılmasında Gəncə xanı Aleksandra yardım göstərirdi. Car-Balakənə göndərilmiş xüsusi adamlar gürcü şahzadəsinin tərəfindən döyüşməyə hazır olan hər bir döyüşçüyə 50 gümüş manat pul ödəməyi öhdələrinə götürürdülər [1, s.84]. Gürcüstandakı rus qoşunlarının komandanı Lazarev yazırdı ki, Fətəli şah da Car-Balakən camaatına müraciət edərək onları şahzadə Aleksandra yardım göstərməyə çağırmış, bunun müqabilində onlardan hər birinə 100 gümüş manat məbləğində mükafat verəcəyini bildirmişdi [3, д.333].

Göstərmək lazımdır ki, Car-Balakən camaatlığı Rusiyanın Gürcüstandakı mövqeləri üçün daha böyük təhlükə təşkil edirdi. Çar məmurlarının özlərinin verdikləri məlumatlardan aydın olur ki, 1801-1802-ci illərdə camaatlığın ərazisindəki yaşayış məntəqələri ilə yanaşı, Gürcüstandan da rus hərbi postlarına aramsız hücumlar təşkil edilirdi. Vəziyyət o həddə çatmışdı ki, rus komandanlığı müvəqqəti olaraq yeni ərazilər işğal etmək planını təxirə salıb bu hücumların qarşısının alınması ilə məşğul olmağa məcbur olmuşdu [1, s.110].

Artıq 1802-ci ilin payızında Gürcüstandakı rus işğal ordusuna qarşı birgə mübarizə aparmaq üçün xeyli qüvvə cəmləşmişdi. General Lazarevin verdiyi məlumatdan aydın olur ki, bu qüvvələr eyni vaxtda dörd tərəfdən Gürcüstan üzərinə hücuma keçməyə hazırlaşırdılar. Rus generalı özünün 6 oktyabr 1802-ci

il tarixli raportunda göstrirdi ki, gürcü şahzadələri Yulon və Parnaoz, Axalsix hakimi Şərif paşa İmeretiva və Axalsix tərəfdən, irəvanlı Məhəmməd xan və naxçıvanlı Kəlbəli xan Pəmbək tərəfdən, şahzadə Aleksandr və gəncəli Cavad xan Gəncə tərəfdən, Car-Balakən döyüşçüləri isə Kaxetiya tərəfdən Gürcüsatan üzərinə hücuma hazırlaşırlar [3, д.509; 4, c.86]. Şübhəsiz ki, bu qüvvələr arasında əlaqələrin yaradılmasında və eyni vaxtda hücum planının hazırlanmasında Qacarlar dövləti mühüm rol oynayırdı. Pirqulu xan Qacarın da İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarında olub onların qüvvələrini birləşdirməyə cəhd göstərməsi haqqında rus mənbələri məlumat verir [7, v.26]. P.Q.Butkov yazır ki, 1802-ci ilin iyulunda Şuşaya gələn Pirqulu xan Qacar burada İbrahimxəlil xan və gürcü şahzadəsi Aleksandrla birlikdə Gürcüstan üzərinə hücum planı hazırlamışdı.

Lakin Qacarlar dövləti görülən hazırlıq işlərini məntiqi sonluğa çatdıra bilmədi. Bir tərəfdən Gürcüstana hücuma hazırlaşan qüvvələr arasındakı ziddiyyətlər, digər tərəfdən isə maliyyə və hərbi ehtiyatların azlığı planlaşdırılan yürüşün baş tutmasına imkan vermədi. Rus komandanlığının Gürcüstanın daxilindəki həyəcanların qarşısını vaxtında alması da bu hücumun qarşısının alınmasında az rol oynamadı [5, c.527].

Qacarlar dövlətindən fərqli olaraq Rusiyanın Qafqaz siyasəti daha məkrli, eyni zamanda daha ardıcıl olub Azərbaycan xanlıqlarının müstəqillikləri üçün real təhlükə törədirdi. Qacarlar dövləti ilə müqayisədə daha böyük iqtisadi və hərbi imkanlara malik olan Rusiya öz təcavüzkarlıq siyasətini həyata keçirmək üçün həm diplomatik vasitələrdən, həm də hərbi təzyiq metodlarından istifadə edirdi. Yuxarıda göstərildiyi kimi, I Aleksandrın hakimiyyətə gəlməsilə Rusiyanın Qafqaz siyasətində xeyli canlanma baş vermişdi. Ümumiyyətlə, I Aleksandrın Azərbaycan xanlıqlarına münasibətdə yeritdiyi siyasətdə bir-biriylə sıx bağlı olan üç mərhələ aydın şəkildə seçilir. Birinci mərhələdə Azərbaycan xanlıqlarını Rusiyanın nüfuz dairələrində saxlamaq və onların Qacarlar dövləti ilə birləşmələrinə yol verməmək, ikinci mərhələdə Azərbaycan və Dağıstan xanlıqlarının Rusiyanın himayəsi altında ittifaqını yaratmaq və bu yolla Qacarlar dövlətinin bölgəyə gözlənilən hücumunun qarşısını almaq. Hər iki mərhələdə planlarını ört-basdır etməyə çalışır, özünü Azərbaycan xanlarının müstəqilliklərinin mühafizəçisi kimi göstərməyə cəhd göstərirdi. Azərbaycan xanlıqlarının Qacarlar dövləti ilə birləşmək ehtimalının çox az olduğuna əmin olduqdan sonra I Aleksandr hökuməti öz siyasətinin üçüncü mərhələsinə – Azərbaycan torpaqlarının işğalı mərhələsinə başladı.

## ƏDƏBİYYAT

1. *Məmmədova A.* Car-Balakən camaatlığı. Bakı: UniPrint, 2009, 256 s.
2. *Umudlu V.* Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalı və müstəmləkəçilik əleyhinə mübarizə (1801-1828). Bakı: Elm, 2004, 180 s.
3. АКАК / Под ред Ад.Бержед.1. Тифлис, 1866, д. 34,137, 333, 407, 509, 520,786, 788, 818, 823, 827, 828, 829, 830, 837, 863, 894
4. *Бабаев Э.* Из истории Гянджинского ханства. Баку: Нурлан, 2003, 234 с.
5. *Бутков П.Г.* Материалы для новой истории Кавказа с 1722 по 1803 г. т. 11-111. СПб., 1869, т.Н, 601 5., т.III, 620 с.
6. *Дубровин Н.Ф.* История войны и владычества русских на Кавказе, ч. II, СПб., 1886, ч. III, СПб., 1888, 422 с.
7. РГВИА, ф.ВУА, д.332

Redaksiyaya daxil olub 01.03.2022

Pedaqoji Universitetin Xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası –2022, C.70, №2, s. 80-85
Transactions of Pedagogical University. Series of humanitarian, social, pedagogical and psychological sciences – 2022, V.70, №2, pp. 80-85

*UOT 94(479.24): 32*

***Z.H.Kərimov***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*zakir.kerimov.1955@mail.ru*

# ŞUŞA ŞƏHƏRİNDƏ MAARİFİN İNKİŞAFINDA XEYRİYYƏÇİLİYİN ROLU (XIX ƏSRİN II YARISI-XX ƏSRİN ƏVVƏLİ)

***Açar sözlər:*** *müstəmləkə, Şuşa şəhəri, xeyriyyə, maarif, yardım*

Əsası 1752-ci ildə qoyulmuş Şuşa şəhərinin bu il 270 illiyi tamam olur. Bununla bağlı Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 5 yanvar tarixli sərəncamı ilə cari il "Şuşa ili" elan edilmişdir. Sərəncam Şuşanın tarixi, o cümlədən mədəniyyət tarıxi ilə bağlı məsələləri araşdırmağı və təbliğ etməyi bir vəzifə kimi tədqiqatçılar qarşısında qoymuşdur. Göstərilən məqalədə ölkəmizdə kapitalist münasibətlərinin yarandığı və inkisaf etdiyi dövrdə Şuşa şəhərində maarif sahəsində əldə edilən uğurlarda xeyriyyəçilərin və xeyriyyə cəmiyyətlərinin rolu araşdırılmışdır.

***З.Х.Каримов***

## РОЛЬ БЛАГОТВОРИТЕЛЬНОСТИ В РАЗВИТИИ ПРОСВЕЩЕНИЯ В ШУШЕ (II ПОЛОВИНА XIX ВЕКА-НАЧАЛО XX ВЕКА)

***Ключевые слова:*** *колония, город Шуша, благотворительность, просвещение, помощь*

В этом году исполняется 270 лет городу Шуше, основанному в 1752 году. В связи с этим указом Президента Азербайджанской Республики от 5 января 2022 года текущий год был объявлен «Годом Шуши». В статье исследован роль меценатов и благотворительных обществ в успехах просвещения в Шуше в период становления и развития капиталистических отношений в нашей стране.

***Z.H.Karimov***

## THE ROLE OF CHARITY IN THE DEVELOPMENT OF ENLIGHTENMENT IN SHUSHA (SECOND HALF OF XIX CENTURY - BEGINNING OF XX CENTURY)

***Keywords:*** *colony, Shusha city, charity, education, help*

This year marks the 270th anniversary of the city of Shusha, founded in 1752. İn this regard, by the order of the President of the Republic of Azerbaijan dated January 5, 2022, the current year was declared the "Year of Shusha". The article examines the role of philanthropists and charitable societies in the success of education

in Shusha during the establishment and development of capitalist relations in our country.

XIX əsrin ikinci yarısında bütün Azərbaycanda olduğu kimi, Şuşa şəhərində də mövcud məktəblər üç tipə bölünürdü: məktəb və mədrəsələr, rus dövlət məktəbləri, dünyəvi təhsil verən anadilli məktəblər. Məktəb və mədrəsələr ən çox yayılmış tədris ocaqları idi. Lakin zaman keçdikcə həm çar hökumətinin müstəmləkəçilik siyasəti, həm də müəyyən sosial-siyasi və iqtisadi amillərlə bağlı olaraq yerli müsəlman (azərbaycanlı-Z.K) əhali arasında rusdilli tədris müəssisələrinə və anadilli məktəblərə maraq artırdı.

Çarizmin Azərbaycanda açdığı ilk dünyəvi dövlət məktəbi olan Şuşa qəza məktəbi (1830) şəhər məktəbinə (1874), sonra 7 illik məktəbə (1927/1928), daha sonra1№li şəhər orta məktəbinə (1937/1938) çevrildi.1982-ci il yanvarın 12-də bu məktəbin 150 illiyi qeyd olunmuşdur. Bu işin təşəbbüsçüsü o zaman Azərbaycan SSR-ə rəhbərlik edən Heydər Əliyev olmuşdur [3].

Qeyd etmək lazımdır ki, Şuşa qəza məktəbi şəhərdə fəaliyyət göstərən Bazel missionerlərinin Yevangeliya cəmiyyəti tərəfindən bir il müddətinə pulsuz olaraq verilmiş binada yerləşirdi. Yerli əhali məktəbə pulla maddi yardım göstərirdi.

XIX əsrin ikinci yarısı – XX əsrin əvvəllərində ölkəmizdə kapitalist münasibətlərinin yaranması və inkişafı iqtisadi həyatın bütün sferalarında olduğu kimi, maarif sahəsində də canlanma yaratdı. Çünki kapitalizm sistemi savadlı, ixtisaslı kadrlar olmadan keçinə bilməzdi.

Rus çarizminin məktəb islahatları Azərbaycanda təhsilin, o cümlədən qadın təhsilinin vəziyyətinə da təsirsiz qalmadı.

Qadınların təhsilə cəlb edilməsinə tələbat digər şəhərlərdə olduğu kimi, Şuşada da çox güclü idi. Şuşalılar qızların Azərbaycan dilində təhsil alması ilə yanaşı, rus dilində də savad almasına can atırdılar. Rus dövlətinin azərbaycanlıların təhsilə yiyələnməsindəki fəaliyyətinin yetərsiz olduğunu görən xeyriyyəçilər bu işdə öz köməklərini əsirgəmirdilər.

1875-ci il oktyabrın 26-da Şuşada Xeyriyyə Cəmiyyəti tərəfindən qız məktəbinin əsası qoyuldu [1, s.87]. Bununla bağlı cəmiyyətin nizamnaməsində deyilirdi ki, cəmiyyətin məqsədi dini etiqadından və məişətindən asılı olmayaraq qızlara ibtidai təhsil verməkdən ibarətdir. Bu məqsədlə cəmiyyət yoxsulların da təhsil hüququ saxlanılmaqla Şuşada qız məktəbi açır. Məktəbdə rus dili və hesab, ana dilində oxu və yazı, hüsnxət, rəsm, rəsmxət, ümumi coğrafiya, tarix, ölkəşünaslıq fənləri tədris olunurdu. Bunlardan əlavə şagirdlərə xorla milli mahnılar oxudulur, təbiyyət və fizikadan ümumi məlumat verilirdi. Təhsil pullu idi. Kasıb ailələrdən olanlar təhsil haqqından azad idi. Əlavə

ödəniş edən şagirdlərə fransız və alman dilləri, musiqi öyrədilirdi. Şuşa qız məktəbi sonralar Marinski qız məktəbinə çevrildi.

Təhsil sahəsində çarizmin mürtəce siyasəti orta məktəblərin inkişafını ləngidirdi. Bütün bunlara baxmayaraq, əhali orta təhsil verən məktəblərin açılmasına cəhd edir, bu məqsəd üçün xüsusi vəsait ayırırdı.

Orta məktəb açmaq tələbi Şuşa şəhərində daha güclü idi. Şuşa camaatı 1874-cü ildə orada orta və ya natamam orta məktəb açmağı və bu məqsəd üçün şəhər vəsaitindən 5.000 manat ayırmağı qərara aldı [1, s.174].

Şəhər ictimaiyyətinin Gəncə qubernatoruna müraciətində deyilirdi ki, vaxtı ilə müsəlman əyalətlərinin mərkəzi olan Şuşa şəhəri son vaxtlar təhsil sahəsində digər şəhərlərdən geri qalır. Bunun səbəbi məlum olduğu kimi, maddi rifahın yaxşılaşması və çiçəklənməsi üçün zəruri olan təhsilə xalqın biganə qalması olmayıb, Şuşada orta məktəb olmadığından xalqın öz uşaqlarına müvafiq təhsil verə bilməməsidir.

Camaatın maarifə marağı sürətlə artırdı. Bu dövrdə ölkənin təhsil işində ümumi canlanma o qədər böyük idi kı, Şuşa və başqa yerlərdən Qafqaz canişinin yanına deputatlar heyəti gəlir və ya ərizələr göndərərək yeni məktəblər açmağı tələb edirdilər. Hətta kəndli icmaları da bu işə qoşulur və bu faydalı iş üçün ianələr toplayırdı.

Şuşalıların fəaliyyəti öz bəhrəsini verdi. 1881-ci il sentyabrın 20-də şəhər ictimaiyyətinin iştirakı ilə şəhərdə 6 sinifli realnı məktəbin rəsmi açılışı oldu. Şuşa realnı məktəbi ilk dəfə hazırlıq və üç əsas sinifdən ibarət təşkil edildi. Məktəbə ilk dəfə 159 şagird qəbul edildi ki, onlardan 58 nəfəri azərbaycanlı, 91 nəfəri erməni, 10 nəfəri isə digər millətlərin nümayəndələri idi [1, s.76]. Lakin bu rəqəm şəhərin sayı 12 min nəfərə çatan azərbaycanlı əhalisi üçün çox cüzi idi.

Şuşada maarifin inkişafına ölkəmizin digər şəhərlərində yaşayan həmyerlilərimiz də kömək edirdi. 1895-ci ildə Şuşa müsəlman xeyriyyə cəmiyyətinin imkansız şagirdlərə yardımla bağlı pula ehtiyacı yarandığı üçün Bakı sakinlərinə müraciət edir. Bakılı xeyriyyəçilər də dərhal bu müraciətə cavab verirlər. H.Z.Tağıyev 100 rubl, Bünyadov 25 rubl, Bəylərov, Mədətov 16 rubl yardım edirlər. Cəmiyyət bununla bağlı həmin şəxslərə öz təşəkkürünü bildirdi [6, s.115].

XIX əsrin axırlarında Şuşada uşaqları rus dilində orta təhsil almağa hazırlayan rus-Azərbaycan məktəblərinin şəbəkəsinin əsası qoyulur. Bu tip məktəb açmağa cəhd edənlərdən biri də ibtidai məktəb müəllimi hüququ olan Muxtar Məmmədov idi.

Şuşa ziyalıları 1896-cı ildə iki şöbədən ibarət ikisinifli normal rus-Azərbaycan məktəbi açmağa səy göstərdilər. Şuşa əhalisi məktəbin təsisi üçün 1000 manat toplamaqla gələcəkdə məktəbin xərcini öz öhdəsinə götürməyi qərara aldılar. 1500-dən artıq şəxsin imza etdiyi bu qərarı tezliklə həyata

keçirmək üçün qısa müddət ərzində baş məscidin həyətində səhiyyə və pedaqoji tələblərə cavab verən yeni bir tədris binası tikildi. Şuşa şəhər ictimaiyyətinin məscid nəzdində rus-Azərbaycan məktəbi açmaq cəhdi Azərbaycanda birinci təşəbbüs idi [1, s.165].

Şuşalıların bu qərarı təkcə Azərbaycanda deyil, bütün Qafqazda əhalinin geniş təbəqəsi tərəfindən bəyənildi və müdafiə edildi .

Heç bir vaxt Şuşada azərbaycanlılar arasında bu hadisə ilə bağlı olduğu kimi yekdillik və həmrəylik görünməmişdi. Könüllü ianə toplanışı üçün imza vərəqəsində ilk dəfə şəhər qazısı və din başçılarının 4 nəfəri imza etdi. Bunların ardınca xalq imza etmək üçün izdihamla məscidə gəldi.

Şuşada yeni məktəbin – rus-Azərbaycan məktəbinin açılması geniş kütlələrin uşaqlarının məktəbə cəlb edilməsində mühüm addım idi. Bu məktəb əhali arasında rus və Azərbaycan dilində ümumi təhsilin bünövrəsini qoymaqla azərbaycanlı şagirdləri realnı məktəbə hazırlamaq məqsədi daşıyan bir növ yeni təhsil müəssisəsi idi.

Şuşada ikisinifli rus-Azərbaycan məktəbi 1896-cı il oktyabrın 5-də açıldı. Məktəbə ilk dəfə 210 şagird qəbul edildi. Şuşa şəhər ictimaiyyəti Bərdə zemstvo məktəbinin müəllimi Haşım bəy Vəzirovu açılacaq məktəbə müdir dəvət etdi [1, s.166]. Şəhər əhalisi popeçitel (himayə) şurası və məktəb komissiyası təşkil etdi.

Məktəbdə oxumaq istəyənlər çox olduğu üçün hər şagirddən ildə 12 manat təhsil haqqı almaq müəyyən edildi. Bununla belə, şagirdlərin 20 faizi təhsil haqqından azad edilirdi. Bir neçə xeyriyyəçi məktəbin maddi bazasını yaxşılaşdırmaqdan ötrü kasıblardan 5 şagirdin təhsil haqqını ödəməyi və məktəbdə oxuduqları bütün müddətdə bunları paltar və tədris vəsaiti ilə təmin etməyi öhdələrinə götürdülər. Xeyriyyəçilər arasında məktəbin fəxri nəzarətçisi Cavad bəy Vəzirov, Şuşa sakini Həsən bəy Sarıcalinski və b. var idi. Bundan əlavə şahzadə Fətəli Mirzə və knyaginya Üsmiyeva (Natəvan xanım) məktəb üçün bina tikilənədək öz evlərini təmənnasız olaraq məktəbə vermişdilər. Şuşa realnı məktəbi şagirdlərinin göstərdiyi 2 tamaşadan toplanan 500 manat da rus-Azərbaycan məktəbi üçün bina tikməyə sərf edildi. Ziyalılar teatr tamaşaları təşkil etməkdə xüsusilə fərqlənirdilər. Mətbuatda Fərhad (yəqin ki, Ağazadə) imzası ilə çıxış edən bir müəllim yazırdı ki, bu günlərdə Şuşada dram həvəskarları tərəfindən Xandəmirov teatrında tatar (Azərbaycan) dilində Ə.Haqverdiyevin "Dağılan tifaq" faciəsi tamaşaya qoyuldu. Tamaşa müvəffəqiyyətlə keçdi və tamaşadan toplanan 900 manatdan ona sərf edilən 200 manat xərci çıxdıqdan sonra qalan 700 manat yerli rus-tatar məktəbinin nəfinə verildi [1, s.167] .

Şuşa rus-Azərbaycan məktəbinin tədris planına Azərbaycan və rus dilləri, hesab (rus dilində) daxil idi. Ana dili yeni üsul ilə tədris edilirdi. Məktəbin müəllim heyəti 4 nəfərdən ibarət idi. Haşım bəy Vəzirov müdir,

Rasim bəy Tahirovla Mirzə Baxış Yusifzadə fənn müəllimləri, molla Mehdi Sarıcalinski şəriət müəllimi, Mehdiqulu xan isə məktəbin fəxri müdiri idi.

Azərbaycan ziyalılarının böyük bir dəstəsi ilk təhsilini Şuşa rus-Azərbaycan məktəbində almışdır. Bir çoxları kimi Azərbaycanın fəxri olan Ü.Hacıbəyov da Şuşa rus-Azərbaycan məktəbinin yetirmələrindəndir. 1900-cü ildə Şuşada rus-Azərbaycan məktəbi nəzdində yaşlılar üçün pulsuz axşam kursları təşkil edilmişdi. Şuşanın bir çox yaşlı sakinləri burada Azərbaycan və rus dillərində savad almağa ciddi səy göstərirdilər.

1905-ci ilin avqustunda Şuşada daşnakların və çar məmurlarının qızışdırdığı ermənilərin azərbaycanlıların yaşadığı məhəllələrə hücumu ilə şəhərdə qırğınlar və talanlar başlayır. Belə ağır bir vaxtda şəhərin aşağı hissəsində əslən şuşalı olan məşhur doktor Kərim bəy Mehmandarov qırğın nəticəsində yetim qalan uşaqlara məktəb açır və burada dərs deməyi gənc Yusif Vəzir Çəmənzəminliyə tapşırır [5, s.28]. Alovlu vətənpərvər olan Ə.Mehmandarov (1854-1929) həm "Difai" partiyasının Qarabağ şöbəsinin sədri, həm də Şuşa Xeyriyyə Cəmiyyətinin sədri vəzifəsini vicdanla icra edir, xalq qiraətlərinin təşkil edilməsində, yeni təhsil müəssisələrinin açılmasında və s. fəal çalışırdı. 1911-ci ildə bu qeyrətli insanın təşəbbüsü və səyi nəticəsində Şuşada qız məktəbi açıldı.

1906-cı ildə Azərbaycan milli burjuaziyasının görkəmli nümayəndələrinin maddi yardımı və milli ziyalıların fədakarlığı sayəsində "Bakı quberniyası müsəlman əhalisi arasında savadı yayan Bakı cəmiyyəti Nəşr-maarif" yaradıldı. Cəmiyyətin yerlərdə şöbələri təşkil edilmişdi. Belə şöbələrdən biri də Şuşa şəhərində fəaliyyət göstərirdi. Bu şöbənin nə vaxt açılması haqqında dəqiq məlumat yoxdur. Lakin o dövrün mətbuatından aydın olur ki,1913-cü ildə cəmiyyətin Şuşa şöbəsi fəaliyyətini davam etdirirdi. Həmin ildə şöbənin 1 qiraətxanası, 4 ibtidai məktəbi fəaliyyət göstərirdi. Bu məktəblərdə 206 şagird təhsil alırdı. Bu məktəblərdən biri Gövhər qız məktəbi idi. Şöbənin digər məktəblərində olduğu kimi, bu məktəbdə də əsasən kasıb və imkansız ailədən olan uşaqlar təhsilə cəlb olunmuşdu [4, s.18-19]. M.A.Brexanov adlı bir şəxs də bu məktəbə 50 rubl yardım etmişdir [1,s.167].

Beləliklə, yuxarıdakı faktlar göstərir ki, bəhs olunan dövrdə rus çarizminin yaratdığı maneələrə baxmayaraq, ziyalıların səyi, xeyriyyəçilərin maddi yardımı və xalqın hərtərəfli dəstəyi ilə Şuşa ölkəmizin əsas maarif ocaqlarından birinə çevrildi, Vətənimizə çox sayda dəyərli ictimai-siyasi və mədəniyyət xadimləri bəxş etdi.

## ƏDƏBİYYAT


1. *Əhmədov H.* Seçilmiş Pedaqoji Əsərləri: 5 cilddə, I c. Bakı: Elm, 2001,450 s.
2. *Əhmədov H.* Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Bakı: Elm və təhsil, 2014, 432 s.
3. *Quliyev V.* 180 yaşlı Şuşa məktəbi. Bakı: Şuşa, 2010, 200 s.
4. *Məmmədova N.Ə.* Nəşr-maarif cəmiyyətinin yaranması və fəaliyyəti: Tarix elm. nam. ... dis. avtoref. Bakı, 2003, 26 s.
5. *Məmmədov K.D.* Yusif Vəzir Çəmənzəminli. Bakı: Azərnəşr, 1987, 272 s.
6. *Керимзаде П.О.* Меценатство в Северном Азербайджане (на рубеже XIX-XX веков): Дис. ... канд. истор. наук. Баку, 2003, 139 с.


Redaksiyaya daxil olub 17.03.2022

*УДК 327*

***Л.З.Караева***
*Бакинский славянский университет*
*karayeva@yahoo.com*

# КОНВЕНЦИЯ О ПРАВОВОМ СТАТУСЕ КАСПИЙСКОГО МОРЯ 2018 ГОДА – ПРАВА И ОБЯЗАННОСТИ ПРИКАСПИЙСКИХ ГОСУДАРСТВ

***Ключевые слова:*** *правовой статус, Каспийское море, срединная линия, пограничное озеро, водоем, Конвенция*

Вопрос о статусе Каспийского моря всегда был в интересах прикаспийских государств, сотавлял основу их внешней политики. В статье исследована история определения правового статуса Каспия в различные периоды. Политико-правовая база проанализирована с научно-критической точки зрения. Отмечается, что заключение Конвенции о правовом статусе Каспийского моря 2018 года, положило конец многосторонним встречам и переговорам, длившимся более 20 лет. Каспийское море в Конвенции названо водоемом, в отличии от предыдущих договоров, где применялись названия озера и моря. Автор приходит к мнению, что несмотря на положительные моменты, существуют ряд неурегулированных вопросов (например, разногласия в Азербайджано-Иранских взаимоотношениях). В конце статьи приводятся выводы, предлагается продолжение двусторонних и многосторонних переговоров для решения оставшихся проблем. Азербайджано-Туркменский Меморандум является положительным примером в этом вопросе.

***L.Z.Qarayeva***

# XƏZƏR DƏNİZİNİN HÜQUQİ STATUSU HAQQINDA 2018-ci İL KONVENSİYASI – XƏZƏRYANI DÖVLƏTLƏRİN HÜQUQ VƏ ÖHDƏLİKLƏRİ

***Açar sözlər:*** *hüquqi status, Xəzər dənizi, orta xətt, sərhəd gölü, su hövzəsi, Konvensiya*

Xəzərin statusu məsələsi həmişə Xəzəryanı dövlətlərin maraqlarına uyğun olub və onların xarici siyasətinin əsasını təşkil edib. Məqalədə müxtəlif dövrlərdə Xəzərin hüquqi statusunun müəyyən edilməsi tarixi araşdırılır. Siyasi-hüquqi baza elmi və tənqidi baxımdan təhlil edilir. Qeyd olunur ki, 2018-ci ildə Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyanın bağlanması 20 ildən artıq davam edən çoxtərəfli görüşlərə və danışıqlara son qoyub. Konvensiyada Xəzər dənizi göl və dəniz adlarının istifadə edildiyi əvvəlki müqavilələrdən fərqli olaraq su hövzəsi adlanır. Müəllif belə qənaətə gəlir ki, müsbət cəhətlərə baxmayaraq, bir sıra həllini tapmamış problemlər (məsələn, Azərbaycan-İran münasibətlərində fikir ayrılıqları) var. Məqalənin sonunda

nəticələr verilir, qalan problemlərin həlli üçün ikitərəfli və çoxtərəfli danışıqların davam etdirilməsi təklif olunur. Azərbaycan-Türkmənistan Memorandumu bu məsələdə müsbət nümunədir.

**_L.Z.Garayeva_**

## CONVENTION ON THE LEGAL STATUS OF THE CASPIAN SEA OF 2018 - THE RIGHTS AND OBLIGATIONS OF THE CASPIAN STATES

***Keywords:*** *legal status, Caspian Sea, median line, border lake, body of water, Convention*

The issue of the status of the Caspian Sea has always been in the interests of the Caspian states and has formed the basis of their foreign policy. The article explores the history of determining the legal status of the Caspian in various periods. The political and legal framework is analyzed from a scientific point of view. It is noted that the conclusion of the Convention on the Legal Status of the Caspian Sea in 2018 put an end to multilateral meetings and negotiations that lasted more than 20 years. The Caspian Sea in the Convention is called a body of water, in contrast to previous treaties, where the names of the lake and the sea were used. The author comes to the conclusion that despite the positive aspects, there are a number of unresolved issues (for example, disagreements in the Azerbaijani-Iranian relations). At the end of the article, conclusions are given, it is proposed to continue bilateral and multilateral negotiations to solve the remaining problems. The Azerbaijan-Turkmen Memorandum is a positive example in this matter.

С развалом СССР и возникновением новых независимых государств изменилась ситуация на геополитическом пространстве Каспийского моря. Противоречивый вопрос о статусе Каспийского моря стал основной целью реализации интересов как региональных, так и внерегиональных игроков.

Впервые проблема политико-правового статуса Каспийского моря возникла после Персидского похода Петра I (1722-1723) и русско-иранских войн (1804-1812, 1826-1828). Последовавшие за этими походами и войнами Петербургский (1723), Рештский (1729), Гюлистанский (1813) и Туркменчанский (1828) российско-персидские трактаты предоставили России исключительное право иметь военный флот на Каспийском море «на вечные времена» [17]. У Персидского государства оставалось только право на торговое судоходство. Особое значение имели договора 1881 и 1893 года, между Россией и Персией, по которым проводились границы между двумя государствами. Договора действовали вплоть до 1917 года. Большевистская революция привела к преобразованиям, вследствии которых новое правительство приняло решение об отказе от военного присутствия на Каспийском море.

В советский период статус Каспия регулировался на основе договора 1921 года между РСФСР и Персией и договором о торговле и мореплавании 1941 года. Согласно данным договорам обеспечивалась свобода судоходства по всей акватории моря и свобода рыболовства, за исключением десятимильных национальных зон и запрет на плавание по Каспию некаспийских государств.

С окончанием биполярной системы Россия наряду с Ираном потеряла право двустороннего пользования Каспийским морем. Новые независимые государства предъявили свои требования на национальные участки.

Опираясь на право континуитета, то есть непрерывности в международном праве, Россия претендовала на преемственность прав Российской империи, РСФСР и СССР, как участника и субъекта международных отношений. Поэтому в начале 1991 года Россия предложила заключить соглашение об управлении запасами биоресурсов на основе уже существующего правового режима Каспийского моря, который предусматривал бы свободу рыболовства по всей акватории Каспия [3, с.67-68]. Позиция России была подтверждена новым соглашением от 21 декабря 1991 года (Алма-Ата), согласно которой «государства-участники Содружества гарантируют выполнение международных обязательств бывшего СССР» [4, с.325.]. То есть Азербайджан, Казахстан и Туркмения, как члены Содружества Независимых Государств подтвердили положения Алма-Атинской декларации.

Позиции Азербайджана и России в основном совпадали. Оба государства были сторонниками решения вопроса на основе норм международного права и Конвенции ООН от 1982 года. Азербайджанская Республика имела международно-правовые основания на разработку минеральных ресурсов моря (на основе пункта 5-ой статьи десятой Конвенции 1982 года, о режиме исторических заливов и иных исторических вод) [2, с.177].

Азербайджан придерживался решения вопроса путем продления сухопутных границ Каспийского моря до срединной линии. Таким образом, границы каждого сектора становятся государственными границами, а значит государство обладатель данного сектора имеет все права на различные виды деятельности в этом секторе. При этом вода, воздух и ресурсы могут использоваться другой стороной только при условии согласия владельца сектора.

Однако такое разделение не было в интересах России, так как лишал ее границы с Ираном и Туркменистаном, а Иран с Казахстаном и Россией [9, с.113]. Россия же предлагала разделение дна Каспия на

национальные сектора, таким образом государства получали право на прибрежные зоны, а акватория могла находиться в общем пользовании.

Для решения спорных вопросов прикаспийские государства собрались в городе Реште в 1993 году на межправительственной конференции по использованию и охране биоресурсов Каспия [15, с.177]. Предложение Азербайджана о распределении ресурсов Каспия на принцип разделяемости встретило отпор со стороны российской делегации.

В ответ на заключение «Контракта века», 12 сентября 1994 года Министерство Иностранных Дел Российской Федерации направило специальную ноту Министерству Иностранных Дел Азербайджанской Республики. В этой ноте МИД РФ говорилось, что «...односторонние действия в отношении Каспия являются незаконными и не будут признаваться Российской Федерацией» [7, с.28]. Как видно из этих слов, суверенная и независимая Азербайджанская Республика, признанная мировым сообществом и в том числе РФ, являясь членом ООН и субъектом международного права, должна была испрашивать согласия другого иностранного государства, как распоряжаться недрами в национальном секторе Каспийского моря.

Еще до заключения контракта с консорциумом иностранных государств Азербайджанское государство настаивало на секторальном делении Каспийского моря.

20 ноября 1993 года между Советом Министров Российской Федерации и Кабинетом Министров Азербайджанской Республики было подписано соглашение «О сотрудничестве в области разведки и разработки нефтяных и газовых месторождений на территории Азербайджанской Республики», в котором, договорились «для ускорения ввода в разработку углеводородных ресурсов месторождений «Азери» и «Чираг», расположенных в азербайджанском секторе Каспийского моря, эффективного использования производственных, финансовых и иных ресурсов предприятий и организаций Азербайджанской Республики и Российской Федерации, включить российское Акционерное общество «Нефтяная компания «ЛУКойл» в сотав консорциума по разработке месторождений «Азери» и «Чираг» с долевым участием 10%». Другими словами, российская сторона на уровне правительства признала наличие «азербайджанского сектора» [9, с. 67-68].

На встрече в Казахстане, которая состаялась 15-16 мая 1995 года Россия предложила установить кондаминимум и рассматривать море собственностью пяти прибрежных государств и таким образом не допускать односторонних действий по присвоению ресурсов и пространства одним государством без согласия других.

6 июля 1998 г. в Москве президенты двух стран подписали Декларацию «О вечной дружбе и союзничестве, ориентированной в XXI столетие», а также «Соглашение между Российской Федерацией и Республикой Казахстан о разграничении дна северной части Каспийского моря для реализации права на недропользование». В статье первой данного соглашения указывается, что границы определяются на «равном расстоянии от берегов двух стран по срединной линии...». При этом прохождение «срединной линии определяется при помощи точек отсчета на побережьях с учетом островов, исходя из уровня Каспийского моря».

В 2000 году Россия предложила новый вариант урегулирования на основе принципа «50 на 50» по которому, «государство, претендующее на спорное месторождение, но еще не начавшее ее осваивать, компенсирует половину понесенных расходов соседу, который в него уже «вложился».

Во время официального визита В.Путина в Баку в 2001 году было подписано «Заявление о принципах сотрудничества на Каспийском море». В Заявлении отмечалось, что все вопросы должны рещаться мирными средствами, а море должно быть зоной мира и дружбы.

В соответствии с данным документом предлагалось «на первом этапе разграничить дно Каспийского моря между сопредельными и противолежащими государствами на секторы/зоны на основе метода срединной линии, проводимой с учетом равноудаленных точек и модифицированной по договоренности сторон». Данное соглашение стало компромиссом в подходах двух государств к этой проблеме [10, с.88].

В 2002 году представители Азербайджана, Казахстана, Ирана, Туркменистана и России встретились в Ашхабаде на первом саммите прикаспийских государств. на встрече государства подтвердили единство своих интересов [8].

Для реализации прав в отношении минеральных ресурсов и хозяйственной деятельности в Соглашении определялись координаты разграничения приграничных участков дна Каспийского моря. А минеральные ресурсы, осваиваемые на линии разграничения будут определяться на основе международной практики, которая применяется при освоении трансграничных месторождений, организациями, назначенными соответствующими правительствами.

Во время визита в Москву в сентябре 2002 г. Г.Алиева президенты двух стран подписали Соглашение о разграничении сопредельных участков дна Каспийского моря и его недр на основе срединной линии, проводимой с учетом равноудаленности точек и модифицированной по договоренности сторон с учетом общепризнанных норм международного права.

Особо примечательный факт наблюдался во время официального

визита президента Г.Алиева в Иран в 2002 году. Во время встречи Гейдара Алиева с тогдашним премьер-министром Ирана Мохаммадом Хатами, Г.Алиев категорически возражал против наименования Каспийского моря «Озером Мазандаран». М.Хатами сказал, что «С вашей стороны Каспийское море называют «озеро Казвин», а в Иране – «озеро Мазандаран». Но назовем его Каспийским морем, чтобы никто не беспокоился». Г.Алиев в ответ особо подчеркнул, что «издавна его имя было Каспийское море. И название Каспийского моря не может быть изменено» [11].

Трехстороннее Российско-Азербайджанско-Казахстанское Соглашение 2003 года о разделении дна и общем пользовании поверхностью Каспия положило конец противоречиям – Азербайджан и Казахстан согласились с деятельностью русских нефтяных компаний на своих территориях и транзит азербайджанской нефти по территории России [6, с.19].

Вторая встреча прикаспийских государств состоялась в Тегеране 2007 года. Самый примечательный факт состоял в том, что позиции Азербайджана и России по статусу Каспия были наиболее близкими [5, с.81-91.]. В том же году пять прикаспийских государств теперь уже собрались в Баку на очередную встречу. Основными вопросами были вопросы делимитации границ, безопасности и защиты окружающей среды. Российский президент Д.Медведев призвал к борьбе против деградации биологической системы.

На Каспийском саммите 2014 года прозвучала идея подписания «новой Конвенции» в Астане. Было предложено в 2016 году провести пятисторонние учения служб чрезвычайного реагирования, с целью оповещения и координации спасательных подразделений. Стороны договорились совместно проводить работы по созданию договорно-правовой базы для разработки стандартов деятельности на Каспии. Предполагалось завершить в ближайшее время ратификацию протоколов по реагированию на нефтеразливы, о защите Каспийского моря от загрязнений, о сохранении биологического разнообразия, которые были ранее приняты Тегеранской конвенцией по защите морской среды в 2003 году.

Самым большим переломом в вопросе установления статуса Каспийского моря стало подписание Конвенции о правовом статусе Каспийского моря пятью прикаспийскими государствами (Азербайджаном, Казахстаном, Туркменистаном, Россией и Ираном) в августе 2018 года. Церемония подписания договора главами государств состоялась в казахстанском городе Актау. Это событие стало итогом двадцатилетнего переговорного процесса и положило конец

неопределенности в вопросе о статусе Каспийского моря. Конвенция стала своего рода «Конституцией Каспия».

«Подписание Конвенции о правовом статусе Каспийского моря является историческим событием и важным достижением для пяти его прибрежных государств. Оно ещё раз продемонстрировало, что прикаспийские государства обладают твёрдой решимостью подтвердить атмосферу устойчивого мира и сотрудничества в Каспийском бассейне и прилегающих регионах. Конвенция определяет правовые рамки межгосударственных отношений и поведения в Каспийском море. В основе этого документа лежат общепринятые принципы международного права, в особенности такие ключевые как уважение территориальной целостности и суверенитета государств», – отметил в своем интервью министр иностранных дел Азербайджанской Республики Эльмар Мамедьяров по итогам V саммита глав прикаспийских государств [13].

Рамочная Конвенция определяет статус Каспия не как море, и не как озеро. Каспийское море было названо «водоемом, окруженным сухопутными границами пяти прикаспийских стран» [14]. Благодаря этой формулировке составители документа могут более избирательно подходить к некоторым основным положениям, а та неопределенность, которая существовала все эти годы нашла свое решение.

Пожалуй, самое основное в Конвенции это то, что стороны могут реализовать свои суверенные, исключительные права, а также осуществлять свою юрисдикцию на Каспии.

Положения, которые были озвучены в предыдущих договорах, нашли свое отражение и в данном документе. Так, водная поверхность Каспийского моря остается в общем пользовании, а дно и недра делятся между государствами, на основе договоренности по международному праву.

Каждая из сторон обладает суверенными правами на территориальные воды не превышающие по ширине 15 морских миль и рыболовную зону шириной 10 морских миль, прилегающую к территориальным водам. Граница территориальных вод считается государственной границей государств, а внерыболовных зонах остается общее водное пространство.

В целях соблюдения интересов каждого государства судоходство, рыболовство, научные исследования и прокладка трубопроводов осуществляется по согласованным правилам. Стороны договорились о том, что в границах своих секторов дна каспийского моря каждое государство осуществляет свои суверенные права на недропользование.

По дну можно прокладывать магистральные трубопроводы и кабели, причем строго должны соблюдаться существующие

экологические требования и стандарты в целях нанесения ущерба уникальной морской среде. Важным обстоятельством является необходимость согласования трассы для прокладки трубопровода только со стороной, через сектор которой будет пролегать его маршрут [12]. Свобода транзитного провода нефтяных ресурсов из Каспийского моря к другим морям, Мировому океану и обратно обеспечит прекрасные возможности для экономического развития стран. В дальнейшем это создаст условия для расширения транспортных связей, увеличит торговый потенциал. В конвенции также отмечается, что прохождение судов в/из Каспийского моря должно осуществляться под флагом каждой из стран.

Не обошли стороной государства и экологический фактор, который должен учитываться при реализации масштабных морских проектов. Если учесть, что экологическое состояние Каспия влияет на «самочувствие всего Евразийского континента», государства Каспийского региона должны коллективными усилиями поддержать экологический баланс водоема.

В морском праве всегда учитываемый фактор, это присутствие вооруженных сил. По новой конвенции вооруженные силы внерегиональных государств не имеют доступа в Каспийскую зону, а пять прикаспийских государств, носят ответственность за поддержание безопасности и управление ее ресурсами.

В документе также подчеркивается, что подписавшие ее стороны должны сотрудничать в целях противодействия международному терроризму и его финансированию, незаконному обороту оружия, наркотических средств, психотропных веществ и их прекурсоров, браконьерству, предупреждения и пресечения незаконного ввоза мигрантов по морю, а также иных преступлений на Каспийском море.

Теперь определим, что получит каждая из сторон при реализации данной Конвенции.

Российская Федерация также как Иранская Исламская Республика стали гарантом отсутствия вооруженных сил внешних акторов на Каспийском море. Сами же эти государства намерены обеспечивать «стабильный баланс вооружений на Каспийском море» и «осуществлять военное строительство в пределах разумной достаточности с учетом интересов всех сторон». Россия также получила преимущества при перемещении и использовании своих военно-морских сил. Предусмотренный правовой режим гарантирует свободу развития ВМС России, плавания и действий российских военных кораблей в общем водном пространстве. Устанавливаются правила безопасного поведения кораблей в прибрежной зоне и в районах интенсивной хозяйственной деятельности.

Три прикаспийских государства – Азербайджан, Туркменистан и Казахстан получили в пользование большие участки морского дна и месторождений нефти и газа. По оценкам американской Energy Information Administration (EIA), «на шельфе Каспия имеется до 6, 5 млр. тон реальных и предполагаемых запасов нефти и газа в нефтяном эквиваленте» [1].

Государственная Дума Российской Федерации 19 сентября 2019 года ратифицировала Конвенцию о правовом статусе Каспийского моря, а 25 сентября документ был одобрен Советом Федерации. 1 октября 2019 года президент РФ В.Путин ратифицировал Конвенцию о правовом статусе Каспийского моря.

Однако не все так гладко, как кажется, есть и противоречивые, коллизионные вопросы. Потенциальные риски вскоре дадут о себе знать. Так, например, Иран до сих пор не ратифицировал данный договор.

Еще одна проблема между Азербайджаном и Туркменией – продолжавшаяся дискуссия по вопросу о принадлежности трех нефтяных месторождений: «Кяпяз» (туркменский «Сердар»), «Азери» («Омар») и «Чираг» («Осман»). Туркмения предъявляла свои требования на месторождения, расположенные ближе к туркменским берегам, чем к азербайджанским. Неоднократно Министерство Иностранных Дел Туркмении направляло Азербайджану ноты, называя действия Азербайджанской Республики незаконными. Так на территориях «неопределенной юрисдикции» западными компаниями (Statoil, Chevron, BP, ExxonMobil Hess Corporation и т.д.) проводились определенные работы.

Но изменения в Каспийском регионе привели к выбору в направлении «Дружбы». Урегулирование противоречий открыл возможность реализации проекта 1990-х годов Транскаспийского трубопровода. Решением вопроса стал Меморандум, подписанный между Азербайджаном и Туркменистаном 12 января 2021 года о совместной разведке и разработке углеводородных ресурсов на месторождении «Достлуг» [18].

По праву конвенция не обосновывает принцип разделения дна каспийского моря на сектора. Имеется лишь общая формулировка – «осуществляется по договоренности сопредельных и противолежащих государств с учетом общепризнанных принципов и норм международного права». Наличие данной формулировки неофициально напоминало о том, что пять прикаспийских государств не могут договориться о нефтегазовых запасах и транзитных трубопроводах (например прохождение туркменского газа через Каспий в Азербайджан, а от туда в Европу). Согласно Конвенции прикаспийские государства могут

прокладывать трубопроводы в своем секторе, получив лишь экологическое одобрение всех других стран. Таким образом, Россия и Иран получат довод, который позволит как можно больше задержать возможное строительство газопровода из Туркмении в Азербайджан.

Другой отрицательный момент – межгосударственное взаимодействие между государствами снизилось в отличии от предыдущего периода, когда государства чаще встречались для завершения работы по определению статуса Каспия. Сегодня, когда Конвенция уже подписана, прикаспийские государства «успокоившись», занимаются вопросами его осмысления и применения, что является основной внутригосударственной проблемой.

Многие нерешенные вопросы оставлены для дальнейших двусторонних переговоров. Требуют ответа также, споры и разногласия прикаспийских государств, например, между Азербайджаном и Ираном, по поводу месторождений.

И Иран, и Россия в начале 90-х годов придерживались позиции, согласно которой рассматривали Каспийское море как общее. Однако Россия провела двойственную политику. С одной стороны, она заключила Соглашение с Казахстаном в 1998 г. о разделе северного морского дна и его ресурсов, с другой – такой же договор был заключен и с Азербайджаном. Иран встретил этот акт с протестами. Официальная позиция Ирана основывалась на том, что любые решения должны приниматься совместно.

По международно-правовым нормам о совместной собственности все ресурсы Каспия являются общими и должны быть разделены поровну. Поэтому двусторонние соглашения, заключенные Россией о разделе континентального шельфа противоречат принципу общности.

При правлении президента Мохаммеда Хатами Иран предложил разделить Каспийское море на части, по 20% каждой прибрежной стране. Однако другие прикаспийские государства отказались от этого предложения. С тех пор, иранская сторона каждый раз настаивала на своей двадцатипроцентной доле. Однако и Азербайджан, и Туркменистан не были довольны этой ситуацией, особенно на нефтяном месторождении Альборз и такое спорное положение затянулось на долгое время.

После встречи в Актау Президент Ирана Хасан Роухани заявил: «В южной части моря между Туркменистаном, Ираном и Азербайджаном по-прежнему существуют проблемы. У нас были хорошие договоренности с Азербайджаном, которые действуют, но некоторые вопросы до сих пор не решены» [16].

Для согласования позиций по этим противоречивым проблемам была установлена «площадка» – Экономический Форум, встреча

прикаспийских государств. Первый Каспийский экономический форум состоялся 12 августа 2019 года в Туркмении.

Второй Экономический Форум был проведен 8 декабря 2021 года в Москве в конференцзале Ученого Совета Российского государственного геологоразведочного университета имени Серго Ордженикидзе.

В повестку встречи входили двусторонние и многосторонние встречи стран-участниц, обсуждались вопросы торгово-экономического сотрудничества прикаспийских государств, сотрудничество в области экологии, энергетики, транспорта, инфраструктуры и гуманитарной сферы, учитывались предложения заинтересованных ведомств.

И хотя, Конвенция не дала окончательного ответа на вопрос, является ли Каспий морем или озером. По компромиссу между государствами, его можно считать и тем, и другим. При разделе акваторий и недр различных типов водоемов будут максимально использоваться все выгоды.

Однако, несмотря на положительные тенденции, наверняка сохраняться противоречия между странами «каспийской пятерки», хотя основное соглашение, Конвенция по статусу Каспийского моря уже подписана. Неизвестно, какова будет позиция дипломатов в отношении того или иного положения конвенции, если измениться ситуация в мире, а она будет меняться. Многое будет зависеть от политической воли глав прикаспийских государств. Поэтому, прикаспийским государствам надо периодически проводить встречи на высшем уровне, согласовывая свои позиции, с учетом интересов друг друга. Наверняка, это поможет сотрудничеству в сфере экономики, транспорта и установления безопасности в Каспийском регионе. Экономическая интеграция в регионе Каспийского моря должна служить установлению взаимовыгодного сотрудничества, а не конфронтации прикаспийских государств.

**ЛИТЕРАТУРА**

1. *Воробьев А*. Каспийская конвенция год спустя / Независимая газ., 2019, 13 октября
2. *Гасанов Г.* Позиция Азербайджана // Нефтегазовая вертикаль, 1998, № 2, с.117-122
3. *Жильцов С.С, Зонн И.С., Ушков А.М.* Геополитика Каспийского региона М.: Международные отношения, 2003, с.280
4. *Зонн И.С.* Каспий: иллюзии и реальность. М., 1999, с.467
5. *Лукьянов А.* Саммит в Тегеране, или Визит Президента России в Иран // Центр. Азия и Кавказ, 2008. № 1(55), с.81-91
6. *Мустафаев Р.С.* Позиция Азербайджанской Республики по вопросу о

статусе Каспия и правового режима использования его ресурсов / Информация о международном семинаре “Каспийская нефть и международная безопасность”, 5-6 марта 1996 / Архив МИД Азербайджанской Республики

7. *Притчин С.* Новый этап геополитической борьбы вокруг Каспийского моря после 1991 года / Вестник РУДН. Серия Всеобщая история, 2021, №1, с.21-36
8. *Романова Л.* Пять президентов – шесть мнений и один скандал / Независимая газ., 2002, 25 апреля, № 84
9. *Чернявский С.И.* Десять лет истории Азербайджана 2003-2013 гг. М., 2013, с.400
10. *Yakemtchouk R.* Les hydrocarbures de la Caspienne. La compйtition des puissances dans le Caucase et en Asie centrale / Bruylant. 1999, p.176.
11. İranın Xəzər dənizi adına həmişə qısqanclığı olub / 11:08 20.09.2018 / ARXİV 971/https://sherg.az/arxiv/53853
12. *Аманжолова З.* Правовой статус Каспия: значение Актаунской конвенции/ 9 января 2019 г. / https://e-cis.info/news/566/74047/Интернет-портал СНГ
13. Интервью Министра иностранных дел Эльмара Мамедьярова по итогам V саммита глав прикаспийских государств, данное ряду информационных агентств/ MƏTBUAT ŞƏRHI. 16 avqust 2018 / https://www.mfa.gov.az/az/news/no
14. Конвенция от правовом статусе Каспийского моря. 12 августа 2018 года / http://www.kremlin.ru/supplement/5328
15. *Мамедов Р.* Формирование Международно-правового статуса Каспийского моря в постсоветский период Р. // Центральная Азия и Кавказ / № 2 (8) 2000/ с.175-182/ https://ca-c.org.ru/journal/2001/journal_rus/cac-02/10.mamru.shtml.
16. Правовой статус Каспийского моря и интересы Ирана/Каспийский вестник/5 июня 2022 г./ http://casp-geo.ru/pravovoj-status-kaspijskogo-morya-i-interesy-irana/
17. *Сажин В.* Судьбоносная веха в истории Каспия. К предстоящему подписанию о правовом статусе Каспийского моря/ 23.07.2018/ Международная жизнь / https://interaffairs.ru/news/show/20232
18. *Сидоров И.* Южный Кавказ-Каспий: реальны ли транзитные войны?/Интернет -журнал «Военно-политическая аналитика»/4 февраля 2022 г./ https://vpoanalytics.com/2021/03/15/yuzhnyj-kavkaz-kaspij-realny-li-tranzitnye-vojny/

Redaksiyaya daxil olub 21.03.2022

***УДК 32:37***

***Л.Д.Гулиева***
*Азербайджанский государственный педагогический университет*
*Leyli.Quliyeva@adpu.edu.az*

# НЕКОТОРЫЕ АСПЕКТЫ МУЛЬТИКУЛЬТУРАЛЬНОГО ОБРАЗОВАНИЯ В ВЫСШИХ УЧЕБНЫХ ЗАВЕДЕНИЯХ АЗЕРБАЙДЖАНА

***Ключевые слова:*** *мультикультурализм, толерантность, мультикультуральное образование, демократическое общество, культура, этнос*

Статья посвящена аспектам преподавания предмета «Введение в мультикультурализм» в высших учебных заведениях Азербайджана.

В статье отмечается, что мультикультурализм является государственной политикой нашей республики. Подчеркивается, что мультикультурализм стал образом жизни азербайджанского народа, превратившего в принципы своей жизнедеятельности толерантность, терпимость, высокое уважение в отношении других религий и культур.

Автор статьи отмечает, что проблемы мультикультурального образования в современном обществе необходимо рассматривать на широком фоне преобразований, характерных для нашего времени – преобразования в области мировоззрения, общественных структур и технических достижений.

В высшей школе мультикультуральное образование направлено на развитие мировоззрения студентов в виде приучения их к самостоятельной интеллектуальной работе, подразумевающей понимание процессов демократического развития общества, мультикультуральной безопасности страны, ознакомление с культурными и религиозными ценностями всех народов и этнических групп.

***L.D.Quliyeva***

# AZƏRBAYCANIN ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ MULTİKULTURAL TƏHSİLİN BƏZİ ASPEKTLƏRİ

***Açar sözlər:*** *multikulturalizm, tolerantlıq, multikultural təhsil, demokratik cəmiyyət, mədəniyyət, etnos*

Məqalə Azərbaycanın ali təhsil müəssisələrində «Multikulturalizmə giriş» fənninin tədrisi aspektlərinə həsr olunub.

Məqalədə qeyd olunur ki, multikulturalizm respublikamızın dövlət siyasətidir. Vurğulanır ki, multikulturalizm Azərbaycan xalqının həyat tərzinə çevrilmişdir və bizim xalq tolerantlığı, dözümlüyü, başqa din və mədəniyyətlərə yüksək hörməti öz həyat fəaliyyətinin prinsiplərinə çevirmişdir.

Müəllif məqalədə qeyd edir ki, müasir cəmiyyətdə multikultural təhsilin problemləri zəmanəyə xas olan islahatların geniş mənasında nəzərdən keçirilməlidir – dünyagörüşü, ictimai strukturların və texniki nailiyyətlərinin islahatları üzərində.

Ali təhsil müəssisəsində multikultural təhsil tələbələrin dünyagörüşünün inkişafına yönəldilir ki, onlar sərbəst, yəni intellektual fəaliyyətə cəlb olunsunlar və bu fəaliyyət cəmiyyətin demokratik inkişaf proseslərini başa düşməsini, ölkənin multikutural təhlükəsizliyini, bütün xalq və etnosların mədəni və dini dəyərləri ilə tanış olmasını nəzərdə tutur.

***L.D.Guliyeva***

## SEVERAL ASPECTS OF MULTICULTURAL EDUCATION IN HIGHER EDUCATIONAL INSTITUTIONS OF AZERBAIJAN

***Keywords:*** *multicultiralism, tolerance, multicultural education, democratic society, culture, ethnos*

The article is dedicated to the aspects of teaching "Introduction to multiculturalism" subject in higher educational institutions in Azerbaijan.

The article notes that multiculturalism is the governmental policy of the republic. It is discussed that multiculturalism became a lifestyle of Azerbaijani nation, which transformed into principles tolerance, forbearance, high respect to different cultures and religions.

The author of the article notes that the problems of multicultural education in modern society are necessary to be considered in broader background of transformation specific to our time: transformation in idealogies, public structures and technical achievements.

In higher educational institutions multiculturalism is aimed at world views of students in the form of accustoming them to independent intellectual work implying understanding of processes of democratic development of society, multicultural safety of the country, familiarization with cultural and religious values of all nations and ethnical groups.

Идея преподавания предмета «Введение в мультикультурализм» в высших учебных заведениях Азербайджана является одной из идеологических и политических целей, поставленных на сегодняшний день перед системой высшей школы Президентом Азербайджана Ильхамом Алиевым. Министерство Образования Азербайджанской Республики успешно претворяет эту идею в жизнь, охватывая все большее и большее интеллектуально-культурное пространство. Опыт преподавания предмета «Введение в мультикультурализм» во всех высших учебных заведениях нашей республики уже сейчас демонстрирует достигнутые положительные результаты и доказывает успешное претворение в жизнь данной идеи.

Школы и университеты в современном обществе должны прививать молодежи навыки творческого и критического мышления для того, чтобы учащиеся свободно выходили на рынок труда с полученные широкими возможностями адекватно адаптироваться к быстро и динамично развивающемуся миру, в котором они живут. Данный подход кардинальным образом трансформирует роль образования – одних только знаний становится недостаточно. Помимо профессиональных знаний образование должно быть направлено на развитие способности у молодежи находить все новые методы применения существующих знаний, креативное, инновационное и предпринимательское мышление, мировоззрение и видение мира. И если наше общество стремится перейти к новой философии образовательного процесса, которая будет соответствовать XXI веку, глобальным вызовам человечества, то нам необходимо думать творчески и всесторонне о процессе образования. «Важной задачей образования является формирование кадров, обладающих необходимыми знаниями и практическими навыками для обеспечения инклюзивного развития общества» [2, с.67].

Необходимо так развивать образование, чтобы оно соответствовало современному периоду, чтобы оно было нацелено и рассчитано на новые нужды и проблемы в обществе, чтобы оно могло охватить даже неизвестные сегодня виды работы и профессий. В данных процессах доминирующую роль играет овладение новыми знаниями, понятиями и парадигмами, большое значение имеют творчество, самостоятельность личности. Направленность и ориентация образовательного процесса в современный период на глубокое усвоение профессиональных, креативных, конкурентоспособных знаний и умений требует от нашей молодежи внутренней психологической и моральной подготовки. Студенты являются относительно обособленной общностью в среде молодежи, специфической социальной группой. Они обладают рядом возрастных, поведенческих и социально-психологических особенностей. Более высокая социальная зрелость студенческой молодежи по сравнению с молодыми людьми более раннего возраста, повышает уровень их самостоятельности и независимости, увеличивает их избирательное и более критическое отношение к социальной действительности, окружающей реальности и их значимости как субъектов социальных процессов, происходящих в обществе. Это способствует изменению соотношения между образованием, воспитанием и самовоспитанием в процессе их формирования. Студенты становится не столько объектом, сколько субъектом собственного формирования и развития. В некоторой степени ослабевает формирующее воздействие семьи, растет воздействие

общества, молодежных союзов и организаций, и, конечно, институтов обучения и образования студентов.

Помимо социально-психологических качеств, тесно связанных непосредственно с юношеским возрастом, студенты имеют и целый ряд других особенностей, которые обусловлены их статусом. Студенческие права и обязанности, академическая атмосфера, академические отношения и дисциплина формируют у них деловые качества, инициативу, более высокое чувство ответственности, активного и креативного отношения к действительности. Они имеют более высокое сознание, адекватно и точно осознают себя, обладают более реальной самооценкой. Это дает им возможность зрело и глубоко понимать роль мультикультурализма и толерантности, а также различных межэтнических и культурных процессов, происходящих в современном мире.

Готовность студентов правильно понимать и осознавать процессы, происходящие в мире, предполагает в то же время одновременную подготовку и формирование педагогических кадров, которые будут способны передать и преподнести современные знания и дух новой эпохи. Вызовы современности нацелены на каждого человека, на каждого индивида, предполагают осмысление, знание законов и требований мира, в которых личность живет и функционирует, личность, которая будет строить свою жизнь в социуме, исходя из глубоких и позитивных знаний, полученных на путях морально-интеллектуальных, нравственных и духовных поисков. Поэтому одна из задач института образования в современном обществе состоит в подготовке молодого поколения к требованиям времени, к требованиям сегодняшнего дня.

Как отмечает академик У.Алакбаров, «Особенностью формирования человеческого потенциала в Азербайджанской Республике является то, что наша страна выступает в качестве инициатора включения в образовательные программы новых предметов и новых специальностей, в том числе связанных с развитием человека» [2, с.57].

Мультикультуральное образование, общественно-политическая подготовка, теоретические знания, критически освоенные и осмысленные факты и концепции, предоставляемые высшей школой, а также знание жизни создают возможности для подготовки специалиста, могущего компетентно и правильно разбираться в тех областях, которые выходят далеко за пределы его профессиональной деятельности. Программа осуществления такой подготовки является особенно необходимой и желательной тогда, когда научно-техническая цивилизация начинает переходить к этапу органичного использования естественных и гуманитарных знаний о месте человека в естественной, культурной и мультикультуральной среде.

Сегодня Азербайджан является подлинным образцом межцивилизационного и межкультурного диалога. Мультикультуральные и толерантные традиции нашего народа, своими корнями уходящие в глубокую древность, успешная политика государства в этом направлении, поддерживаемая народом, с полным основанием дают право считать Азербайджан одним из центров мирового мультикультурализма. На сегодняшний день признание Азербайджана со стороны мировой общественности одним из мировых центров мультикультурализма является ярким свидетельством наличия мультикультуральной безопасности в нашей стране.

Испокон веков в Азербайджане в теплой доброжелательной обстановке проживают представители самых различных этнических и конфессиональных групп, которые имеют одинаковые гражданские права и свободы, в том числе и право сохранять и развивать свою культуру, традиции, исповедовать свою религию. В Конституции нашей страны зафиксировано, что Азербайджанская Республика – светское государство, все граждане которого равноправны вне зависимости от их национальности, вероисповедания, языка, и все они живут в рамках единого правового пространства.

«Мультикультурализм в Азербайджане – образ жизни, - отмечает Президент Азербайджанской Республики Ильхам Алиев, – на протяжении веков в Азербайджане существовали мультикультуральные общества, дружба и солидарность между народами – яркий пример этого. Мы и сегодня своими инициативами стараемся оказать положительное влияние на региональные и мировые процессы» [1].

Своей содержательной сущностью мультикультуральное образование подразумевает стимуляцию абсолютной и относительной ценности человека, и, в частности, направлено на стимулирование его способности к адаптации к общественным процессам уже с необходимым человеческим капиталом.

В образовательном смысле мультикультуральное образование предполагает органическое изменение многих компонентов и составляющих образования, как целостного института, обязательно включая и организационную структуру и форму, ценностные установки, методы обучения и воспитания, формы управления и оценки. Включая данный предмет в актив образовательной системы, следует учитывать, что это будет непрерывный процесс, в который входят долгосрочные усилия и труд, спланированные гармоничные действия, мониторинг. Предстоит ответственная и большая работа прежде всего в самой инфраструктуре института образования в нашей стране. Мультикультуральное образование органично связано со своевременной организацией

творческих поисков средств и методов передачи и трансляции знаний, гуманитарных и социальных технологий, которые в большой степени способны гарантировать формирование человеческого потенциала, востребованного современными реалиями, мировоззренческую и профессиональную зрелость. Как отмечает профессор Б.Юдин, «Осмысление и ассимиляция культуры современных достижений наук о человеке представляет отнюдь не один лишь академический интерес – человеку необходимо вырабатывать ориентиры, без которых невозможно жить в этом мире [6, с.25].

Сам поиск нового, открытие новых истин, новых способов и средств их выражения, творческое вдохновение, радость открытия – все это свойства и науки и культуры, между которыми существует тесная взаимосвязь, и, когда перед студентами раскрывается наука именно как поиск, как движение ко всем новым открытиям, как стройная логическая система завоеваний человеческого разума, это обусловливает у молодых специалистов чуткость к творческим поискам, умение понять и пережить сам механизм научной деятельности, красоту, которая проявляется не только в художественном, но и в научном творчестве. Вот почему наука, преподаваемая в высшей школе, в том числе и предмет «Мультикультурализм» уже сам по себе содержат возможности воспитания отзывчивости к своей культуре, к культурам и религиям других народов.

Прекрасная культура Азербайджана имеет самобытность, цельность, оригинальность, величие и сохраняет свои этнокультурные непреходящие ценности, несмотря на все зигзаги и перипетии своего развития, на трудности и противоречивость своей исторической судьбы, на все попытки имперских структур насильственно нивелировать и обесцветить исторические и национальные корни наших национальных традиций. Взаимодействие и сосуществование на протяжении веков на территории нашей страны многочисленных этнических, религиозных, духовных культур и субкультур, формируя и развивая многочисленные черты культурно-бытового сходства и многообразия, инициировали не поглощение одной культуры другой, а способствовали культурному плюрализму, органическому и гармоничному синтезу, взаимодействию и взаимовлиянию.

Культуролог профессор Ф.Мамедов определяет залог успешности решения проблем мультикультурализма и мультикультурального образования в органичном развитии духовной культуры общества, в приоритетном развитии интеллектуальной, этической, правовой и управленческой культуры при помощи науки, качественного образования, а также культурологического просвещения людей в рамках государственной политики мультикультурализма, опирающейся на

научную методологию. «Культура – это выбор добра, высокой этики и созидания на благо людей, которые нужно правильно формировать и направлять в созидательное русло» [4, с.59].

Введение в учебные программы данной дисциплины, играет важную роль, когда ознакомление студентов с обширными знаниями о различных культурах, религиях, конфессиях поможет, с одной стороны, гарантировать им самостоятельный, свободный выбор исповедания, культурных ценностей, а с другой стороны – обеспечить формирование у студенческой молодежи толерантного, доброжелательного и адекватного отношения к любому мировоззренческому и религиозному выбору, который будет основан на всесторонних глубоких знаниях всего этнокультурного и духовного достояния человеческой цивилизации. Все эти составляющие способствуют выработке у студентов творческого восприятия предлагаемого материала и креативного мышления.

Творческое мышление по своей специфике является новаторским, несхематичным, оно всегда открывает новые горизонты и перспективы, невиданные раннее. Процесс такого мышления не идентичен с деятельностью, состоящей в оперировании известными элементами известным способом. Это не только связывание между собой приобретенных знаний и составление определенных выводов, даже таких, которые до сих пор не были сделаны. Творческое мышление является процессом подлинных открытий, в котором приобретенные знания становятся силой, показывающей все возможности, принимаемые во внимание. И если рациональное мышление и знания представляют собой системный контроль различных гипотез и предположений, то творческое мышление зачастую становится источником гипотез, научных догадок.

В свете демократических преобразований азербайджанского общества, его прогресса и интеграции в мировое сообщество со всей необходимостью возрастает роль мультикультурального образования студентов, воспитания в них согласия и толерантности, возникает потребность в их умении анализировать социокультурные процессы, предпосылки формирования культуры толерантности, тенденции ее развития и динамики, приоритетности поиска путей мирного и стабильного сосуществования народов в условиях многообразия.

Проблемы мультикультурального образования и воспитания в настоящее время следует рассматривать на широком фоне преобразований, характерных для нашего времени – преобразования в области мировоззрения, общественных структур и технических достижений. При этом возникает необходимость дополнения узконаучных и узкотехнических сведений гуманитарным содержанием мультикультуральных идей, обогащающим духовную жизнь человека,

который активно подходит к решению жизненных задач и проявляет к ним эмоциональное отношение. В высшей школе мультикультуральное образование нацелено на развитие интеллекта студенческой молодежи в виде приучения к самостоятельной умственной работе, подразумевающей понимание процессов демократического развития общества, национальной и мультикультуральной безопасности страны, обеспечение и развития культурных и религиозных ценностей всех народов и этнических групп. Мультикультурализм используется в целях формирования чувства патриотизма всех членов общества, защиты этнокультурных ценностей от национализма, сепаратизма, изоляции и других негативных процессов. «Чувство патриотизма рождается внутри человека. Если его нет, то человек лишен духовности» [7].

Дисциплины «Азербайджанский мультикультурализм» и «Введение в мультикультурализм» изучают условия и причины возникновения и развития мультикультурализма в Азербайджане на протяжении столетий, его сущность, теоретико-идеологические, нормативно-правовые основы, отличительные особенности, в том числе преимущества, состояние и перспективы его развития. Основная цель данного курса заключается в разъяснении студентам сущности политики мультикультурализма Азербайджанской Республики, ее особенностей, причин, обеспечивающих успешность этой политики в стране».

Студенты, изучающие дисциплину «Введение в мультикультурализм», также получают знания не только об основных этапах и направлениях возникновения и развития этой модели, но и об истории литературы, культуры, языка, психологии, этнографии, политики, социологии страны. Отсюда самый близкий путь к изучению всего региона, Кавказа, а в более широкой перспективе – Востока в целом» [3, с.31-32].

В монографии «Литературно-художественные источники азербайджанского мультикультурализма», подготовленной под научным руководством Кямала Абдуллы, академик подчеркивает актуальность изучения азербайджанской модели мультикультурализма для решения международных проблем мультикультурализма, значимость эмпатии и оценки людей на основе нравственных ценностей, поиска путей дальнейшего нравственного сближения представителей различных народов и религий [5, с.3-8].

Мультикультуральное образование не должно иметь временный или формальный характер. В систему мультикультурального образования и воспитания должны быть включены соответственно обогащенные и усовершенствованные некоторые из следующих соображений.

1. Теоретическая разработка, которая должна разъяснять сущность и специфику мультикультурального образования в современном обществе, в

соответствии с современными реалиями; связь с другими культурно-социальными сферами, сущность и задачи системы мультикультурального образования, структуру и принципы этой системы, возможности и результаты комплексных исследований.

2. Анализ нынешнего состояния мультикультурального образования, оценка форм работы и результатов, условий, путей, средств во всех сферах жизни общества – в национальном и региональном аспектах, а также по социальным группам.

3. Содержание работы по мультикультуральному образованию в будущем, темпы и перспективы (также в национальном и региональном развитии и по социальным группам). Необходимо конкретно раскрыть как мультикультуральные и толерантные ценности воспринимаются, по каким каналам, какие институты этому содействуют, каков воспитательный и образовательный результат, получаемый как в высшей школе, так и в отдельных сферах: в быту, в человеческих взаимоотношениях, в культурной и социальной деятельности.

4. Использование готовых кадров и подготовка будущих специалистов.

5. Организация написанием студентами рефератов, дипломных работ, научно-исследовательских работ по темам, имеющих отношение к мультикультурализму, толерантности, этнокультурному и религиозному многообразию, межэтническим отношениям и т.д.

Данная схема довольно поверхностна и не полна, но она дает представление об обширности и трудности поставленных задач.

В процессе преподавания курса мультикультуразма целесообразно использовать многочисленные средства визуального эффекта – ролики по каждой теме, интернет-ресурсы, различные презентации. Следует учитывать тот факт, что аудиовизуальные средства имеют очень сильное обучающее воздействие, так как одновременно способствуют как образному восприятию предлагаемого материала, так и его наглядную конкретизацию в наиболее приемлемой для восприятия формы.

Все стороны мультикультурального образования непосредственным образом тесно связаны не только с настоящим, но и с будущим нашей молодежи. Исходит это из того факта, что одним из основных показателей современного развития азербайджанского общества является в настоящее время толерантная среда с твердой мультикультуральной основой, руководствуясь которой Президент Азербайджана Ильхам Алиев охарактеризовал мультикультурализм в нашей республике как «образ жизни», оказывая на государственном и правительственном уровне большую поддержку этому направлению в политике.

Идеология азербайджанства, основу которой заложил Общенациональный лидер азербайджанского народа Гейдар Алиев, включает в себя такие понятия как единство, солидарность, дружба всех народов и наций, проживающих на территории нашей страны. В основе межнациональных отношений в нашей республике, единстве и солидарности всех народов находится мудрое и справедливое высказывание Гейдара Алиева «У всех у нас одна Родина. Это – Азербайджан» [7].

**ЛИТЕРАТУРА**

1. *Алиев И.Г.* Выступление на Бакинском международном гуманитарном форуме // Материалы Форума: в 2-х частях, ч.1, 2-3 октября 2014, Баку, 2015
2. *Алакбаров У.* Основы управления инклюзивным развитием: Учебник для высших учебных заведений. Баку: Асполиграф, 2018, 216 с.
3. Азербайджанский мультикультурализм: Учебник для высших учебных заведений / Под ред. К.Абдулла, Э.Наджафов. Баку: Şərq-Qərb, 2019, 527 с.
4. *Мамедов Ф.* Культурология, образование и национальное развитие. Ali təhsil və cəmiyyət, №2, 2018, s.54-62
5. Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları. Bakı: Mütərcim, 2016, 285 s.
6. Müasir cəmiyyət, təhsil sosiologiyası. Bakı: Təknur, 2014, 156 s.
7. https://heydar-aliyev-foundation.org/ru/content/index/85

Redaksiyaya daxil olub 26.01.2022

*УДК 94(479.24)*

***Э.К.Мамедова***
*Азербайджанский государственный педагогический университет*
*suleymanova.elmira1954@mail.ru*

# ПАМБАКСКИЙ СУЛТАНАТ

***Ключевые слова:*** *Гаракился, Джалалоглы, Хамамлы, Гюмри, Ширак, Хневанк*

В статье на истории Памбакского султаната, существующего в системе феодально-раздробленного Азербайджана во второй половине XVIII века, исследуется территория, население, язык, правящие династии мусульманского феодального владения. Материалы анализа указывают на принадлежность территории султаната тюркам-огузам еще у истоков цивилизации. Территория султаната охватывала ряд районов нынешней Армении: Гаракился (город Кировокан, Гугаргский район), Джалалоглы (Степанаван), Хамамлы (Спитак) и часть уезда Гюмри (Ленинакан). Столицей султаната являлся город Гаракился.

Анализ исторических фактов, документальных источников, исторических исследований, а также названий топонимов и этнонимов, позволили установить, что на территории Памбакского султаната проживало смешанное христианско-мусульманское тюркское население с абсолютным большинством тюрков-мусульман. Языком межобщения был тюркский язык. Христианское население представляли потомки албанских христиан.

***E.K.Məmmədova***

## PƏMBƏK SULTANLIĞI

***Açar sözlər:*** *Qarakilsə, Cəlaloğlu, Hamamlı, Qümrü, Şirak, Xnevank*

Məqalədə XVIII əsrin ikinci yarısında Azərbaycanın feodal-pərakəndə dövlətçılık sistemində mövcud olmuş Pəmbək sultanlığının tarixində müsəlman feodal mülkiyyətinin ərazisi, əhalisi, dil və hakim sülalələri öyrənilir. Materialların analizi göstərir ki, sultanlığın ərazisi bəşər tarixinin qədim astanasından başlayaraq oğuz türklərinə məxsus idi. Sultanlığın ərazisi indiki Ermənistan Respublikasının bir necə rayonunu – Qarakilsə (Kirovokan şəhəri, Quqark rayonu), Cəlaloğlu (Stepanavan), Hamamlı (Spitak) və Qümrü (Leninakan) qəzasının bir hissəsini əhatə edirdi. Sultanlığın paytaxtı Qarakilsə şəhəri idi.

Tarixi faktların, rəsmi mənbələrin, tarixi tədqiqatların, həmçinin toponim və etnonimlərin adlarının analizi göstərir ki, Pəmbək sultanlığın ərazisində türk-müsəlman əhalisi çoxluq təşkil etməklə qarışıq xristian-müsəlman türk əhalisi yaşamışdır. Sultanlığın ərazisində ümumi danışıq dili türk dili idi. Xristian əhalisi alban tayfalarının əjdadları idi.

***E.K.Mamedova***

# THE PAMBAK SULTANATE

***Keywords:*** *Karakilisa, Jalalogly, Hamamli, Gyumri, Shirak, Khnevank*

*The* article on the history of the Pambak Sultanate, which existed in the system of feudal fragmented Azerbaijan in the second half of the 18th century, examines the territory, population, language, ruling dynasties of the Muslim feudal domain. The materials of the analysis indicate that the territory of the sultanate belonged to the Oghuz Turks. The territory of the sultanate covered a number of regions of present-day Armenia: Karakilisa (Kirovokan city, Gugarg region), Jalalogly (Stepanavan), Khamamli (Spitak) and part of Gyumri (Leninakan). The capital of the Sultanate was the city Karakilisa.

An analysis of historical facts, documentary sources, historical research, as well as the names of toponyms and ethnonyms, made it possible to establish that a mixed Christian-Muslim population lived on the territory of the Pambak Sultanate with an absolute majority of Turks. The language of communication was the Turkic language. The Christian population was represented by the descendants of Albanian Christians.

Во второй половине XVIII века Памбакское султанство являлось одним из значительных султанств на исторической территории Азербайджана. Оно занимало исторические азербайджанские земли в бассейне реки Памбак длиною 86 км, которая берёт начало на северо-восточном склоне Памбакского хребта в самой западной его части на границе между Лорийской и Ширакской областями нынешней Армении. Большая часть течения реки протекает между хребтами Памбакским и Базумским, затем соединяясь с рекой Дзорагет, образует реку Дебед, которая впадает в реку Кура. Горный Памбакский хребет шириной в 16 км и с высшей точкой Тежлер 3101 м, охватывая водораздел бассейнов Куры и Араза, тянется от города Хамамлы (Спитак) до полуострова Гейча (Севан) на 70 км. Со склонов горной цепи Безумского или Безобдальского хребта длиною 66 км и шириною 15-20 км и с самой высокой точкой Урасар 2992 м стекают многочисленные притоки рек Дзорагет и Памбак.

В XV-XVIII веках эта историко-географическая область находилась в составе Сефевидского государства и являлась мелким административным округом – махалле Чухурсаадского беглярбегства. Во второй XVIII века в бассейне одноименной реки образуется Памбекский султанат. В феодальной иерархии памбакские султаны находились в подчинении ireванских ханов. Конница памбакского султана, состоящая из элятов-скотоводов составляла значительную военную силу ireванского войска. В русско-каджарском сражениях вблизи монастыря Эчмиадзин и

Гямярли в июле 1804 года на подступах Иреванского ханства конница памбакского султана Мухаммед хана оказывала мужественное сопротивление русским войскам. В обеих сражениях русские войска потерпели поражение и отступили. По этому поводу гонец памбекского султана Мухаммед хана Аббас хан на переговорах с И.П.Лазаревым сообщает, что султанство по фирману Ага Мухаммед хана Каджара находится в подчинении Иреванского ханства и его султан будет до конца выполнять свой воинский долг перед иреванским Мухаммедага ханом (8).

Территория султанства охватывала ряд районов нынешней Армении: Гаракился (город Кировокан, Гугаргский район), Джалалоглы (Степанаван), Хамамлы (Спитак) и часть уезда Гюмри (Ленинакан). Столицей султаната являлся город Гаракился.

Жители султаната представляли смешанное христианско-мусульманское тюркское население с абсолютным большинством тюрков-мусульман. Тюркское население здесь жило с древнейших времен и всегда составляло абсолютное большинство этого региона. Различие в религии не отражались в языке межобщения в султанате. Основным языком межобщения являлся тюркский язык. Об этом свидетельствуют также топонимы в бассейне реки Памбек, название султаната и его населенных пунктов.

Название султаната Памбек показывает его связь с производством хлопка и хлопкового сырья, известным далеко за пределами страны. Тюркское слово «памбыг» в переводе означающее «хлопок», «хлопковое волокно», попав в Италию, превратилось в итальянское слово «бомба́джо», которым именовали хлопчатую бумагу, хлопковое волокно. Позднее на Руси оно стало употребляться как «бумажник», так как здесь из хлопчатобумажного волокна стали изготовлять попоны, потники для лошадей. Производство хлопка и хлопкового сырья отразилось и в названиях социального значения. В азербайджанских историко-географических областях, где производилось хлопковое сырье, мелких феодалов именовали «памбыг бяйляри» - «хлопковые беки».

Название столицы султаната Каракился состоит из двух тюркских слов: «кара»-черный и «кился»-церковь (6, с. 497.) Такое название объясняется тем, что в городе до 1828 года существовала церковь из черного камня, на месте которой в 1831 году была построена новая. После манифеста 1801 года Александра о присоединении Восточной Грузии к России Каракился стал пограничным гарнизонным городом. Тюркское название города сохранялось вплоть до 1935 года. 5 марта 1935 года после смерти С.М.Кирова город был переименован в Кировакан.

Богатое лесами, деревьями и цветами, плодотворными садами, огородами поселение султаната Джалалоглы располагалось на реке Дзорагет к северу от Базумского хребта на Лорийском плато в 144 км от Иревана и в 30 км от столицы султаната Каракился.

Археологические материалы показывают, что поселение здесь существовало с очень давних времен. На его территории были найдены древние захоронения, глиняные посуды и другие археологические артефакты. Название поселения связано с именем его основателя албанского князя Гасана Джалалоглы, который вместе с несколькими богатыми албанскими купцами прибыли из нагорной части Карабаха и обосновались здесь. Сам основатель населенного пункта Гасан Джалалоглы был похоронен на кладбище поселения. Хотя время основания поселения неизвестно, однако во второй половине XVIII века оно превратилось в один из развитых торговых и культурных центров Памбекского султаната. Через местность Джалалоглы проходили караванные пути, по которым шла оживленная внутренняя и внешняя торговля султаната между крупнейшими переднеазиатскими, южнокавказскими и российскими торговыми центрами. Поэтому на караванных путях было построено много безопасных стоянок, удобных переправ через реки и постоялых дворов – иджеванатунов. Название Джалалоглы сохранялось за поселением до 1924 года.

Поселение основано албанами-христианами, поэтому здесь строились и албанские архитектурные христианские сооружения. Сохранилась албанская церковь V-VI века (1, с.685-686). Одним из таких ранних сооружений является дошедший до нашего времени албанский монастырь VII века Хневанк – Старый монастырь, расположенный на правом берегу реки Дзорагет на возвышении, где соединяются реки Дзорагет и Гаргар. Архитектурное сооружение этого монастыря построено в стиле раннесредневековой албанской архитектуры

Населенный пункт Памбека Хамамлы находился на реке Памбек в 97 км от Иревана. Название происходит от тюркского слова «хамамлы» – банная, что могло быть связано с наличием здесь теплых источников. До арабского господства здесь проживало тюркское население, исповедовавшее танрычество. В период арабского господства жители поселения приняли ислам. После Туркманчайского 1828 года и Адрианопольского 1829 года договоров этническая картина поселения стала резко меняться из-за массового расселения здесь армянских семей, переселенных царским правительством из Хоя и Муша. Однако переселенные армянские семьи не слились с местным тюркским христианским населением, на что расчитывало царское правительство. Несмотря на религиозные различия языком межобщения продолжал

оставаться тюркский язык. Тюркское название населенного пункта султаната Хамамлы сохранялось вплоть до депортации мусульманского населения в 1949 году. В этом же году поселение было переименовано в Спитак, что в переводе с армянского означает «белый».

Гюмри находился в центральной части Ширакской котловины в 126 км от Иревана. С севера, востока и юго-востока он был окружен Ширакским и Памбекским хребтами и отрогами горного массива Алагез. До 1840 года официальное название Гюмри было Кумайры, известное из урартских летописей VIII века до н.э.

Существует этническая версия происхождении обоих названий, связанная с именем тюркских племен киммерийцев, мигрировавших в VIII веке до н.э. в союзе киммерийско-скифских племен по линии Кумайры-Карс-Карин-Камах-Гамирик и осевших в Ширакской долине. Некоторые ученые название Гюмри отождествляют с названием Гюмниас, упомянутым в «Анабасисе» античного греческого автора Ксенофонта, реконструируя его как Гюмриас.

Название Гюмри связывают также с тюркским словом «компрюк», означающее «таможня», «таможенная пошлина», видимо потому что этот населенный пункт был расположен на границе с Османской империей. Первое упоминание этого поселения с названием Гюмри относится к 978 году. Согласно Амасийского договора между османским султаном Сулейманом I и сефевидским шахом Тахмасибом I Кумайры-Гюмрю, став пограничным форпостом, составлял земли сефевидского дивана и находился под непосредственным управлением чухур-саадского беглярбека. Будучи пограничным населенным пунктом, Гюмрю в первую очередь стал значительным центром торговли и ремесленничества. В период независимых ханств территория Гюмри стала одной из значимых пунктов Памбекского султаната, находящегося в вассальной зависимости от Иреванского ханства.

После подписания манифеста о присоединении Восточной Грузии к России в 1801 году Ширак был занят русскими войсками (3, с.432-433). Это стало переломным моментом в истории Памбекского султаната. С этого времени Гюмри сыграл значительную роль в развитии наступательных действий русской армии в русско-каджарских войнах первой половины XIX века. Близ него разворачивались ожесточённые бои между русскими, каджарскими и османскими войсками. Тогда же появились первые потоки беженцев и территория султаната оказалась в руках российских войск. Большинство тюркского населения, оставив свои родные дома, бежали в соседние территории. В 1804 году по этому поводу генерал-майор Лазарев в своем рапорте командующему армией на Кавказе

Кнорringу сообщает, что мирные жители из 14 деревень Памбекского султаната нашли защиту на территории Иреванского ханства (2, с.18-24).

Первый пост русских казаков появился вблизи Гюмри в 1804 году. По требованию русского командования населению было предложено принять подданство России. Однако жители, не желая принять подданство России, в июле 1804 года во главе памбекских владетелей Рагим бека и Сеид бека подняли восстание и, поняв безысходность, бежали в Карсский пашалык Османской Турции. Переговоры князя Цицианова с карсским Мехмед пашой по поводу их возвращения были безрезультатными. Восставшие нашли защиту в пределах Османской империи (2, с.18-24). 1804 год считается датой прекращения существования Памбакского султаната.

С этого времени опустошенные земли Памбакского султаната стали заселяться армянскими семьями. Первыми поселенцами Памбекского султаната были 2 тысячи армянских семей, заселенные здесь весной 1804 года (2, с.18-24). После первой русско-каджарской войны согласно Гюлистанскому договору 12 октября 1813 году между Россией и Каджарами территория Памбакского султаната была включена в список навсегда перешедших в состав России и переселение армянских семей в этот регион продолжалось. Однако кардинальные изменения в этнической картине на территории Памбакского султаната произошли уже после окончания русско-каджарских и русско-турецких войн первой половины XIX века в связи с массовым переселением сюда армянских семей из Каджарской и Османской империй.

В 1837 году на территории Гюмри закладывается русская крепость и в этом же году его посещает царь Николай I, который присутствует здесь на торжественной закладке православной церкови. По желанию Николая I Гюмри переименовывается в Александрополь, в честь супруги царя императрицы Александры Федоровны. Несмотря на попытку царского правительства русифицировать и арменизировать регион, компактное проживание и абсолютное большинство тюркского населения замедляли этот процесс. Побывавший в 1829 году в Гюмри А.С.Пушкин отмечает в своих путевых записках «Путешествие в Арзрум», что для этого края тюркский язык также необходим как французский в Европе (5, с.412-454; 7, с.57-73).

## ЛИТЕРАТУРА

1. *Акопян Т.Х., Мелик-Башхян Ст.Т., Барсегян О.Х.* Словарь топонимов Армении и прилегающих территорий: в 5-и т., Т.4, Ер.: Изд-во Ереванского университета, 1998, 782 с.

2. *Арзуманлы В., Мустафа Н.* Черные страницы истории. Баку, 1998, 32 с.
3. Высочайший манифест «К Грузинскому народу» 12-го сентября 1801 года // Акты, собранные Кавказской Археографической Коммиссией. Т. 1, Тифлис, 1866, с.432-433
4. *Орлов А.С., Георгиева Н.Г., Георгиев В.А.* Исторический словарь. 2-е изд. М., 2012, 296 с.
5. *Пушкин А.С.* Собрание сочинений в 10-х томах. Т.5, с.412-454
6. *Семенов П.* Караклис / Географическо-статистический словарь Российской Империи: в 2-х т., Т. II, Санкт-Петербург, 1865, 497 с.
7. *Тынянов Ю.Н.* «Путешествие в Арзрум» // Пушкин: Временник Пушкинской комиссии. М.: изд-во АН СССР, 1936, вып. 2, с.57-73
8. İrəvan xanlığı XIX yüzilliyin əvvəllərində // http://xalqcebhesi.az

Redaksiyaya daxil olub 16.04.2022

Pedaqoji Universitetin Xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası –2022, C.70, №2, s. 115-131
Transactions of Pedagogical University. Series of humanitarian, social, pedagogical and psychological sciences – 2022, V.70, №2, pp. 115-131

***UOT 94(479.24)***

***N.Ə.Məmmədova***
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu*
*nusaba_mamedova@mail.ru*

# XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ ŞİMALİ AZƏRBAYCANDA İCTİMAİ TƏŞKİLATLARIN STRUKTURU: FİLİALLARIN AÇILMASI VƏ FƏALİYYƏTİ

***Açar sözlər:*** *Azərbaycan, maarifçilik fəaliyyəti****,*** *məktəb, İrəvan, Gəncə****,*** *Şuşa, Ağdaş, Şamaxı*

Müasir dünyanın ənənəvi aktorları hesab edilən beynəlxalq təşkilatlarla yanaşı, ictimai təşkilatların rolu getdikcə genişlənməkdədir. Hazırda ictimai təşkilatlar mürəkkəb bir sistem təşkil edərək dövlətlərarası münasibətlərdə, xüsusən dünyada gedən siyasi proseslərdə özünəməxsus rol oynayırlar. Onların beynəlxalq həyata mühüm və həlledici təsir göstərməsi müxtəlif tarixi mərhələlərdən keçərək müasir dövrdə bu münasibətlərin institutlaşmasında qarşılıqlı əlaqələrin və əməkdaşlığın yaranmasında ciddi faktora çevrilmişdir. XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycanda ictimai təşkilatların strukturunun formalaşmasının öyrənilməsi baxımından məqalə elmi əhəmiyyətə malikdir və mühüm aktuallıq kəsb edir.

***Н.А.Маммадова***

## СТРУКТУРА ОБЩЕСТВЕННЫХ ОРГАНИЗАЦИЙ В СЕВЕРНОМ АЗЕРБАЙДЖАНЕ В НАЧАЛЕ ХХ ВЕКА: ОТКРЫТИЕ И ДЕЯТЕЛЬНОСТЬ ФИЛИАЛОВ

***Ключевые слова:*** *Азербайджан, просветительская деятельность, школа, Ираван, Гянджа, Шуша, Агдаш, Шамаха*

Расширяется роль общественных организаций, наряду с международными организациями, которые считаются традиционными акторами современного мира. В настоящее время общественные организации играют уникальную роль в межгосударственных отношениях, особенно в политических процессах в мире, образуя сложную систему. Их важное и решающее влияние на международную жизнь прошло различные исторические этапы и стало серьезным фактором установления взаимных отношений и сотрудничества в институционализации этих отношений в новое время. Статья имеет научное значение и актуальность с точки зрения изучения формирования структуры общественных организаций в Азербайджане в конце XIX – начале XX веков.

***N.A.Mammadova***

**STRUCTURE OF PUBLIC ORGANIZATIONS IN NORTH AZERBAIJAN AT THE BEGINNING OF THE XX CENTURY: OPENING AND ACTIVITY OF BRANCHES**

***Keywords:*** *Azerbaijan, educational activity, school, Irevan, Ganja, Shusha, Agdash, Shamakhi*

The role of public organizations is expanding, along with international organizations that are considered traditional actors of the modern world. At present, public organizations play a unique role in interstate relations, especially in the political processes in the world, forming a complex system. Their important and decisive influence on international life has gone through various historical stages and has become a serious factor in the establishment of mutual relations and cooperation in the institutionalization of these relations in modern times. The article is of scientific importance and relevance in terms of studying the formation of the structure of public organizations in Azerbaijan in the late XIX-early XX centuries.

**Giriş**

Məqalədə XX əsrin əvvəllərində Şimali Azərbaycanda ictimai təşkilatların filiallarının açılması və fəaliyyətinə dair araşdırmalar ilkin mənbələr, zəngin arxiv materialları əsasında işıqlandırılmışdır. Müasir dünyanın ənənəvi aktorları hesab edilən beynəlxalq təşkilatlarla yanaşı, ictimai təşkilatların da rolu getdikcə genişlənməkdədir. Hazırda ictimai təşkilatlar mürəkkəb bir sistem təşkil edərək dövlətlərarası münasibətlərdə, xüsusən dünyada gedən siyasi proseslərdə özünəməxsus rol oynayırlar. Onların beynəlxalq həyata mühüm və həlledici təsir göstərməsi müxtəlif tarixi mərhələlərdən keçərək müasir dövrdə bu münasibətlərin institutlaşmasında, qarşılıqlı əlaqələrin və əməkdaşlığın yaranmasında ciddi faktora çevrilmişdir. XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycanda ictimai təşkilatların strukturunun formalaşmasının öyrənilməsi baxımından məqalə elmi əhəmiyyətə malikdir və mühüm aktuallıq kəsb edir.

Mövcud problemlə bağlı tədqiqat dövründə və müasir dövr tarixşünaslığında bir sıra əsərlər də işıqlandırılmışdır. [47; 49; 50; 51; 52; 53; 54; 55; 56; 57; 58; 59; 60; 61; 62].

**Əsas hissə**

XIX əsrin sonu – XX əsrin əvvəllərində Şimali Azərbaycanda ictimai təşkilatların filiallarının açılması və fəaliyyətinin öyrənilməsii ilə bağlı tarixi faktlar məqalədə işıqlandırılmışdır. XIX əsrin sonu – XX əsrin əvvəllərində Şimali Azərbaycan ictimai təşkilatlarının fəaliyyəti tarixinin araşdırılması, tarixi təcrübədən müasir tələblərə uyğun olaraq istifadə olunması mühüm əhəmiyyət kəsb edir və aktualdır.

XX əsrin əvvəllərində Bakıda yaradılan və rəsmi dövlət orqanları tərəfindən qeydiyyata alınan ictimai təşkilatlar Azərbaycanın müxtəlif bölgələrində maarifçiliyin inkişafı, yeni tipli təhsil müəssisələrinin açılması məqsədilə öz fəaliyyət dairəsini genişləndirməyə çalışırdı. Fəaliyyətlərinin başlanğıcında "Nəşri-maarif", "Nicat", "Bakı müsəlman xeyriyyə cəmiyyəti" və digər ictimai cəmiyyətlər demək olar ki, Azərbaycanın bütün bölgələrində öz şəbəkələrinin yaradılmasına nail oldular. Hər bir cəmiyyətin nizamnaməsində nəzərdə tutulan proqram layihəsi, xüsusilə təhsil layihəsi bütün Azərbaycan ərazisində həyata keçirilirdi.

**Şamaxıda maarifçilik fəaliyyəti.** 1907-ci ilin yanvarında Şamaxı şəhər sakinləri "Nəşri-maarif" cəmiyyətinin şöbəsinin Şamaxıda açılması barədə müraciət etdilər. Cəmiyyət tərəfindən hüquqi baxımdan bu məsələnin həlli mümkün deyildi. Belə ki, cəmiyyətin artıq 1906-cı ildə təsdiq olunmuş Nizamnaməsində digər şəhərlərdə öz şöbəsini açmaq barədə maddə öz əksini tapmamışdı. Buna görə də cəmiyyətin idarə heyəti başqa şəhərlərdə şöbələrinin təşkilini həyata keçirmək üçün bir layihə işlənib hazırlanmasına qərar verdi [4, v.54]. Bu layihə cəmiyyətin idarə heyətinin katibi Əhməd bəy Ağayev tərəfindən hazırlanmış və Nizamnaməyə əlavə olunması üçün dövlət orqanlarından icazə alınmışdı [4, v.34]. "Nəşri-maarif" cəmiyyətinə digər şəhərlərdə öz şöbələrinin açılmasına icazə verildikdən sonra artıq cəmiyyətə ayrı-ayrı şəhərlərdən şöbələr açılması haqqında təklif və ya xahişlər daxil olduqda bu müraciətlər cavabsız qalmırdı.

XX əsrin əvvəllərində Şamaxıda maarifçiliyin inkişafında digər ictimai təşkilat – "Nicat" Bakı müsəlman maarif cəmiyyəti də mühüm xidmətlər göstərmişdir. 1914-cu ilin mayında cəmiyyətin idarə heyətinin rəhbəri Qasım Qasımovun sədrliyi ilə keçirilən iclasda Şamaxıda yerli əhali arasında ana dilində savadın yayılması, əhalinin maarifləndirilməsi məqsədilə ilk olaraq Şamaxı şəhər şöbəsi və onun nəzdində qiraətxana açılması qərara alındı [18].

1914-cu il iyun ayının 20-də "Nicat" cəmiyyətinin Şamaxıda şöbəsinin açılışı oldu. Şöbənin açılış mərasimində cəmiyyətin idarə heyətinin sədri Qasım Qasımov, "Səfa" cəmiyyətindən Mehdi bəy Hacınski, "Bəsirət" qəzetinin redaktoru Q.İ.Qasımov və "Bakı müsəlman xeyriyyə cəmiyyəti"nin təftiş komissiyasının sədri M.A.Yusifxanov və Şamaxı ziyalıları da iştirak edirdilər [10].

"Nicat" cəmiyyətinin Şamaxı şöbəsinin sədri Teymur bəy Xudaverdiyev seçilmişdir [1, v.16(arx.)]. Şöbə təhsil və mədəniyyətin digər sahələri üzrə bir çox tədbirlərin həyata keçirilməsinə nail olmuşdur.

İctimai təşkilatların nəzdində olan bütün yeni tipli məktəblər kimi, Şamaxıda da açılan məktəblərin Qafqaz Təhsil Dairəsi Bakı quberniyası və Dağıstan vilayəti xalq məktəbləri direktorluğu tərəfindən qəbul olunması vacib amillərdən biri idi. Bunun üstün cəhəti ondan ibarət idi ki, xalq məktəbləri

direktorluğu nəzdindəki digər məktəblər kimi, Şamaxı məktəbinə də müəyyən məbləğdə yardım ayrılırdı. "Nicat" cəmiyyətinin Şamaxı şöbəsinin 26 avqust 1914-cu ildə Bakı quberniyası və Dağıstan vilayəti xalq məktəbləri direktoruna müraciətində Şamaxı şəhərində rus-Azərbaycan məktəbinin saxlanmasına yardım olunması xahiş olunurdu [3, v.80].

1914-cu ildə Şamaxı şöbəsi idarə heyətinin yerləşdirilməsi üçün Şamaxıda keçmiş şəhər bağı hissəsində 765 kvadrat sajen ölçüdə sahə ayrılmışdı. Bu sahədə şöbəyə idarə heyətinin yerləşdirilməsi ilə yanaşı, digər maarif müəssisələri açması da nəzərdə tutulurdu [2, v.19, 19(arx.)].

"Nicat" cəmiyyəti idarə heyəti tərəfindən Şamaxı şöbəsinin həyata keçirmək istədiyi bir çox layihələrin təşkilinə dəstək olurdu. 1915-ci ildə cəmiyyətin idarə heyəti tərəfindən Sidqi Ruhullanın rəhbərliyi ilə teatr heyəti Bakıdan Şamaxıya göndərilmişdir. Tamaşadan daxil olan 404 rubl şöbənin istifadəsinə verilmişdir [36].

Birinci dünya müharibəsi illərində digər ictimai təşkilatlar və onların şöbələri kimi, "Nicat" cəmiyyətinin Şamaxı şöbəsi də müharibədə öz valideynlərini itirmiş kimsəsiz uşaqlara, onların təhsilə cəlb olunmalarına böyük qayğı göstərirdi. Bu məqsədlə 1915-ci ildə Şamaxı şöbəsi bu əraziyə gətirilmiş, müharibədə öz valideynlərini itirmiş türk qaçqın uşaqları üçün uşaq evi açmışdı. Uşaq evi 10 uşağın saxlanılması üçün nəzərdə tutulurdu [12]. Uşaq evi şöbəyə daxil olan könüllü yardımlar hesabına saxlanılırdı. Yardımların yığılması üçün şöbə komissiya təşkil etmişdi. Komissiya tam tərkibdə müharibədən zərər çəkən və qaçqın türk müsəlman əhalisinə yardım göstərmək üzrə Şamaxı Komitəsinin tərkibinə daxil idi. 1915-ci ilin martında Şamaxı Qars vilayətində zərərçəkən müsəlmanlara kömək komitəsi təşkil etmişdi. Komitənin tərkibinə "Nicat" cəmiyyətinin Şamaxı şöbəsinin bütün üzvləri daxil idilər. Komitə tərəfindən ilkin olaraq toplanılan 2.300 rubl komitənin xəzinədarlığına verilmişdir [30; 31].

**Göyçayda maarifçilik fəaliyyəti.** 1907-ci ilin dekabr ayında Göyçay camaatı vəkilləri "Nəşri-maarif" cəmiyyətinə həmin ərazidə şöbəsinin açılması barədə müraciət etmişdilər. Göyçay camaatının cəmiyyətə üz tutmasının səbəbi burada fəaliyyət göstərən məktəbin bağlanması olmuşdur. Müraciətdə bildirilirdi ki, yerli əhaliyə heç bir səbəb izah edilmədən Göyçayda fəaliyyət göstərən yeganə ibtidai məktəb dövlət tərəfindən bağlanılmışdır. "Nəşri-maarif" cəmiyyətinin idarə heyətinin iclasında Göyçay camaatının müraciətinə baxılmış, cəmiyyət tərəfindən həmin əraziyə nümayəndə heyəti göndərilmişdir. Bütün məsələlərə aydınlıq gətirildikdən sonra cəmiyyətin idarə heyəti məktəbin yenidən bərpa edilməsi və bu məktəbin "Nəşri-maarif" cəmiyyəti tərəfindən himayə olunması barədə Bakı qubernatorundan icazə almışdı [4, v.34, 56]. Rəsmi icazədən sonra idarə heyəti bu məktəbə Şamaxı realnı məktəbini bitirib

müəllimlik senzi almış bir müəllim göndərmişdir və bununla da Göyçayda çoxdan arzu olunan yeni tipli məktəbin əsası qoyulmuşdur [4, v.34, 56].

"Nəşri-maarif" cəmiyyətinin qeyd olunan məqsədyönlü addımı əhali arasında böyük rəğbət və ümidlə qarşılanırdı. 1908-ci ilin noyabr ayında Göyçay camaatının vəkilləri – Həzrət bəy Ağabəyov, Ağamirzə Mirzəyev tərəfindən cəmiyyətin idarə heyətinə müraciət olunaraq, "Nəşri-maarif" cəmiyyətinin Göyçayda şöbəsinin açılması xahiş olunmuşdur. İdarə heyətinin qərarı ilə cəmiyyətin Göyçay şöbəsi təşkil olunmuş və həmin şəxslər cəmiyyətin üzvlüyünə yazılmışdılar. Nizamnaməyə uyğun olaraq, cəmiyyətin şöbəsinə xeyriyyə işləri görməyə icazə verilirdi [4, v.46; 21]. 1908-ci ildə Göyçayda "Nəşri-maarif" cəmiyyətinin ikinci "İqbal" adlı yeni məktəbi fəaliyyətə başlamışdır [4, v.46; 21. Bu işlər Azərbaycanın digər ərazilərində mədəni-maarif işlərinin həyata keçirilməsi istiqamətində atılmış uğurlu addımlardan idi.

**Qubada maarifçilik fəaliyyəti**. 1908-ci ildə Quba camaatının vəkilləri – Hacı Bilal Məmmədyarov, İmran bəy Rüstəmbəyov "Nəşri-maarif" cəmiyyətinin idarə heyətinə müraciət edərək Qubada cəmiyyətin şöbəsinin yaradılmasını və cəmiyyətin Nizamnaməsinə uyğun olaraq burada ana dilində yeni tipli məktəblərin açılması barədə müraciət etdi [4, v.48]. Bu məsələ cəmiyyətin idarə heyətinin iclasında müzakirə olundu və qərara alındı ki, həmin şəxslər cəmiyyətə üzv qəbul olunsunlar. Cəmiyyətin üzvü olan Quba camaatının vəkillərinə üzvlük haqqında qəbz, vəkalətnamə və cəmiyyətin Nizamnaməsi verilmişdir. Həmin şəxslər verilən sənədlərə əsasən və Nizamnaməyə uyğun olaraq Qubada xeyriyyə işləri görmək ixtiyarına malik idilər [4, v.48].

Beləliklə, yuxarıda adları çəkilən şəxslərin iştirakı ilə 1908-ci ilin oktyabrında "Nəşri-maarif" cəmiyyəti rəsmi olaraq Qubada öz şöbəsini açdı. Şöbənin açılışında cəmiyyətin idarə heyətinin üzvlərindən də bir nəfər iştirak etmişdir. Həmin ildə Qubada "Nəşri-maarif" cəmiyyəti adından bir ibtidai məktəbin əsası qoyulmuşdur [22; 23]. Sonralar bu yeni tipli məktəb şəbəkə formasını alaraq öz əhatə dairəsini genişləndirmişdir. Sənədlərdən məlum olur ki, 1915-ci ildə Qubada "Nəşri-maarif" cəmiyyətinin bir neçə yeni tipli məktəbi fəaliyyət göstərirdi [22; 23]. Həmin ildə isə cəmiyyətin Quba qəzasının Qusar yaşayış sahəsində yeni ibtidai məktəb fəaliyyətə başlamışdır [5, v.53].

XX əsrin əvvəllərində bütün Azərbaycan ərazisində olduğu kimi, Qubada da milli müəllim kadrları demək olar ki, yox dərəcəsində idi. Milli müəllim kadrlarının hazırlanması layihəsini həyata keçirən "Nəşri-maarif" cəmiyyəti digər ərazilərdə olduğu kimi, Qubada da açılan yeni tipli məktəblərin nəzdində ibtidai məktəblər üçün müəllim kadrları hazırlayan kurslarını təşkil etdi. Bu kursların müddəti, bir qayda olaraq, 3 ay müddətinə müəyyənləşdirilmişdir [6; 16; 40].

Qubada açılan müəllim kursları təkcə Qubada fəaliyyət göstərən müəllimlər üçün deyil, bu kursda iştirak etmək arzusunda olan bütün Azərbaycan müəllimləri üçün nəzərdə tutulurdu. Məhz buna görə də kursa dəvət üçün qəzetlərdə bu barədə tez-tez elanlar dərc olunurdu. Kurslar, bir qayda olaraq, məktəblilərin yay tətili vaxtlarına planlaşdırılırdı. “Kaspiy” qəzetinin 1917-ci ilə aid saylarının birində “Nəşri-maarif” cəmiyyətinin Qubada fəaliyyət göstərən şöbəsinin yay pedaqoji kurslarının açılması barədə elanı dərc olunmuşdur [40]. Elanda bildirilirdi ki, kursda məşğələlər 01 iyun tarixindən başlayır. Qaydaya müvafiq olaraq, kursa daxil olmaq istəyən müəllimlər 01 iyun tarixinədək “Nəşri-maarif” cəmiyyətinin Quba şöbəsinə ərizə ilə müraciət edirdilər [40]. “Baku” qəzeti isə yazırdı ki, hazırda milli müəllim kadrlarını hazırlayacaq belə kurslar yoxdur. Kurslar 3 ay müddətinə müəyyənləşdirilmişdir və pulsuzdur. Əvvəlcədən müəyyən olunmuş qaydaya görə, kursa 60 nəfər qəbul olunmuşdur [16].

“Nəşri-maarif” cəmiyyətinin Quba şöbəsi nəzdində açılan bu kurs Qubanın Xəzri kəndində 1917-ci il iyunun 15-dən fəaliyyətə başlamışdır. Kursa Azərbaycan dilində sərbəst danışmağı, yazmağı və oxumağı bacaran, ərəb və fars dillərini bilən qızlar və oğlanlar qəbul olunurdular. “Nəşri-maarif” cəmiyyətinin idarə heyəti kursda iştirak edən müəllimlərə hərtərəfli qayğı ilə yanaşırdı. Kursa daxil olan müəllimlər nəinki kursda pulsuz təhsil alır, həmçinin pulsuz işıq və istiliyi olan rahat mənzillərlə təmin olunurdular [41].

1917-ci ilə aid məlumatda da bu kurslarda dinləyicilərin sayının 60 nəfər olduğu bildirilir [6; 40; 16].

“Nəşri-maarif” cəmiyyətinin Quba şöbəsi müvəqqəti müəllim kursuna rəhbərlik etmək üçün Dərbənddəki «Hüseyniyyə» yeni tipli məktəbinin müdiri Məhəmməd Seyidi Qubaya dəvət etmişdir [17].

1908-ci ildən 1917-ci ilədək olan dövrdə “Nəşri-maarif” cəmiyyətinin Quba şöbəsi geniş şəkildə fəaliyyət göstərmişdir. Bu fəaliyyət təkcə məktəblərin işi ilə məhdudlaşmırdı. Yerli əhalinin milli-mədəni səviyyəsinin inkişafına diqqət yetirilir, imperiya daxilində və eləcə də dünyada baş verən siyasi, iqtisadi və mədəni proseslərin gedişi barədə qəzetlərdə dərc olunan məlumatların çatdırılması üçün qiraətxanalar təşkil olunurdu. Qiraətxanalarda, həmçinin əsasən savadı olmayan yaşlı insanlar üçün Azərbaycan dilində elm və mədəniyyət sahəsində müxtəlif mövzularda məruzələr oxunurdu. Quba şöbəsi nəzdində bir neçə kitabxana-qiraətxana fəaliyyət göstərirdi [6; 16; 40]. Burada Azərbaycan və rus dillərində kitablar, qəzet və jurnallar saxlanılırdı.

Beləliklə, “Nəşri-maarif” cəmiyyətinin Qubada yaradılmış şöbəsi yerli əhali arasında savadın yayılması sahəsində böyük işlər həyata keçirirdi. Cəmiyyət ibtidai məktəb, kitabxana-qiraətxana açır, məruzələr təşkil edir və s. layihələr həyata keçirirdi.

**Gəncədə maarifçilik fəaliyyəti.** "Nəşri-maarif" cəmiyyətinin fəaliyyətində Azərbaycanın qədim və böyük şəhərlərindən biri olan Gəncədə şöbəsinin təşkil olunmasının mütərəqqi əhəmiyyəti var idi. Gəncə ruhani məktəbinin tələbəsi Hüseyn Naseh Əlizadə "Nəşri-maarif" cəmiyyətinin Gəncəyə də qədəm qoymasını maarif sahəsində "böyük dirçəliş" kimi qiymətləndirirdi. Müəllif qeyd edirdi ki, "...məkatibmədariz xüsusunda fədai-can edən kədərlərimizin mətbuata, mədəniyyətə qarşı meyil və məhəbbət göstərənlərin təhti sayəsində zulmat kimi Gəncəmizi "Nəşri-maarif" ismilə munəvvər buyurdular" [51] Məqalədə şöbənin fəaliyyətə başladığı iki ay müddətində 6 gecə məktəbi açdığı bildirilirdi. "Nəşri-maarif" cəmiyyətinin Gəncə şöbəsinin 1909-cu ilə aid hesabatından aydın olur ki, şöbə hesabat ilində şəhərdə 3-4 yerdə böyüklər üçün axşam kursları açmışdır. Bundan əlavə qeyd olunurdu ki, ruhani seminariyasında təhsil alan şagirdlərin 3 nəfərinə aylıq ödəniş, bəzilərinə təhsil haqqı və geyim dəstləri verilmişdir [25].

"Baku" qəzeti səhifələrində Yelizavetpol şöbəsinin 1909-cu il üçün hesabatı dərc olunmuşdur. Hesabatda qeyd olunurdu ki, həmin ildə şöbənin mədaxili 1.205 rubl, məxarici 1.023 rubl olmuşdur [8]. Hesabatda həmçinin qeyd olunurdu ki, şöbənin idarə heyəti həmin ildə yaşlı müsəlmanlar üçün axşam kursları açmış və bir neçə şagirdin orta təhsil müəssisələrində təhsil almalarına maddi dəstək olunmuşdur [8].

Gəncə şöbəsinin az müddət ərzində böyük uğurlar qazanması səbəbsiz deyildir. Bu şöbənin fəaliyyətinə Azərbaycanın görkəmli ziyalıları rəhbərlik edirdilər. 1910-cu ildə Gəncə şöbəsi idarə heyətinə keçirilən seçkilərdə Əli Əkbər bəy Rəfibəyov idarə heyətinin sədri seçilmişdir. 4 nəfər – Həsən bəy Ağayev, Həsən Fəttahov, Məşədi Əli Rəfiyev və Böyük bəy Ağasibəyov idarə heyətinə üzv seçildilər [8] Gəncə şöbəsinə 1914-cu ildə Kərim bəy Mehmandarov rəhbərlik edirdi [7]. Kərim bəy Mehmandarovdan sonra Yelizavetpol şöbəsinə Nəsib bəy Yusifbəyov rəhbərlik etmişdi [34].

1915-ci il noyabrın 21-də şöbənin ümumi iclasında aşağıdakı tərkibdə yeni idarə heyəti seçildi: sədr – Həsən bəy Ağayev, katib – Mirzə Məhəmməd Axundov, xəzinədar – Əmir Ağayev, üzvlər – Mirzə Məhəmməd Axundzadə və Rıza Qarabəyov [34]. 1916-cı ildə isə şöbəyə Qafqaz müsəlmanları arasında böyük nüfuza malik nümayəndələrdən biri olan Həsən bəy Ağayev rəhbərlik edirdi [38].

Arxiv sənədlərindən və həmin dövrdə nəşr olunan qəzet səhifələrindən aydın olur ki, Gəncə şöbəsinin əsas vəsaiti Qarabağda toy və təziyə (yas – N.M.) mərasimlərində imkanlı şəxslərin cəmiyyətin mənfəətinə ianə etdikləri pul əsasında yaranırdı. 1914-cu ildə Gəncə şöbəsinin sədri Kərim bəy Mehmandarovun verdiyi məlumatda bildirilir ki, həmin ildə ianə olaraq Tatayasovun varisləri şöbəyə 1.000 rubl, Hacı Həsən Orucov 450 rubl, Əsri Aydınov 200 rubl, Hacı Nəcəfqulu Babayev 100 rubl, Saleh Hüseynbəyov 100

rubl, Məhəmməd Ağaxanov 50 rubl, Ağa bəy Xındırıstanski 50 rubl, Cəmşid bəy Behbudov 50 rubl yardım etmişdilər [7].

1915-ci ildə Yelizavetpol şöbəsinin bağlanmış axşam kursu idarə heyətinin üzvü Əli Əkbər bəy Rəfibəyovun təşəbbüsü ilə yenidən təşkil olundu. Kursun fəaliyyətə başlaması ilə əlaqədar idarə heyətinin və kursun müəllimlərinin birgə iclası keçirilmişdir. Qərara alınmışdır ki, “Axşam kursu” açılsın və davamlı fəaliyyət göstərsin. Həmçinin kursda müəllimlərin aylıq maaşı 100 rubl təyin olunmuşdu [13]. Əgər nəzərə alsaq ki, həmin dövrdə Qafqaz təhsil dairəsində müəllimlərin illik əməkhaqqı orta hesabla 600 rubl idi, bu yüksək əmək haqqı hesab oluna bilər. “Axşam kursu” Yelizavetpol mədrəsəsinin binasında yerləşdirilmişdir. Kursda Azərbaycan dili, rus dili, şəriət və hesab dərsləri tədris olunurdu. Kursa təcrübəli pedaqoqlar rəhbərlik edirdilər [13].

“Nəşri-maarif” cəmiyyətinin Yelizavetpol şöbəsi azərbaycanlılar arasında savadın yayılması işində Yelizavetpolda fəaliyyət göstərən “Bakı müsəlman xeyriyyə cəmiyyəti”nin şöbəsi ilə birləşərək maarif və mədəniyyət sahəsində bir çox tədbirlərin həyata keçirilməsinə nail olmuşdur. 1915-ci il dekabrın 5-də “Nəşri-maarif” cəmiyyətinin Yelizavetpol şöbəsi ilə “Bakı müsəlman xeyriyyə cəmiyyəti”nin şöbəsinin Yelizavetpol ruhani məktəbinin zalında keçirdiyi iclasında xeyriyyə və maarif işlərinin ümumi vəziyyətinə baxılması və bu sahədə bir sıra tədbirlərin həyata keçirilməsi barədə qərarlar qəbul olunmuşdur [34].

Yelizavetpolda fəaliyyət göstərən ictimai təşkilatların Birinci Dünya müharibəsi illərində mühüm fəaliyyəti olmuşdur. “Bakı müsəlman xeyriyyə cəmiyyəti”nin Yelizavetpol şöbəsi həmin dövrdə kasıb müsəlman təbəqəsinin bahalaşma ilə əlaqədar vəziyyəti ilə bağlı mümkün olan tədbirlər həyata keçirirdi. Məhz bu şöbənin təşkilatçılığı ilə 1915-ci ilin dekabrında Yelizavetpolun imkanlı şəxslərindən olan Saleh Rafiqov bu məqsədlə cəmiyyətə bir il müddətinə 30 min rubl faizsiz pul vermişdir [14]. Həmin ildə cəmiyyətin topladığı 60 min rubl faizsiz kreditlə Yelizavetpolun kasıb ailələrinə, təhsil alan imkansız tələbələrə müxtəlif ərzaq, pul yardımı olunmuşdur.

Beləliklə, qaynaqlarda günümüzədək gəlib çatmış məlumatlar göstərir ki, Azərbaycan ictimai təşkilatlarının Gəncə şöbələri şəhərin mədəni-maarif həyatında mühüm əhəmiyyətli rol oynamışdır.

**Astarada maarifçilik fəaliyyəti.** Azərbaycanın bir çox ərazilərində olduğu kimi, Astarada da ictimai təşkilatların şöbələri fəaliyyət göstərirdi. Astara şöbəsi yerli əhalinin müraciəti əsasında yaradılmışdır. 1909-cu ilin oktyabrında Astara camaatının vəkilləri “Nəşri-maarif” cəmiyyətinin idarə heyətinə müraciət edərək burada həmin cəmiyyətin şöbəsinin açılması və Nizamnaməyə uyğun olaraq ana dilində məktəb və kitabxana-qiraətxana

açılması barədə xahiş etmişlər. "Nəşri-maarif" cəmiyyəti həmin ildən Astarada öz şöbəsini açmış və burada bir ibtidai məktəbin əsasını qoymuşdur [4, v.22, 69].

**Bankədə maarifçilik fəaliyyəti.** "Nəşri-maarif" cəmiyyətinə Azərbaycanın müxtəlif bölgələrindən olunan müraciətlər təkcə cəmiyyətə ünvanlanmırdı. Bunlar arasında cəmiyyətin sədri Hacı Zeynalabdin Tağıyevə edilən müraciətlərə də rast gəlinirdi. Böyük mesenat belə müraciətə cavab olaraq həm cəmiyyətin sədri kimi, həm də xeyriyyəçi kimi xalqımızın maariflənməsi üçün öz köməyini əsirgəmirdi. 1909-cu ildə Bankə bölgəsinin camaatı "Nəşri-maarif"cəmiyyətinin idarə heyətinin sədri H.Z.Tağıyevə müraciət edərək Bankədə onlar üçün məktəb açılmasını xahiş etmişlər. "Nəşri-maarif" cəmiyyətinin idarə heyətinin sədri H.Z.Tağıyev öz şəxsi vəsaiti ilə burada ibtidai məktəb açmış və həmin məktəbə cəmiyyətin idarə heyətinin qərarı ilə Azərbaycan dilində savadı olan müəllim təyin olunmuşdur [4, v.22].

**Zaqatalada maarifçilik fəaliyyəti**. 1910-cu ildə Zaqatala dairəsinin müsəlmanlarının xahişi və təşəbbüsü ilə "Nəşri-maarif" cəmiyyəti idarə heyəti qərara almışdır ki, Zaqatala dairəsində yerli əhali arasında təhsilin yayılması məqsədilə cəmiyyətin şöbəsi təşkil edilsin. Zaqatala şöbəsi öz fəaliyyətinə "Cümə kursu" və "Axşam kurs"larının açılması ilə başlamışdır. Bundan əlavə şöbə mühazirələr təşkil etməyi, kitabxana və qiraətxana açmağı, tamaşaların təşkili, yeni tipli ibtidai məktəblərin açılması və s. proqramı həyata keçirirdi [24].

**Ağdaşda maarifçilik fəaliyyəti.** "Nəşri-maarif" cəmiyyəti 1910-cu ildə Ağdaşda öz şöbəsini açmışdır. Artıq əvvəldə bəhs etdiyimiz kimi, "Nəşri-maarif" cəmiyyəti öz təhsil proqramının həyata keçirilməsində bir çox çətinliklərlə qarşılaşırdı. Öz proqramının həyata keçirilməsi üçün Ağdaş şöbəsinə yerli əhali arasında böyük hörmət və nüfuza malik olan görkəmli şəxslərin rəhbərlik etməsi bu işi bir qədər asanlaşdırırdı. Bu, bir sıra tədbirlərin həyata keçirilməsinə öz müsbət nəticəsini göstərirdi. Məlumdur ki, cəmiyyətin Nizamnaməsinə uyğun olaraq cəmiyyətin işində iştirak edən bütün şəxslər, o cümlədən cəmiyyətin idarə heyəti təmənnasız xidmət edirdilər. Lakin buna baxmayaraq, bu vəzifələrə seçilən hər bir şəxs bu işi özünə böyük bir fəxr hesab edirdi. Bu təbii idi. Məqsəd azərbaycanlılar arasında maarifçiliyin inkişafına xidmət edəcək proqramın həyata keçirilməsi idi. 1915-ci ildə Ağdaş şöbəsinin ümumi iclasında idarə heyətinə fəxri üzv seçilən qazı Əhməd Əfəndi bu seçimi böyük minnətdarlıqla qarşılamış və "...həvəsli bir surətdə daima cəmiyyət üçün çalışacağına" söz vermişdi [46]. Həmin iclasda şöbəyə aşağıdakı şəxslər fəxri üzv seçilmişdilər: şöbənin idarə heyətinin sədri – Hacı Ağa Vahidov; idarə heyətinin üzvləri – Hacı Ağaəli Abbasov; şöbənin təftiş komissiyasının üzvü Əmiraslan Qədirov tərəfindən namizədliyi irəli sürülən – Səməd Qədirov. İdarənin üzvü Məşədi Məhəmmədbağır Rəfiyev tərəfindən namizədliyi irəli

sürülən qardaşı – Məşədi Mehdi Rəfiyev, Molla Məhəmməd Əfəndiyev, Əhməd Əfəndiyev, Həmid Səmədov, Ağarəhim Abdullayev və Hacı Həsən Əsgərov fəxri üzvlər seçilmişlər [46].

Ağdaş şöbəsinin təhsil sahəsində həyata keçirdiyi proqram içərisində qızların təhsilə cəlb olunması başlıca amillərdən biri idi. Lakin bu heç də ictimaiyyət arasında müsbət qarşılanmırdı. Xüsusilə dini xurafatın hökm sürdüyü kənd yerlərində bu proqramın həyata keçirilməsi olduqca çətin idi. Bütün bu çətinliklərə baxmayaraq, cəmiyyət istər qəzalarda, istərsə də kənd yerlərində yeni tipli məktəblərin açılmasına nail olmuşdur. Xüsusilə bu proqramın həyata keçirilməsinə "Nəşri-maarif" cəmiyyətinin yaradıcılarının, həmçinin yerlərdəki nümayəndələrinin xalq arasında böyük nüfuza malik olmaları kömək edirdi. Məhz belə bir proqram cəmiyyətin Ağdaş şöbəsi vasitəsilə həyata keçirilirdi. Az müddət ərzində cəmiyyət Ağdaşda müsəlman qız məktəbinin açılmasına nail olmuşdur. Qeyd edək ki, müəllim olmamasından məktəbin fəaliyyətə başlaması gecikdirilirdi. 1910-cu ildə "Kaspi" qəzeti səhifələrində Ağdaş şöbəsinin sədri Hacı Məhəmmədağa Hacıyevin məktəbə müəllim axtarılması haqqında elanından sonra məktəbə müəllim göndərilmişdir [26].

Birinci dünya müharibəsi illərində "Nəşri-maarif" cəmiyyətinin digər şöbələri kimi, Ağdaş şöbəsi də bir çox tədbirlərin həyata keçirilməsinə nail olmuşdur. Şöbə Qars vilayətində müharibədən zərərçəkən müsəlmanlara və qaçqınlara yardım etmək məqsədilə ianələr toplanmasını təşkil etmişdir. 1915-ci ilin iyununda yığılan 1.844 rubl Yelizavetpol qubernatoru vasitəsilə Qars müsəlmanlarına göndərilmişdir [37]. Bundan əlavə Ağdaş şöbəsi "Qardaş köməyi günü" təşkil etmişdir ki, həmin gündə ianələrlə yanaşı, geyim dəstləri də yığılaraq Qarsda müharibədən zərərçəkən müsəlmanlara, o cümlədən uşaqlara göndərilmişdir. Bu tədbirin təşkili işlərində Ağdaş şöbəsi nəzdində fəaliyyət göstərən məktəb kollektivi yaxından iştirak etmişdir [37].

**Nuxada (Şəki) maarifçilik fəaliyyəti.** 1908-ci ildə "Bakı müsəlman xeyriyyə cəmiyyəti"nin Nuxa şöbəsi fəaliyyət göstərirdi. Həmin ilin mayında cəmiyyət İsmayıl bəy Qasprinskinin 25 illik fəaliyyəti münasibətilə Nuxada ruhani mədrəsəsi təşkil etmişdir. Həmin ildə şöbənin idarə heyəti aşağıdakı tərkibdə idi: Nurməmməd Pişnamazzadə, Zəkəriyyə Əfəndiyev, Hacı Osman Manafov, Hacı Kərim Qasımov, Nəsir Usubov, Hacı Həbibullayev, Qafar Hacıyev, Əhməd Rəşidov, Hidayət Rüstəmbəyov [20].

1913-cu ildə şöbəyə Həsən Tahirzadə rəhbərlik edirdi [27]. Həmin ildə şöbənin 150-dən çox üzvü var idi. Şöbənin idarə heyəti üzvlüyünə təkcə Nuxadan deyil, həmçinin Azərbaycanın digər bölgələrindən – Bakı, Yelizavetpol, Dərbənd, Tiflis, Yevlax, Göyçay, Ucar, Ağdam, Zaqatala və digər yerlərdən olan ziyalılar və imkanlı şəxslər könüllü yazılmışdılar [27]. Burada əsas məqsəd yerli əhalinin elm və təhsilə sahib olmalarına maddi və mənəvi

dəstək olmaq idi. Nuxa şöbəsi tərəfindən açılan və fəaliyyət göstərən ibtidai məktəb Nuxanın imkanlı şəxsləri tərəfindən cəmiyyətin istifadəsi üçün etdikləri ianələr hesabına saxlanılırdı. Bundan əlavə şöbənin kitabxanası var idi, həmçinin böyüklər üçün qiraətxanalar təşkil olunurdu.

**Şuşada maarifçilik fəaliyyəti.** Azərbaycan ictimai təşkilatlarının təhsil sahəsində həyata keçirdiyi ən uğurlu layihələrdən biri Azərbaycanın ən qədim torpaqlarından biri olan Şuşada şöbəsinin təşkili idi. "Nəşri-maarif" cəmiyyətinin Şuşa şöbəsi 1913-cu ildə fəaliyyət göstərirdi. Arxiv materiallarında və qəzet səhifələrində bu şöbənin neçənci ildə açılması haqqında hələlik məlumat əldə edilməmişdir. Lakin 1913-cu ilə aid materiallardan aydın olur ki, həmin ildə Şuşa şöbəsinin əhatə dairəsi kifayət qədər geniş olmuşdur. Həmin ildə "Nəşri-maarif" cəmiyyətinin Şuşa şöbəsinin 2 nəfər fəxri, 13 nəfər ömürlük və 174 nəfər həqiqi üzvü var idi [7]. 1915-ci ildə şöbənin hesabatından məlum olur ki, idarə heyətinin üzvlərinin sayı artaraq 4 fəxri üzvü, 16 ömürlük üzvü və 199 həqiqi üzvü olmuşdur [15].

Azərbaycanlılar arasında savadın yayılması sahəsində böyük layihələr həyata keçirən "Nəşri-maarif" cəmiyyətinin Şuşa şöbəsinin nəzdində 4 ibtidai məktəb fəaliyyət göstərirdi. Bu məktəblərdə 206 şagird təhsil alırdı. Şagirdlərin əsas hissəsini kimsəsiz və kasıb ailədən olan uşaqlar təşkil edirdilər [27].

Dövrün bütün çətinliklərinə baxmayaraq, Şuşa şöbəsi qız məktəbinin də açılmasına nail olmuşdur. Bu məktəb "Gövhəriyyə" qız məktəbi adı ilə məşhur idi. Qız məktəbində kasıb və imkansız ailələrdən olan qızlarla yanaşı, imkanlı şəxslərin qızları da təhsil alırdı [27]. "Kaspi" qəzeti səhifələrində imkanlı şəxslərdən olan M.A.Brexanovun bu məktəbə 50 rubl yardım etdiyi qeyd olunurdu [27].

1915-ci ildə Şuşa şöbəsinin "Gövhəriyyə" adlı mədrəsəsi də fəaliyyət göstərirdi. Həmin ilə aid hesabatında bildirilir ki, "Gövhəriyyə" mədrəsəsində 228 şagird təhsil alırdı. Şagirdlərdən 120 nəfəri pulsuz, cəmiyyətin vəsaiti hesabına təhsil alırdı [15].

"Nəşri-maarif" cəmiyyəti tərəfindən Şuşada açılan məktəblərdə dərsləri həmin dövrün tanınmış müəllimləri – Xosrov Axundov, Hüseyn Axundov, Mirzə Camal Yusifzadə, Mirzə Cabbar Vəzirov və digər müəllimlər tədris edirdilər. Bu müəllimlər pedaqoji fəaliyyətlə yanaşı, geniş ictimai-siyasi iş aparırdılar. Şuşa şöbəsi təhsil layihələrini uğurla həyata keçirirdi. Bu şöbə 1914-cu ildə Nəcəf bəy Vəzirovun adına beşinci məktəbi açmışdır [7].

Şuşa şöbəsinin nəzdində Azərbaycan dilində kitab və məcmuələrlə zəngin qiraətxana fəaliyyət göstərirdi. 1909-cu il iyulun 17-də qiraətxananın mədaxil və məxaricini tərtib etmək üçün 3 nəfərdən ibarət komissiya təyin olunmuşdur. Komissiyaya müəllim Cavad Bağırbəyov, tələbələr – Mirhəsən Vəzirov və Yusif Kənan Rəhimzadə seçilmişdilər [43]. 1913-cu ildə cəmiyyətin idarə

heyəti tərəfindən həmin qiraətxananın Azərbaycan dilində çap olunmuş qəzet və jurnallarla təmin olunması üçün 100 rubl vəsait ayrılmışdır [7].

Birinci dünya müharibəsi illərində “Nəşri-maarif” cəmiyyətinin digər şöbələri kimi, Şuşa şöbəsi də qaçqın və müharibədən zərərçəkən müsəlmanlara yardım işinin təşkilində böyük fəallıq göstərirdilər. Bu məqsədlə Şuşa şöbəsi tərəfindən əşya, pul yardımının toplanmasını və eyni məqsədlə mədəni tədbirlərin təşkilini həyata keçirirdi. 1915-ci ildə şöbənin təşkil etdiyi mədəni tədbirlərdən 16.000 rubl ianə toplanmışdır [32]. Bütün bu yığılan pullar Qarsda müharibədən zərərçəkən müsəlmanların və qaçqınların istifadəsinə yönəldilmişdir [32]. Bu məsələ ilə bağlı “Kaspi” qəzeti yazırdı: “...təəssüf ki, bu köməyə nə ibtidai, nə də orta təhsil müəssisələrinin şagirdləri daxil olmamışlar, yoxsul Şuşa şagirdləri bu ağır günlərdə kömək üçün heç yerə müraciət etmirlər” [32]. Buradan aydın olur ki, şöbəyə kifayət qədər ianələr daxil olmasına baxmayaraq, bu ianələrin hətta imkansız şagirdlərin təhsilinə müəyyən faiz ayrılması da nəzərdə tutulmurdu. Müharibədə olduqca ağır vəziyyətdə olan insanlara yardım təhsildən önə çıxmışdı. İkincilərə yardım olunması daha vacib sayılırdı.

Artıq göründüyü kimi, “ictimai təşkilatların müharibə şəraitində fəaliyyəti şaxələnirdi. Həm müharibədən zərərçəkənlərə və qaçqınlara yardım olunması, həm də təhsil sahəsində işlərin həyata keçirilməsi ictimai təşkilatların qarşısında duran ən mühüm problemlər idi. Birinci problemin həlli imkanlı şəxslərdən daxil olan ianələr hesabına reallaşdırılırdısa, ikinci problemin həlli üçün digər yollar aramaq lazım gəlirdi. Məhz ikinci problemin həll olunması üçün 1915-ci ilin avqustunda “Nəşri-maarif” cəmiyyətinin Şuşa şöbəsinin idarə heyəti və şuşalı tələbələrin birgə iclası keçirildi. İclasda qərara alındı ki, bu ildən başlayaraq hər il yay aylarında tələbə axşamları təşkil edilsin. Bu axşamlar ənənəvi hal alsın. Toplanan maddi vəsaitlə imkansız şuşalı tələbələrə kömək edilsin. Beləliklə, 1915-ci il avqustun 25-də Şuşa gənclərinin iştirakı ilə ədəbi-bədii axşam təşkil olundu. Axşamdan gələn gəlirin 25%i müharibədən zərərçəkən müsəlmanlara, 75%-i imkansız müsəlman tələbələrinə ayrılmışdır [32].

“Nəşri-maarif” cəmiyyətinin Şuşa şöbəsinin 1915-ci ilin avqustuna olan hesabatından aydın olur ki, hesabat ilində şöbənin gəliri 7.253 rubl 20 qəpik olmuşdur. Bunun 1.769 rublu üzvlük haqqından, 835 rubl cəmiyyətin kapitalının faizi, qalan hissə xüsusi yardımlardan daxil olmuşdur. Bu məbləğin 1.799 rublu şöbənin məktəblərində müəllimlərə əməkhaqqı olaraq verilmiş, 115 rubl dəftərxana xərci, 663 rubl “Gövhəriyyə” mədrəsəsinin imkansız şagirdlərinin saxlanılmasına sərf olunmuşdur. 1916-cı ildə Şuşa şöbəsinin 20.908 rubl ümumi kapitalı var idi. Bunun 7.000 rublu Şuşanın adlı-sanlı imkanlı şəxslərindən olan M.Fiyaqov tərəfindən yardım olunmuşdur [15]. Hesabat ilində cəmiyyətə aşağıdakı şəxsi yardımlar edilmişdir: Həsən Rzayev –

300 rubl, M.Suraxanov – 150 rubl, C.Ağa Cavanşir və N.Xızırstanski – 100 rubl, M.A.Axundov – 170 rubl. [15].

Bu xeyirxah adamlardan savab işinin böyük əhəmiyyətini qeyd etməklə yanaşı, bildirməliyik ki, belə ianələr bölgənin təhsilə olan çox böyük tələbatını ödəməyə kifayət edə bilməzdi. Təhsilə və mədəniyyətə sistemli dövlət qayğısının olmadığı bir şəraitdə ictimai təşkilatların fəaliyyəti zülmət qaranlığında tək-tək sayrışan zəif ulduzlara bənzəyirdi.

**Qaryagində maarifçilik fəaliyyəti.** 1913-cu ildə "Nəşri-maarif" cəmiyyəti təhsil layihəsinin həyata keçirilməsi, yeni tipli məktəb açılması məqsədilə daha bir ərazidə – Qaryagində (indiki Füzuli şəhəri) şöbəsini açdı. Şöbənin fəaliyyətə başlaması üçün maddi vəsaitin olması vacib şərtlərdən biri idi. Şöbəyə yardım edən imkanlı şəxslərlə yanaşı, özünün maddi imkanı olmayan azərbaycanlı gənclər "Nəşri-maarif" cəmiyyətinin fəaliyyətini dəstəkləyir və şöbəyə kömək məqsədilə mədəni tədbirlər təşkil edirdilər. Belə tədbirlərdən biri 1913-cu ildə təşkil olunmuşdur. Yerli gənclər Azərbaycan dilində tamaşalar nümayiş etdirərək əldə olunan pul vəsaitini şöbənin istifadəsinə daxil etmişdilər [28].

Qaryagin şöbəsi öz fəaliyyətində yerli əhali arasında savadı yaymaq, cəmiyyətin Nizamnaməsinə uyğun olaraq məktəblərin, kitabxana-qiraətxanaların açılması, kasıb ailədən olan uşaqların təhsil alması üçün yardım olunması və digər xeyriyyəçilik tədbirlərinin həyata keçirilməsi sahəsində uğurla çıxış edirdilər. Bu tədbirlərin həyata keçirilməsinə ərazinin ziyalıları və xeyriyyəçiləri ilə yanaşı, bəzi hallarda ruhanilər də dəstək olurdular. 1915-ci ildə Cəbrayıl qazısının təşəbbüsü və təşkilatçılığı ilə Qaryagin şöbəsi Horadiz, Bəhmənli [33], Qaragöz və Koroğlu kəndlərində ibtidai məktəblər açmışdır [33].

**Dəvəçidə maarifçilik fəaliyyəti.** Dəvəçidə (indiki Şabran rayonu – N.M.) fəaliyyət göstərən yeni tipli məktəb "Səfa" Bakı müsəlman maarif cəmiyyəti tərəfindən açılmışdır. 1914-cu ilin əvvəlində cəmiyyətin idarə heyətinə Dəvəçi camaatı tərəfindən müraciət olunaraq burada məktəbyaşlı uşaqların təhsilə cəlb olunması məqsədilə bir ibtidai məktəbin açılması xahiş olunmuşdur. Bununla əlaqədar olaraq, cəmiyyətin idarə heyəti üzvlərindən təşkil olunmuş komissiya Dəvəçidə təhsilin vəziyyətinin aydınlaşdırılması üçün bu əraziyə getmişlər. Həmin il fevralın 23-də "Səfa" cəmiyyətinin idarə heyətinin iclasında Dəvəçidə olmuş komissiyanın məruzəsi dinlənilmişdir. Məlum olmuşdur ki, həmin vaxtda Dəvəçidə uç ibtidai məktəb mövcuddur. Bunlar köhnə üsullu olub çox acınacaqlı vəziyyətdə qalmaqda idi. Birinin digərinə nisbətən zahiri görünüşü səliqəli görünsə də, tədris hələ də köhnə üsulla aparılırdı. Dəvəçidə yerli əhali ilə yanaşı, rus, malakan və digər milli azlıqlar da yaşayırdı. Burada Bakı quberniyası və Dağıstan vilayəti xalq məktəbləri direktorluğu tərəfindən açılan məktəblərdə dərslər yalnız rusca keçirilirdi. Bütün bunları nəzərə alaraq, "Səfa"

cəmiyyətinin idarə heyəti Dəvəçidə Azərbaycan dilində təhsil verən yeni tipli məktəb açmağa qərar vermişdir [9; 44]. Məktəbin açılması ilə bağlı olaraq cəmiyyətin idarə heyətinin sədri Nağı Tağıyev, idarə heyəti üzvü Mehdi bəy Hacınski, xəzinədar Kərbəlayi Əlibaba Zərbəliyev və Bakı quberniyası və Dağıstan vilayəti Xalq məktəbləri inspektoru Sultan Məcid Qənizadə Dəvəçidə məktəb açılışında iştirak etmək üçün bu ərazidə olmuşdular [45].

**Dərbənddə maarifçilik fəaliyyəti.** 1915-ci il yanvarın 3-də "Bakı müsəlman xeyriyyə cəmiyyəti"nin Dərbənddə şöbəsi açılmışdır. Şöbənin açılışı günündə yerli əhali ilə yanaşı, Bakıdan gələn nümayəndələr, o cümlədən idarə heyətinə üzvlər iştirak edirdilər. Təkcə həmin gün şöbənin istifadəsinə 1.000 rubl məbləğində yardımlar və üzvlük haqları toplanmışdı [11]. 1915-ci ildə şöbənın bir ibtidai məktəbi və kimsəsiz uşaqlar, həmçinin qocalar üçün bir himayə evi fəaliyyət göstərirdi [11].

Artıq məlum olduğu kimi, şöbənin fəaliyyət dövrü birinci dünya müharibəsi illərinə təsadüf edirdi. Bununla əlaqədar olaraq azərbaycanlılara məxsus ictimai təşkilatlar, həmçinin onların ayrı-ayrı yerlərdəki şöbələri bu işdə olduqca fəallıq göstərir, müharibədən zərərçəkən insanlara yardım edirdilər. Dərbənd şöbəsi də bu işdə yaxından iştirak edirdi.

1915-ci ildə "Bakı müsəlman xeyriyyə cəmiyyəti" Bakı şəhərində "Qardaş köməyi" adı altında silsilə xeyriyyə tədbirləri həyata keçirirdi. Bu baxımdan diqqəti xüsusilə çəkən, həmçinin digər ictimai təşkilatların da qoşulduğu, üzərində "Qardaş köməyi" sözləri yazılmış döş nişanlarının satışı idi. Həmin ilin may ayında Dərbənd şöbəsi Dərbənddə 15.000 ədəd nişan satışını həyata keçirmiş və daxil olan pul vəsaiti müharibədən zərərçəkənlərə yardım üçün Bakıya göndərilmişdir [35]. Dərbənd şöbəsi yerli əhali arasında Azərbaycan dilində yeni tipli məktəb, uşaq evi, kitabxana və s. maarif müəssisələri açmaqla, həmçinin xeyriyyəçilik layihələri həyata keçirməklə maarifçiliyin inkişafında müəyyən rol oynamışdır.

**İrəvanda maarifçilik fəaliyyəti.** İctimai təşkilatların ən uğurlu addımlarından biri Azərbaycanın qədim və zəngin tarixi keçmişə malik olan ərazisində – İrəvanda şöbəsinin açılması idi. Qeyd edək ki, Azərbaycanın digər ərazilərində olduğu kimi, İrəvanda da çarizmin apardığı ruslaşdırma siyasəti burada yaşayan yerli əhalini öz doğma Azərbaycan dilindən uzaqlaşdırmaq istiqamətinə yönəldilirdi. Yerli əhalinin əsasən iki növ məktəblərdə təhsil almaq imkanı var idi. Onlardan biri keçmişdən mövcud olan dini məktəb və mədrəsələr, ikincisi isə rus məktəbləri idi [47].

İrəvan əhalisi arasında ana dilində savadın yayılması üçün Azərbaycan dilində dövrün müasir tələblərinə uyğun yeni tipli məktəbin olmasına böyük tələbat var idi. "Nəşri-maarif" cəmiyyəti İrəvanın ayrı-ayrı ərazilərində bu tipli məktəblərin açılmasına nail olmuşdur [29]. Bundan əlavə İrəvan şöbəsi kitabxana və böyüklər üçün axşam kursları açmış, qiraətxanalar və məruzələr

təşkil etmişdir. Bununla yanaşı, şöbə kitab və broşüraların çapı, ana dili və ədəbiyyatın inkişafı üçün əməli fəaliyyət göstərməyi nəzərdə tuturdu [39].

1914-cu ilə aid məlumata görə, cəmiyyət tərəfindən İrəvanda yeni bir ibtidai məktəb açılması məqsədilə proqram işlənilib hazırlanmışdır. Proqrama görə açılacaq ibtidai məktəbdə orta təhsil müəssisələri üçün şagird hazırlanması nəzərdə tutulurdu. Qəzet yazırdı ki, "...bu məsələnin işlənib hazırlanmasına baxmayaraq hələlik heç bir addım atılmayıb. Ümid edək ki, yeganə xeyriyyə təşkilatı uşaqların taleyi haqqında düşünsün" [29]. Ancaq dövlət və hökumət orqanlarının rəsmi icazəsi olmadan ictimai təşkilatlar vasitəsilə bu layihənin həyata keçirilməsi mümkünsüz idi. Məktəbin açılması ilə bağlı rəsmi müraciət olunsa da, təəssüf ki, məktəbin fəaliyyəti barədə hələlik məlumata rast gəlinmir.

**Cənubi Azərbaycanda maarifçilik fəaliyyəti.** Azərbaycan ictimai təşkilatları Cənubi Azərbaycanda – Təbrizdə yerli əhali arasında Azərbaycan dilində savadın yayılması məsələsinə də xüsusi önəm vermişdir. Bu istəyin həyata keçirilməsi məqsədilə 1908-ci ildə "Bakı müsəlman xeyriyyə cəmiyyəti" Təbrizdə şöbəsini açmışdır. Həmin ildə şöbənin Səbzivar adlanan yaşayış sahəsində bir ibtidai məktəbi və bir qiraətxanası fəaliyyət göstərirdi. Məktəbdə dərslər yeni üsulla keçirilirdi. Şöbə 1909-1910-cu dərs ili üçün yeni məktəbin fəaliyyət proqramını hazırlamışdır. Şöbənin həyata keçirdiyi təhsil layihəsində Səbzivarın tanınmış ziyalıları iştirak edirdilər [19].

**Yekun**

Beləliklə, XX əsrin əvvəllərində Azərbaycan ictimai təşkilatları bütün Azərbaycan ərazisində, o cümlədən Cənubi Azərbaycanda, Bakı, Yelizavetpol, İrəvan quberniyalarında, Dərbənddə maarif sahəsində uğurlu layihələr həyata keçirdi, yeni tipli məktəblər açmaqla xalq təhsilinin inkişafında böyük rol oynadı.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Dövlət Tarix arxivi, fond 44, siyahı 2, iş 1165
2. Azərbaycan Respublikası Dövlət Tarix arxivi, fond 50, siyahı 1, iş 528
3. Azərbaycan Respublikası Dövlət Tarix arxivi, fond 309, siyahı 1, iş 995
4. Azərbaycan Respublikası Dövlət Tarix arxivi, fond 312, siyahı 1, iş 2
5. Azərbaycan Respublikası Dövlət Tarix arxivi, fond 312, siyahı 1, iş 208
6. AMEA Tarix İnstitutunun Elmi Arxivi, iş 3840(0)
7. Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun Elmi Arxivi, iş 3854
8. "Baku" qəzeti, 1910, 13 may, №106
9. В Обществе «Сафа», «Баку», 25 февраля 1914, № 45
10. Филиальное отделение «Ниджать», «Баку», 20 июня 1914, № 136
11. Открытие благотворительного общества, «Баку», 15 января 1915, № 11
12. "Baku" qəzeti, 1915, 24 iyul 1915, № 164
13. "Baku" qəzeti, 1915, 31 oktyabr 1915,№243

14. "Baku" qəzeti, 1915, 17 dekabr №282
15. "Baku" qəzeti, 1916, 6 oktyabr №219
16. "Baku" qəzeti, 1917,26 may 1917, №114
17. "Baku" qəzeti, 1917, 30 may 1917. №117
18. Bəsirət" qəzeti, 24 may 1914, №7
19. "Kaspiy" qəzeti, 1908, 21 mart № 67
20. "Kaspiy" qəzeti, 4 may 1908, № 99
21. "Kaspiy" qəzeti, 1908, 28 oktyabr № 174
22. "Kaspiy" qəzeti, 1908, 19 oktyabr №168;
23. "Kaspiy" qəzeti, 1908, 04 noyabr №180
24. "Kaspiy" qəzeti, 1910, 8 yanvar, №2
25. "Kaspiy" qəzeti,, 1910, 29 aprel № 94
26. "Kaspiy" qəzeti, 1910, 7 oktyabr № 226
27. "Kaspiy" qəzeti, 1913, 11 may № 106; "Kaspiy" qəzeti, 1913, 5 may № 100
28. "Kaspiy" qəzeti, 1913, 21 iyun № 138
29. "Kaspiy" qəzeti, 1914, 21 dekabr, №288
30. "Kaspiy" qəzeti, 1915,1 mart 1915, №48
31. "Kaspiy" qəzeti, 1915,18 mart, №62
32. "Kaspiy" qəzeti, 1915, 13 sentyabr №204
33. "Kaspiy" qəzeti, 1915, 16 sentyabr №206
34. "Kaspiy" qəzeti, 1915, 5 dekabr, №№272
35. "Kaspiy" qəzeti, 1915, 19 may, №108
36. "Kaspiy" qəzeti, 1915, 11 iyun, №128
37. "Kaspiy" qəzeti, 1815, 17 iyun, №133
38. "Kaspiy" qəzeti, 1916, 8 yanvar № 5
39. "Kaspiy" qəzeti, 1917 20 may, №110
40. "Kaspiy" qəzeti, 1917, 25 may, №113
41. "Kaspiy" qəzeti, 1917,8 iyun №125
42. "Kaspiy" qəzeti, 1913, 5 may, №100
43. "İttifaq" qəzeti 1909, 14 avqust №№187
44. "İqbal" qəzeti, 1914, 24 fevral, №587
45. "İqbal" qəzeti , 1914, 12 fevral, №576
46. "Yeni İqbal" qəzeti, 1916, 16 dekabr №483
47. *Adıgözəlov Ə.* Qərbi Azərbaycandakı yeni tipli məktəblərimizin tarixindən. B.: Təhsil, 2003, 82 s.
48. *Багирова И.* Политические партии и организации Азербайджана в начале XX в. (1900-1917). Баку: Элм, 1997, 336 с.
49. *Bünyadzadə D.* Həvəsmi və yaxud cəhalətmi / Tərəqqi, 2 yanvar 1909, № 2
50. *Cavadov C.* XX əsrdə Azərbaycanda xeyriyyəçilik hərəkatı: XIX əsrin sonu və XX əsrdə. Bakı: Elm, 1999, 256 s.
51. *Əlizadə H.N.* Gecə məkatibi / Həqiqət, 3 yanvar 1910, № 2
52. *Əlibəyov H.* Cəmiyyəti-xeyriyyə xüsusunda / İrşad, 7 avqust 1906, № 185
53. *Halil Bal.* Azərbaycan Cümhuriyyətinin Qurtuluş Mücadiləsi və Qafqaz İslam Ordusu, İstanbul, 2010
54. *Ağayev H.* Cəmiyyəti-xeyriyyəyə xitabən / İrşad, 21 fevral 1907, № 30

55. *Məlikova H.* Həsən bəy Məlikov – Zərdabinin biblioqrafiyası / Xəzər, 1990, № 2
56. *İsmayıl M., İbrahimov M.* El atası. Bakı: Azərnəşr,1994, 120 s.
57. *Qasımov H.İ.* Cəmiyyətlərimiz nə haldadır / İqbal, 8 yanvar; 1913, № 256
58. *Rəsulzadə M.Ə.* Azərbaycan Cümhuriyyəti, Bakı: Elm, 1990, 116 s.
59. *Rəsulzadə M.Ə.* Xeyriyyə və maarif cəmiyyətlərimiz. Əsərləri I cild (1903–1909), Bakı, 1992
60. *Seyidzadə D.* Azərbaycan XX əsrin əvvəllərində: müstəqilliyə aparan yollar, Bakı: OKA Ofset, 2004, 348 s.
61. *Гусейнова Д.С.* Азербайджанская интеллигенция в конце XIX – начале XX вв. Диссерт. ... докт. ист. наук. Баку, 1993, 443 с.
62. *Талыбова С.* Культурно-просветительская и благотворительная деятельности азербайджанской буржуазии. Автореф. дис. ... канд. ист. наук. Баку, 1994, 29 с.

Redaksiyaya daxil olub 04.04.2022

***УДК 94(479.24)***

***Н.Б.Солтанова***
*Институт истории науки НАНА*
*physics_nas@rambler.ru*

# ПОЯВЛЕНИЕ, ФОРМИРОВАНИЕ, РАЗВИТИЕ ЧЕЛОВЕКА И КОЛЛЕКТИВОВ НА ИСТОРИЧЕСКОЙ ТЕРРИТОРИИ АЗЕРБАЙДЖАНА

***Ключевые слова**: Азыхская пещера, Манна, Мидия, Атропатена, Албания, Азербайджан*

Азербайджан является одной из территорий, где формировался первобытный человек, чему свидетельствуют археологические находки ученых. Природные возможности позволяли первобытной группе, человеку остановиться здесь. Одна из древних пещер планеты – Азыхская принята четвертым местонахождением древнего человека в мире. Полученные археологические находки знакомят нас с первообитателями нашей земли. На основе находок ученые считают, что на этой земле человек начал жить 1,5 миллионов лет назад. Первобытный человек постепенно интересовался причинами происходящих вокруг событий, и старался расширять свои знания. Навыки и знания накапливались постепенно в результате ежедневной деятельности людей и их наблюдений за окружающим миром. Древнего человека интересовали тайна жизни и смерти, атмосферные явления, перемещения небесных тел, их связь с изменением погоды и климата, а также многие другие явления. От первобытного человека пошли ветви. На плодотворной земле Азербайджана родились трудоспособные, мужественные, мудрые люди, которые оставили в истории Азербайджана и мира такие государства как Манна, Мидия, Атропатена и Албания.

***N.B.Soltanova***

# AZƏRBAYCANIN TARİXİ ƏRAZİSİNDƏ İNSANIN VƏ KOLLEKTİVİN YARANIŞI, FORMALAŞMASI, İNKİŞAFI

***Açar sözlər**: Azıx mağarası, Manna, Midiya, Atropatena, Albaniya, Azərbaycan*

Azərbaycan ibtidai insanın formalaşdığı ərazilərdən biridir, bunu alimlərin arxeoloji tapıntıları sübut edir. Təbii imkanlar ibtidai qrupa, insana burada qalmağa imkan verirdi. Planetin qədim mağaralarından biri – Azıx mağarası dünyada qədim insanının dördüncü olduğu yer olaraq qəbul edilmişdir. Əldə olunan arxeoloji tapıntılar bizi torpaqlarımızın ilkin sakinləri ilə tanış edir. Tapıntılara əsasən alimlər hesab edirlər ki, insanlar bu yerdə 1,5 milyon il əvvəl yaşamağa başlamışlar. İbtidai insan yavaş-yavaş ətrafda baş verən hadisələrin səbəbləri ilə maraqlanır, biliklərini artırmağa çalışırlar. Bacarıq və biliklər insanların gündəlik fəaliyyəti və ətraf aləmi müşahidələri

nəticəsində tədricən toplanır. Qədim insanı həyat və ölümün sirri, atmosfer hadisələri, göy cisimlərinin hərəkətləri, onların hava və iqlim dəyişiklikləri ilə əlaqəsi, eləcə də bir çox başqa hadisələr maraqlandırırdı. İbtidai insan şaxələndi. Azərbaycanın məhsuldar torpağında Azərbaycan və dünya tarixində Manna, Midiya, Atropatena, Albaniya kimi dövlətləri qoyub getmiş zəhmətkeş, mərd, müdrik insanlar doğulmuşdur.

***N.B.Soltanova***

## THE FIRST SEPS OF OUR ANCESTOR APPEARANCE, FORMATION, DEVELOPMENT OF HUMAN AND TEAM IN THE HISTORICAL TERRITORY OF AZERBAIJAN

***Keywords**: Azikh cave, Manna, Media, Atropatena, Albania, Azerbaijan.*

Azerbaijan is one of the territories where primitive man was formed, as evidenced by the archaeological finds of scientists. Natural possibilities allowed the primitive group, man to stop here. Based on the finds, scientists believe that man began to live on this earth 1.5 million years ago. Primitive man gradually became interested in the causes of the events taking place around them, and tried to expand his knowledge. Skills and knowledge accumulated gradually as a result of the daily activities of people and their observations of the world around them. Ancient man was interested in the mystery of life and death, atmospheric phenomena, the movements of celestial bodies, their connection with weather and climate changes, as well as many other phenomena. From primitive man came branches. Able-bodied, courageous, wise people were born on the fruitful land of Azerbaijan, who left such states as Manna, Media, Atropatena and Albania in the history of Azerbaijan and the world.

На планете Земля существовало достаточное число цивилизаций. Азербайджан является одной из территорий, где формировался первобытный человек, чему свидетельствуют археологические находки ученых. Археолог Мамедали Гусейнов при исследовании Азыхской пещеры в 1968 г. сделал интересную находку – часть челюсти первобытного человека, жившего 500 тыс. лет тому назад. Эта пещера оказалась стоянкой первобытного человека. Одна из древних пещер планеты – Азыхская принята четвертым местонахождением древнего человека в мире. Полученные археологические находки знакомят нас с первообитателями нашей земли. Азыхская пещера одна из редких многослойных памятников. Находки позволяют говорить, что на этой земле человек начал жить 1,5 миллионов лет назад.

В дописьменную эпоху знания накапливались и передавались от поколения в поколение в устной форме. Но постепенно все стало меняться. Появилась необходимость другой формы сохранения и передачи информации. Особый интерес в Азыхской пещере требует череп пещерного медведя, с нанесенными на нем специальными знаками. По

мнению ученых, эти насечки могли быть примитивными единицами исчисления. Есть вероятность, что люди, жившие в Азыхской пещере, наблюдали за перемещениями небесных тел и пытались вести счет дням и месяцам. В последующие эпохи примитивные знаки трансформировались в первые системы письма. Человек того времени в определенной мере осознавал и сущность цвета, цветовых соотношений, что сказывается на найденных предметах. Эпоха мустье ясно говорит о себе в пещерах Азых и Таглар, Дамджилы, Дашсалахлы. Человек, решая один из своих необходимых потребностей – поиск убежища, стал постепенно удаляться из природных убежищ – пещер. Примерно 300 тыс. лет назад жившие в этом регионе люди начали строить примитивные дома из камня.

Неандертальцы, живущие 400 тыс. лет назад, обладали определенными знаниями о флоре и фауне. Они, добывая пищу, могли делать какие-то выводы (можно это поесть или ядовито, можно положить на рану полезное растение и т.д.). Основное питание получалось через охотничество, потому и они становились хорошими охотниками. Изучая полет птиц, где и когда, появление животных, человек разумно действовал. Первобытный человек уже интересовался причинами происходящих вокруг них событий и старался расширять свои знания. Навыки и знания накапливались постепенно в результате ежедневной деятельности людей и их наблюдений за окружающим миром. Древнего человека интересовали тайна жизни и смерти, атмосферные явления, перемещения небесных тел, их связь с изменением погоды и климата, а также многие другие явления. Пользуясь материалами природы, человек творил. В эпоху неолита и бронзы, человек на территории Азербайджана, умел проводить сложные хирургические операции. Кроме небесных ориентиров в пространстве и времени человек создавал для себя определенные «приборы» – гномон. Позже, во II тыс. до н.э. на территории Азербайджана человек пользовался водяными часами (археологические находки Кюльтепе) [7, с.51]. Идет развитие и расширение контактов. Во II тыс. до н.э. на этой территории действовал весовой и денежный эквивалент – бронзовые браслеты [8, с.28].

Объединяясь, у первобытных героев образовывались племена. Во главе племен стояли женщины, о чем говорят каменные книги Гобустана [9, с.314]. Далее, в первую очередь для защиты и обороны, идет объединение племен. В конце II – начале I тыс. до н.э. на территории Азербайджана возникли первые государственные образования. Самым крупным и сильным из них была Манна. В тот период на азербайджанских землях существовали такие могущественные государства, как Манна, Мидия, Атропатена и Албания. В Манне существовало важнейшее условие развития науки – письменная культура. Знания, связанные с

медициной, астрономией и геометрией записывались на глиняных табличках особыми иероглифами. В древних ассирийских источниках сообщается о наличии в Манне письменности. Маннеи, как и многие другие народы региона, пользовались ассирийской клинописью. Цари Манны Иранзу (737-718/17 гг. до н.э.) и Ахшери (ум.659 г. до н.э.) уделяли особое внимание развитию и распространению знаний и культуры в стране [5. с,165]. Маннеи имели представление о минералогии, химии, математике, астрономии, медицине, сельском хозяйстве и других отраслях знаний. В то время на всей территории вокруг озера Урмия были построены оросительные каналы. В стране было много посевных площадей, имелись специальные склады для хранения пшеницы, ячменя и вина. Высокое развитие аграрного сектора требовало основательных знаний в области сельского хозяйства. Маннеи, следившие за продуктивностью и другими особенностями домашнего скота (лошадей, коров, буйволов, овец и коз), работали над улучшением их пород. Породистые лошади Манны высоко ценились в соседних странах. Были получены новые сорта пшеницы, ячменя и многих других культурных растений, Это подтверждается и исследованиями известного русского ученого Николая Вавилова, который считал Закавказье родиной многих древнейших сортов культурных растений. Глубокие знания в области сельского хозяйства превратили Манну с экономической точки зрения в ведущую страну региона. Сбор налогов с населения, планирование государственного бюджета, учет доходов и расходов, способствовали росту знаний в области математики, а также развитию законодательного права. Ассирийские клинописи сообщают, что в 744 г до н.э. ассирийский царь Тиглатпаласар, после похода на территорию Азербайджана сделал своими вассалами местных царей и потребовал от них ежегодную дань. Учет расходов и доходов записывались на специальных глиняных табличках и хранились в канцеляриях чиновников. Постоянный учет поступающих в казну налогов заложил основу развития экономических знаний. Изучение минералов и их месторождений, позволило маннеям проводить широкомасштабную добычу полезных ископаемых. Разработка рудных месторождений способствовала развитию металлургии. Это подтверждают результаты раскопок в археологических пунктах Зивие и Гейтепе в Южном Азербайджане, где были обнаружены относящиеся к IX-VII вв. до н.э. высококачественные золотые, серебряные и бронзовые украшения и предметы быта. Ремесленники, хорошо знавшие химические и физические свойства металлов, изготавливали из них различные сплавы. Еще во II тыс. до н.э. они умели выплавлять различные виды бронзы: медно-свинцовые, медно-марганцовые и медно-мышьяковые. Местные ремесленники изучали свойства железа, олова и свинца, и изготавливали

из них разнообразные предметы. По мнению специалистов, слова «булат» и «полад» («сталь» по-персидски) происходят от названия страны Пулуади, располагавшейся на севере государства Манна (нынешняя область Гарадаг в Южном Азербайджане). В IX-VI вв. до н.э. в Манне были знакомы с правилами арифметики, математики и геометрии, что было связано с практической деятельностью человека. Относительно точные геометрические вычисления позволяли маннейским зодчим строить города, возводить дворцы и величественные крепости. Строительные работы проводились на основе точных вычислений, требовавших знаний в области геометрии и математики. В этой работе участвовали специалисты разных отраслей – зодчие, резчики по камню, художники и т.д. В IX в до н.э. были заложены основы таких городов, как Тармакиса (современный Тебриз), Улху (современный Маранд) и др. Города окружались крепостными стенами, возведенными на основе геометрических расчетов.

В VII в до н.э. на территориях Азербайджана и Ирана возникло государство Мидия. По сведениям Страбона, Мидия состояла из двух областей – Большая Мидия и Мидия Атропатены. Экономика Атропатены развивалась на высоком уровне [5, с.143]. Земледелие и животноводство шли в первых рядах. Страна была богата природными ресурсами. Главным фактором этого богатства считается золото, медь, железо, серебро, свинец.

Мидяне уделяли большое внимание расширению знаний и развитию образования. Писцы, работавшие в государственных учреждениях, именовались «дипири» (заимствование из аккадского языка). В дальнейшем это слово перешло из мидийского в персидский язык в форме «дабир». Мидяне пользовались арамейским (древнесирийским) алфавитом – одним из древнейших алфавитов мира. Греческие и римские источники сообщают о наличии письменной литературы и книг в Мидии. Например, римский историк Плиний, ссылаясь на жившего в III в до н.э. греческого ученого Гермиппа, пишет, что у магов (зороастрийцев) были книги, насчитывавшие два миллиона слов. За исключением «Авесты», ни одна из этих книг не дошла до наших дней. Мидия была государством, богатым нефтяными месторождениями. Одна часть этих месторождений располагалась на берегах Каспийского моря. Мидяне изучали свойства нефти, и внедряли технические новшества и изобретения в нефтяную промышленность. Например, они первыми в мире изобрели и стали применять особые механические приспособления для добычи нефти из колодцев. Из нефти изготовлялись разнообразные лекарства (капли, масла и т.д.), т.е. нашли метод в определенной степени очищения нефти. Специалисты по военному делу изготавливали из нефти и других

компонентов горючую смесь, которую называли «мидийским маслом» или «мидийским огнем». Этой смесью смазывали наконечники стрел и снаряды для катапульт. Затем их поджигали и стреляли ими по противнику. Жрецы были наиболее образованными. Они знали наизусть древние религиозные тексты и развивали богословие. Мидия, в эпоху ее наследницы, государства Атропатена, превращается в религиозный центр зороастрийцев. Основные принципы зороастрийской религии (благая мысль, благое слово, благое дело) подчеркивали важность интеллектуальных и моральных достоинств. Мидийские священники (маги) сыграли большую роль в развитии философии зороастризма. Например, древнегреческий историк Геродот (484-425 гг до н.э.) в своей «Истории» отмечает, что культура персов формировалась под влиянием мидийской культуры. После завоевания Мидии персидской династией Ахеменидов она продолжала оставаться религиозным и культурным центром Передней Азии. В Мидии научные знания, философия и религия развивались в тесном взаимодействии друг с другом. Примерно в IV в. до н.э в Мидии возникло учение «зерванизма» или «зурванизма». «Зерван» по-мидийски означает «время». Маги, рассуждая о категориях материи и времени, пришли к мнению о важности времени и его исключительной роли в системе мироздания. Они объявили время богом под именем Зерван. Маги считали старых зороастрийских богов Ахура-Мазду (бога Добра) и Ахримана (бога Зла) родными братьями и сыновьями Зервана. В VI-V вв. до н.э. греческие ученые испытали влияние научно-философских учений мидийских магов. Древнегреческий ученый Эмпедокл (прим. 490-430 гг. до н.э.), опираясь на учение зороастрийцев о священных стихиях (воде, земле, огне, воздухе), создал теорию о четырех первоэлементах природы – воде, воздухе, огне и земле. Идеи Эмпедокла главенствовали в европейской науке вплоть до конца XVIII в. Древнегреческий ученый Гераклит (544-483 гг. до н.э.) считал огонь наиболее священной составляющей мироздания. Здесь также чувствуется влияние магов-огнепоклонников. По некоторым сведениям, древнегреческие ученые читали какие-то «книги магов». Например, по приказу Александра Македонского, греческий ученый Феопомп изучал книги магов. После того, как Александр Македонский (356-323 гг. до н.э.) уничтожил государство Ахеменидов и покорил огромную территорию, протянувшуюся от Греции до Индии, в науке и культуре Востока началась эпоха эллинизма. Идет взаимовлияние древнегреческой и восточных культур и наук, которая проявила себя и в Азербайджане. В то время в Азербайджане возникло независимое государство Атропатена. Первый царь Атропатены Атарпат (по-гречески – Атропат, IV в. до н.э.), пытался оградить страну от воздействия греческой культуры. Однако в эпоху

могущества Македонских властей невозможно было полностью оградить себя от влияния эллинизма. Многие аристократы, ученые и торговцы, жившие в Азербайджане в эпоху эллинизма, хорошо знали греческий язык, имели представление о греческой науке и философии. В ходе археологических раскопок, проведенных в Авроманской области государства Атропатена, были обнаружены пергаментные свитки эпохи эллинизма. В этих документах, несущих следы греческого влияния, были записаны сведения, касающиеся права и сельского хозяйства. В эту эпоху греческие ученые посещали Азербайджан и встречались с местными правителями, жрецами и учеными. Греческий ученый Эразистрат (300-240 гг. до н.э.), работавший в знаменитой Александрийской библиотеке в Египте, часто посещал территорию Азербайджана и собирал сведения о местных традициях врачевания. В этот период медицина была хорошо развита. Эразистрат выдвинул новые для своей эпохи идеи, касающиеся вен, артерий, кровообращения, и исследовал полушария и извилины головного мозга. Древнегреческие ученые снарядили две морские экспедиции для составления точной карты Каспия и прикаспийских регионов. Первая экспедиция была предпринята в годы Александра Македонского, и ее руководителем был Гераклит. Вторая экспедиция под руководством Патрокла была снаряжена в 285-280 гг. до н.э. Несмотря на то, что эти экспедиции не получили успеха, они способствовали значительному расширению представлений о географии Азербайджана и соседних прикаспийских регионов. Несмотря на положительное воздействие эпохи эллинизма на развитие научных знаний в Азербайджане, у нее были и отрицательные последствия. Завоевания Александра Македонского нанесли сильнейший удар по зороастризму и его религиозно-философским и научным представлениям. В результате войны были частично уничтожены рукописи «Авесты» и некоторые другие древние тексты.

После смерти Александра Македонского исторические земли Азербайджана входили в состав двух государств – на южных землях страны государство Атропатена, а на северных – Албания. Албания располагалась на стыке Севера и Юга, Востока и Запада, где встречались и соприкасались различные этносы, религии и культуры, формировалась своеобразная и богатая культура. В албанский период на северных землях Азербайджана ещё больше ускорилось развитие культуры. В этот период был создан азербайджанский (албанский) алфавит, были открыты школы. В стране имелось более 30-и городов, являвшихся важными торговыми и ремесленными центрами. Наряду с поклонением Луне, Небу, Солнцу и единому Богу – Танры было и христианство. Независимая Албанская церковь в религиозном отношении подчинялась Риму. В албанский

период в Азербайджане ещё более повысилась и традиционная азербайджанская культура государственного управления. Албанские правители являлись светскими и духовными главами страны. Они издавали законы, возглавляли вооруженные силы страны, превышавшие 80 тыс. воинов (60 тыс. пеших и 22 тыс. конных). У Албанского государства, как и у Атропатены, имелись свои деньги.

Наши предки, первобытные насельники территории Азербайджана, делая уверенные шаги в развитии своеобразной культуры, достигли высокого развития знания и науки.

**ЛИТЕРАТУРА**


1. *Авдиев В.И.* История Древнего Востока. М.: Высшая школа, 1970, 608 с.
2. Авеста. Избранные гимны. Проф. Стеблин-Каменского. Душанбе: Адиб, 1990, 174 с.
3. *Гусейнов М.М.* Азыхская пещера – крупный карст и древнейшая стоянка в Азербайджане // ДАН Азерб. ССР, 1965, № 11, 20-25 с.
4. *Гусейнов М.М.* Древний палеолит Азербайджана. Б.: Элм, 1985, 96 с.
5. *Дьяконов И.М.* История Мидии от древнейших времён до конца IV века до н. э. Москва-Ленинград: Издательство Академии наук СССР, 1956, 488 с.
6. *Солтанова Н., Каджар Ч, Караева Л. и др.* Бронзовые браслеты – денежный эквивалент бронзовой эпохи // Austrian Journal of Humanities and Social Sciences Austria, Vienna, №11-12, 2014, pp.27-30
7. *Солтанова Н., Каджар Ч., Караева Л.* Водяные часы в Кюльтепе (Нахчыван, Азербайджан) (II тыс. до н.э.). IN SITU РФ №1-2/2016 с.50-53
8. *Солтанова Н.Б.* Чем платили в Древнем Азербайджане // Dubai. UAE World Science, №6 (22), Vol.6, June 2017, pp.26-28
9. *Солтанова Н.Б.* Каменные книги Древнего Азербайджана (Гобустан, Гямигайа) / Современные направления развития научных исследований. Материалы IV Международной научно-практической дистанционной конференции. Чикаго, США, 28-30 сентября 2021, с.313-323


Redaksiyaya daxil olub 17.03.2022

# Pedaqoji-psixoloji elmlər

*UOT 376*

***S.A.Abasova***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*s-asadzade@mail.ru*

## UŞAQ SEREBRAL İFLİCİ ZAMANI ŞƏXSİYYƏTİN PSİXOPATOLOJİ VARİANTLARI VƏ "MƏN" OBRAZININ FORMALAŞMASININ POZULMASI

***Açar sözlər:*** *şəxsiyyət pozulması, nitq inkişafsızlığı, psixi infantilizm, davranış formaları, kliniki-psixoloji müayinə*

Bəzi valideynlər serebral iflicli uşağın tərbiyəsində əsassız sərt mövqe tuturlar. Onlar uşağın hərəki və nitq imkanlarını nəzərə almayaraq ondan bütün tapşırıq və məşğələlərin ciddi yerinə yetirilməsini tələb edirlər. Bir çox hallarda uşaq tapşırıqları yerinə yetirə bilməyəndə cəzalandırmalara da əl atırlar. Nəticədə valideynlərin belə davranışı uşaqlarda ağlağanlıq, qıcıqlıq, yüksək oyanıqlıq yaradır, bu da onların fiziki və psixi vəziyyətlərini daha da ağırlaşdırır. Uşaqlarda yuxu pozulması, enurez, bədənin müxtəlif yerlərində tiklər, hətta qıcolmalar da yarana bilər.

Valideynlərin xəstə uşağa düzgün münasibəti və yuxarıda qeyd olunan tələblərə uyğunlaşma serebral iflicli uşaqların adekvat özünü qiymətləndirməsinin formalaşmasına, qüsura düzgün münasibət və həyatda vacib olan iradi keyfiyyətlərin inkişafında vacib rol oynayır. Qüsura münasibətdə və öz imkanlarının qiymətləndirilməsində serebral iflicli uşaqlar iki qrupa bölünür.

***С.А.Абасова***

## ПСИХОПАТОЛОГИЧЕСКИЕ ВАРИАНТЫ ЛИЧНОСТИ ПРИ ДЕТСКОМ ЦЕРЕБРАЛЬНОМ ПАРАЛИЧЕ И НАРУШЕНИЕ ФОРМИРОВАНИЯ ОБРАЗА «Я»

***Ключевые слова:*** *нарушение личности, недоразвитие речи, психический инфантилизм, формы поведения, клинико-психологическое обследование*

Некоторые родители занимают необоснованно жесткую позицию в воспитании ребенка с ДЦП. Они требуют от ребенка неукоснительного выполнения всех заданий и упражнений вне зависимости от двигательных и речевых возможностей ребенка. Во многих случаях они также наказывают детей, когда они не выполняют домашнее задание. В результате такое поведение родителей вызывает у детей раздражительность, повышенную возбудимость, что усугубляет их физическое и психическое состояние. У детей могут возникать

нарушения сна, энурез, тики в различных частях тела и даже судороги.

Правильное отношение родителей к больному ребенку и соблюдение вышеперечисленных требований играют важную роль в формировании адекватной самооценки детей с ДЦП, правильном отношении к пороку и развитии важных в жизни волевых качеств. Детей с детским церебральным параличом делят на две группы в отношении дефекта и в оценке своих возможностей.

***S.A.Abasova***

## PSYCHOPATHOLOGICAL PERSONALITY VARIANTS IN CEREBRAL PALSY AND VIOLATION OF THE FORMATION OF THE "I" IMAGE

***Keywords:*** *personality disorder, speech underdevelopment, mental infantilism, forms of behavior, clinical and psychological examination*

Some parents take an unreasonably tough position in the upbringing of a child with cerebral palsy. They require the child to strictly perform all tasks and exercises, regardless of the child's motor and speech capabilities. In many cases, they also punish children when they don't do their homework. As a result, this behavior of parents causes irritability in children, increased excitability, which aggravates their physical and mental condition. Children may experience sleep disorders, enuresis, tics in various parts of the body and even convulsions.

The correct attitude of parents to a sick child and compliance with the above requirements play an important role in the formation of adequate self-esteem of children with cerebral palsy, the correct attitude to the defect and the development of volitional qualities important in life. Children with cerebral palsy are divided into two groups in relation to the defect and in assessing their capabilities.

USİ zamanı şəxsiyyət pozulmaları daha çox psixi infantilizm tipi üzrə rast gəlinir. Formalaşmamış beynin zədələnməsi şəxsiyyət dəyişikliklərinə səbəb olan alın paylarının ləng və qeyri-bərabər formalaşmasına gətirib çıxarır. USİ zamanı hərəkət və nitq inkişafsızlığı ilə əlaqədar düzgün olmayan tərbiyə, fəaliyyət və ünsiyyətin məhdudlaşması psixi infantilizmin yaranmasının spesifik şərtidir. Serebral iflicli məktəblilərdə mürəkkəbləşmiş psixi infantilizmin 3 variantı fərqləndirilir. Mürəkkəbləşmiş infantilizmin birinci nevropatik variantı psixi infantilizmlə nevropatiyanın təzahürlərini özündə birləşdirir.

Psixi infantilizmin nevropatik variantında serebral iflicli uşaqlar qeyri-sərbəstlik, yüksək həssaslıq, ləngimə, ürkəklik və özünə inamsızlıq kimi xüsusiyyətlərə uyğunlaşaraq fərqlənirlər. Onlar adətən anaya hədsiz dərəcədə bağlı olur, yeni şəraitə çətinliklə adaptasiya olur və məktəbə gec öyrəşirlər. Məktəbdə onların çoxunda yüksək dərəcədə utancaqlıq, çəkingənlik, qorxaqlıq, təşəbbüskarlığın olmaması, bəzən də özünü qiymətləndirmənin yüksək

olmasına baxmayaraq, motivasiya səviyyəsinin aşağı olması müşahidə olunur. Bütün bu şəxsiyyət xüsusiyyətləri məktəbə və ümumilikdə sosial mühitə adaptasiyanın pozulmasına səbəb olur. Uşaqlarda çox zaman narahatlıq əsasında konfliktli situasiyalar yaranır. Bu cür situasiyalar əsasən eqosentrizm və özünə inamsızlıq, ləngimə və qorxaqlıq səbəbindən liderlik cəhdinin reallaşmaması üzündən baş verir (1, c.58).

Yaşıdları arasında özünə yer tapa bilməyən bu uşaqların bəziləri öz daxili fantaziya dünyasına çəkilməyə meyilli olur, onlarda tənhalıq hissi inkişaf edir. Bütün bunlar şəxsi keyfiyyətlərin inkişafına öz mənfi təsirini göstərir. Ətraf mühitin davamlı mənfi təsiri nəticəsində davranışda ləngimə ilkin xarakterli olaraq bununla əlaqədar digər kənaraçıxmaların formalaşmasına səbəb ola bilər.

Psixi infantilizmin nevropatik variantında "Qeyri-adekvat affekt halı" müxtəlif formalarda təzahür edir. Formalardan biri affektiv narahatlıq (küskünlük, qəzəb hissi, qürurun tapdanması) əsasında davranış pozulmaları ilə təzahür edən etiraz reaksiyasıdır. Etiraz reaksiyası üçün müəyyən seçicilik və yönlənmə xarakterikdir.

Psixi infantilizmin nevropatik variantında serebral iflicli uşaqlarda passiv etiraz reaksiyası üstünlük təşkil edir. Bunlar yeməkdən və müəyyən şəxslərlə ünsiyyətdən imtina etməkdə (seçici mutizm), evdən və ya məktəbdən icazəsiz getməkdə, bəzən somatovegetativ funksiyaların pozulmasında: qusma, enurez (sidik qaçırma), enkoprez (nəcis qaçırma) özünü büruzə verir. Nadir hallarda isə passiv etiraz suisidal davranış haqqında fikirlərlə, bəzən də suisidal cəhdlərlə təzahür edə bilər. Baxmayaraq ki, serebral iflicli uşaqlarda düzgün tərbiyə zamanı bu davranış formalarına çox nadir hallarda və əsasən də fikir və düşüncələrində rast gəlinir, pedaqoqlar və tərbiyəçilər bilməlidirlər ki, passiv etiraz reaksiyası olaraq suisidal cəhdlərin yaranması əsasən yetkinlikdən əvvəl və yetkinlik dövründə kəskin inciklik, ətrafdakılardan və özündən narazılıq hisslərinin nəticəsi olaraq yaranır; suisidal davranışın yaranmasına səbəbsiz cəzalandırma, verilən pis qiymət, qarşılıqsız ilk məhəbbət və s. ola bilər. Bu davranış əvvəlcədən düşünülmür, qəfildən impulsiv olaraq "qısa qapanma" mexanizmi ilə baş verir; bu ətrafdakılar üçün kifayət qədər gözlənilməz ola bilər. (2, c.36).

Serebral iflicli şagirdlərdə passiv etiraz aktı kimi tez-tez müəllimin və ya tərbiyəçinin bu və ya digər tələbinin yerinə yetirilməsindən, ailədə isə düzgün olmayan tərbiyənin nəticəsi kimi valideynlərin tələblərini yerinə yetirməkdən imtinanı göstərmək olar.

Serebral iflicli şagirdlərdə "qeyri-adekvat affekt hissi"nin təzahür forması kimi imtina reaksiyası da ola bilər. Onlar uşağın passivliyində, adi istək və cəhdlərindən imtina etməsində, düşünülməmiş xarakterli cavabların verməsində, ətrafdakılar ilə ünsiyyət qurmaq arzusunun olmamasında özünü

göstərir. Serebral iflicli uşaqlarda frustrasiya ruh düşkünlüyü ilə müşayiət olunur və onlar sağalmaq istiqamətində cəhd göstərmək istəmirlər. Frustrasiya vəziyyəti – çətinliklər və uğursuzluqlarla rastlaşan zaman yaranan mürəkkəb vəziyyətdir. Psixoloji tərəfdən bu çaşqınlıq, narahatlıq, köməksizlik, planların pozulması, ümidlərin dağılmasıdır. Serebral iflicli şagirdlərdə bu cür halların təzahürü ümumi passivlik, cəhdlərdən və ünsiyyətdən imtina və s. ilə müşayiət edilir.

Yuxarıda təsvir olunan passiv etiraz, imtina kimi davranış formaları düzgün olmayan tərbiyə nəticəsində ləngimə tipli şəxsiyyətin patoxarakteroloji formalaşmasına zəmin yaradır.

Ləngimə variantında xarakterdə özünə inamsızlıq, ləngimə, küsəyənlik, fobiyalara meyillilik kimi xüsusiyyətlərin bir-birinə uyğunlaşması yaranır. Serebral iflicli uşaqlarda buna daha çox hiper qəyyumluq tipinə uyğun tərbiyə təsir edir, bu da öz növbəsində uşağın təbii aktivliyini, müstəqilliyə can atmasını boğur, nəticədə uşaqda tədricən böyüklərdən asılılıq, özünə inamsızlıq, passivlik, utancaqlıq kimi şəxsiyyət xüsusiyyətləri möhkəmlənməyə başlayır.

Serebral iflicli məktəblilərdə ağırlaşmış psixi infantilizmin ikinci variantını psixi infantilizmlə qıcıqlıq və zəiflik simptomlarının birləşməsi təşkil edir. Bu növ ədəbiyyatda ağırlaşmış infantilizmin serebroastenik variantı kimi təsvir olunub (3, c.29). Bu uşaqlarda emosional-iradi inkişafsızlıq yüksək emosional labillik, diqqət və bəzən də hafizə pozulmaları, əmək qabiliyyətinin zəifliyi ilə birgə təzahür edir. Belə məktəblilərin davranışı yüksək qıcıqlıq və davamsızlıqla fərqlənir; həddindən artıq psixi yorğunluq və gərginliyə dözümsüzlüklə əlaqədar ətrafdakılarla mübahisələrə meyillilik bu məktəblilərin xarakterik xüsusiyyətidir. Bu uşaqların təlimindəki çətinliklər təkcə onların emosional-iradi sferasının inkişafsızlığı ilə deyil, həm də yüksək psixi yorğunluq və diqqət yayğınlığı ilə bağlıdır. Onların əhvalı son dərəcə qeyri-sabitdir, bəzən narazılıq və qıcıqlanma ilə özünü göstərir. Bu uşaqlar daimi diqqət və hərəkətlərinə müsbət reaksiya tələb edirlər; əks təqdirdə narazılıq və qəzəb göz yaşları ilə nəticələnir. Onlarda daha çox affektiv-həyəcanlı davranış forması müşahidə olunur. Lakin yeni mühitə düşdükdə, əksinə, ləngimə özünü büruzə verə bilər.

Bu qrupun uşaqları tez-tez yaşıdları ilə düzgün olmayan qarşılıqlı münasibət qururlar ki, bu da onların şəxsiyyətlərinin gələcək inkişafına mənfi təsir göstərir. Məktəb yaşının əsas xüsusiyyəti yaşıdları arasında öz yerini tapmaq kimi yeni sosial tələbatın yaranmasıdır. Əgər bu ehtiyac reallaşmasa, küskünlük, kin, özünəqapanma, bəzən də aqressiv davranış formalı müxtəlif effektiv reaksiyalar yarana bilər.

Kollektivdəki uşaqların qarşılıqlı münasibəti bir çox amillərdən, ilk öncə xarakterin xüsusiyyətindən, davranışdan, ünsiyyət təcrübəsindən asılıdır. Ailədə və xüsusilə bağçada serebral iflicli uşaqların qarşısına məktəbə nisbətən fərqli

tələblər qoyulur. Məktəbdə bu tələblərin səviyyəsi daha çox artır, uşaqların serebroastenik vəziyyəti dərinləşir və artıq onlar yeni şəraitə uyğunlaşa bilirlər. Müəllim və tərbiyəçinin ləng hərəkətliliklə bağlı iradları, özünə xidmət vərdişlərinin yetərincə formalaşmaması, səliqəsiz yazı və s. uşaqlara zərbə vurur, onlarda məktəbə qarşı mənfi münasibət yaradır. Uşağın özünüqiymətləndirmə səviyyəsi ilə ətrafdakıların onu qiymətləndirməsi arasında ciddi fərq yaranır. Nəticədə uşaqlar inadkar, əsəbi, ağlağan, bəzən də aqressiv olurlar. Burada affektiv davranış ətrafdakıların tələbləri ilə uşağın imkanları arasında tarazlığın pozulması ilə bağlıdır. Bütün bunlar müəllim və tərbiyəçidə uşaqdan daim narazılıq yaradır ki, bu da uşaqda özünə əminsizlik hisslərinə təkan verir (3, s.96).

Serebral iflicli məktəblilərdə ağırlaşmış psixi infantilizmin üçüncü variantına psixiatrlar üzvi infantilizmi aid edirlər.

Üzvi infantilizmin əsasında emosional-iradi sferanın inkişafsızlığının inertlik, ümumiləşdirmə əməliyyatlarının zəif inkişafıyla təzahür edən təfəkkürün ləngliyi, intellektual fəaliyyətin pozulmaları ilə uyğunlaşması durur. Bu uşaqlarda çox zaman motor ləngliк özünü büruzə verir, məqsədyönlü fəaliyyət kobud şəkildə pozulur, öz davranış və hərəkətlərinin təhlili kritik səviyyəyədək enir.

Üzvi infantilizmin təzahürü daha çox serebral iflicin atonik-astatik formasında, alın-beyincik strukturlarının zədələnməsi və ya inkişafsızlığı zamanı müşahidə edilir. Bu məqsədyönlü fəaliyyətin inkişafı motivasiya, yəni şəxsiyyətin özəyini təşkil edən psixi inkişafın səviyyəsinin formalaşmasında alın qabığının oynadığı rol ilə bağlıdır.

Məhdudlaşmış infantilizm zamanı emosional-iradi pozulmalar disharmoniya ilə xarakterizə edilir. “Uşaqlıq” xüsusiyyətləri ilə yanaşı, bu uşaqlar üçün yüksək özünü inandırma, asılılıq, sadəlövhlük, özünütənqidin olmaması ilə xarakterizə olunur. İmpulsivlik elementləri onlarda inertliyin təzahürü ilə uyğunlaşır.

Kliniki-psixoloji müayinələr bu uşaqların təlimin başlanğıcında təhsilə fərdi hazırlıq səviyyələrinin aşağı olduğunu göstərir. Onlarda özünüqiymətləndirmə və iddia səviyyəsi qeyri-adekvat yüksək olaraq uğursuzluqlara qarşı adekvat reaksiya olmur. Ətraf-mühitin əlavə mənfi amillərinin təsiri ilə bu uşaqlarda qıcıqlıq kimi xüsusiyyətlərin formalaşması müşahidə edilir. Uşaqlar narahat, əsəbi, impulsiv olur, situasiyanı adekvat qiymətləndirə bilmirlər, davranışlarına qeyri-tənqidi yanaşırlar.

Beləliklə, serebral iflicli uşaqların şəxsiyyətinin formalaşması həm beynin erkən üzvi zədələnməsi, həm də onların tərbiyə və əhatəsinin xüsusiyyətləri ilə bağlıdır. USİ-nin spesifikası şəxsiyyətin formalaşmasının bəzi xüsusiyyətlərini müəyyən edir. Şəxsiyyət inkişafının hərəkət pozulmalarının ağırlığı və xarakteri ilə əlaqəsi izlənilir.

Xəstəliyin ağır formalarında uşağın uzun müddət qulluq və köməyə ehtiyacı olur, sosial kontaktları məhdudlaşır, əşyavi-manipulyasiya fəaliyyəti, şəxsiyyətin inkişafında kənara çıxmalar daha bariz formada ifadə olunur.

Spastik diplegiyanın ağırlaşmış formasında hərəki analizatorun qabıq şöbələri zədələnmiş olduğu halda, qabıqaltı strukturlar da zədələnir, eləcə də xəstəliyin hiperkinetik formasında qabıqaltı beyin strukturlarının zədələnməsilə psixi infantilizm üstünlük təşkil edir və affektiv davranışın müxtəlif təzahürləri üzə çıxır.

Şəxsiyyətin formalaşması insanın özünü dərk etməsini, digərlərindən fərqləndirməsini nəzərdə tutur. Qeyd olunanlar özünü "Mən" adlandırmaqla təzahür edir. Buna görə də "Mən" fenomeni şəxsiyyətin və onun strukturunun formalaşmasının mərkəzi nöqtəsidir. Bir çox mütəxəssislər hesab edir ki, şəxsiyyəti dar mənada anlamaq onun əsas nüvəsini, yəni motivasiya, mənəvi dəyərlərini qəbul etmək deməkdir.

Özünə və ya özünün ayrı-ayrı keyfiyyətlərinə münasibət, öz bacarıq və imkanlarına, gələcək inkişafına baxışlar özünüqiymətləndirmə adlanır.

Fiziki çatışmazlıq və "Mən" obrazı arasında əlaqənin olması məsələsi bir çox mütəxəssislərin diqqətini cəlb edir. USİ gənclərdə "Mən" obrazına mənfi təsir edir.

"Mən" sistemi müxtəlif müdafiə sistemlərini tətbiq edir, fövqəladə hallarda qorxu hissi oyatdığı üçün vacib məlumatları bütövlükdə bağlaya bilər. Məsələn, bəziləri öz fiziki çatışmazlıqlarını rədd edirlər. Beləliklə, "Mən" sistemi şəxsiyyətdən təcrid olunur və insana əldə olunmuş təcrübə əsasında öyrənmək imkanı vermir.

Karl Rodjers iddia edir ki, "Mən" mühitlə qarşılıqlı əlaqədə inkişaf edir. Bununla bərabər, "Mən" tamlığa, bütövlüyə çalışır. "Mən"-ə uyğun gəlməyən narahatlıqlar ya gözə görünmür, ya simvolik olaraq rədd edilir, ya da başqa hisslərə çevrilir.

Bundan başqa hər bir insanın pozitiv qiymətləndirməyə, hörmətə ehtiyacı var. Əlillik insanın ətrafdakılar tərəfindən qavranılmasını çətinləşdirə bilər. Əlilliyə görə insan pozitiv qiymətləndirmədə çatışmazlıq hiss edə bilər ki, nəticədə neqativ "Mən" obrazı yarana bilər. Karl Rodjers fiziki çatışmazlığı olan uşağın sosial narahatlığında fərqliliyin olmasını qeyd edir. Buna görə əsasən uşaqlarda davranış və emosional planda çətinliklər yaranır.

Sağlam uşaqlardan fərqli olaraq serebral iflicli uşaqlarla onların valideynləri arasında qarşılıqlı münasibətlər tam fərqli olur. Həmçinin yaxşı və ya pis davranışa qohumlarda, məktəbdə, sosial kontaktlarda, ətrafdakılarda tamamilə fərqli reaksiyalar təzahür edir.

Fiziki anomaliya ilə uşağın dünyaya gəlməsi uzun bir prosesin əvvəli olur. Bu prosesdə həm uşaq, həm də valideynlər narahatlıq keçirərək adaptasiya olunurlar. Belə bir uşağın dünyaya gəlməsi ilkin krizisdir. Tədqiqatçı Rayt 5

krizis dövrü müəyyən etmişdir:

- fiziki anomaliyalı uşağın anadan olması;
- özünütəsdiq etmək tələbatı;
- təhsil almaq planları;
- pubertat dövrü;
- yetkin həyata hazırlıq.

Uşaq tərəfindən böyük həyatı qəbul etmək prosesi dəfələrlə tədqiqat obyekti olmuşdur. Tədqiqatçı Rayt valideynlər üçün bu prosesi altı mərhələyə ayırır: şok, rədd etmə, günah və qəzəb, ayıb və qurban, depressiya, sonra isə qəbul etmə. Tədqiqatçı Dunkan beş mərhələ haqqında yazır: rədd etmə, danışıqlar, qəzəb, depressiya və qəbul etmə. Tədqiqatçı Drokar 4 mərhələni fərqləndirir: şok, rədd etmə, kədər-qəzəb-utanma, qəbul etmə.

Meyxeuzen-De Reqt hərəki pozulmalarla "sosial-emosional problemləri" təsvir edir. O, valideynlərin öz fiziki imkanları məhdud olan uşaqlarına münasibətdə ambivalentlikdən yazaraq onların belə uşaqları həddən artıq himayə etdiklərini qeyd edir. Belə olduqda uşaq ətrafdakı adamlardan asılı halda (qeyri-müstəqil) olur, sosial kontaktları olmur, təcrid olunur, bu da "Mən" obrazının formalaşmasına mənfi təsir edir.

Kalxoun və Xavişer "özünü itirmiş" valideynlər haqqında yazır. Məsələn, valideynlər uşağın əmmə və udma ilə çətinliklərinin olmasından dəhşətə gəlirlər.

Körpənin xarici görünüşü, eləcə də onda təbəssümün, qığıldamanın olmaması valideyn sevgisinə mane ola bilər. Qeyd olunanlar valideynlərin cavab reaksiyasını pozaraq yeni münasibətlər modelinin yaranmasına səbəb ola bilər. Bununla da uşağın qarşısında daha bir maneə durur: valideynlərlə tam ünsiyyətin olmaması.

Digər təhlükə – həddən artıq qəyyumluqdur. Fiziki imkanları məhdud olan bir çox uşaqlar, yeniyetmələr və böyüklər bu cür təhlükəyə məruz qala bilərlər, nəticədə sosial vərdişlər və müstəqillik təcrübəsindən yan keçirlər. Valideynlərin hiperqəyyumluğu uşaqlarda şıltaqlıq, inadkarlıq, passivlik, ətrafda baş verənlərə qarşı laqeydlik kimi arzuolunmaz xarakter izləri üçün şərait yarada bilər. Beləliklə, valideynlər öz xəstə övladlarına həddən artıq qəyyumluqları ilə kömək deyil, zərər verə bilərlər.

Bir qisim uşaqlar sağlam yaşıdlarında olduğu kimi, hərəkət etmək, qaçmaq, nitqin mənimsənilməsinə mane olan öz ağır xəstəliklərini başa düşürlər. Belə uşaqlar dəqiq anlayırlar ki, onların uğurlu inkişafı, nitq və hərəki çətinliklərin aradan qaldırılması bilavasitə öz inadkarlıqlarından asılıdır. Fiziki diskomforta, ağrı hisslərinə baxmayaraq, onlar məmnuniyyətlə müalicəvi idmanla məşğul olur, fizioterapevtik prosedurları qəbul edir, loqopedik məşğələlərdə iştirak edirlər. Bu uşaqlar evdə mütəxəssislərin bütün tövsiyələrini yerinə yetirirlər. Onlar daim yeni bacarıq və vərdişlərə yiyələnmək üçün

cəhdləri və əldə olunan uğurlarını adekvat qiymətləndirmə ilə fərqlənirlər.

Digər qrup uşaqlar da öz xəstəliklərinin ağırlığını başa düşür, lakin kəskin neqativizm göstərir və xəstəliyi aradan qaldırmaq üçün cəhd etmirlər. Onları aktiv həyat fəaliyyətinə cəlb etmək üçün böyüklərin iştirakı tələb olunur. Valideynlər davranışın motivasiya tərəfini bacarıqla formalaşdırmalı, motor, nitq və fəaliyyətin digər növlərini mənimsəmək üçün məşğələlərə maraq yaratmalıdırlar. Ailə şəraitində şəxsiyyət keyfiyyətlərini formalaşdırmaq üçün oyun və sadə əmək fəaliyyətindən başlamaq lazımdır. Əmək uşağın həyatına 3-4 yaşdan daxil edilməlidir. Əmək vərdişlərinin sistematik inkişafı xəstə uşağın bütün həyat tərzinə müsbət təsir göstərərək onun əqli, fiziki və mənəvi keyfiyyətlərini formalaşdırır. Uşağın imkanları daxilində olan tapşırıqların tədricən mürəkkəbləşməsi onda inadkarlıq və əzmkarlıq tərbiyə edir. Bu zaman uşaqlarda adekvat özünüqiymətləndirməni formalaşdırmaq üçün böyüklər mütəmadi olaraq, xüsusilə də uşaq çox səy göstərmişsə, fəaliyyətin nəticələrini qiymətləndirməlidirlər.

Ailədə optimal həyat şəraiti xəstə uşağın inkişafı, təhsili və sonrakı sosial adaptasiyası üçün imkanlar yaradır. Serebral iflicli uşaq öz yaşıdları kimi ilkin olaraq ümumi davranış qaydalarını öyrənməlidir. Yaxınlarının tələbkarlıqla birgə mehriban münasibəti bu işdə ona kömək olmalıdır. Uşağın özünü olduğu kimi tanımağa başlaması, tədricən xəstəliyinə və şəxsi imkanlarına düzgün münasibətinin formalaşması çox vacibdir. Bu zaman əsas rol valideynlərə aiddir, məhz onların vasitəsilə uşaqda özü və xəstəliyi haqqında təsəvvürlər yaranacaq. Valideynlərin reaksiya və davranışından asılı olaraq uşaq ya özünü həyatda heç bir şansı olmayan əlil kimi, ya da əksinə, müəyyən uğurlara çata biləcək insan kimi nəzərdən keçirəcək. Valideynlər özləri də başa düşməli və uşağa da təlqin etməlidirlər ki, xəstəlik onun şəxsiyyətinin ancaq bir hissəsidir, onun inkişaf etdirilməli olan digər bir çox keyfiyyətləri də var. Valideynlər heç bir halda xəstə uşaqları üçün utanmamalıdırlar. Onda uşaq özü də öz xəstəliyindən çəkinməyərək özünü təcrid etməyəcək. Belə xəstə eqosentrik olmayacaq, imkanı daxilində olan işə baş qoşaraq nail olduğu hər uğura sevinəcək. Bu cür şərait uşağa sakit zəngin təəssüratlar və müsbət təcrübələrlə zəngin bir həyat yaşamaq imkanları verəcək.

## ƏDƏBİYYAT

1. Детский церебральный паралич. Что хотят знать родители / Под ред. Анджела Мария Сетаро Эрмеллина. Федрицци, 2016, 84с.
2. Детский церебральный паралич: лечение в школьном возрасте / Под ред. И.В.Добрякова, Т.Г.Щедриной. Санкт-Петербург: СПбМАПО, 439 с.
3. *Семенова К.А.* Детские церебральные параличи. М.: Медицина, 1968, 260 с.

Redaksiyaya daxil olub 16.03.2022

*UOT 376*

***S.R.Aslanova***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*sabina-aslanova@bk.ru*

# POZULMUŞ DİZARTRİYANIN DİSLALİYA İLƏ MÜQAYİSƏSİ

***Açar sözlər:*** *pozulmuş dizartriya, mərkəzi sinir sistemi, sinir pozulmaları, loqopedik müayinə, sensor funksiyalar, konstruktiv praksis*

Nitq pozulmalarının aradan qaldırılması və qarşısının alınması şəxsiyyətin harmonik inkişafına kömək edərək bilikləri qazanmaq üçün mövcud maneələri aradan qaldırır. Tamamılə aydındır ki, uşağın nitq inkişafında baş verən pozulma onun bütün psixi proseslərinin formalaşmasına çox böyük təsir göstərə bilər. Bu pozulmalar nəticəsində ətraf mühitlə ünsiyyət yaratma çətinliyi ilə yanaşı, idrak proseslərinin düzgün formalaşmaması, bilik, bacarıq və vərdişlərin qavranılması kimi ciddi qüsurlar uşağı ən vacib vasitədən – özünətəsirdən məhrum edir. Tədqiqat işində dislaliya və pozulmuş dizartiya kimi nitq pozulması probleminin müqayisəli təhlili araşdırılmışdır. Məktəbəqədər yaşlı uşaqlar arasında dislaliya və silinmiş dizartriya kimi pozulma geniş yayılmışdır.

***С.Р.Асланова***

## СРАВНЕНИЕ ДИСЛАЛИИ И СТЕРТОЙ ДИЗАРТРИИ

***Ключевые слова***: *стертая дизартрия, центральная нервная система, нервные нарушения, логопедическое обследование, сенсорные функции, конструктивный праксис*

Устранение и профилактика речевых нарушений способствует развитию гармоничной личности и снимает существующие барьеры на пути получения знаний. Совершенно ясно, что нарушение речевого развития ребенка может оказать глубокое влияние на формирование всех его психических процессов. В результате этих нарушений, кроме трудности общения с окружающими, такие серьезные дефекты, как неправильная сформированность познавательных процессов, восприятия знаний, навыков и привычек, лишают ребенка важнейшего инструмента – самовоздействия. В ходе исследования был проведен сравнительный анализ речевых проблем, таких как дислалия и дизартрия. Речевые нарушения, такие как дислалия и стертая дизартрия, широко распространены среди детей дошкольного возраста.

**S.R.Aslanova**

## COMPARISON OF DYSLALIA AND ERASED DYSARTRIA

***Keywords**: erased dysarthria, central nervous system, nervous disorders, speech therapy examination, sensory functions, constructive praxis*

Elimination and prevention of speech disorders contributes to the development of a harmonious personality and removes existing barriers to obtaining knowledge. It is quite clear that a violation of a child's speech development can have a profound impact on the formation of all his mental processes. As a result of these violations, in addition to the difficulty of communicating with others, such serious defects as improper formation of cognitive processes, perception of knowledge, skills and habits, deprive the child of the most important tool - self-action. The study conducted a comparative analysis of speech problems, such as dyslalia and dysarthria. Speech disorders, such as dyslalia and erased dysarthria, are widespread among preschool children.

Pozulmuş dizartriya termini ilk dəfə O.A.Tokareva tərəfindən təklif olunmuşdur, bu da "pozulmuş dizartriya" psevdobulbar dizartriyanın yüngül təzahürü ilə xarakterizə olunur. Dizartriya – tez-tez rast gəlinən nitq qüsurlarının bir qrupunun adıdır. O, bir neçə formaya malikdir ki, hərəsi də öz nevroloji və nitq simptomatikası ilə xarakterizə olunur. "Dizartriya" termini ilə nitqin tələffüz tərəfinin pozulmasını təmsil edirlər ki, bu halda da səs tələffüzü və səs axınının prosodik təşkili əziyyət çəkir.

Mərkəzi Sinir Sisteminin zədələnmə səviyyəsindən asılı olmayaraq dizartriya zamanı hər dəfə ekspressiv nitq yaranmasının funksional sisteminin tamlığı pozulur. Bu zaman səsin tonu, ucalığı və gücü, tələffüzün ritmik intonasiya səviyyəsi, nitq səslərinin fonetik çaları təhrif olunur; ümumilikdə nitqin fonetik düzülüşü yanlış reallaşır.

Nitqin bu cür patologiyasını əsasən periferik nitq aparatının əzələ innervasiyasının pozulması ilə əlaqələndirirlər ki, bunun nəticəsində Mərkəzi Sinir Sisteminin orqanik və funksional zədələnməsi ilə şərtləşən əzələ tonusunun neyro motor pozulması baş verir. Neyro motor pozulmalar nitq yaradıcı sistemin fəaliyyətinin patologiyasına səbəb olur.

Dizartriyanın öyrənilməsində hazırda bir əsas yanaşma mövcuddur: klinik (nevroloji), psixo-pedaqoji, neyropsixoloji, linqvistik. Pozulmuş dizartriya artikulyasiya orqanlarının innervasiyasının kobud şəkildə pozulması nəticəsində yaranan bir nitq pozulmasıdır. Nitqin fonetik və prosodik komponentləri: səs tələffüzü, tonu, tembri, intonasiya, ifadəliyi pozulur. Məktəbəqədər yaşda diaqnoz qoyulur.

Uşaqlarda pozulmuş dizartriyanın təzahürü.

Pozulmuş dizartriyada simptomlar aldadıcı olur. Motorikanın pozulması nəticəsində qeyri-dəqiq artikulyasiya, səslərin təhrifi, aftomatlaşmada çətinlik,

intonasiyanın olmaması, nitqin qeyri-ifadəliyi özünü göstərir. Kliniki cəhətdən pozulma fərqli olur: bəzi uşaqlarda fonetik qüsur, digərində prosodik qüsur ola bilər. Səs tələffüzündəki qüsurlar – pıçıltılı, fışıltılı və sonor xarakterli ola bilər. Uşaq kar, cingiltili samitlərin tələffüzündə çətinlik çəkir. Belə uşaqları erkən yaşda nevroloq müayinə edir və "perinatal mərkəzi sinir sisteminin pozulması" diaqnozu qoyulur. Həmin uşaqlara medikomentoz müalicə, fizioterapiya kursu və masaj təyin olunur. Lakin problem aradan qalxmadığına görə valideynlər çıxış yolu axtarmağa başlayırlar. Məktəbəqədər yaşlı uşaqlarda pozulmuş diaqnostika 5-6 yaşında diaqnozlaşdırılır. Pozulmuş dizartiya mimikanın kasadlığı, dodaqların, dilin tonusunun olmaması, ağız künclərinin asimmetriyası ilə xarakterikdir. Artikulyasiya müayinəsi zamanı dilin hərəkətliliyinin qeyri-iradəliliyi, titrəməsi, yüksək səviyyədə ağız suyunun ifrazı müşahidə olunur. Nitq orqanlarını bir pozisiyada saxlamaq  çətindir. Uşaq qidanı yaxşı çeynəyə bilmir, qidadan imtina edir. Körpələrdə isə əmmə və udma aktı pozulur.

Uşaqlar oyanıq, narahat olur və ya tormozlaşmış, ləng hərəkət edirlər. Yaddaş və diqqət pozulmaları baş verir. Yaşıdlarına nisbətən boyları alçaq, arıq və astenik bədən quruluşuna malik olurlar. Kiçik motorika və hərəkətlərdə sinxronluq pozulur. Uşaq düyməsini bağlamaqda, ayaqqabısının ipini sıxmaqda və yaradıcılıqla məşğul olmaqda, bədən tərbiyəsi dərsində çətinlik çəkir. Yazi  pis və ləng olur.

Pozulmuş dizartriyanın əsas səbəbləri dodaq, dil və yumşaq damaq əzələlərinin innervasiyasının pozulmasıdır.  Belə pozulmalar uşağın müxtəlif inkişaf mərhələlərində baş beynin müxtəlif zədələnmələri nəticəsində baş verir: Bətndaxili dövrdə ananın keçirdiyi infeksion xəstəliklər (herpes, qızılca, hepatit, sitomeqalovirus və s.) bu pozulmalara səbəb ola bilər. Bu hallarda döl oksigen azlığı və ya hipoksiya ilə üzləşir. Doğuş zamanı travmatik zədələnmələr, dölün susuz qalması da pozulmalara səbəb ola bilər. Doğuşdan sonra uşağın həyatının ilk ilində infeksion xəstəliklər, mərkəzi sinir sisteminin pozulması,  baş beyin qabığının zədələnməsi nəticəsində təzahür oluna bilər. Bütün sadalanan faktorlar artikulyasiya orqanlarını innervasiya edən sinir pozulmasına gətirib çıxara bilər – üçlü sinir, üz, dil və dil altı (2; 5, c.39-50).

Pozulmuş dizartriyanı bir çox tibbi-pedaqoji tədqiqatların köməyi ilə diaqnozlaşdırırlar. Uşağın bətndaxili və sonrakı dövrdə olan anamnezi öyrənilir. Ambulator kartı təhlil edilir. Müayinə mərhələli şəkildə aparılır:

Loqopedik müayinə – motorika, mimik əzələlər, artikulyasiya aparatı, nitq tələffüzünün təhlili aparılır. Daha sonra loqoped səs tələffüzünün keyfiyyətini, müxtəlif səsləri qavramanı müşahidə edir. Pozulmuş dizartriya diaqnozu olarsa, uşağı nevroloqun müayinəsinə yollayırlar. Nevroloqun müayinəsi hiperkinez, parez, distoniya, atonik pozulmaların xarakterini öyrənmək üçün lazımdır. Daha sonra uşaq yenidən loqoped – defektoloqun konsultasiyasına gətirilir. Əldə edilən nəticəyə görə loqoped nitq pozulmasının tipini müəyyən edir, uşaq ilə işin forma və

planını tərtib edir.

Pozulmuş dizartriyanın müalicəsi kompleks halında – nevroloq, loqoped, psixoloq tərəfindən aparılır. Bu nəticənin yüksək olmasını, nitq qüsurunun kompensasiya olunmasına müsbət təsir edir. Psixoloq, loqoped, tərbiyəçi, valideyn tərəfindən təsir ilə aşağıdakı proseslər həyata keçirilir:

- Sensor funksiyaların inkişafı;
- Məkan təsəvvürlərinin dəqiqləşdirilməsi;
- Konstruktiv praksisin formalaşdırlması;
- Əl hərəkətlərinin diferensiasiyasının formalaşdırılması;
- Təsəvvür fəaliyyətinin formalaşdırılması;
- Uşağın məktəb təliminə psixoloji hazırlığı.

Pozulmuş dizartriyalı uşaqlar üçün xarakterikdir:

- fonetik pozulma
- fonematik pozulma
- prosodik pozulma
- dilin leksik-qrammatik komponentlərinin pozulması
- ümumi motorikanın zədələnməsi
- əl barmaqları kiçik motorikanın zədələnməsi
- artikulyasiya motorikasının zədələnməsi

Pozulmuş dizartriyanın korreksiyası zamanı 5 mərhələ vardır:

1. Hazırlıq
2. Yeni tələffüz bacarıq və vərdişlərinin aşılanması.
3. Ünsiyyət bacarıq və vərdışlərinin aşılanması
4. İkincili pozulmaların aradan qaldırılması və ya xəbərdarlığı
5. Məktəb təliminə hazırlıq

Loqoped ilk mərhələdə qüsurlu səsləri qoyur, digər nitq pozulmalarını aradan qaldırır. Daha sonra səslərin normal tələffüzü möhkəmləndirilir: uşaq səsləri hecalarda, sözlərdə, ifadələrdə istifadə etməyi öyrənir. Pozulmuş dizartriyanın aradan qaldırılmasına uzun müddət sərf edilir. Səslərin avtomatlaşdırılması çətin iş formasıdır. Səbir və zəhmət tələb edir. Eyni zamanda mütəxəssis fonematik pozulmanı aradan qaldırır, nitqin ifadəliliyini və intonasiyasını inkişaf etdirir, qrammatikanı öyrədir.

Pozulmuş dizartriya zamanı əsas korreksiya işlərindən biri loqopedik masajdır. Zond masajı çox effektiv təsir bağışlayır və əzələ tonusunu normallaşdırır, uşağın danışıq zamanı özünü yaxşı hiss etməsinə kömək edir. Bu da öz növbəsində səs tələffüzü zamanı nitq orqanlarının vəziyyətinin kontroluna şərait yaradır (2, c.27-34).

Barmaq gimnastikasına böyük yer verilir. Oyun fəaliyyəti zamanı həyata keçirilir. Məsələn: uşağa muncuq yığmaq, pazl düzəltmək, plastilindən nə isə düzəltmək təklif edilir. Əlbəttə ki, bütün bunlar uşağın yaşına uyğun şəkildə yerinə

yetirilir ki, xoşuna gəlsin, məmnunluq hissi duysun.

Artikulyasiya gimnastikası əzələlərin möhkəmlənməsinə xidmət edir.

Tənəffüs gimnastikası zamanı uşağa nəfəsi məşq etdirmək öyrədilir, danışıq zamanı düzgün nəfəs alma və verməni öyrənməklə uşağın nitqi daha ifadəli olur. Pozulmuş dizartriyanın korreksiya olunma müddəti pozulmanın ağırlıq dərəcəsindən asılır (4; 5, c.39-50)

Korreksiya işi zamanı valideynlərin də rolu danilmazdır. Çünki mütəxəssislərin göstərişlərinə əməl etmək vacibdir. Uşaq məşğələlər zamanı valideynin dəstəyinə ehtiyac duyur. Uşaq onu valideynlərinin necə sevdiyini hiss etməlidir. Bunu bilərək uşaq daha səylə öz üzərində işləyəcəkdir.

Dislaliya mərkəzi sinir sisteminin və ya eşitmə orqanlarının zədələnməsi ilə əlaqədar olmayan nitq səslərinin tələffüz pozuntusudur. Dislaliyaya məktəbəqədər uşaqların (5-6 yaşlı) 25-30%-də (bəzi məlumatlara görə 52,5% ), ibtidai sinif şagirdlərinin (1-2-ci sinif) 17-20%-də, bunlardan böyük yaşlı uşaqların isə 1%-də rast gəlinir.

Son illər dislaliyanın strukturunda səs tələffüzünün polimorf pozuntuları üstünlük təşkil etməyə başlayıb ki, bu da gələcəkdə disqrafiya və disleksiyaya gətirib çıxara bilər.

Dislaliya mexaniki və funksional olmaqla, iki qrupa bölünür. Mexaniki dislaliyada yanlış səs tələffüzünün əsasında periferik artikulyasiya aparatının (dil, dodaqlar, dişlər, çənələr) üzvi defektləri dayanır. Dil və dodaqların quruluşunun dislaliyaya gətirən anomaliyalarına daha çox dil və üst dodaq yüyəninin qısalığı səbəb olur, nisbətən az – makroqlossiya (irihəcmli dil), mikroqlossiya (ensiz, kiçik dil), yoğun, azhərəkətli dodaqlar.

Dil yüyəninin qısalığı zamanı hər şeydən əvvəl dilüstü səslərin, dodaqların anomaliyasında isə dodaq və dodaq-diş səslərinin tələffüzündə qüsur yaranır. Makro və mikroqlossiya isə adətən ümumi fiziki və ya əqli geriliyi olan uşaqlarda müşahidə edilir.

Mexaniki dislaliyanı şərtləndirən anatomik qüsurlar anadangəlmə xarakter daşıya və yaxud da diş-çənə sisteminin xəstəlik və travmalarından yarana bilər.

Funksional dislaliya zamanı artikulyasiya aparatının quruluşu dəyişməz qalır, yəni səs tələffüzünün pozulmasını yaradan üzvi səbəb olmur. Bu halda dislaliyanın səbəbi sosial və ya bioloji faktorlarla əlaqədardır. Mənfi sosial faktorlar sırasına uşaqların böyüklərin yanlış nitqini yamsılaması (tələsik, dialekt və s.), ailədə bilinqvizm (ünsiyyət zamanı iki dildən istifadə etmə) halları, böyüklərin "uşaq dilində" danışması, pedaqoji savadsızlıq daxildir. Funksional dislaliya yaradan bioloji faktorlara tez-tez xəstələnən uşaqlarda nitq inkişafını yubadan ümumi fiziki zəiflik, fonematik eşitmənin formalaşmaması aiddir.

Dislaliya zamanı tələffüz qüsurları özünü səslərin buraxılması, əvəz edilməsi, yerdəyişməsi və təhrif olunması kimi büruzə verir.

Səsin buraxılması dedikdə, bu və ya digər hallarda (sözün əvvəlində,

ortasında və sonunda) səsin tamamilə düşməsi nəzərdə tutulur.

Səsin əvəz edilməsi – doğma dilin fonetik sistemində mövcud olan bir səsin digəri ilə əvəz olunmasıdır. Əgər uşaq düzgün tələffüz olunmuş iki səsi nitq zamanı daim səhv salırsa (yəni gah yerli, gah da yersiz istifadə edirsə), bu, səslərin yerdəyişməsindən xəbər verir.

Səslərin təhrif olunması doğma dilin fonetik sistemində mövcud olmayan səslərin istifadə olunmasıdır və buna adətən mexaniki dislaliya zamanı rast gəlinir.

Dislaliya zamanı nitqin diaqnostik müayinəsi anada hamiləlik və doğuşun gedişatı xüsusiyyətlərinin, uşağın keçirtdiyi xəstəliklərin, bioloji eşitmə və görmənin, dayaq-hərəkət aparatının vəziyyətinin öyrənilməsindən başlanır. Daha sonra loqoped vizual olaraq atrtikulyar aparat orqanlarının düzülüş və hərəkətliliyini müayinə edir.

Loqopedik müayinə prosesində pozuntunun xarakteri aşkar edilir (səslərin buraxılması, əvəz edilməsi, yerdəyişməsi və təhrif olunması), daha sonra fonematik eşitmənin vəziyyəti yoxlanılır.

Loqopedik rəydə dislaliyanın forması (mexaniki və ya funksional), növü (artikulyator-fonematik, akustik-fonematik, artikulyar-fonetik), yanlış səs tələffüzünün növü (rotasizm, siqmatizm və s.) öz əksini tapır. Mexaniki dislaliya zamanı uşağa stomatoloq, funksional dislaliya zamanı isə uşaq nevroloqunun konsultasiyası da tələb oluna bilər.

Dislaliya korreksiyası üç mərhələli iş üzrə aparılır: hazırlıq mərhələsi, ilkin tələffüz vərdişlərinin formalaşdırılması mərhələsi və kommunikativ vərdişlərin formalaşdırılması mərhələsi.

Mexaniki dislaliya zamanı hazırlıq mərhələsində artikulyar aparatın quruluşundakı (dil yüyəni və üst dodağın plastikası, ortodontik müalicə kursu) anatomik defektlərı aradan qaldırmaq vacibdir. Hərəki-funksional dislaliyanın hazırlıq mərhələsində nitq motorikası inkişaf etdirilir (artikulyar gimnastika, loqopedik masaj), sensor funksional dislaliyada fonematik proseslər inkişaf etdirilir.

Dislaliyanın korreksiyası üzrə məşğələlərin müntəzəm, həftədə 3 dəfədən az olmayaraq aparılması vacibdir. Həmçinin loqopedin tapşırıqlarının evdə edilməsi də vacib şərtdir. Sadə dislaliya üzrə məşğələlər 1-3 ay, mürəkkəb dislaliya üzrə isə 3-6 ay təşkil edir.

Dislaliya əksər hallarda uğurla korreksiya olunur. Dislaliyanın müvəffəqiyyətlə dəf olunması defektin mürəkkəbliyindən, uşağın yaşı və fərdi xüsusiyyətlərindən, məşğələlərin müntəzəmliyindən, valideynlərin bu işdə iştirakından asılıdır. Məktəbəqədər yaşlı uşaqlarda səs tələffüzü məktəbli uşaqlara nisbətən, aşağı sinif şagirdlərində isə orta və yuxarı sinif şagirdlərinə nisbətən daha tez korreksiya olunur. Dislaliyanın profilaktikası nitq orqanlarındakı anatomik pozuntuların vaxtında aşkar olunmasını tələb edir.

## ƏDƏBİYYAT


1. *Алябьева Е.А.* Логоритмические упражнения без музыкального сопровождения: Методическое пособие. М..: ТЦ Сфера, 2006, 64 с.
2. *Архипова Е.Ф.* Клинико-педагогическая характеристика детей со стертой формой  и дизартрии // Актуальные вопросы теории и практики коррекционной педагогики. М., 1997, с.27-34
3. *Карелина И.Б.* Дифференциальная диагностика стертых форм дизартрии и сложной дислалии // Дефектология, 1996, № 5, с.10-13
4. *Карелина И.Б.* Логопедическая работа с детьми с минимальными дизартрическими расстройствами: Автореф. дис. ... канд. пед. наук. М., 2000, с-36-48
5. Логопедия: методические традиции и новаторство: учебно-методическое пособие / Под ред. С.Н.Шаховской, Т.В.Волосовец.  М., Московский психолого-социальный институт (МПСИ), 2003, 336 с.


Redaksiyaya daxil olub 19.04.2022

Pedaqoji Universitetin Xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası –2022, C.70, №2, s. 155-166
Transactions of Pedagogical University. Series of humanitarian, social, pedagogical and psychological sciences – 2022, V.70, №2, pp. 155-166

*UOT 32*

***L.X.Əliyeva***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*eliyeva1976 @ mail.ru*

# UNİVERSİTETLƏRİN İDARƏ EDİLMƏSİNDƏ STRATEJİ PLANLAŞDIRMA TEXNOLOGİYASI

***Açar sözlər:*** *strategiya, strateji idarəetmə, strateji planlaşdırma, universitetlərdə strateji planlaşdırma*

Strateji planlaşdırma müəyyən müddəti əhatə edən inkişaf planıdır. Bu planlaşdırmada universitetin missiyası, viziyonu (baxışı), nail olmaq istədiyi məqsədlər və bu məqsədlərə çatmaq üçün lazım olan resurslar müəyyən edilir. Düzgün hazırlanmış strateji planı universitetin rektoru təsdiq edir, maraqlı tərəflərin fikirləri nəzərə alınır. Strategiyada digər universitetlərlə rəqabət üstünlüyü ilə bağlı müddəalara da diqqət yetirilir. Strateji iş planı əsasında hər il üçün iş planı və bundan əlavə planda nəzərdə tutulan məqsədlərə nail olub-olmadığını göstərən fəaliyyət hesabatları hazırlanır. Bu məsələlər strateji planlaşdırmada nəzərə alındıqda universitetin uğurlu fəaliyyəti üçün mühüm əhəmiyyətə malikdir.

Strateji plan hazırlanarkən müvafiq universitetlərin strateji planları müqayisəli şəkildə müzakirə edilərək təhlil edilir və əldə olunan nəticələr qiymətləndirilir. Bu məqsədlə Azərbaycan Dövlət Pedaqoji Universitetinin, Azərbaycan İqtisad Universitetinin və Türkiyənin Qazi və Hacıtəpə universitetlərinin strateji planı təhlil edilmişdir. Təhlil nəticəsində hər bir universitetin strateji planı qanunvericilikdə nəzərdə tutulan müddəalara tam uyğun olduğu, lakin bəzi institusional fərqlərin olduğu müəyyən edilmişdir.

***Л.Х.Алиева***

# ТЕХНОЛОГИЯ СТРАТЕГИЧЕСКОГО ПЛАНИРОВАНИЯ В УПРАВЛЕНИИ УНИВЕРСИТЕТОМ

***Ключевые слова:*** *стратегия, стратегическое управление, стратегическое планирование, стратегическое планирование в вузах*

Стратегическое планирование это план развития, охватывающий определенный период времени. В этом планировании определяются миссия университета, видение, цели, которых он хочет достичь, и ресурсы, необходимые для достижения этих целей. Правильно подготовленный стратегический план утверждается ректором вуза, учитываются мнения заинтересованных сторон. Стратегия также фокусируется на положениях, касающихся конкурентного преимущества перед другими университетами. На основе стратегического плана работы составляется план работы на каждый год, а также отчеты о деятельности,

показывающие, достигнуты цели, поставленные в плане, или нет. Учет вопросов при стратегическом планировании важен для успешной деятельности вуза.

При подготовке стратегического плана стратегические планы соответствующих университетов обсуждаются и анализируются в сравнительном порядке, а полученные результаты оцениваются. С этой целью были проанализированы стратегические планы Азербайджанского государственного педагогического университета, Азербайджанского экономического университета и университетов Гази и Гаджитепе Турции. В результате анализа было определено, что стратегический план каждого вуза полностью соответствует положениям законодательства, но есть некоторые институциональные отличия.

**_L.X.Aliyeva_**

## STRATEGIC PLANNING TECHNOLOGY IN UNIVERSITY MANAGEMENT

***Keywords:*** *strategy, strategic management, strategic planning, strategic planning at universities*

Strategic planning is a development plan covering a certain period of time. In this planning, the university's mission, vision, goals it wants to achieve, and the resources needed to achieve these goals are defined. A properly prepared strategic plan is approved by the rector of the university, and the opinions of interested parties are taken into account. The strategy also focues on provisions related to competitive advantage with other universities. On the basis of the strategic work plan, a work plan is prepared for each year, as well as activity reports showing whether the goals set in the plan have been achieved or not. Considering these issues in strategic planning is important for the successful operation of the university.

While preparing the strategic plan, the strategic plans of the relevant universities are discussed and analyzed in a comparative manner and the obtained results are evaluated. For this purpose, the strategic plan of Azerbaijan State Pedagogical University, Azerbaijan University of Economic and Turkey's Gazi and Hajitepe Universities was analyzed. As a result of the analysis, it was determined that the strategic plan of each university fully complies with the provisions of the legislation, but there are some institutional differences.

İdarəetmənin ilk və ən vacib mərhələsi planlaşdırmadır. Qloballaşan və artan beynəlxalq münasibətlərdə özəl, dövlət, qeyri-kommersiya sektorlarında strateji planlaşdırmanın əhəmiyyəti artmışdır. Strateji planlaşdırma anlayışı 1970-ci illərdə sosial elmlərdə yer almağa başladı. Strateji planlaşdırma müəssisənin əsas məqsədlərinə nail olması üçün xarici mühiti və daxili şəraiti nəzərə alaraq öz strategiya və siyasətini müəyyən etməklə onları həyata keçirmək üçün hazırlanan sistemli plandır [3, s.284]. Strateji idarəetmə özəl, dövlət və qeyri-kommersiya sektorlarının gələcək hədəflərinin müəyyən edilməsi, onlara nail olunması üçün bütün prosedurlar vasitəsilə həyata keçirilən idarəetmə formasıdır. Bundan əlavə elmi-nəzəri ədəbiyyata nəzər

saldıqda məlum olmuşdur ki, strateji idarəetmə inkişaf etdikcə şirkətlərin və ya təşkilatların strateji planlaşdırmaya marağı azalmağa başlayır [11, s.492]. Ancaq dəyişikliyin universal ölçüyə çatması, eləcə də texnologiyanın artan sürəti şirkətləri və ya qurumları yenidən strateji planlaşdırmaya əhəmiyyət verməyə vadar etmişdir [4, s.73].

Strateji planlaşdırma "müəssisənin imkan və təhdidlərinə diqqət yetirir, onun vizyonunu müəyyən edir və buna uyğun davranış nümayiş etdirməklə müəssisənin effektivliyini artıran bir vasitə" kimi çıxış edir [8, s.399]. Strateji planlaşdırma müəyyən prosesləri əhatə edir. Bu proseslər həyata keçiriləcək fəaliyyətləri asanlaşdırmaq, proqnozlaşdırmaq, modelləşdirmək və alternativ gələcək ssenariləri yaratmaq üçün məlumat toplanması ilə həyata keçirilir. Bundan əlavə strateji planlaşdırma hazırlanarkən müəssisənin üzləşdiyi imkanlar, təhlükələr, daxili və xarici mühitdə mövqeyi aparılan təhlillərin nəticəsində müəyyən olunur [10, s.108]. Strateji planlaşdırma menecerlərə və liderlərə strateji düşünməyə kömək edən bir proses kimi müəyyən edilmişdir. Ən əsası, menecerlərin və liderlərin strateji plan hazırlayarkən dörd əsas sualı nəzərə alınmasının zəruri olduğu irəli sürülüb. Bu dörd sual: Biz haradayıq? Hara gedirik? Getmək istədiyimiz yerə necə çata bilərik? Uğurumuzu necə izləyir və qiymətləndiririk? [5, s.23].

Məqalədə ilk növbədə strategiya, strateji idarəetmə və strateji planlaşdırma anlayışları izah olunmuş, tədqiqatın konseptual çərçivəsi müəyyən edilmişdir. Bundan əlavə universitetlər üçün strateji planlaşdırma prosesinin əhəmiyyəti vurğulanmışdır. Azərbaycan Dövlət Pedaqoji Universitetinin, Azərbaycan Dövlət İqtisad Universitetinin və Türkiyə Respublikasında Qazi və Hacettepe Universitetlərinin son dövrə aid strateji planları təhlil və müqayisə edilir, oxşar və fərqli cəhətlər nəzərə çatdırılır. Nəticə hissəsində universitetlərin strateji planları nəzəri çərçivəyə uyğun qiymətləndirilir və düzgün hazırlanmış strateji planda hansı məsələlərə diqqət yetirilməsi nəzərə çatdırılır. Beləliklə, universitetlərdə strateji idarəetmə prosesinin ən mühüm mərhələlərindən biri olan strateji planlaşdırmanın necə işlədiyi və işləməli olduğu barədə nəticə çıxarmaq mümkün olur.

Ölkəmizdə nəşr edilmiş elmi-nəzəri ədəbiyyatları təhlil edərkən əldə edilən məlumatlardan aydın olmuşdur ki, strategiya sözünün Azərbaycan dilində sinonimi yoxdur, fransız dilindən dilimizə keçmiş anlayışdır. 1970-ci illərin sonlarına qədər strategiya sözü yalnız hərbi sahədə işlədilirdi. XX əsrin sonlarına doğru bilik səviyyəsinin artması və qurumlar arasında rəqabət nəticəsində bir-birindən üstün olmaq üçün strategiya anlayışından istifadə edilməyə başlanmışdır.

Strategiya anlayışı düşünmək, qərar vermək və uzunmüddətli hədəflər deməkdir. Müəssisənin xarici mühit ilə əlaqəsinin olub-olmaması onun strategiyasına təsir göstərir. Bu baxımdan xarici mühitin təsirinin bütün

aspektləri müəssisənin strategiyasında təsvir edilməlidir [13, s.139]. Ümumiyyətlə, strategiya müəssisənin qəbul etdiyi missiyaya uyğun məqsədlərə çatmaq üçün bir vasitədir. Bu gün bu anlayış təkcə hərbi sahədə deyil, həm də istənilən qurumun, biznesin və ya təşkilatın vahid siyasəti ilə ifadə olunub. Söhbət müəssisənin siyasətindən gedirsə, onun bütün iqtisadiyyatı, psixologiyası, ideologiyasını, mədəniyyəti və inzibati məsələləri əhatə olunur [12, s.66]. Müasir dünyada mövcud olan rəqabət mühitinin təsiri ilə məşhur bir anlayış halına gələn strategiya özü ilə birlikdə bəzi yeni anlayışları da gətirmişdir. Bunlardan ən mühümü və əvəzolunmazı "strateji idarəetmə" anlayışıdır.

1980-ci illərin sonlarında istifadə olunmağa başlayan strategiya və idarəetmə anlayışı bir çox mütəxəssislər tərəfindən fərqli şərh edilmişdir. Bu kontekstdə bir tərifə görə, strateji idarəetmə "təşkilatın strategiyasının daha səmərəli şəkildə irəliləməsinə səbəb ola biləcək bütün qərarlar və ya təşkilatın məqsədlərinə çatması üçün yan düşüncələr qrupudur" [13, s.144]. Strateji menecmentdə əsas tədqiqatlar sənaye strukturunu, daxili və xarici maraqlı tərəflərin təşkilatın fəaliyyətinə təsirini, mövcud resursların, imkanların, hərəkətlərin və əsas səlahiyyətlərin təşkilatın fəaliyyətinə necə təsir edə biləcəyinə, rəqiblər və rəqabət üstünlüyünə diqqət yetirilir. Strateji idarəetmə təşkilatların inkişafı üçün vacibdir. Bir çox amillər təşkilatların dəyişən şərtlərə uyğunlaşdırmaqda, xidmətləri təkmilləşdirməkdə, dəyər yaratmaqda, dəstəyi davam etdirməkdə və keyfiyyəti artırmaq üçün zəruridir. Bu amillərə xarici mühit, tənzimləmə, maliyyələşdirmə, texnologiya, təşkilati struktur və strategiya daxildir. Bundan əlavə strateji idarəetmə hər hansı bir qurumun statusunu, nə üçün mövcud olduğunu və hara çatmaq istədiyini göstərən idarəetmə formasıdır. Bu idarəetmə forması planı, təşkil etməni, icranı, nəzarəti və s. əsas tutaraq idarəetmə tapşırıqlarını arxa plana keçirmədən yüksək səviyyəli rəhbərlərin üstünlük verdiyi idarəetmə formasıdır. Strateji idarəetmə gələcək üçün yol xəritəsinin mövcudluğu deməkdir. Yol xəritəsi mövcud və gələcək problemləri nəzarətdə saxlamağa və müəssisənin daim hərəkətdə olmasına imkan yaradır. Bu, yalnız strateji idarəetmə qaydaları ilə baş verə bilər.

Strateji idarəetmənin xüsusiyyətləri aşağıdakılardır:

- Müəssisənin idarə edilməsinin ən yüksək səviyyəsidir. Buna səbəb müəssisənin gələcək inkişafı və mövqeyinin əsas prioritet sahə olmasıdır;
- Müəssisənin gələcəyi üçün uzunmüddətli planları nəzərdə tutur və bu planları həyata keçirmək üçün nə etməli olduğuna diqqət yetirir;
- Bütün qərarlarda hər şeyi və hər kəsi nəzərə alaraq heç bir xırda təfərrüat nəzərdən qaçmır;
- Strateji idarəetməyə görə, təşkilatı ətraf mühitdən müstəqil hesab etmək olmaz. Müəssisənin imicinə xarici mühitdə təsir göstərir;

- Müəssisənin məqsədlərinə çatmaq üçün ən səmərəli yolları təmin edir;
- Strateji idarəetmə qərarları bütün müəssisə üçün ümumi qərarlardır [12, s.74].

Müəssisə üçün missiya, strategiyanın mövcudluğu kifayət deyil. Müəssisənin strategiyasında müəyyən edilmiş missiyanın öz yeri olmalıdır. Strateji idarəetmədə mövcud faktların ziddiyyətli olması struktur qurumları təhlükə altına salır. Strateji idarəetmədə strategiyalar aşağıdakı mərhələlərlə müəyyən edilir:

- Nə üçün yaradılmışdır?
- Nədən yaradılmışdır?
- Hansı müddəti əhatə edir?
- Nail olmaq istədiyimiz məqsəd nədir?
- Necə yaratmaq?

Kimin üçün yaradıldığı sualına verilən cavablar çərçivəsində qərarlaşdırılan strateji idarəetmə verilən cavabların düzgünlüyü ilə öz məqsədinə çatmağa imkan verir.

Strateji idarəetmədə qapalı olan müəssisələr rəqiblərindən üstün ola bilmirlər. Eyni zamanda maliyyədən düzgün istifadə edilməsində, işçilərin istək və arzularının nəzərə alınmasında, planlaşdırmanın düzgün qurulmasında çətinliklər yaranır. Proses düzgün qurulduqda müəssisə nöqsanlarına görə əvvəlcədən zəruri tədbirlər görəcək və iqtisadi dalğalanmalardan yüksək dərəcədə təsirlənəcəkdir. Başqa sözlə desək, strateji idarəetmə müəssisəyə rəqiblərini üstələmək, maliyyə çətinliklərindən qaçmaq, insan resurslarında müntəzəm irəliləyiş əldə etmək və gələcək haqqında qabaqcadan düşünmək şansı verir.

Plan müəyyən edilmiş fəaliyyətin ifadə formasıdır. Sistemli planlaşdırma sayəsində idarəetmənin gələcəkdə necə qurulmasının zəruri olduğunu proqnozlaşdırır. Gələcək üçün veriləcək qərarlarda, yəni strategiyanın müəyyən edilməsində planlar böyük əhəmiyyət kəsb edir. Strateji planlaşdırma müəssisənin əsas problemləri necə müəyyən etməli olduqlarını, bu problemlərə qarşı hədəfləri hansı formada müəyyənləşdirməyi və alternativləri qiymətləndirərək strategiyanı hansı istiqamətdə yaratmalı olduqlarını göstərən prosesdir. Strateji planlaşdırma eyni zamanda təşkilati qərarların qəbulunun həm mərkəzləşdirilməsi, həm də qeyri-mərkəzləşdirilməsi üçün əsas element kimi müəyyən edilir.

Strateji planlaşdırma müəssisənin missiyasının, vizyonunun, dəyərlərinin, daxili və xarici mühitinin təhlilinin və bunun nəticəsində əldə edilən problemlərə qarşı strategiyaların, planların və hədəflərin müəyyən edilməsidir. Bu kontekstdə son illərdə müəssisələrin uğurlarının əsası olaraq strateji planlaşdırma məntiqi qəbul edilmişdir. Hər bir müəssisənin uzunmüddətli planları ətraf mühit şəraitinə, bazar payına və texnoloji

inkişaflara görə fərqlənir. Əksər müəssisələrin planlaşdırma üçün nəzərdə tutduğu müddət beş il hesab olunur. Bu kontekstdə zaman artdıqca reallığın payının azalacağı fikri hakim olmuşdur.

Strateji plan müəssisənin məlumatla təmin olunduğu bir prosesdir. Başqa sözlə, müəssisə öz mühitini tanıyır, missiyasını, vizyonunu, öz siyasətinin güclü və zəif tərəflərini müəyyən edir və maraqlı tərəflərini ortaya qoyduğu bir sistem kimi meydana çıxır. Bu səbəbdən strateji planlaşdırma müəssisələrdə davamlı təkmilləşdirmə, müəyyən edilmiş hədəflərə çatmaq və davamlılığı təmin etmək üçün əsas tələb kimi qarşıya çıxır.

Strateji planlaşdırma müəssisənin cari dövrü ilə gələcəkdə olmaq istədiyi yer arasındakı əlaqəni nəzərdə tutur. Bu, müəssisənin nə olduğunu və nə olması lazım olduğunu göstərən xəritədir. Strateji planlaşdırma dəyişiklik üçün hazırlanmış plandır və buna görə də daim fəaliyyətdə olmalıdır. Onun məqsədi müəssisənin öz imkanlarından necə istifadə oluna biləcəyini müəyyən etməklə yanaşı, eyni zamanda ətrafındakı imkanlardan yararlanmağına şərait yaradır. Onun əsas xüsusiyyəti uzunmüddətli və gələcək inkişafdan asılı olmasıdır. Ümumiyyətlə, strateji planlaşdırma proqramlaşdırılmış, analitik və strateji təfəkkür yaradan və getdikcə bir-birindən ayrılan düşüncə prosesinə istinad etmək üçün istifadə edilən termin kimi izah edilir. Türk tədqiqatçıları olan Demir və Yılmaz strateji planlaşdırmanı müəssisənin inkişafında və strukturunda baş verən dəyişikliklərə uyğun olaraq missiyasını və bütün məqsədlərini müəyyən edən, daxil olduğu mühitin fəaliyyət vəziyyətinə əhəmiyyət verən və uyğun alternativ variantları seçən bir plan kimi müəyyən edir [4, s.74].

Strateji planlaşdırma bütün heyətin məqsədlərinə çatmaq üçün səy göstərdiyi bir prosesdir. Bu prosesdə vizyon, missiya və yeniliklər hamı üçün açıqdır. Strateji planlaşdırma prosesinin uğurla başa çatması o deməkdir ki, həmin müəssisənin zəhməti qarşılıqsız qalmır. Bunun baş verməsi üçün müəyyən addımlar atılmalıdır. Bu addımlara aiddir:

- Təşkilati dəyərlər və prinsiplər;
- Viziyon;
- Missiya;
- Daxili mühitin təhlili;
- Xarici mühitin təhlili;
- SWOT təhlil;
- Kritik uğur amilləri;
- Məqsədlər;
- Hədəflər;
- Strategiya və siyasət;
- Fəaliyyət planları;
- Resursların bölgüsü;

- Performansın ölçülməsi.

Strateji planlaşdırmada qərarların dəqiqliyinə diqqət yetirilir. Strateji idarəetmədə isə yeni texnologiya və faydalı məhsuldarlığa diqqət yetirilir. Strateji planlaşdırma strateji idarəetmənin əsasını təşkil edir. İkisini müqayisə etdikdə, ilk baxılacaq sahə planlaşdırmanın mərhələləridir. Əslində idarəetmə plandan daha geniş aspektə malikdir.

İndi isə universitetlərdə strateji planlaşma prosesinə diqqət yetirək. Bu gün iqtisadiyyatın biliyə əsaslanması ali təhsili və onun təmsil olunduğu universitetləri qlobal rəqabətdə çox mühüm mövqeyə gətirir. Çünki universitetlər bir ölkənin siyasətindən tutmuş iş dünyasının tələblərinə qədər cəmiyyət üçün elm və innovasiya adına hər cür işi öz üzərinə götürür. Universitetlər bu siyasətləri uğurla həyata keçirmək və davam etdirmək üçün strateji planı ən yaxşı şəkildə hazırlayıb həyata keçirməlidirlər. Bu, strateji planın əhəmiyyətini ortaya qoymaqla yanaşı, eyni zamanda bu konsepsiyanın hər bir detalının araşdırılmalı olduğunu göstərir. Ali təhsil müəssisələrinin struktur baxımından mürəkkəbliyi universitetləri strateji planlaşdırma aparmağa sövq edir. Bundan əlavə universitetlər artan rəqabət mühitində mövqelərini saxlamaq üçün fərqlənməlidirlər. Bir universitetin müvəffəqiyyətlə idarə oluna bilməsi düzgün hazırlanmış strateji planlaşdırmadan asılıdır. Bundan əlavə korporativ siyasətlər, korporativ mədəniyyət və işçilərin münasibətləri planlaşdırmanın, eləcə də yüksək menecmentin uğurunu dəstəkləyən amillər sırasındadır.

Ümumilikdə götürdükdə, ali təhsil müəssisələri cəmiyyətin və iqtisadiyyatın ehtiyaclarına həssas yanaşır və onlarla qarşılıqlı əlaqədə olurlar. Daxili və xarici maraqlı tərəfləri ilə birlikdə istehsal etdikləri məlumatları məhsula çevirərək qlobal rəqabətdə davamlı bir sistemə sahib olmaq üçün uğurlu bir strateji idarəetmə prosesinə ehtiyac vardır. Universitetlərdə strateji idarəetmə prosesində orta və uzunmüddətli prioritetlər müəyyən edilməli, büdcənin hazırlanması və icrasında maya dəyərinin hesablanması yolu ilə maliyyə intizamına riayət edilməli, strategiyalara uyğun resurslar müəyyən edilməli və onlardan səmərəli istifadə edilib-edilməməsinə nəzarət edilərək hesabatlılıq inkişaf etdirilməlidir. Universitetlər fərqli bir sektor olduğu üçün tətbiq olunan strateji plan da fərqli olmalıdır. Strateji üstünlüyü təmin etmək üçün universitetləri bir-birindən fərqləndirmək lazımdır. Buna nail olmaq üçün universitet strateji planla yanaşı, inzibati, maliyyə və elmi muxtariyyətə də malik olmalıdır.

İlk dəfə ikinci Dünya müharibəsi zamanı orduda yaranan, daha sonra iş dünyasında tətbiq olunan strateji planlaşdırma 1970-ci illərdə ali təhsil müəssisələrində, sonra isə digər məktəb səviyyələrində istifadə olunmağa başlandı. Bu kontekstdə müəssisə daxilində irəli sürülən planlaşdırmanın

nəticələrinin qiymətləndirilməsi çox vacibdir. Və bunun çərçivəsində universitetlərdəki liderlik və strategiya prosesi ortaya qoyulur.

Universitet cəmiyyətin mövcud tələblərinə cavab verən bir təşkilatdır. Strateji planlaşdırma isə bu məqsədlərə çatmaq üçün rektor tərəfindən təsdiqlənmiş uzunmüddətli plandır [4, s.2]. Universitetlər müəssisələrdən məzmunca fərqli planlaşdırma tərtib edirlər. Bunun səbəbi universitetlərin xidmət yönümlü olması və strateji idarəetmə yanaşmasına malik olmasıdır. Strateji idarəetmədə təhsil sisteminin və elmin inkişafı, ali təhsil müəssisəsinin rəqabət qabiliyyəti, resurslardan səmərəli istifadə performansı və s. məsələləri əhatə edir. Universitetlərdə strateji planlaşdırma modelinə gəldikdə, buraya müəyyən edilmiş maraqlı tərəflərlə daimi qarşılıqlı əlaqədə olmaq, cəmiyyətin və iqtisadiyyatın tələblərinə cavab vermək, aşkar edilmiş bilikləri məhsula çevirmək, texnologiya və xidmətdən istifadə etmək, qlobal miqyasda ali təhsil sisteminə çatmaq kimi məsələləri əhatə edir [4, s.49].

Türkiyə Respublikasında universitetlərdə strateji idarəetməni inkişaf etdirmək məqsədilə İnkişaf Nazirliyi tərəfindən 2018-ci ildə universitetlər üçün strateji planın hazırlanması ilə bağlı bələdçi kitabı hazırlanmışdır. Kitabçada strateji planlaşdırma ilə bağlı bir sıra aşağıdakı məsələlərə toxunulmuşdur:

- Planlaşdırma prosesi strateji planın hazırlanması ilə başlayır. Hazırlıq prosesi plana sahib olmaq, planlaşdırma prosesinin təşkili, ehtiyacların müəyyən edilməsi, cədvəl və hazırlıq proqramının yaradılması mərhələsidir;
- Biz haradayıq? Sualın cavabı üçün hazırkı vəziyyət, institusional tarix, həyata keçirilən strateji plan qiymətləndirilir, qanunvericilik, yuxarı siyasət sənədləri təhlil edilir, fəaliyyət sahələri və məhsul, xidmətlər, maraqlı tərəflər müəyyən edilir, SWOT təhlili aparılır;
- Biz hara çatmaq istəyirik? Sualın cavabı "gələcəyə baxış", "fərqləndirmə strategiyası" və "strategiyanın inkişafı" bölmələrində axtarılır. Gələcəyə baxış bölməsində universitetin uzunmüddətli perspektiv üzrə öz idealları istiqamətində irəliləyə bilməsi üçün missiya, baxış və əsas dəyərlər qeyd olunur. Fərqləndirmə strategiyasında digər universitetlərə qarşı rəqabət üstünlüyü təmin etmək üçün onun yeri, uğur bölgəsi, dəyər təqdimatı və əsas səriştə üstünlükləri açıqlanır. Strategiya inkişafı bölməsinə universitetin məqsədləri, vəzifələri, fəaliyyət göstəriciləri və buna uyğun olaraq hazırlanmış strategiyalar aid edilir;
- Getmək istədiyimiz yerə necə çata bilərik? Sualın cavabı üçün "fəaliyyət hesabatları" və "fəaliyyət proqramları"nın proqnozlaşdırıla biləcəyi və buna uyğun olaraq büdcənin hazırlandığı mərhələdir;
- Uğurumuzu necə izləyir və qiymətləndiririk? Sualın cavabı monitorinq və qiymətləndirmənin aparıldığı mərhələdir [4, s.3].

Məqalə hazırlanarkən ölkəmizdə pedaqoji kadr hazırlığını həyata keçirən Azərbaycan Dövlət Pedaqoji Universitetinin və Azərbaycan Dövlət

İqtisad Universitetinin, eyni zamanda Türkiyə Respublikasında fəaliyyət göstərən Qazi və Hacettepe Universitetlərinin strateji fəaliyyət planları təhlil edilmişdir. Strateji planların oxşar, fərqli cəhətləri və çatışmazlıqları müqayisə edilmişdir. Bu universitetlərin seçilməsinin səbəbi universitetlər üçün xüsusi olaraq aparılan ilkin işlər nəticəsində strateji plan proseslərinin təsviri təhlil və öz aralarında müqayisə üçün əlverişli olmasıdır. Qeyd edək ki, hər bir universitetin strateji planları veb səhifələrində yerləşdirilərək əlçatan edilmişdir.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Elmi Şurasının 12 fevral 2015-ci il tarixli iclasının (protokol № 9) qərarı ilə 2015-2020-ci illər üçün Strateji İnkişaf Planı qəbul edilmişdir. Həmçinin 2016-cı ilin ikinci yarısında Təhsil Nazirliyinin tapşırığı ilə ADPU üçün “Transformasiya üçün Yol Xəritəsi” və ADPU-da “Tədrisin Keyfiyyətinin Yüksəldilməsinə dair 10 illik Strateji İnkişaf Planı” adlı iki fərqli sənəd layihələri də hazırlanmışdır. Qeyd olunan sənədlərin icrasını təmin etmək üçün ADPU-nun rəhbərliyi Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 2012-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan 2020: Gələcəyə Baxış” İnkişaf Konsepsiyasını, Azərbaycan Respublikası Prezidentinin 24 oktyabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nı, Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli “Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında” adlı Fərmanı və Peşə təhsili üzrə Strateji Yol Xəritəsini və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 18 iyul 2018-ci il tarixli 311 nömrəli qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi”ni əsas götürərək yerli və beynəlxalq ekspertlərin ADPU-da apardığı tədqiqatların nəticələrində verdiyi təklifləri nəzərə alaraq, “ADPU-2021” Strateji İnkişaf Planını hazırlamışdır. Bu strateji inkişaf planı müqayisə edilərək aşağıdakı məlumatlar əldə edilmişdir: Strateji planın giriş hissəsində ADPU-nun tarixi inkişaf yolu, ölkədə mövqeyi, əldə etdiyi uğurlardan bəhs edilib. Universitetin strateji bəyannaməsi, yəni missiyası, vizyonu, əsas dəyərləri, əsas hədəfləri, şüarı və loqosunun rəsmi izahı verilmişdir.

Universitetin əsas hədəflərinə gəldikdə, tələbələr üçün universitet məmnunluğunu gücləndirmək (tələbə məmnunluğu sorğuları, müəllimlərin qiymətləndirilməsi kimi metodlar vasitəsilə); tələbə nəticələrini yüksəltmək (universitetdən kənar imtahanlardan keçid səviyyəsi, işlə təmin olunma, ixtisasların qəbul yerlərinin dolma səviyyəsini və s. ölçməklə); universitetə yüksək bacarıqlara malik tələbələri cəlb etmək (universitetə qəbul ballarının əsasında) və universitetə yüksək balla qəbul olunan tələbələrin bacarıqlarının tədqiqat-innovasiya istiqamətində inkişafına nail olmaq.

2018-2021-ci illəri əhatə edən strateji planda tədris və ümumi idarəçilik işləri, elm və innovasiyalar sahələri, beynəlxalq əlaqələr, sosial və humanitar məsələlər, inzibati və iqtisadi işlər barədə məsələlərə diqqət ayrılmışdır.

Azərbaycan Dövlət İqtisad Universitetinin 2019-2030-cu illəri əhatə edən inkişaf strategiyasında rektorun təqdimatı ilə giriş hissəsi başlayır. Universitetin tarixi, fəaliyyət istiqamətləri, resurslar, SVOT təhlil, missiya, gələcəyə baxış və əsas dəyərlər, strateji məqsədlər, hədəflər və fəaliyyətlər, maliyyələşdirmə, monitorinq və qiymətləndirmə öz əksini tapmışdır. Universitet yeddi strateji məqsəd müəyyən etmişdir: yüksək keyfiyyətli ali təhsil ocağına çevrilmək, tədqiqat universitetinə çevrilmək, sahibkar universitetə çevrilmək, sosial xidmətlərdə aparıcı universitetə çevrilmək, daha çevik və yüksək səmərəliliyə malik universitet idarəetmə sisteminə sahib olmaq, yüksək beynəlxalq reytinqli universitetə çevrilmək.

Bundan əlavə universitet SWOT təhlil aparaq müəssisənin güclü tərəfləri, zəif tərəfləri, imkanlar və təhdidləri də nəzərə çatdırır.

Türkiyə Respublikasında olan bir neçə universitetin veb səhifələrinə daxil olmaqla strateji planlarını da təhlil etdik. Qazi universitetinin 2019-2023-cü illəri əhatə edən strateji plan iki başlıq altında verilmişdir. Birinci başlıq “Bir Baxışda Strateji Plan”, ikinci başlıqda isə əsas performans göstəricilər cədvəli aydın və başa düşülən formada verilmişdir. Strateji planın hazırlanması prosesi ilə tanışlıqdan aydın oldu ki, əvvəlki dövrün qiymətləndirilməsi aparılıb və hazırda daha çox tədqiqata əsaslanan universitetin bütün texnoloji planlarının yerinə yetirildiyi və qarşıya qoyulan bütün hədəflər ətraflı şəkildə qeyd olunub. Tələbələr və akademik heyət tədqiqatlara daha fəal olmuşlar. Strateji planda bu başlığın məzmununda 8-ə yaxın strateji fəaliyyət planı və proqramı qeyd edilmiş, onların vəzifə və məzmunu isə cədvəllərdə göstərilmişdir. Daxili təhlil ətraf mühitin təhlili ilə birlikdə qiymətləndirilmişdir. Universitetin daxili və xarici maraqlı tərəfləri müəyyən edilərək maraqlı tərəflərin təhlili aparılıb və nəticələrə əsasən hansının daha az və ya daha çox iştirak etdiyi ilə bağlı cədvəllər təqdim edilib. SWOT təhlil daha çox reallığı əks etdirir. Fərqləndirmə strategiyaları bölməsində dörd alt başlıq ilə, bu başlıqların hər birinə kifayət qədər diqqət yetirilməklə izah edilir. Bütün texnoloji fəaliyyətləri həyata keçirərkən haradan başladığının izah edildiyi görünür. Qiymətləndirmə bölməsində 4 illik xərclər cədvəli yaradılmışdır.

Hacettepe Universitetinin strateji planında universitet rektorunun açıqlaması vardır. 2018-2022-ci illəri əhatə edən strateji plan hazırlanarkən internet saytında maraqlı tərəflər arasında sorğu keçirildiyi və onların məlumatlandırıldığı məlum olur. Plan hazırlanarkən işçi qrupu yaradılıb. Vəziyyətin təhlilindən sonra işçi qrupu əsas detalları müəyyənləşdirib. Strateji planda 11 məqsəd müəyyən edilib. Bu məqsədlər üçün diqqətəlayiq izahatlar verilib, texnoloji imkanlar artırılıb və təkmilləşdirilmələr aparılıb. Planda

sahibkarlıq konsepsiyası əlavə edilərək texnologiyanın əhəmiyyəti bir daha vurğulanıbdır. Universitet texnologiyaya nə qədər çox önəm verirsə, onun inkişafı da bir o qədər sürətli olur. Planda strateji məqsəd və vəzifələr daha ümumi şəkildə müəyyən edilib. Müəyyən edilmiş məqsəd və hədəflərin büdcə qiymətləndirilməsi fəaliyyət proqramına daxil edilir. 2018, 2019 və 2020-ci illər üçün performans proqramları daxildir. Bu performans qiymətləndirmələrində xərc cədvəlləri hazırlanmış və hər bir hədəf üçün büdcələr ətraflı müzakirə edilmişdir. 2019-cu il üzrə illik hesabatlara əsasən qarşıya qoyulan hədəflərin əksəriyyəti uğurlu kimi müəyyən edilib. Lakin sonrakı illər üzrə fəaliyyət hesabatları olmadığı üçün ümumi qiymətləndirmə aparmaq düzgün olmazdı. 2013-2017-ci il planı üçün hər ilin fəaliyyət proqramları və fəaliyyət hesabatları hazırlanmışdır.

Tədqiqat çərçivəsində nəzərdən keçirilən hər bir universitetin son dövrləri üçün hazırlanmış strateji planlarının müqayisəli təhlili nəticəsində əldə edilən məlumatlar əsasında müəyyən nəticələrə gəlmək mümkündür.

Ümumiyyətlə, universitetlərin veb-səhifələri vasitəsilə tanış olduğumuz strateji iş planlarının tərtibatından, məzmunundan, aparılan təhlillərdən aydın başa düşülür ki, hər bir müəssisə bu prosesə müxtəlif formada yanaşıb.

Tədqiqatdan nəticəyə gəlmək olar ki:

- Universitetlərdə strateji plan hazırlanarkən hər hansı bir mənbəyə əsaslanmırlar. Bu da gözləntilərin nəzərə alınmamasına və bəzi boşluqlarla bağlı strategiyanın müəyyən edilməməsinə səbəb olur.

- Strateji planın hazırlanması və həyata keçirilməsi prosesində bütün aidiyyəti subyektlərin inamı və dəstəyi olmalıdır.

- Nəhayət, universitetlər üçün yüksək əhəmiyyət kəsb edən strateji planın hazırlanmasında və həyata keçirilməsində nəzərdə tutulan prinsiplərə tam riayət etmək lazımdır.

## ƏDƏBİYYAT


1. *Əmirov İ.B., Z.E.Hacıyeva.* Menecment. Bakı, 2015, 498 s.
2. *Hacıyeva L.A.* Xidmət sahələrinin marketinqi: Dərs vəsaiti. Bakı, 2013, 276 s.
3. *İsmayılov B.V.* Strateji menecment: Dərs vəsaiti. Bakı: Təhsil, 2018, 296 s.
4. *Kərimov X.Z.* Strateji idarəetmə: metodlar və praktika. Bakı: Elm, 2006, 196 s.
5. *Akçakaya M.* Stratejik Yönetim ve Planlama / M.A.Özer, M.Akçakaya, H.Yaylı ve N.Y.Batmaz (Ed.). Kamu Yönetimi Modern Yapı ve Süreçler içinde. Ankara: Adalet Yayınevi, 2016, s.255-309
6. *Dağlar H.* Stratejik Planlama Kapsamında Türkiye'deki Üniversitelerin Stratejik Amaçlarının Analizi // Journal Of Emergıng Economıes And Policy,2019, 4 (1), s.1-12

7. *Demir C. ve Yılmaz M.K.* Stratejik Planlama Süreci ve Örgütler Açısından Önemi // Dokuz Eylül Üniversitesi İktisadi ve İdari Bilimler Fakültesi Dergisi, 2010, 25(1), s.69-88
8. *Ereş F.* Eğitim Yönetiminde Stratejik Planlama // Gazi Üniversitesi Endüstriyel Sanatlar Eğitim Fakültesi Dergisi, 2004, 15, s.21-29
9. *Genç F.N.* Türk Kamu Yönetiminde Stratejik Planlama. Dumlupınar Üniversitesi Sosyal Bilimler Dergisi, 2009, 12, s.386-410
10. *Güçlü N.* Stratejik Yönetim // G.Ü.Gazi Eğitim Fakültesi Dergisi, 2003, 23(2), s.61-85
11. *Maviş F.* Stratejik Yönetim Modeli. Eskişehir Anadolu Üniversitesi İktisadi Ve İdari Bilimler Fakültesi Dergisi, 1988, 6(1), s.135-147
12. *Peker A. E., & Boyraz A.*Stratejik Yönetim Kavramına Teorik Bir Yaklaşım. Fırat Üniversitesi İİBF Uluslararası İktisadi ve İdari Bilimler Dergisi, 2017, 1(2), s.67-92
13. *George B., Walker R.M.* Does Strategic Planning Improve Organizational Performance? A Meta-Analysis / Public Administration Review, 2019, 79 (6), pp.810-819
14. *Glaister K. W. & Falshaw J.R.* Strategic Planning, Still Going Strong? *Long Range Planning*, 1999, 32, pp.107-116
15. *Grant R.M.* Strategic Planning in a Turbulent Environment: Evidence From The Oil Majors // Strategic Management Journal, 2003, 24(6), pp.491-517

Redaksiyaya daxil olub 23.02.2022

***UOT 159.9***

***Y.B.Əskərova***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*y.askerova@inbox.ru*

# YENİYETMƏ ŞƏXSİYYƏTİNİN SOSİAL-PSİXOLOJİ TƏHLİLİ

***Açar sözlər:*** *yeniyetmə, inkişaf, yaş mərhələsi, uşaqlıq, yetkinlik, yaş xüsusiyyətləri, fəaliyyət, müstəqillik*

Məqalədə qeyd olunur ki, yeniyetməlik dövrü digər yaş dövrlərindən əsaslı şəkildə fərqlənir. Onun başlıca cəhəti isə “cinsi fərqlərin” tamamilə inkişafı ilə bağlıdır. Bu yaş dövrünün sonunda qızlar və oğlanlar anatomik-fizioloji, həm də psixoloji cəhətdən “öz” yerlərini tutmuş olurlar. Bu isə onların “böhran ” keçirmələrinin ilkin şərtidir. Digər tərəfdən yeniyetmə iddia səviyyəsi və tutduğu mövqe, psixoloji hazırlığı və reallıq arasında kəskin fərqlərlə qarşılaşır. Yeniyetmə yaşı dövründə insan ikinci dəfə bir şəxsiyyət kimi doğulur.

***Е.Б.Аскерова***

# СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКИЙ АНАЛИЗ ЛИЧНОСТИ ПОДРОСТКА

***Ключевые слова:*** *подросток, возрастная стадия, детство, зрелость, возрастные особенности, деятельность, независимость*

В статье отмечается, что подростковый период значительно отличается от других возрастных периодов. Его главная особенность заключается в полном развитии «половых различий». К концу данного возрастного периода девочки и мальчики формируются как анатомо-физиологически, так и психологически. А это является предпосылкой их «кризиса». С другой стороны, подросток сталкивается с резкими различиями между уровнем притязаний и занимаемой им позиции, психологической подготовкой и реальностью. В подростковом возрасте человек рождается как личность во второй раз.

***Y.B.Asgerova***

# SOCIO-PSYCHOLOGICAL ANALYSIS OF ADOLESCENT PERSONALITY

***Keywords:*** *adolescent, age stage, childhood, maturity, age characteristics, activity, independence*

The article notes that adolescence is fundamentally different from other ages. Its management is related to the creation of "gender differences". At the end of this age, girls and boys are formed anatomically, physiologically and psychologically. This is a prerequisite for their "crisis". On the other hand, there is a difference between a

teenager's claim and his position, psychological preparation and reality. During adolescence, a person is born a second time as a person.

Yeniyetmə yaşı 11 yaşdan 15 yaşa qədər olan vaxtı əhatə edir. Bu dövr bir il tez, bir il gec başlaya və qurtara bilər. Bu dövrdə həmyaşıdları ilə şəxsi ünsiyyət yeniyetmələrin aparıcı fəaliyyəti olur. Yeniyetməlik dövrünü "keçid", "təhlükəli", "dönüş" və s. dövrü də adlandırırlar. Həmin dövrdə oğlan və qızların fiziki və psixi inkişafında müxtəlif keyfiyyət dəyişmələri baş verir. Bununla əlaqədar olaraq uşaqlıqdan yaşlılığa keçid həmin dövrün əsasını təşkil edir. Bu yaş dövründə uşaq orqanizminin bioloji yetkinləşməsi yolunda əsaslı dəyişiklik baş verir. Yəni bədən intensiv surətdə inkişaf edir, əzələ sistemi möhkəmlənir, təkmilləşir, bədən əzalarında sümükləşmə, bərkimə baş verir. Lakin ürək-damar sistemində baş verən qeyri-bərabər inkişaf, eləcə də daxili sekresiya vəzlərinin fəaliyyətinin güclənməsi çox zaman qan dövranında müəyyən, həm də müvəqqəti pozulmalara gətirib çıxarır, yəni bəzən qan təzyiqi artır, ürək fəaliyyətində gərginlik halı baş verir. Bu cəhətlər də onlarda oyanıqlığı gücləndirir. Dəyişikliklərin güclənməsi çox zaman yeniyetmələrdə əsəb gərginliyinin artmasına, tez özündən çıxmağa, kiçik qıcıqlayıcılara belə kəskin reaksiya vermələrinə səbəb olur. Bu da onlarda tez yorulma, başgicəllənmə, ürək döyüntüsü və s kimi halətlər törədir. Çünki yeniyetmələrin sinir sistemi qüvvətli, yaxud uzun müddət təsir edan qıcıqlayıcılara asanlıqla tab gətirə bilmir. Bir sıra hallarda bəzi yeniyetmələrin qəflətən özündən çıxması, əsəbləşməsi, hətta gözlənilmədən dava salması, gözlənilməz kobudluqlar etməsi mexanizm etibarilə onların orqanizmində baş verən psixofizioloji, eləcə də anatomik-fizioloji proseslərlə əlaqədar olur. Bu da həmin yaş mərhələsinin xüsusiyyətlərinə kifayət qədər yaxından bələd olmayan şəxsləri təəccübləndirir və onlar burada fövqəladə bir təzahür axtarmağa çalışırlar. Bunu bir sıra hallarda yeniyetmənin yaş xüsusiyyətləri ilə deyil, tərbiyə səviyyəsi ilə əlaqələndirirlər. Əlbəttə, burada tərbiyə səviyyəsi, xüsusən də özünü ələ almaq, hisslərini cilovlamaq imkanlarından lazımınca istifadə etmək də mühüm rol oynayır. Lakin yeniyetməlik yaşında psixofizioloji inkişafın xüsusiyyətləri, eləcə də yeniyetmənin inkişafında baş verən digər dəyişikliklərin də spesifikliyini nəzərdən qaçırmaq olmaz [6, s.73].

Yeniyetməlik yaş dövrü ümumi ontogenezdə inkişafın mühüm mərhələlərindəndir. Psixoloqlar (L.L.Bojoviç, A.N.Leontyev, A.B.Petrovic, D.İ.Feldşteyn və b.) yeniyetməliyi yaş dövrünün sadəcə bir mərhələsi kimi yox, psixi inkişafını, uşaqlıqdan gəncliyə keçidin mühüm bir mərhələsi kimi nəzərdən keçirirlər. Hələ vaxtilə Hegel uşaqlığı "özündə varlıq", gəncliyi isə “özü üçün varlıq" adlandırırdı. Yeniyetmə isə artıq "özündə varlıq" mərhələsini başa vurub, lakin hələ "özü üçün varlığa" çevrilməmişdir. Bu yaş dövründə hələ bu iki anlayış vəhdət təşkil etmir. Yeniyetməlik dövründə şagirdin sosiallaşması

prosesi sürətlənir, bu prosesdə o, yeni sosial mövqe qazanır, onda özünə və başqalarına qarşı şüurlu münasibət formalaşır. Yeniyetməlik yaş dövrü ontogenezdə mühüm yerlərdən birini tutur. D.İ.Feldşteynin fikrincə, ona "növbəti yaş mərhələsi kimi yox, psixi inkişafın, uşaqlıqdan yaşlılığa keçidin mühüm halqası kimi baxmaq lazımdır" [9, s.3]. Yeniyetməlik yaş dövrü uşaqlıqdan yetkinliyə keçidin mühüm halqası olmaqla özü də iki yerə ayrılır:

a) uşaqlıqdan, kiçik məktəb yaş dövründən yeniyetməliyə keçid

b) yeniyetməlikdən erkən gənclik dövrünə keçid

Belə bölgü bir daha onu göstərir ki, özündə bir yaş dövrünü – yeniyetməlik yaş dövrünü birləşdirən bu dövr iki mərhələdən ibarətdir. Birincisi, daha çox uşaqlığa, ikincisi isə erkən gəncliyə yaxındır. Psixologiya elmində şəxsiyyətin inkişafında insanın bioloji və ictimai təbiəti vəhdətdə götürülür. Bu müddəa psixoloq və filosofların: P.Y.Qalperin, V.V.Davidov, N.P.Dubinin, B.M.Kurov, A.N.Leontyev, A.R.Luriya, A.V.Petrovski, S.L.Rubinşteyn, Ə.S.Bayramov, Ə.Ə.Əlizadə və b. fundamental tədqiqatlarında öz əksini tapmışdır. A.S.Makarenkonun "çətin tərbiyə olunan" yeniyetmələrlə apardığı iş, aldığı nəticələr göstərir ki, asosial davranışa malik olan bu yeniyetmələrin hərəkətləri heç də hansısa "anadangəlmə mexanizmlə", hansısa "anadangəlmə xarakter qüsuru" ilə bağlı deyildir. A.S.Makarenko real şəkildə sübut etdi ki, bu yeniyetmələrdə yaşamaq, işləmək, xoşbəxt olmaq və yaratmaq bacarığı, qabiliyyəti olan adi yeniyetmələrdir. Yeniyetmə oğlan və qız üçün eyni tərbiyə, eyni tələblər qoyulsa belə, onlar psixoloji cəhətdən fərqlənirlər. Bu, hər bir şəxsin özünəməxsus fərdi xüsusiyyəti ilə bağlıdır. Amerikan etnoqrafi Marqaret Mid insan şəxsiyyətinin formalaşmasına mühit və ictimai tarixi şəraitin təsirini müəyyənləşdirmək məqsədi ilə Samoa adasında yaşayan yeniyetmələr üzərində tədqiqat aparmış və aşkar etmişdir ki, qız və oğlanlarda yeniyetməlik yaş dövrünün böhranı heç də bioloji amillərdə deyil, sosioloji amillərlə şərtlənir.

Müşahidələr, psixoloji ədəbiyyatın təhlili göstərir ki, bu mürəkkəb, ziddiyyətli xüsusiyyətlərə malik olan yeniyetməlik dövrünün öyrənilməsi probleminə psixoloqlar xüsusi həssaslıqla yanaşmışlar. Bu problem S.Holl, Z.Freyd, K.Levin, J.Piaje, L.S.Vıqotski kimi məşhur psixoloqların diqqətini cəlb etmiş, onların tədqiqat obyekti olmuşdur. Lakin istər müxtəlif psixologiya məktəbinə daxil olanlar, istərsə də eyni məktəbin nümayəndələri yeniyetmələrin psixoloji xüsusiyyətləri ilə bağlı bir çox hallarda fərqli mövqe tutmuşlar. Xarici ölkə psixoloqlarından A.Bandura, A.Vallon, K.Qross, L.Kolberq, K.Levin, J.Piaje, E.Ştern, E.Erikson və b. yeniyetməlik dövrü ilə bağlı müxtəlif nəzəriyyələr işləyib hazırlamışlar.

V.A.Petrovski, A.Rean, N.Bordovskaya, S.Rozum, T.V.Draqunova, Ə.Ə.Ağayev, R.I.Əliyev, Y.A.Sergiyenko və b. təbii və sosial amillərin vəhdəti prinsipini əsas götürürlər. Y.A.Sergiyenko yazır: "Bəzi alimlar psixi mənbə

kimi mühitə üstünlük verərək, insanın psixi inkişafında anadangəlmə, bioloji faktorların rolunu inkar etmişlər. Digərləri, əksinə, belə hesab edirdilər ki, təbiət ideal yaradıcıdır və uşaqlar anadangəlmə "yaxşı" təbiətə malikdirlər. Ona görə də təbiətə etibar edib, təbii inkişafa maneçilik törədilməməlidir. Müasir inkişaf psixologiyası insanın psixi inkişafında həm bioloji, həm də mühit (sosial, mədəni) amillərinin mühümlüyünü anlayaraq, onları bir-birinə qarşı qoymaqdan imtina etmişdir. Lakin psixologiyanın qarşısında onların vəhdətini açıb göstərmək vəzifəsi durur" [8, s.195]. Bir-birinə zidd meyillərin vəhdətini ifadə etməsi etibarilə yeniyetməlik əvvəlki mərhələyə nisbətən daha çox dialektik yaş dövrüdür: yeniyetmələr bir tərəfdən yaşlıların himayəsindən azad olmağa can atır, digər tərəfdən onların yaşlılara əvvəlkindən fərqli xarakter daşıyan güclü meyili müşahidə olunur; yeniyetmələr arasında bir tərəfdən intizamın pozulması halları çoxalır, digər tərəfdən onlar üçün xeyirxahlıq və ictimai faydalı işlərdə iştirak etməyə həvəs göstərmək səciyyəvidir. Ümumiyyətlə, yeniyetməlik dövrü ictimai mühitə çox həssas olan senzitiv yaş mərhələsidir. Formalaşmaqda olan şəxsiyyət üçün xarakterik olan bir sıra cəhətlər, o cümlədən həyat qüvvəsinin yüksəlişi, fəaliyyətə coşqun həvəs, özünü göstərməyə meyil, öz qüvvə və imkanlarını sınaqdan çıxarmaq cəhdləri bu senzitiv münasibəti şərtləndirən əsas səbəblərdəndir. R.İ.Əliyevin fikrincə, bu dövrdə hər bir yeniyetmə yeni ictimai varlığa çevrilir, keyfiyyətcə yeni mühitə daxil olur. Onun cəmiyyətdə öz mövqeyinə və özünə qarşı real, şüurlu münasibəti formalaşır. İnsanın sosial "ustanovkası"nın necə təşəkkül tapması yeniyetməlik yaş dövründə sosial oriyentasiyasının necə formalaşmasından çox asılıdır [3, s.78]. Ə.Ə.Əlizadəyə görə, yeniyetmə özünün bənzərsiz və təkrarolunmaz "Mən"ini kəşf edib, həyatının hər bir məqamında onu bütün aydınlığı ilə göstərir. O, öz "Mən"ini sosial mühitdən ayırmağa, başqalarına oxşamamağa başlayır. Bu əsasda da fərdiyyət kimi inkişaf edir, şəxsiyyətlərarası münasibətlərdə özünəməxsus mövqe tutur, insanlara seçici münasibət bəsləyir [4, s.132]. Sosiallaşma ilə yanaşı, daha bir proses – inkulturasiya prosesi baş verir. Əgər sosiallaşma sosial təcrübənin qazanılmasıdırsa, inkulturasiya yeniyetmə tərəfindən ümumbəşəri mədəniyyətin mənimsənilməsidir. Qeyd olunmalıdır ki, bu iki anlayış arasında eyniyyət yoxdur: tez-tez bir prosesin digərindən geri qalmasını müşahidə etmək olar [5, s.68]. A.G.Maklakova görə, sosiallaşma və fərdiləşmə prosesləri istər-istəməz şəxsiyyətin özünüaktuallaşdırma probleminə, şəxsiyyətin inkişaf nəzəriyyəsinin mərkəzi problemlərindən birinə gətirib çıxarır [7, s.486]. Bir sıra psixoloji cərəyanlarla yanaşı, rus sovet psixoloqları V.S.Muxina, K.A.Abulxanova-Slavskaya, T.V.Qavrilova, D.İ.Feldşteyn, L.R.Strelkova, V.A.Petrovski, M.V.Polevaya, M.A.Minayev, K.D.Rodinov, H.P.Qrobovskaya və b. yeniyetməlik yaşının psixoloji xüsusiyyətlərinin ayrı-ayrı cəhətlərini ətraflı tədqiq etmişlər. Həmin tədqiqatlarda bir sıra davranışların təzahürləri sosial-iqtisadi və sosial psixoloji amillərin təsirindən çox, yaş xüsusiyyətlərinin

və şəxsiyyətlərarası münasibətlərin, xüsusən də valideyn-övlad, müəllim-şagird (o cümlədən yeniyetmə-yeniyetmə) münasibətlərinin lazımi səviyyədə olmaması amilləri ilə bağlayırlar. Əlbəttə, bu cəhət mühümdür, lakin məsələnin bütün tərəflərini lazımi səviyyədə əks etdirmir. Həmin tədqiqatlar içərisində D.İ.Feldşteynin çətin yeniyetmələrin tərbiyəsinin psixoloji xüsusiyyətlərinə həsr olunmuş araşdırmaları diqqəti xüsusi olaraq cəlb edir. Burada yeniyetmələrin yaş xüsusiyyətlərindən irəli gələn psixoloji çətinliklər və onların təzahürləri, eləcə də çətin yeniyetmələrə yanaşmağın psixoloji məsələlərinə toxunulur [9, s.188]. Azərbaycan psixoloqları da öz əsərlərində yeniyetməlik yaş dövrünün psixoloji xüsusiyyətlərini geniş araşdırmışlar. Nəzərə almaq lazımdır ki, respublikamızın psixoloqlarının yeniyetməlik yaşı ilə bağlı araşdırmalarında iki cəhət özünü aydın surətdə göstərir. Respublikamızın mütəxəssisləri yeniyetməlik yaşının ümumi psixoloji məsələlərini, onların təlim-tərbiyə işinin səmərəli təşkili məsələlərini nisbətən geniş planda əhatə etmişlər. Həmin məsələ yaş psixologiyası, pedaqoji psixologiya, təlim-tərbiyənin ayrı-ayrı məsələlərinə həsr edilmiş dərslik, dərs vəsaitləri, eləcə də ayrı-ayrı əsər və elmi məqalələrdə əks etdirilmişdir. Bu cəhətdən F.Ə.İbrahimbəyov, M.C.Məhərrəmov, Ş.S.Ağayev, Ə.S.Bayramov, M.Ə.Həmzəyev, Ə.Ə.Əlizadə, Ə.Qədirov, Z.M.Mehdizadə, B.H.Əliyev, S.M.Məcidova, R.H.Qədirova və başqalarının əsərləri diqqəti xüsusi olaraq cəlb edir. İkinci tərəfdən yeniyetmələrin psixoloji xüsusiyyətlərinin inkişafı və tərbiyəsinin, o cümlədən həmin yaş dövründə davranışının, münasibətlər sisteminin neqativ təzahürünün ayrı-ayrı cəhətlərinin öyrənilməsi isə psixoloqlarımızdan S.M.Məcidovanın, E.Şəfiyevanın, Ə.S.Bayramovun, M.Ə.Həmzəyevin, L.M.Cabbarovanın, B.H.Əliyevin, R.Cavadovun, Ə.Ə.Əlizadənin, R.H.Qədirovanın, G.Q.Hüseynovanın, M.H.İmamverdiyevanın, eləcə də (pedaqoji aspektdə olsa da) T.Y.Dadaşovanın, K.K.Qəhrəmanovanın, M.İ.Dəmirovun və başqalarının tədqiqatlarında öz əksini tapır [2, s.45]. Bunlardan biri psixologiya elmləri doktoru, professor Ə.S.Bayramovun "Yeniyetmələrin davranışında neqativ təzahürlər və onların aradan qaldırılmasının psixoloji mexanizmləri" adlı məqaləsidir. Həmin əsərdə ilk növbədə yeniyetmə yaşının spesifik psixoloji xüsusiyyətləri ətraflı şərh edilir. Bundan sonra onların davranışlarında neqativ təzahürləri şərtləndirən başlıca amillər şərh olunur, onların əsas təzahür xüsusiyyətləri və psixoloji mexanizmləri zəngin faktların təhlili əsasında izah olunur. Burada əsasən yeniyetmələrin əxlaqa uyğun gəlməyən neqativ davranışlarından bəhs edilir [1, s.128]. Yeniyetməlik yaşında fiziki inkişafın ən başlıca, hətta müəyyən mənada demək olar ki, mərkəzi amili yeniyetmənin cinsi yetkinliyinin formalaşmasıdır. Həmin amil yeniyetmənin daxili orqanlarının fəaliyyətinə ciddi təsir göstərir. Burada bir cəhəti də nəzərdən qaçırmaq olmaz ki, yeniyetmələrdə cinsi yetkinliyin formalaşmasına nəinki yaş xüsusiyyəti, eləcə də təbii və coğrafi mühit də ciddi surətdə təsir göstərir. Yeniyetmənin

psixoseksual inkişafında xüsusi dəyişiklik baş verir. Bu dövrdə cinsi yetişmənin başlanması bir növ cinsi yetkinlik üçün başlanğıc rolunu oynayır. Bununla yanaşı olaraq psixoloji yetkinliyin baş verməsi üçün müvafiq şərait yaratmış olur. Yeniyetmələrdə sərvət sistemi dəyişir: ailə, məktəb, həmyaşıdları yeni məna və əhəmiyyət kəsb etməyə başlayır. Yeniyetmə yaşında şəxsiyyətin formalaşmasında əsaslı dəyişiklik baş verir. Görkəmli psixoloq K.Levinin fikrincə, keçid yaşı olan yeniyetməlik dövründə mühüm proseslərdən biri onları istiqamətləndirən şəxsiyyətin həyatı aləminin, ünsiyyət sahəsinin, qrup mənsubluğu və insanların tiplərinin genişlənməsindən ibarətdir. Burada yeniyetmədə ünsiyyət tələbatının meydana gəlməsi xüsusi rol oynayır. Bu dövrdə yoldaşları ilə ünsiyyət səyi, həmyaşıdlar kollektivinə meyil son dərəcə aydın təzahür edir. Ünsiyyət fəaliyyətinin obyekti həmyaşıdlarından ibarət olur. Yeniyetmə ünsiyyət fəaliyyəti prosesində ictimai-əxlaqi münasibət normalarını mənimsəyir. Yeniyetmə yaxınlıq dərəcəsinə görə yoldaşın üç tipini müəyyənləşdirir: sadəcə olaraq yoldaş, yaxın yoldaş və şəxsi dost. Yeniyetmənin yaxın yoldaşları və dostları ilə ünsiyyəti sadəcə olaraq təlim fəaliyyəti hüdudları ilə məhdudlaşmır, həyatının bir çox sahələrini əhatə edir. Yeniyetmələrin həmyaşıdlari ilə ünsiyyəti birinci, təlimə olan münasibəti ikinci plana keçirir. Hətta yoldaşları ilə ünsiyyətə nisbətən doğma adamlarla ünsiyyətin rolu xeyli azalır. Yeniyetmə belə hesab edir ki, həmyaşıd uşaqlarla münasibətlər onun şəxsi münasibətidir, heç kəsin buna qarışmağa haqqı yoxdur. Ona görə də yeniyetmənin dostları onun üçün referent qrupa çevrilir. Kiçik məktəblidən fərqli olaraq yeniyetmədə özünə, öz şəxsi həyatına, şəxsiyyətin xüsusiyyətlərinə maraq yarandıqda, özünüqiymətləndirmə tələbatı, özünü başqaları ilə müqayisə etmə meyli əmələ gəlir. Nəticədə yeniyetmə özü öz "mən"ini bir növ kəşf edir. Mənlik şüurunun formalaşmağa başlaması və sonrakı inkişafı yeniyetmənin bütün psixi həyatına, onun təlim fəaliyyətinin xarakterinə, ətrafdakılara münasibətinə öz təsirini göstərir. Yeniyetmənin mənlik şüurunun formalaşması onun öz davranışını, mənəvi keyfiyyətlərini, xarakter və qabiliyyətlərini dərk etməsi ilə başlayır. İlk dövrlərdə yeniyetmənin mənlik şüurunun əsasını başqa adamların mülahizələri təşkil edir. Yaş artdıqca yeniyetmə özünün şəxsiyyətini müstəqil təhlil etməyə və qiymətləndirməyə başlayır. Bu dövrdə yeniyetmələr öz müstəqilliklərini qoruyub saxlamağa çalışmaqla refleksiya əsasında mənlik şüurlarını, "mən" obrazını, "real" və "ideal mən"in əlaqəsini formalaşdırır və inkişaf etdirir. Bütün bunlarla yanaşı olaraq yeniyetmələrdə özünüqiymətləndirmə və özünəmünasibətin formalaşması baş verir. Mövcud psixoloji ədəbiyyatda yeniyetmələrin özünüqiymətləndirməsinin aşağıdakı tipləri qeyd olunur:

1. Uşağın "özünüqiymətləndirməsi" ananın verdiyi qiymətin birbaşa təkrarı kimi özünü göstərir. Adətən uşaqlar özlərində birinci növbədə valideynlərinin onlar haqqında qeyd etdikləri keyfiyyətləri görürlər. Əgər

valideynlər tərəfindən neqativ sürət təlqin olunur və uşaq bu nöqteyi-nəzəri qəbul edirsə, onda özünün yararsızlıq hissinə üstün gəlməsinə qarşı davamlı neqativ münasibət formalaşır. Uşağın ailədən kənar sosial təmas dairəsinin məhdudluğu, valideynin güclü nüfuzu sayəsində verdiyi qiymət onun üçün yeganə daxili özünüqiymətləndirməsinə çevrilir. Bu cür özünüqiymətləndirmənin ciddi qüsuru ondan ibarətdir ki, (əgər pozitiv xarakter daşısa belə) bu zaman uşağın özünə qarşı stabil, pozitiv münasibətini təmin edə biləcək daxili şəxsi kriteriyalarının yaranmasına mane olur.

2. Ziddiyyətli komponentlərdən ibarət olan qarışıq özünüqiymətləndirmə. Bu, bir tərəfdən müvəffəqiyyətli sosial qarşılıqlı təsir təcrübəsi sayəsində yeniyetmədə formalaşan özünün "mən" obrazı, ikinci tərəfdən valideynin uşağı necə qiymətləndirməsi ilə bağlı formalaşır. Bu zaman "mən" obrazı ziddiyyətli xarakter daşıyır.

3. Yeniyetmə valideynlərinin onun haqqında dediklərini xatırlayır, lakin ona başqa qiymət verir. O, tərsliyi xaraktersizlik kimi qəbul etmir. Belə ki, bu yaşda olan yeniyetmə üçün böyüklərin onu bəyənməsi vacibdir. Lakin eyni zamanda onlara qulaq asmaq öz müstəqilliyini, "mən"ini itirməsini bildirir. Valideynlərin tələblərinə cavab verməyin mümkünsüzlüyü və öz “mən”ini saxlaması kimi hiss etməsi yeniyetmənin özünü "pis", lakin güclü kimi qiymətləndirməsinə gətirib çıxarır.

4. Yeniyetmə valideynlərinin fikrinə qarşı mübarizə aparır, lakin bununla belə özünü həmin sərvətlər çərçivəsində qiymətləndirir. Bu kimi hallarda yeniyetmə özünüqiymətləndirmə zamanı valideynlərinin real qiymətini deyil, ideal gözləmələrini nəzərdə tutur.

5.Yeniyetmə özünüqiymətləndirmə zamanı valideynlərinin onun haqqında neqativ fikirlərini qəbul edir, eyni zamanda bildirir ki, o, elə bu cür də olmaq istəyir. Valideynlərin tələblərinin bu cür rədd edilməsi ailədə olduqca gərgin münasibətlərin yaranmasına gətirib çıxarır.

6.Yeniyetmə valideynlərinin neqativ qiymətini görmür, hiss etmir. Gözlənilən qiymət özünüqiymətləndirmədən xeyli yüksək olur. Halbuki valideynlərin real qiyməti neqativ xarakter daşıyır. Valideynləri tərəfindən real şəkildə rədd olunduğunu qəbul etməyən yeniyetmə öz mənlik şüurunda valideyn münasibətlərini, əgər o, valideynlərinin sevimlisi olsaydı, onların münasibətlərinin necə ola biləcəyi formasında dəyişdirir [6, s.123].

Yeniyetməlik yaşında əxlaqi şüurun inkişafı da baş verir. Bu dövrdə əxlaqi şüurun formalaşmasında yaşlılarla müxtəlif fəaliyyət növlərində qarşılıqlı əlaqə mühüm rol oynayır. Yeniyetmələrdə əxlaqi şüurun formalaşmasında şagird kollektivinin də müstəsna rolu vardır. Psixoloqlar belə bir qənaətə gəlmişlər ki, yeniyetməlik yaşı dövründə özünəməxsus "əxlaq məcəlləsi" əmələ gəlir (Ə.Ə.Əlizadə). Bu "məcəllə" onların yoldaşlıq münasibətlərini tənzim etdiyi üçün onu "yoldaşlıq məcəlləsi" adlandırırlar. Bu

"məcəlləyə" görə, yoldaş yoldaşının hörmətini saxlamalı, qayğısına qalmalı, müdafiə etməlidir. Professor Ə.Əlizadənin qeyd etdiyi kimi, hörmət, qayğı, müdafiə anlamlarını yeniyetmələr üçün öz yozumu, öz mənası, öz təfsiri var [4, s.112]. Yeniyetmələrdə əxlaqi ideallar formalaşmağa başlayır. Bu ideallar güclü motiv kimi yeniyetmənin özünütərbiyəsinə, öz qüsurlarını aradan qaldırmasına təkan verir. Yeniyetmələrin təlim fəaliyyəti kiçik məktəblilərdən bir sıra xüsusiyyətlərinə görə fərqlənir. Hər şeydən əvvəl onlarla bir müəllim deyil, bir neçə müəllim məşğul olmağa başlayır. Adətən çox vaxt həmin müəllimlər öz davranış, ünsiyyət üslublarına, eləcə də dərsi aparma tərzlərinə görə bir-birlərindən fərqlənirlər. Ayrı-ayrı müəllimlər yeniyetmənin qarşısına müxtəlif tələblər qoyurlar. Bu isə yeniyetmələri hər bir yeni müəllimə fərdi olaraq uyğunlaşmağa məcbur edir. Bununla yanaşı olaraq yeniyetməlik yaşı dövründə ayrı-ayrı müəllimlərə fərqləndirici münasibət özünü göstərməyə başlayır. Yeniyetmələr bəzi müəllimləri sevir, bəzilərini sevmir, bəzilərinə qarşı isə laqeyd olurlar. Yeniyetmələrin ciddi, lakin ədalətli, uşaqlara xoş münasibət bəsləyən, materialı maraqlı və aydın izah edən, şagirdləri düzgün qiymətləndirən, hamıya eyni xeyirxah münasibət bəsləyən, demokratik ünsiyyət üslubuna malik olan müəllimləri daha yüksək qiymətləndirir və sevirlər. Yeniyetmələr müəllimin erudisiyasına, şagirdlərlə düzgün qarşılıqlı əlaqə yaradan müəllimlərə daha çox üstünlük verirlər. Bununla yanaşı, artıq yeniyetmələr elmlərin əsasını sistemli şəkildə öyrənməyə, mənimsəməyə başlayırlar. Bunun üçün yeniyetmələrdən yüksək əqli inkişaf, idrak proseslərinin inkişafı tələb olunur. Yeniyetmələr yalnız dərsdə keçdiklərini deyil, eyni zamanda biliklərin yeni sahələrini müstəqil olaraq mənimsəməyə çalışırlar. Onlar müxtəlif dərnəklərdə iştirak etməyə can atırlar. Yeniyetmələr bütün fənlərə eyni, seçici münasibət bəsləməyə başlayırlar. Lakin burada da sabitlik az olur. Bəzən bu və ya digər fənnə maraq dəyişə bilir. Peşə marağının təşəkkül etməsi sayəsində onlar fənləri "lazımlı" qruplara ayırırlar. Bunlardan asılı olaraq müəllimlərə münasibətləri də müxtəlif olur. Bütün bunları nəzərdən keçirərək yeniyetməlik yaş dövrünün (11-15 yaş) ümumi, psixoloji xüsusiyyətlərini qeyd edək:

- İntensiv cinsi yetişmə və inkişaf, orqanizmin güclü fizioloji yenidən qurulması;
- Qeyri-sabit emosional sfera, emosiya və əhvalların idarə olunması;
- Müstəqillik və fərdiyyətin özünütəsdiqi, böyüklərə münaqişəli münasibətin meydana gələ bilməsi;
- Aparıcı fəaliyyət həmyaşıdları ilə ünsiyyətin, həmyaşıdlarının özünə qarşı hörmətinə "nail olmaq" zərurətindən irəli gələn adamlarla mənimsənilməsi; yeni davranış və münasibət normalarının mənimsənilməsi;
- Özünüqiymətləndirmənin, xarakterin inkişafı;

- Xarakterin aksentuasiyası və qeyri-adaptiv davranış formasının meydana gələ bilməsi;
- Şəxsi baxışların formalaşması;
- Həqiqi müstəqilliyin olmaması, həmyaşıdlarına münasibətdə yüksək təlqinçiliyin və konformizmin olması;
- Məntiqi təfəkkürün, yaradıcı şəkildə düşünmək və özünütəhlil qabiliyyətinin, mücərrəd məfhumlara istinad etmənin inkişafı;
- Özünənəzarət və fəaliyyəti planlaşdırmanın hələ çətin olması;
- Riskə, təcavüzə meyllilik özünütəsdiq tərz kimi;
- Seksual həvəs və marağın aşkara çıxması;
- Öz "mən"ini dərketmə, ümumi və xüsusi qabiliyyətlərə senzitivlik.

## ƏDƏBİYYAT


1. *Bayramov Ə.S.* Şəxsiyyətin təşəkkülünün aktual psixoloji məsələləri. Bakı: Azərnəşr, 1981, 286 s.
2. *Cabbarov R.V.* Yeniyetmələrdə özünüdərketmə prosesinin psixoloji təhlili: psixol. elm. nam. ... dis. Bakı, 2004, 150 s
3. *Əliyev R.İ.* Şagird şəxsiyyətinin formalaşmasında milli xüsusiyyətlərinin nəzərə alınması. Bakı: Maarif, 1995, 104 s.
4. *Əlizadə Ə.Ə.* Uşaq və yeniyetmələrin cinsi tərbiyəsi. Bakı: Maarif, 1986, 236 s.
5. *Əliyeva H.İ.* Yeniyetmə şəxsiyyətinin formalaşmasında müəllim-şagird münasibətlərinin rolu: Monoqrafiya. Bakı: Elm və təhsil, 2009, 162 s.
6. *Həmzəyev M.Ə.* Yaş və pedaqoji psixologiyanın əsasları. Bakı: “TS”, 2000, 169 s.
7. *Маклаков А.Г.* Общая психология. М.: Питер, 2005, 582 с.
8. *Сергиенко Е.А.* Психическое развитие личности. В кн. Психология // Под ред. В.Н.Дружинина. СПб.: Питер, 2006, 298 с.
9. *Фельдштейн Д.И.* Современный подросток. Психологические исследования условии, механизмов его воспитания. М., 1983, 223 с.


Redaksiyaya daxil olub 14.02.2022

Pedaqoji Universitetin Xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası –2022, C.70, №2, s. 176-183
Transactions of Pedagogical University. Series of humanitarian, social, pedagogical and psychological sciences – 2022, V.70, №2, pp. 176-183

*UOT 37*

***M.F.Həsənova***
*Azərbaycan Dillər Universiteti*
*e_qubadova@mail.ru*

# ALİ MƏKTƏBDƏ İNFORMASİYANIN QAVRANILMASININ TƏLƏBƏ ŞƏXSİYYƏTİNİN STRUKTUR KOMPONENTLƏRİNDƏN ASILILIĞI

***Açar sözlər:*** *kommunikasiya, texnologiya, informasiya, qavrama, dərketmə, şəxsiyyət, yönəlişlik, motivasiya*

Məqalədə ali məktəblərdə tələbələr tərəfindən təlim materiallarının qavranılması məsələlərindən bəhs olunur. Göstərilir ki, bu proses şəxsiyyətin bir sıra imkanlarından asılıdır. Məqalədə həmin imkanlar sırasında şəxsiyyətin quruluşunu əmələ gətirən əsas komponentlər qeyd edilir. Bunlara şəxsiyyətin mənəvi mövqeyi, idealları, dəyərləri, motivasıya və məqsədi aid edilir. Onların kommunikativ vasitələrlə qavrama prosesində rolu şərh edilir. Belə ki, təlim prosesində tələbə aldığı informasiyaya yalnız onların obyektiv mahiyyəti baxımından deyil, özünün həyat ideallarına və dəyərlərinə uyğunluğu baxımından da yanaşır. Nəticədə tələbələrin dünyaya real münasibəti ilə şüurlu fəaliyyət arasında əlaqə yaranır. Şüurda yönəlişliyin yaranması tələbələrin təlim motivasiyasını da fəallaşdırır.

***М.Ф.Гасанова***

# ЗАВИСИМОСТЬ ВОСПРИЯТИЯ ИНФОРМАЦИИ ОТ СТРУКТУРНЫХ КОМПОНЕНТОВ ЛИЧНОСТИ СТУДЕНТА В ВУЗЕ

***Ключевые слова:*** *коммуникация, технологии, информация, восприятие, понимание, личность, ориентация, мотивация*

В статье рассматриваются вопросы восприятия студентами учебных материалов в вузах. Показано, что этот процесс зависит от ряда личностных качеств. Среди этих возможностей в статье выделяются основные компоненты, составляющие структуру личности. К ним относятся моральная позиция человека, идеалы, ценности, мотивация и цель. Объясняется их роль в процессе восприятия средствами коммуникации. Таким образом, учащийся подходит к информации, которую он получает в процессе обучения, не только с точки зрения их объективного характера, но и с точки зрения соответствия своим идеалам и жизненным ценностям. В результате прослеживается связь между реальным отношением учащихся к миру и сознательной деятельностью. Появление ориентировки в сознании также активизирует мотивацию учащихся к обучению.

***M.F.Hasanova***

**DEPENDENCE OF PERCEPTION OF INFORMATION ON STRUCTURAL COMPONENTS OF STUDENT PERSONALITY IN UNIVERSITY**

***Keywords:*** *communication, technology, information, perception, understanding, personality, orientation, motivation*

The article discusses the issues of students' perception of training materials in universities. It is shown that this process depends on a number of personality traits. The article highlights the main components that make up the structure of personality among these opportunities. These include a person's moral position, ideals, values, motivation, and purpose. Their role in the process of perception by means of communication is explained. Thus, the student approaches the information he receives in the learning process not only from the point of view of their objective nature, but also from the point of view of conformity to his ideals and values of life. As a result, there is a connection between students' real attitudes to the world and conscious activity. The emergence of orientation in the mind also activates the motivation of students to learn.

Hazırda təhsil sistemində, xüsusən ali məktəblərdə yalnız tədris materialını mənimsəyərək onu xatırlanmağı bacaran mütəxəssis hazırlığına yönəldilmiş təlim tənqid olunur. Tələb edilir ki, gələcək mütəxəssis özünün şəxsi həyatını düzgün qurmaqla yanaşı, həm də işlədiyi təşkilatın əmək şərtlərinin irəli sürüldüyü mürəkkəb problemləri yaradıcı həll etməyi öyrənməlidir. O, üzləşdiyi situasiyaları müstəqil olaraq təhlil etməli, hər hansı fəaliyyətində meydana çıxan konkret situasiyaları müqayisə etməyi bacarmalıdır. Tələbələrin bu imkanlara yiyələnməsi üçün akademik sahədə təhsil aldıqları illər ərzində onlara verilən informasiyaları, yəni tədris materialları kimi təqdim edilən elmi bilikləri, eləcə də öyrədilən bacarıqları yüksək səviyyədə qavrayaraq onlara seçici yanaşmalı, bütövlükdə informasiya üzərində işləməyi bacarmalıdırlar.

Müasir dövr – informasiya dövrüdür. İnformasiyanın alınması, işlənməsi və tətbiqi hazırda inkişaf edən insanın başlıca qabiliyyətlərindən biri hesab olunur. İnformasiyanın dəyişməsi qısa zaman ərzində onun istifadəçilərinin də buna müvafiq olaraq öz fəaliyyətinin istiqamətini dəyişməsini tələb edir. Bu isə fərdlərin fəallığı, çevikliyi, dinamikliyi, rəqabətə qabilliyi sayəsində mümkün olur. Bu baxımdan ali məktəb tələbələrinin qavrama səviyyəsini ixtisas aldıqları peşə üzrə peşəkarlıq bacarıqlarına və səriştələrinə yiyələnməyə yönəldilmiş fəaliyyətdə əsas keyfiyyət göstəricisi kimi səciyyələndirə bilərik. Qavramanın əsas kəmiyyət komponentlərinə biliklərin həcmi, informasiyanın əhatəliliyi, çoxistiqamətliliyi və qavramanın optimallığı daxildir.

Kommunikativ texnologiyalarla verilən informasiyaları qavramanın psixoloji xüsusiyyətləri bizə bu məsələyə müasir faktlarla yanaşmanı diktə edir. Çünki təhlillərdən göründüyü kimi, qavrayış elə də sadə proses deyildir. Bundan başqa

hər bir yaş mərhələsində onun imkanları da fərqlidir. Əgər biz, məsələn, tələbələrdən danışırıqsa, bu mürəkkəblik daha da artır, çünki onlar peşə təhsili ilə məşğul olduqlarından özlərinin dərketmə sahəsini daim nizamlamalı, daha çox və daha konkret, tam, obyektiv reallığa uyğun şəkildə qavramalı, anlamalı və dərk etməlidirlər. Ancaq təcrübə göstərir ki, ali məktəbdə təhsil alan tələbələrin bəziləri elmi anlayışları, fikir və obrazları qavramaqda çətinlik çəkirlər. Problemin bu istiqamətdə araşdırılması üçün ona daha əhatəli yanaşmalıyıq. Hesab edirik ki, burada həm tələbələrə kommunikativ texnologiyalarla ötürülən informasiyanın, həm onun ötürülmə qaydalarının, bu qaydalara verilən psixoloji tələblərin, həm də tələbə qruplarının bu informasiyalara münasibətinin təhlilinə ehtiyac vardır.

N.N.Manko [14], N.L.Somova [15] hələ qavranılmadan əvvəl insanda ona təsir edən amillərin olduğuna diqqət çəkirlər. Bu amillərə dinləyicinin (tələbələrin) daxili dünyasının vəziyyəti, sosial yönümü, əvvəlki həyat təcrübəsi, maraq və meyillərinin üstün tərəfləri aid edilir. İnformasiyanı qəbul etməyə hazırlıq səviyyəsi insanın hissi-emosional vəziyyətindən, gərgin və rahat olmasından, hətta onların müəllimə münasibətindən də asılı olur.

Mənəvi vəziyyətin bir çox keyfiyyətləri də tələbələrin dərs zamanı baş verən kommunikasiya prosesinə münasibətinin təminatçısı kimi çıxış edir: müəllim əməyinə hörmət, biliklərə yiyələnməyə məsuliyyət hissi, ailə, valideyn, vətən qarşısında borc hissi və s. Bu baxımdan, göründüyü kimi, qavrayış zamanı onun müxtəlif: fizioloji, bioloji və psixoloji təsirləri barədə danışmaq lazım gəlir.

Digər tərəfdən unutmamalıyıq ki, ali təhsildə tətbiq edilən informasiya texnologiyalarının öz funksiyaları vardır:

- tələbələrin motivasiyasını artırmaq, mövzuya maraq oyatmaq;
- tədris materialının optimal mənimsənilməsini və yadda saxlanmasını təmin etmək;
- hafizənin, kreativ təfəkkürün və yaradıcı təxəyyülün inkişafına kömək etmək;
- problemli məsələnin qavranılmasını stimullaşdırmaq.

Birgə fəaliyyət zamanı insanlar müxtəlif fikir, təklif, bilik və münasibət mübadiləsi aparırlar. O mənada kommunikasiya prosesinin özü də məlumat mübadiləsi prosesi kimi təqdim edilə bilər. Məhz ona görə ki, informasiya mübadiləsi olmadan insanlar birlikdə işləyə, vəzifələri yerinə yetirə, problemləri həll edə bilməzlər. Bu səbəbdən heç bir təşkilatda məlumat mübadiləsi aparmadan səmərəli fəaliyyət qurmaq mümkün deyildir. Təhsil sistemində isə heç mümkün deyildir. Deyilənləri nəzərə alaraq, informasiyaların qavranılmasında rolu olan psixoloji determinantları təhlil edəcəyik.

Əvvəlcə məsələyə şəxsiyyət və şəxsiyyətlərarası münasibətlər baxımından yanaşaq. C.Kelli [5], K.Levin [8], L.Festingerin [13] nəzəriyyələrində problemin qoyuluşuna münasibətə diqqət yetirək. B.Skinner bütün bunlara davranış nəzəriyyəsi istiqamətində münasibət bildirir. Onun qənaəti belədir ki, "əgər insan davranı-

şına göstərilən təsirlər onun üçün xoşdursa, gələcəkdə onun təkrarlanması istəyi artacaq. Çünki pozitiv möhkəmləndirici stumullar hərəkətin təkrarlanmasını şərtləndirir, "neqativ, aqressiv nəticələr davranışı zəiflədir" [12, s.341]. Yəni tələbələrə ötürülən informasiyalar onlarda məmnunluq yaratmırsa, növbəti dəfə həmin şəxs və həmin vasitələrlə ötürülən informasiyaya maraq da zəifləyəcək. Belə davam etdikdə tamamilə itəcək. Bu isə müəllimlə tələbələr arasında səmərəli kommunikasıyaya imkan verməyəcək.

Araşdırmamız üçün C.Kelli tərəfindən irəli sürülən şəxsiyyətin koqnitiv nəzəriyyəsini də təhlil etmək məqsədəuyğundur. Nəzəriyyədə deyilir ki, hər birimiz reallığı öz şəxsi modelimizə və konstruktlara uyğun olaraq qavrayırıq. "Şəxsi konstrukt – insanın öz təcrübəsini dərk etmək və ya şərh etmək, izah etmək və ya mülahizə yürütmək üçün istifadə etdiyi ideya və fikirdir. O, özündə insanın düşündüyü hansısa gerçəkliyin aspektlərindəki: "ağıllı-axmaq", "qadınlıq-kişilik", dindar-dinsiz", "yaxşı-pis", dostyana-düşmənçilik" anlayışlarının uyğunluq və ziddiyyətlərinin davamlı vasitələrini ifadə edir" [5, s.438]. C.Kelli konstruktların biopolyar və dixotomik olduğunu göstərir. C.Kelli həm də şəxsiyyətin ayrı-ayrı konstruktlardan ibarət olan mühakimələrinin mahiyyətində bunları nəzərə almağı lazım bilir:

- İnsan davranışının əsaslandığı şəxsi fikirlərin məzmunu: özünəhörmət, sosial qiymət;
- İdrakın formal xüsusiyyətləri: koqnitiv sahəsinin quruluşu, koqnitiv tarazlıq və ya dissonans vəziyyəti.

C.Kellinin diqqəti cəlb edən izahlarından biri də şəxsi konstruktların təbiətinə görə tipologiyası ilə bağlıdır. O, konstruktları belə tipləşdirir:

- qabaqlayıcı konstruktlar: bu və digər interpretasiyalar üçün qapalı olub özünə və başqalarına ona başqa izah verməyə imkan vermir, qəbul edilənlər birmənalı olaraq təhlil edilmir;
- qəliblənmiş konstruktlar: "əgər kimsə maşın alverçisidirsə, o, mütləq dürüst deyil, müştərini mütləq aldadacaq";
- ehtimaledici konstruktlar: əvvəlki konstruktlarla ziddiyyət təşkil etməklə, bu halda insanın informasiyalara yeni yanaşmaya açıq olduğu aydın görünür;
- hərtrəfli konstruktlar: hadisələrə geniş aspektdən yanaşmanı bildirir;
- hissəli konstruktlar: hadisələrin birtərəfli, yarımçıq, hissəli izahına yönəlir;
- azad konstruktlar: uyğun situasiyalara bir çox baxımdan yanaşmaya açıq olur [5, s.441-442].

Beləliklə, fərdin koqnitiv quruluşları ilə ona təqdim edilən informasiya haqqında məlumat əldə etməsi arasında əlaqənin mövcudluğu təsdiqlənir. Yəni C.Kelli və L.Festinger idrakda eyni bir obyekt və ya hadisə haqqında məntiqi baxımdan ziddiyyətli məlumat olduqda insanın narahatlıq hissi keçirdiyini təsdiqləyən xüsusi bir nəzəriyyəni inkişaf etdirdilər. Onlar informasiyanın qavranılmasının xarakteri haqqında yeni faktlar ortaya qoydular. Nəzəriyyənin

izahı isə budur: insan bu narahatlıqdan qurtulmaq, özünün obyekt və ya hadisə haqqındakı biliklərini yenidən qurmaq və ya sosial parametrləri dəyişdirmək üçün onun üzərində işləməyə çalışmalıdır. Ziddiyyət aradan qaldırıldıqda düşüncələr ahəngdar vəziyyətə gətirilir. Yəni koqnitiv sistemin elementlərinin qarşılıqlı əlaqələndirilməsi baş verir. Bu nəzəriyyə məlumatı dərk edərkən insanın hansısa bir məsələ haqqında fikirlərə qarşı çıxması vəziyyətində, məlumatlarını genişləndirməyə və ya sosial çərçivələri dəyişdirməyə meyilli olduğunu sübut edir.

Şəxsiyyət və motivasiyanın qarşılıqlı əlaqəsi psixologiyada geniş öyrənilmiş məsələlərdəndir. Bu problemin tədqiqində şəxsiyyətin motivləşmiş fəaliyyətinin yüksək forması kimi onun idrak [dərketmə] fəallığı əsas götürülür. Bu halda bir idrak fəallığı motivləşmiş fəaliyyət kimi qiymətləndirilir. Aparıcı tədqiqatlarda (Maslou, Skinner, Festinger və b.) idrak fəallığı və motivləlşmiş fəaliyyətin psixoloji strukturlaşması, bir-birinə yaxın olması, bir sıra hallarda isə bir-birini tamamlaması aşkar edilmişdir. Həmin təhlillərdə eyni zamanda idrak fəallığının strukturunda keyfiyyətli qavramanın roluna da xüsusi diqqət yetirilir. Belə ki, qavrama özündən sonra gələn idrak proseslərinin də keyfiyyətinə təsir göstərir:

- qavramanın məhsulu hafizəyə və təfəkkürə obyektiv məlumat verir;
- motivasiyadan asılı olaraq qavramanın konkret məzmunu əhəmiyyətli dərəcədə fərqlərlə xarakterizə olunur, sınanılanlarda ideyaların kəmiyyət artımı və onların orijinallığı motivlərin yaradıcı prosesdə nəzarət etdiyini göstərir;
- fikri fəaliyyətin tərkibində olan hərəkət və əməliyyatlar onların inkişaf dinamikası, eləcə də onu nizamlayan motivlərin xarakteri ilə əlaqəli olur.

Kommunikasiya prosesində bu əlaqələri görmək daha asandır. Beləliklə, kommunikasiya zamanı idrak fəallığının mahiyyəti, məzmunu, kəmiyyət və keyfiyyəti onun motivindən asılı olur. Motivin yaranması və inkişafı da müvafiq qaydada kommunikativ fəallığa təsir göstərir.

A.Maslou şəxsiyyətin motivasiya sahəsinin ierarxik quruluşunda özünüaktuallaşdırmaya xüsusi yer ayırır. Özünüaktuallaşdırma, məlum olduğu kimi, şəxsiyyətin idrak fəallığı olmadan baş verə bilməz. “Bir çox insanlar, sadəcə olaraq, öz potensialını görə bilmirlər. Onun mövcudluğundan xəbərsiz olurlar. Özünüaktuallaşdırmanın əhəmiyyətini başa düşmürlər. Bunun əvəzində onlar öz qabiliyyətlərinə şübhə etməyə, hətta, qorxmağa meyil edirlər. Beləcə özünüaktuallaşdırma şansı da zəifləmiş olur” [4, s.494]. Bu hadisəni A.Maslou “iona kompleksi” adlandırırdı. Bu, özünükamilləşdirməyə mane olan qorxu ilə xarakterizə olunur.

A.Maslou insanın motivasiya sahəsini inkişafda görürdü. Bu inkişaf həyat təcrübəsində yaranaraq inkişafın obyektiv motivlərini, yaxud metatələbatlar həyat təcrübəsini zənginləşdirir, yeni əldə olunan vasitəsi ilə gərginlik daha da artır. Bu zaman görüş dairəsi dəyişir. O, özünü aktuallaşdıran insanlara görə bir sıra metatələbatlar, yaxud məişət dəyərlərini göstərmişdir. Real həyat situasiyalarında o, kifayət qədər konkret və spesifikdir. O, metatələbatlara aşağıdakıları daxil edir:

bütövlük, fəallıq, var-dövlət, sadəlik, gözəllik, xeyirxahlıq, qeyri-adilik, gərgin olmamaq, həqiqət, ləyaqət, reallıq, özünəəminlik [4, s.498].

Problemə həm də sosial psixologiya kontekstindən yanaşaraq sosial qrup olan tələbə qruplarının xüsusiyyətlərini öyrəndik. Bu məqsədlə Ş.R.Babayeva, M.F.Həsənova [1], V.Q.Krıskonun "Sosial psixologiya" əsərlərini öyrəndik [7]. Eyni zamanda R.V.Cabbarov tərəfindən aparılmış "Yeniyetmələrdə özünüdərketmə prosesinin psixoloji təhlili" [2], M.S.Əliyevin "Özünənənəzarət sahəsi" anlayışı və onun konseptual modeli" [3], E.V.Loginovanın "Şəxsiyyətin qeyri-verbal ünsiyyətinin optimallaşdırılmasının psixoloji vasitələri" [9] əsərlərini təhlil etdik. Ş.R.Babayeva, M.F.Həsənova bu mənada informasiyaların işlənməsində bütün kütlə üçün eyni məzmunlu proqramların deyil, hər bir sosial qrupun maraqlarına cavab verən proqram və informasiyaların hazırlanaraq yayılması üçün Ç.Kulinin yanaşmasının nəzəri baza rolu oynadığını qeyd edirlər. "Ç.Kuli öz konsepsiyasında insan şüurunun və şəxsiyyətinin sosial keyfiyyətlərini, sosial qruplar daxilində onun inkişafını təhlil edir. Ç.Kuli həmçinin qonşu qruplarda bu keyfiyyətlərin fərli cəhətlərinin olmasına da diqqət yetirmişdir. Həmin ideyanı təhsil prosesinə də gətirmək olar. Belə ki, təhsil subyektlərinin fərdiliyi, fərqli düşüncə tərzi, dünyagörüşü, təfəkkür imkanları onlara fərqli vasitələrlə yanaşılmasını tələb edir. Pedaqogikada bu – fərdi yanaşma, psixologiyada – fərdi psixoloji xüsusiyyətlərin nəzərə alınması kimi başa düşülür" [1, s.167].

N.F.Talızinanın qənaəti odur ki, "öyrənmə nəzəriyyəsində hərəkətin obrazı və fəaliyyət mühitinin obrazı vahid bir quruluşda birləşdirilir. Onun əsasında hərəkətin idarə edilməsinin əsasında duran bələdləyici fəaliyyət baş verir [Halperin, 1976]. Hərəkətin bələdləyici əsasını onun müvəffəqiyyətlə başa çatdırılması üçün vacib olan obyektiv zəruri şərtlər sistemindən ayırmaq lazımdır. Bu şərtlər sistemi bir-birinə bağlıdır:

a) hərəkətin hədəfi və obyekti;

b) hərəkətə daxil edilən əməliyyatların xarakteri və qaydası ilə;

c) istifadə olunan alətlərin xüsusiyyətləri ilə və s. (Halperin, 1965).

Bu şərtlər öyrənənin bunlardan xəbərdar olub-olmamasından asılı olmayaraq hərəkətin uğuruna təsir göstərir. Beləliklə, məsələn, şahmat oynarkən bir hərəkətin müvəffəqiyyəti fiqurların qarşılıqlı əlaqəsi və lövhədəki sahələrin nəzarətinin bu hərəkətlə nə qədər təmin olunduğu ilə müəyyən edilir" [11, s.167].

V.A.Sitarov da səmərəli və harmonik təhsilin əsasını təhsilalanların dərketməsində axtarır. Hesab edir ki, tarix boyu təhsil prosesində yeni təlim metodları, texnologiya axtarışları da buna söykənir: psixikanı inkişaf etdirməyə, dərketmə prosesini sosiomədəni istiqamətə yönəltməyə. "Əgər təlimi mədəniyyətə və cəmiyyətə müxtəlif istiqamətdə müraciət edən daimi proses kimi təsəvvür etsək, həmin müraciətin bələdçisi – dərketmə prosesləri sahəsinin çıxış etdiyini görə bilərik. Məhz bu sahə vasitəsi ilə şəxsiyyətə didaktik təsir baş verir. Məhz burada

məkandaxili dəyişmələr gedir. Şəxsiyyət səviyyəsində bilik, bacarıq, vərdiş kimi mənaca məzmunlu psixoloji yenidənqurulma gedir" [10, s.129].

V.A.Sitarov qavramanın mexanizminin fiqur və fon qanununa əsaslandığını əsas gətirərək, frontal sorğuda müəllimin bir sıra iştirakçıları cavab verməyə çağırdığını qeyd edir. "Hər dəfə müəllimin və iştirakçıların qavrayışında onlardan birinin verdiyi cavab daha çox iz qoyur. Cavabın məzmun və forması çağırılan iştirakçının davranışı qavrayışın predmetidir [fiqur]. Yerdə qalan iştirakçıların fəaliyyəti [onların reaksiyaları, əllərini qaldırması və s.] qavrayışın fonu kimi çıxış edir. Qrupun qavrayışının mərkəzində həmin iştirakçının biliyi, bacarığı və onları çatdırma tərzi durur" [10, s.142].

Hər bir fəaliyyət subyektivdir. Bununla belə o, həmişə mürəkkəb sosial-koqnitiv məsələlərlə: etalon, norma və ideyalarla nizamlanır. Burada emosiya və qavrayışın qarşıdurması yaranır. Bir tərəfdən yalnız insanın intellektual motivasiya enerjisi ilə elm, təbiət, onun hələ açılmamış qatlarından biri haqqında məlum olmayan informasiya əldə edir.

Qavramanın tamlığı özü-özünə yaranmır. O, insan şəxsiyyətinin formalaşması prosesinin təzahürüdür. Bu mənada T.V.Konopleva informasiyaların qavranılmasında insanın cəmiyyətdə vəziyyətinin fərqli olduğunu əsaslandırır. Burada söhbət ictimai-siyasi məzmunlu informasiyaların qavranılmasından gedirsə, vəziyyət bir qədər fərqlidir. Səbəblərini o, belə izah edir: "Cəmiyyətdə insanlar tərəfindən məlumatın qavranılması prosesinə təsir edən paradiqmalar və miflər də mövcuddur. Məlumat əldə etdikdən sonra insan onu dərk edir, cəmiyyətdə mövcud olan paradiqma və sosial miflərlə birbaşa əlaqəli olan inanclarla, prinsiplərlə müqayisəsini aparır. Beləliklə, sosial paradiqmaların mövcudluğunu tanıyan, məlumatı cəmiyyətdəki mövcud paradiqmalara uyğun şəkildə təqdim edən kommunikator bu məlumatla qavrayışa təsir göstərə bilir" [6, s.11].

Nəticə budur ki, tələbə auditoriyalarında qurulan münasibətlər sistemində onların biliklərə, ümumiyyətlə, elmə münasibəti şəxsiyyətin quruluşundakı bir sıra sahələrlə, ən mühümü isə fəaliyyətin motivasiyası ilə tənzimlənir. Tələbə aldığı informasiyaya yalnız onların obyektiv mahiyyəti baxımından deyil, özünün həyat ideallarına və dəyərlərinə uyğunluğu baxımından da yanaşır. Əgər əldə etdiyi yeni informasiya onun üçün əhəmiyyətlidirsə, o halda aldığı informasiya ilə bağlı aşağıdakı şərtlərlə fəaliyyət göstərir:

a) yerinə yetirdiyi hərəkətin ümumiləşmiş obrazının olması;
b) özünün əşyavi-sosial normalarına uyğunluğu;
c) tələbənin dünyaya subyektiv münasibəti;
d) həmin situasiya və gələcək həyatı üçün əhəmiyyəti.

Bunlar tələbələrin dünyaya real münasibətinin şüurdakı məzmununu əks etdirir. Şüurda əsas vahidliyin mahiyyətinin aydınlaşdırılması həyata yönəlişliyin məzmununu başa düşməyə kömək edir. Yönəlişlik şüurun vahidliyi ilə qarşılıqlı

münasibətlərini başa düşmədən informasiya üzərində işləmək üçün öz fəaliyyətini nizamlamaq, bu prosesdə yerinə yetirilən hərəkətlərin stimullarını və kəşf edilən faktların mahiyyətini aydınlaşdırmaq mümkün deyil. Digər tərəfdən bu məsələləri öyrənmək qavramanın motivasiyasını aydınlaşdırmaq üçün də vacibdir. Bütün bu məsələlər informasiyanın qavranılması sahəsində aparılan tədqiqatların başlıca mövzusudur.

**ƏDƏBİYYAT**

1. *Babayeva Ş.R.* Sosial psixologiya. Bakı: ADPU, 2019, 338 s.
2. *Cabbarov R.V.* Yeniyetmələrdə özünüdərketmə prosesinin psixoloji təhlili: Psixol. elm. nam. ... dis. Bakı, 2004, 146 s.
3. *Əliyev M.S.* "Özünənənəzarət sahəsi" anlayışı və onun konseptual modeli. Bakı: ADPU, 2017, 148 s.
4. Гуманистическое направление в теории личности: Абрахам Маслоу // Теории личности. СПб.: Питер, 1997, с.497-527
5. *Келли Дж.* Когнитивное направление в теории личности // Теории личности. СПб.: Питер, 1997, с. 431-478
6. *Коноплева Т.В.* Психология восприятия информации: восприятие новостей о мире политики в медиа-пространстве // Психолог, 2013, № 5, с.11-23
7. *Крысько В.Г.* Социальная психология. М.: Омега-Л, 2006, 352 с.
8. *Левин К.* Теория поле в социальных науках. СПб: Сенсор, 2000, 368 s.
9. *Логинова Е.В.* Психологические средства оптимизации невербального общения личности: Дис. ... канд. психол. наук. М.: 2003, 156 с.
10. *Ситаров В.А.* Дидактика. М.: Академия, 2002, 368 с.
11. *Талызина Н.Ф.* Управление процессом усвоения знаний. М.: Изд-во МГУ, 1975, 344 с.
12. Теория оперантного подкрепления Скиннера // Теории личности. М.: Апрел Пресс, 2000, с.509- 547
13. *Фестингер Л.* Введение в теорию диссонанса. СПб.: Ювента, 1999, 318 с.
14. http://www.oprb.ru/Translating.// Манько Н.Н. Когнитивная визуализация дидактических объектов в активизации учебной деятельности
15. https://gigabaza.ru// Н.Л.Сомова. Основные психологические закономерности восприятия информации, цвета и шрифтов

Redaksiyaya daxil olub 14.03.2022

*UOT 376*

***Ли Исюань***
*Азербайджанский государственный педагогический университет*
*2689460251@qq.com*

# ДИАГНОСТИЧЕСКИЕ МЕТОДЫ ОБСЛЕДОВАНИЯ АРТИКУЛЯТОРНОЙ МУСКУЛАТУРЫ У ДЕТЕЙ С ДЕТСКИМ ЦЕРЕБРАЛЬНЫМ ПАРАЛИЧОМ

***Ключевые слова:*** *детский церебральный паралич, пренаталь, речевая деятельность, методы диагностики*

Детский церебральный паралич – полиэтиологическое заболевание центральной нервной системы, возникающее в результате поражений или аномалий развития головного мозга, возникающих в пренатальном, натальном и раннем постнатальном периоде. В соответствии с принципом педагогической классификации речевых нарушений, выделено такое состояние речевой патологии, как общее недоразвитие речи (ОНР), при котором у детей в той или иной степени нарушено нормативное усвоение всех основных компонентов языковой системы.

***Li Yixuan***

# SEREBRAL İFLİCLİ UŞAQLARDA ARTİKULYATOR ƏZƏLƏLƏRİN MÜAYİNƏSİNİN DİAQNOSTİK METODLARI

***Açar sözlər:*** *serebral iflic, prenatal, nitq fəaliyyəti, diaqnostik üsullar*

Serebral iflic prenatal, doğuş və erkən postnatal dövrdə baş verən beyin inkişafının zədələnməsi və ya anomaliyaları nəticəsində baş verən mərkəzi sinir sisteminin polietioloji xəstəliyidir. Nitq pozuntularının pedaqoji təsnifatı prinsipinə uyğun olaraq, dil sisteminin bütün əsas komponentlərinin bu və ya digər dərəcədə normativ mənimsənilməsi pozulmuş uşaqlarda nitq patologiyasının ümumi nitq inkişafsızlığı (ÜNİ) kimi vəziyyət seçilmişdir.

***Li Yixuan***

**DIAGNOSTIC METHODS OF EXAMINATION OF ARTICULATORY MUSCLES IN CHILDREN WITH CEREBRAL PALSY**

***Keywords:*** *cerebral palsy, prenatal, speech activity, diagnostic methods*

Cerebral palsy is a polyetiological disease of the central nervous system that occurs as a result of lesions or anomalies in the development of the brain that occur in the prenatal, natal and early postnatal period. In accordance with the principle of pedagogical classification of speech disorders, such a state of speech pathology as general underdevelopment of speech (OHP) is singled out, in which the normative assimilation of all the main components of the language system is violated in children to one degree or another.

Детский церебральный паралич — полиэтиологическое заболевание центральной нервной системы, возникающее в результате поражений или аномалий развития головного мозга, возникающих в пренатальном, натальном и раннем постнатальном периоде. В соответствии с принципом педагогической классификации речевых нарушений, выделено такое состояние речевой патологии, как общее недоразвитие речи (ОНР), при котором у детей в той или иной степени нарушено нормативное усвоение всех основных компонентов языковой системы.

Всестороннее обследование детей с церебральным параличом, строится на общем системном подходе, который опирается на представление о речи как о сложной функциональной системе, при котором структурные компоненты речевой деятельности во взаимодействии. Комплексное всестороннее обследование особенностей развития речевых и психических функций, двигательной сферы, деятельности различных анализаторных систем позволяет выявить объективные данные недостатков речевого развития и наметить оптимальные пути их коррекции [3, с.58]. Комплексный подход в обследовании является важным условием диагностики.

В процессе комплексного обследования детей с детским церебральным параличом используются следующие методы:

- изучение медицинских и биографических сведений;

- наблюдение за ребенком (как в обычных, так и в необычных условиях);

- беседа с родителями и детьми;

- зрительный и тактильный контроль (ощущение суставных мышц в покое и при общении);

- использование компьютерных игр для обследования произношения, дыхания и речевой функции.

Обследование артикуляторной мускулатуры у детей с детским церебральном параличом начинается с проверки строения органов речевого аппарата: -губ; - языка; -зубов; -твердого и мягкого нёба; -челюстей. При этом мы определяем, насколько их строение соответствует норме [1, с.49].

При обследовании мышечного тонуса и подвижности артикуляционных мышц нарушаются:

- мускулатура лица: наличие асимметрии, сглаженность носогубных складок, опущение одного из углов рта, наклон рта в одну сторону при улыбке и плаче, гипоемия, спазмы, гипотония или дистония, гиперкинезы лица;

- губная мускулатура: недостаточное смыкание губ, проблемы с удержанием рта закрытым, опущение нижней губы, препятствующее крепкому захвату соска и позволяющее молоку выливаться изо рта; нарушение мышечного тонуса, резкое или незначительное ограничение движения губ;

- язычная мускулатура: нарушение мышечного тонуса; патология строения и положения языка, гиперкинезы, тремор и фибриллярные подергивания языка; ограничение мышц языка (от полной невозможности до уменьшения объема артикуляционных движений);

- мускулатура твердого нёба: небо высокое, готическое, тонкое, уплощенное с трещиной посередине.

- мускулатура мягкого нёба: провисание небной занавески (связанное с гипотонией); смещение язычка от средней линии.

Необходимо оценить состояние мышечного тонуса суставных органов в покое и при произношении. Состояние мышечного тонуса мимической губной и языковой мускулатуры оценивают при осмотре. У детей с церебральным параличом нарушения артикуляторной мускулатуры характеризуется спастичностью, гипотонией или дистонией [6, с.3].

Так же, обследуются непроизвольные движения артикуляторного аппарата во время еды (сосание, взятие пищи с ложки, питье из чашки, откусывание, жевание, глотание) [4, с.2]. Для уточнения состояния произвольной артикуляционной моторики, предлагается несколько имитационных занятий для проверки подвижности органов артикуляции. При обследовании состояния подвижности речевых мышц учитывают способность к достижению артикуляционных поз, а также их удержание и переключение. При этом отмечают точность, пропорциональность и утомляемость артикуляционных движений, а также их первичные признаки (объем, амплитуду, темп, плавность, скорость переключения). Объем артикуляционных движений языка очень подробно оценивается логопедом (строго ограниченный, неполный, полный); отмечается даже незначительное уменьшение амплитуды артикуляционных движений языка. Пассивное извлечение языка из полости рта невозможно у некоторых детей с выраженными двигательными нарушениями речи. Исследуются возможности преднамеренного высовывания языка, облизывания губ, удерживания их широкими, сплющенными, а затем суженными, а также поднятия вверх, щелчков и других действий. Проверяют глоточный рефлекс (повышение или снижение) для определения степени и предела. Логопед исследует особенности движений губ (бездеятельность или адекватная подвижность) и нижней челюсти (открывание и закрывание рта, способность держать рот закрытым).

Оценка понимания речи является неотъемлемой частью педагогического обследования. Логопед указывает степень понимания обращенной речи (различение интонации, ситуативное понимание, понимание речи на бытовом уровне, в полном объеме) [5, с.2]. Реальные предметы и игрушки, а также иллюстрации к предметам и сюжетным линиям используются для проверки пассивного словарного запаса. При этом решается понимание ребенком слова, действия, значения простого и сложного сюжета, лексических и грамматических конструкций, последовательности событий.

Степень речевого развития ребенка можно определить, глядя на его собственную (экспрессивную) речь. Существенными соображениями являются возрастной лексический и грамматический компоненты речи, усвоение различных частей речи, качества слоговой структуры слов. Дети без речи обладают способностью общаться с помощью невербальных

средств, таких как выразительная мимика, жесты и интонация.

Степень нарушения разборчивости выявляют при исследовании произносительной стороны речи (речь невнятная, непонятная окружающим; разборчивость речи несколько снижена, речь нечеткая, смазанная). Отмечается также просодическая организация речевого потока, особенности респираторных заболеваний (поверхностные, быстрые, неритмичные), голосовых (недостаток силы и вариации тембра голоса), дыхательных расстройств (поверхностные, быстрые, неритмичные).

Тщательно исследуется фонетико-фонематический строй речи. При оценке звукопроизношения важно смотреть на способность ребенка произносить звуки по отдельности, по слогам, словосочетаниям, предложениям и, главное, в речевом потоке. Следует отметить недостатки звукопроизношения: искажения, замены и пропуски звуков. Нарушениям звукопроизношения противопоставляются свойства фонематического восприятия и звукоанализа. Очень важно наблюдать, умеет ли ребенок замечать ошибки произношения звуков в чужой и своей речи, а также как он различает на слух правильно произносимые звуки от неправильно произносимых.

И.И.Панченко предложил различать следующие виды звуковых нарушений речи:

Первый тип – фонетическое нарушение, при котором звуки искажаются, но сохраняются все дифференциально-фонематические признаки звуков;

Второй тип – фонетико-апраксическое нарушение, которое включает в себя как фонетические нарушения (звуковые искажения), так и артикуляционную апраксию (замещение и пропуски звуков).

Третий вид – фонетико-фонематические нарушения, сопровождающиеся артикуляционной апраксией (кроме звуковых искажений, возможны множественные замены, пропуски звуков, нарушения слоговой структуры слов, неправильное грамматическое употребление фонем в конце слова) [2, с.28].

В настоящее время разрабатываются методики ранней диагностики дизартрии, основанные на оценке неречевых нарушений. Значение анализа неречевых нарушений возрастает с возрастом ребенка и степенью его речевого развития. Наличие псевдобульбарного (спастически-паретического) состояния, самые ранние признаки которого

можно заметить у ребенка, является наиболее частым ранним проявлением дизартрии.

Почти у каждого ребенка с детским церебральным параличом в раннем возрасте развиваются неврологические признаки неврологической симптоматики в мускулатуре и моторике речевого аппарата. Лишь комплексное обследование состояния речевой деятельности и артикуляционной моторики позволяет правильно диагностировать речевую патологию.

**ЛИТЕРАТУРА**


1. *Белякова Л.И.* Логопедия. Дизартрия / Л.И.Белякова, Н.Н.Волоскова, М.: Просвещение: Владос, 2009, 287 с.
2. Детская неврология. Клинические рекомендации / Под. ред. В.И.Гузевой. М.: Специальное издательство медицинских книг, 2014, 304 с.
3. *Левченко И.Ю., Приходько О. Г.* Технологии обучения и воспитания детей с нарушениями опорно-двигательного аппарата: Учеб. пособие для студ. сред. пед. учеб. заведений. Москва: Академия, 2001, 192 с.
4. https://www.logopedplus.ru/articles/dizartriya/logopedicheskoe-obsledovanie-detey-s-dizartricheskimi-rasstroystvami/
5. https://topuch.ru/zadanie-obsledovanie-detej-s-dizartriej/index.html
6. https://www.defectologiya.pro/zhurnal/differenczialnaya_diagnostika_dislalii_i_narusheniya_zvukoproiznosheniya_pri_dizartricheskom_komponente_u_detej_doshkolnogo_vozrasta/


Redaksiyaya daxil olub 29.04.2022

*UOT 159.9*

***G.Ç.Muradova***
*Bakı Dövlət Universiteti*
*gunelm753@gmail.com*

# İDRAK PROSESLƏRİNİN İNKİŞAFININ İBTİDAİ SİNİF ŞAGİRDLƏRİNİN TƏLİM FƏALİYYƏTİNƏ TƏSİRİ

***Açar sözlər:*** *təlim, idrak, inkişaf, qavrama, şagird, aktivlik*

Məqalədə dövrün aktual problemərindən olan idrakın inkişafı və onun təlim prosesinə təsirindən bəhs edilib. İdrak proseslərinin hər biri ayrı-ayrılıqda araşdırılaraq inkişaf etmə mərhələlərinin ibtidai sinif şagirdlərinin dərsi mənimsəməsinə və idrakı aktivliyinə verdiyi təkanlar müəyyən edilib. Eyni zamanda burada idrak prosesləri və onların inkişafı, şagirdlərin inkişafı və yaş dövrlərinə görə formalaşması nəzər salınıb. İdrak proseslərindən ilk öncə diqqət araşdırılıb. Diqqətin hər yaş dövrünə görə inkişafı və onun digər idrak proseslərinin inkişafına təsiri nəzərdən keçirilib. Diqqətin növləri və xüsusiyyətləri öyrənilib. Daha sonra qavrayış və onun inkişafına təsir edən vasitələr, qavrayışın formalaşma mərhələləri öyrənilib. Qavrayışın inkişafı nəticəsində ibtidai sinif şagirdlərinin təlim fəaliyyətinə təsiri araşdırılıb. Hafizə təlim prosesində əsas mövqedə olmaqla, şagirdlərdə hafizənin inkişafı, yadda saxlama və yada salma da eyni dərəcədə əhəmiyyətlidir. Bu proses də araşdırılıb. İdrak proseslərinin daha mürəkkəb forması olan təfəkkür və təxəyyülün də inkişaf xüsusiyyətləri tədqiq olunaraq ibtidai sinif şagirdinin öyrənmə fəaliyyətinə necə təsir və təkan verməsindən danışılıb.

***Г.Ч.Мурадова***

# ВЛИЯНИЕ РАЗВИТИЯ ПОЗНАВАТЕЛЬНЫХ ПРОЦЕССОВ НА УЧЕБНУЮ ДЕЯТЕЛЬНОСТЬ УЧАЩИХСЯ НАЧАЛЬНЫХ КЛАССОВ

***Ключевые слова:*** *обучение, познание, развитие, восприятие, ученик, деятельность*

В статье рассматривается развитие познания, одна из актуальных проблем времени, и его влияние на процесс обучения. Каждый из познавательных процессов изучался отдельно, и были выявлены толчки этапов развития учебно-познавательной деятельности младших школьников. При этом здесь рассматриваются познавательные процессы и их развитие, развитие учащихся и их становление согласно возрастным периодам. Среди познавательных процессов в первую очередь исследовалось внимание. Рассмотрено развитие внимания по каждому возрастному периоду и его влияние на развитие других познавательных процессов. Изучаются виды и особенности внимания. Затем изучаются восприятие и средства, влияющие на его развитие, этапы формирования восприятия. В результате развития восприятия изучалось влияние младших школьников на учебную деятельность. Поскольку память

играет ключевую роль в процессе обучения, не менее важным является развитие памяти, запоминания и припоминания у учащихся. Этот процесс также был исследован. Также были изучены особенности развития мышления и воображения, которые являются более сложными формами познавательных процессов, и обсуждалось, как они влияют и стимулируют учебную деятельность младших школьников.

***G.Ch.Muradova***

**THE IMPACT OF THE DEVELOPMENT OF COGNITIVE PROCESSES ON THE LEARNING ACTIVITIES OF PRIMARY SCHOOL STUDENTS**

***Keywords:*** *learning, cognition, development, perception, student, activity*

The article deals with the development of cognition, one of the urgent problems of the time, and its influence on the learning process. Each of the cognitive processes was studied separately, and the shocks of the stages of development of the educational and cognitive activity of younger schoolchildren were identified. At the same time, cognitive processes and their development, the development of students and their formation according to age periods are considered here. Among the cognitive processes, attention was studied first of all. The development of attention for each age period and its influence on the development of other cognitive processes are considered. The types and features of attention are studied. Then perception and the means influencing its development, stages of formation of perception are studied. As a result of the development of perception, the influence of younger students on learning activities was studied. Since memory plays a key role in the learning process, the development of memory, memorization and recall in students is equally important. This process has also been investigated. The features of the development of thinking and imagination, which are more complex forms of cognitive processes, were also studied, and it was discussed how they influence and stimulate the learning activities of younger students.

İnsanı əhatə edən aləm haqqında biliklər, onun təbiəti və strukturu, inkişaf qanunauyğunluqları, həmçinin insanın özü və bəşər cəmiyyəti haqqında məlumatı idrak proseslərinin köməyi ilə alırıq və inkişaf edirik. İdrak insanın yeni bilik əldə etməsi prosesi, əvvəllər məlum olmayanın kəşfi deməkdir.

Bütün idrak proseslərinin bünövrəsini duyğular təşkil edir. Hissi idrak isə duyğulardan başlayır Bu cəhətdən idraka psixoloji aspektden yanaşdıqda onun aşağıdakı növlərini qeyd edə bilərik: duyğu, qavrayış, diqqət, hafizə, təfəkkür, təxəyyül, nitq. Ətraf aləmdə baş verər hadisələrin dərk olunması addım-addım bu proseslərdən keçir. Qəbul edilən hər bir informasiyanın hissi idrakdan keçərək qəbul edilməsi onun dərkini daha da aydınlaşdırır, biliyin inkişafına şərait yaradır. Hələ qədim dövrdə yunan filosofu Aristotelin “Metofizika” əsəri belə bir fikirlə başlayır: “Bütün insanlar fitri biliyə can atır”

[1, s.1]. Həqiqətən də insanın əsas xüsusiyyətlərindən biri də onun biliyə can atmasıdır. Lakin biliyə olan tələbat yalnız biliyin əldə edilməsi ilə deyil, onun həyata tətbiqi, şagirdin inkişafına təsiri ilə mənə qazanır.

Klassik psixologiyada idraki aktivliyə uzun müddət şəxsiyyətin koqnitiv potensialı və dinamik xarakteristikası kimi baxılırdı. Bu səbəbdəndir ki, idraki aktivliyin mövcudluğu pozulmalara gətirib çıxartdı. 1960-cı illərdə idraki aktivlik koqnitiv psixologiya kimi yanaşmalarda mövcud olmuş, emprik tədqiqatlardan kənarda qalmışdır. Bunun nəticəsində dilçilik və kibernetika, eləcə də tətbiqi psixologiya tədqiqatçılarının insan davranışını izah etmək üçün zehni emal modellərindən istifadə etmişdir. Koqnitiv psixologiya sahəsi daha çox fənlərarası bir yanaşma aparan və qeyri-insani subyektlərin və süni intellektin tədqiqlərini əhatə edən idrak elminin sahəsi ilə üst-üstə düşür.

D.A.Leontyev qeyd edir ki, “psixologiya insana individual olaraq baş verən proseslərə müxtəlif yanaşmalardan çıxış edən, daxili aləmi olan, öz davranış və hərəkətlərinə münasibət göstərən, özünü mərkəzi obyekt kimi görən şəxs kimi” [9] yanaşmırdı. Belə yanaşmanı “idraki bir proses və nəticə kimi” M.Palani, A.A.Puzurey, eyni zamanda V.E.Blorko isə refleksiv dəyər kimi götürmüşdür. İdrakı müasir subyektin sosial dəyişiklik zamanı inkişafı cəhətdən öyrənmək psixologiyanın əsas probleminə çevrildi.

İdrak prosesləri yuxarıda sadaladığımız proseslər olduğundan onların hər birinin inkişafı idraki aktivliyi tənzim və təmin edən proseslərdir. İdrak proseslərindən ilk öncə diqqəti nəzərdən keçirək. Diqqət insanın həyatında və fəaliyyətində əhəmiyyətli yer tutmaqla bir çox funksiyanı yerinə yetirir. O, zəruri olanları aktivləşdirir, daxil olan məlumatların faktiki ehtiyaclara uyğun olaraq mütəşəkkil və məqsədyönlü seçilməsinə kömək edir, əqli fəaliyyətin eyni obyektdə və ya fəaliyyət növündə seçici və uzunmüddətli konsentrasiyasını təmin edir. Diqqətin müstəqil proses olması ideyasının tərəfdarları qeyd edirlər ki, insan beynində xüsusi olaraq diqqətlə əlaqəli anatomik və fizioloji cəhətdən digər idrak proseslərinin fəaliyyətini təmin edənlərə nisbətən avtonom olan xüsusi növ strukturları tapmaq və ayırmaq mümkündür. Həqiqətən, diqqət bütün psixi proseslərə daxildir və onu "saf" formada təcrid etmək, öyrənmək mümkün deyil. Deyə bilərik ki, qavrayışın dəqiqliyini və təfərrüatını, yaddaşın gücünü və seçiciliyini, zehni fəaliyyətin istiqamətini və məhsuldarlığını – bütün idrak fəaliyyətinin keyfiyyətini və nəticələrini müəyyən edir. İxtiyari tip diqqətin ən yüksək növlərinə aid edilir. Qavrama prosesləri üçün diqqət xırda detallar arasında fərq qoymağa imkan verən bir növ gücləndiricidir. Hafizə üçün diqqət lazımi məlumatın qısamüddətli və operativ yaddaşda saxlanmasına töhfə verən amil, yaddaqalan materialın uzunmüddətli yaddaşa köçürülməsi üçün ilkin şərt kimi çıxış edir. Təfəkkür üçün problemin düzgün başa düşülməsində və həllində əvəzsiz amil kimi çıxış edir. İnsanlararası münasibətlər sistemində diqqət insanların daha yaxşı başa düşülməsinə, bir-

birinə uyğunlaşmasına, şəxsiyyətlərarası münaqişələrin qarşısının alınmasına və vaxtında həllinə kömək edir. Diqqətli insan daha yaxşı və müvəffəqiyyətlə öyrənir, həyatda daha yüksək nəticələr əldə edir. L.S.Vıqotskinin psixi funksiyaların formalaşmasının mədəni-tarixi konsepsiyasına görə, məktəb çağında xarici vasitəli diqqətdən daxili vasitəli diqqətə keçir [2, s.100]. Bu nəzəriyyə məktəbdə tədris metodlarına böyük təsir göstərmişdir. Bu konsepsiyanın mahiyyəti ondan ibarətdir ki, uşaqların dünya haqqında anlayışı daha çox ətrafdakı insanlarla əməkdaşlıq yolu ilə formalaşır. Təlim prosesində uşaqların yeni biliklərlə silahlanması onları əhatə edən çevrə, yəni müəllimlər, uşaqların şəxsiyyətlərarası sferasına daxil olur. Bu da şəxsiyyətin inkişafına səbəb olur.

Kiçik məktəblilərin diqqəti aşağı sabitlik ilə xarakterizə olunur. Bu yaş qrupu ilə işləyərkən müəllimlər diqqətin qeyri-iradi növünün üstünlük təşkil etdiyini və ətrafdakı hadisələrin vizual-məcazi qavrayışını nəzərə almalıdırlar. Bu fakt tədris materialının seçilməsində həlledici olmalıdır. Eyni zamanda şagirdlərdə vizual diqqətin inkişafı üçün verilən materiallar spesifik obrazlılığı ilə seçilməlidir ki, şagirdlərin vizual obrazlı qarvayışı inkişaf etsin. Bilirik ki, diqqətin bir sıra xüsusiyyətləri mövcuddur. Bunlar hamısı bir-biri ilə qarşılıqlı şəkildə inkişaf edir və digər proseslərin də inkişafına səbəb olur.

Qavrayışın da inkişafı şagirdlərin idraki aktivliyinə təkan verən əsas şərtlərdəndir. Bilirik ki, qavrayış hissi idrakın mühüm mərhələsidir və indiki anda hiss üzvlərimizə təsir edən cisim və hadisələrin əyani subyektiv surətidir. Nə üçün subyektiv, çünki hər birimiz öz inikasımıza uyğun şəkildə dərk etmə aktını yerinə yetirik. Qavrayış bir neçə analizatorun iştirakı nəticəsində yaranır və bir çox xüsusiyyətləri özündə birləşdirir. Hər yaş dövrünün özünəməxsus qavrama potensialı mövcuddur. L.S.Vıqotski qavrayışı – fəaliyyət adlandırmışdır [3, s.113]. D.B.Elkonin müəyyən etmişdir ki, “ibtidai məktəbdə tədris prosesində” qavrayış təfəkkürə çevrilir [5, s.113], daha çox təhlil edir, daha çox fərqləndirir, mütəşəkkil müşahidə xarakteri alır, əşya və hadisələrin qavranılmasında sözlərin rolunu dəyişir. Qavrama prosesi dörd əməliyyatın mərhələli şəkildə inkişafı nəticəsində formalaşır.

1) aşkarlama – bir insanın yalnız bir təsirinin olub-olmadığını müəyyən edə biləcəyi ilkin mərhələ;

2) fərqləndirmə – bir obyektdə bir insana maraq göstərən xüsusiyyətlərin ayrılması;

3) eyniləşdirmə – obyektin insana məlum olan nümunələrindən biri ilə müqayisəsi;

4) tanış obyektlərin identifikasiyası.

Kiçik yaşlı məktəblilərdə bu dövrə xas qavrayış hələ reproduktiv xüsusiyyətə malik olub daha az məqsədə yönəlmiş olur, onlar obyektləri tanıyır, fərqləndirir. Qavrayışın mürəkkəb növləri inkişaf etməyə başlasa da, oxşar

obyektlər qeyri-dəqiq qavranılır. Lakin birinci sinif şagirdləri hələ də obyektlərin özlərinin qavranılan xassələrinin və keyfiyyətlərinin sistematik təhlilindən məhrumdurlar. Şəklə baxarkən, mətni oxuyarkən çox vaxt birindən digərinə tullanır, əsas detalları itirirlər. Təbiətdən bir obyektin çəkilməsi dərslərində bunu görmək asandır: rəsmlər nadir forma və rəng müxtəlifliyi ilə fərqlənir, bəzən orijinaldan əhəmiyyətli dərəcədə fərqlənir.

İbtidai məktəb şagirdlərinin qavrayışının aşağıdakı əsas xüsusiyyətlərini ayırd etmək olar:

1. İlk növbədə, obyektin özünün xüsusiyyətləri ilə müəyyən edilir, buna görə də uşaqlar ən vacibi vacib kimi deyil, digər obyektlərin fonunda aydın şəkildə seçilənləri (rəng, ölçü, forma və s.) dərk edirlər. Qavrama prosesi çox vaxt yalnız obyektin tanınması və sonradan adlandırılması ilə məhdudlaşır və birinci sinif şagirdləri çox vaxt diqqətli və uzunmüddətli yoxlama və müşahidə etmək qabiliyyətinə malik deyillər.

2. 1-2-ci siniflərdə qavrayış zəif diferensiallaşma ilə xarakterizə olunur: tez-tez uşaqlar oxşar və yaxın, lakin eyni olmayan obyektləri və onların xassələrini (6 və 9, E və 3, "güzgüləmə"), arasında isə ilkin hərfləri qarışdırırlar və cümlələrdə sözlər, sözlərdə hərf əvəzləri və sözlərin digər hərf təhrifləri olur. Çox vaxt sonuncu mətnin qulaq tərəfindən qeyri-səlis qavranılmasının nəticəsidir. Ancaq 3-cü sinifdə uşaqlar qavrayış "texnikasını" öyrənirlər: oxşar obyektləri müqayisə etmək, əsas, vacib olanı vurğulamaq. Qavrama məqsədyönlü, idarə olunan prosesə çevrilir, parçalanır.

3. Qavrayış hərəkətlərlə, əməli fəaliyyətlə sıx bağlıdır. Qavrayış digər zehni əməliyyatlar kimi uşağa vizual vəziyyətdən sərt asılılıq olmadan şeyləri mühakimə etməyə imkan verir, yəni bilavasitə müşahidə olunmayanlar haqqında nəticə çıxarır.

4. İbtidai məktəb çağında qavrayışın emosionallığı yüksək olur. Uşaqlar əsas kimi parlaq, qeyri-adi olanı vurğulayır, çox vaxt vacib olanların əvəzinə təsadüfi detalları (rəng, forma, ölçü kimi xüsusiyyətlər) vurğulayır. Kiçik məktəblilər illüstrasiyaları diaqram və simvollardan daha yaxşı qavrayırlar.

Rənglərin və formaların qavranılması daha dəqiq və fərqli olur. Uşaqlar tez-tez bir formanı tanımırlar, əgər o, qeyri-adi vəziyyətdədirsə (məsələn, küncü aşağı olan kvadrat). Bu, uşağın işarənin elementlərini deyil, ümumi görünüşünü qavraması ilə əlaqədardır, buna görə də bu yaşda hissələrə bölmək və qurmaq üçün tapşırıqlar (pentomino, həndəsi mozaika və s.) çox faydalıdır. Rəng qavrayışı getdikcə daha dəqiq kölgə fərqləndirmə və rəng qarışdırma yolunu izləyir.

Uşaqların çoxu, məsələn, bir dəqiqənin uzunluğunu şişirdirlər və böyük zaman dövrlərini (5, 10, 15 dəqiqə) qavradıqda, faktiki vaxt uzunluğunu şişirdirlər. Bu: 1) vaxt üçün bir refleksin olmaması və 2) uşağın vaxtının nə ilə dolduğu ilə bağlıdır.

Bu yaşda qavrayış və diqqətin inkişafında əsas məqam şagirdin qavrayışının qeyri-iradi formalarından məqsədyönlü könüllü müşahidəyə keçid hesab edilmədir. Uşağa obyekti nəzərə almağı, onun qavrayışına rəhbərlik etməyi öyrətmək lazımdır.

Çox vaxt qeyd olunur ki, birinci sinif şagirdlərinin gündəlik həyatda ən çox rastlaşdıqları mövzular haqqında belə aydın təsəvvürləri yoxdur. Məsələn, bir qazanı təsvir edərkən uşaqlar qapağı və tutacaqları göstərir. Aydındır ki, bu yaşda olan uşaqlar obyektin səthini nəyin xarakterizə etdiyinə, onun xarici xüsusiyyətlərinə (rəngi, parlaqlığı, hamarlığı, ləkələri, ölçüsü) daha asan və daha sürətli diqqət yetirirlər. Bundan əlavə bu yaşda olan uşaqlar, adətən, bir obyektdə onu təyinat, istifadə baxımından səciyyələndirən (topla oynayırlar, qazanda qaynarlar) fərqinə varırlar. Ancaq uşaqlar həmişə bu obyekti xarakterizə edən əlamətləri müəyyən etmirlər. Beləliklə, uşaqların çətinlikləri çox vaxt onların lüğətinin olmaması ilə əlaqələndirilir. Digər istiqamət isə müqayisə əməliyyatının öyrədilməsidir. Demək olar ki, birinci sinif şagirdləri obyektləri müqayisə edə bilirlər, lakin eyni zamanda oxşarlıqdan daha asan fərqi görürlər və əlavə olaraq, ilk növbədə, obyektlərin vizual əlamətlərini vurğulayırlar. Bu zaman uşaqlar yalnız ümumi hissələri qeyd edirlər.

Beləliklə, oxşarlıqları aşkar etmək bacarığını öyrətməklə eyni zamanda müqayisə etmək bacarığını öyrətmək olar. Bu qabiliyyət oxşar və fərqli cəhətlərin müqayisəsi yolu ilə inkişaf etdirilməlidir.

Təfəkkür öz növbəsində ən mürəkkəb idrak prosesidir. O, yeni bilik və bacarıqların formalaşmasını, insan tərəfindən reallığın yaradıcı əks olunmasının və çevrilməsinin aktiv formasını təmsil edir. Təfəkkür inkişaf edərək insana hər gün qarşılaşmalı olduğu hadisələrin mahiyyətinə nüfuz etməyə imkan verir və bu inkişaf müəyyən bir hadisənin və ya obyektin digər hadisələr və ya cisimlərlə olan qarşılıqlı təsirlərinin əks olunması yolu ilə həyata keçirilir. Beləliklə, təfəkkür prosesində konkret obraz arxa plana keçir və qavrayışdan fərqli olaraq o, hissiyyatdan kənara çıxır, biliyi genişləndirir, bizi əhatə edən dünyanı təkcə ayrı-ayrı əşyalar, hadisələr və onların xassələri şəklində deyil, həm də onlar arasında mövcud olan əlaqələri də müəyyən edir. İbtidai sinif şagirdlərində təfəkkürün inkişafında dönüş nöqtəsi müşahidə olunur: vizual-məcazidən şifahi-məntiqi, konseptual düşüncəyə keçid baş verir. Bu, uşağın zehni fəaliyyətinə ikitərəfli xarakter verir ki, bu da bir tərəfdən reallıqla bağlı konkret təfəkkür, birbaşa müşahidə ilə bağlıdır, artıq məntiqi prinsiplərə tabe olur, lakin digər tərəfdən uşaqlara mücərrəd məntiqi mülahizə hələ mövcud deyildir. Bu yaşda uşaqların fəaliyyətində konkret problemlərin həlli təfəkkürün inkişafına təsir edir, uşaqlar ümumiləşdirməni praktikyönümlü istiqamətdə aparırlar. Gördükləri və istifadə etdikləri əşya və materiallara uyğun şəkildə həll yolu tapırlar. Şagirdlər yeni bilik və bacarıqlar əldə etdikcə anlayışları sistemləşdirir, konkret praktik fəaliyyətə yönəlirlər. Təlim prosesində

şagirdlərin həyati bacarıqları da genişlənir. Yeni düşüncə səviyyəsinin inkişafı sayəsində bütün digər psixi proseslərin yenidən qurulması baş verir, yəni D.B.Elkoninin fikri ilə desək, "Hafizə anlamaya, qavrayış isə düşüncəyə çevrilir". Buna görə də ibtidai məktəb yaşında əqli inkişafın əsas məzmununu nəzəri təfəkkürün inkişafı ilə əlaqədar olaraq bütün idrak sferasının yenidən qurulması təşkil edir [5, s.203].

Şagirdlərin idraki aktivliyinin inkişafına təkan verən bir digər idrak prosesi hafizədir. Hafizə insan yaddaşında real dünyanın dərk olunması öz təcrübəsini fiksasiya edərək saxlamaq, sonra təkrar istehsal etmək formasıdır [4, s.243]. Bu haqda L.S.Vıqostski, P.P.Blonski, A.M.Veyn, A.A.Smirnov, B.F.Serqeyev və başqaları tədqiqat işləri aparmışlar. Bilirik ki, hafizənin müxtəlif növləri və xüsusiyyətləri mövcuddur və ibtidai sinifdə təlimin mərhələlərində onların müxtəlif növləri inkişaf edir. Şagird tez və asan şəkildə özünə maraqlı olan materialı mənimsəyir. Öyrəndikləri hər hansı şeir, nağıl, hekayədən hansı onda dolğun təəssürat oyadıbsa, yaddaşında daha rahat qalır, digərləri isə unudulur. Bu prosesə digər idrak prosesləri də daxil edilərsə, onda məhsuldarlıq daha da artır. P.İ.Zinçenkonun və A.A.Smirnovanin təqdiqatları göstərir ki, şagirdlər aktiv intellektual fəaliyyətdə baş verən prosesi qeyri-ixtiyari və uzun müddət yadda saxlayırlar, nəinki mnemik şəkildə və ixtiyari yaddaşda saxladıqları tapşırıqları. Onda görə də zehni aktiv fəallıq yadda saxlama üçün şərtdir. İbtidai sinif şagirdlərində ixtiyari yadda saxlama zəifdir. Təlim fəaliyyəti şagirddən iradi səy tələb edir ki, verilən material ona maraqlı oldu, ya olmadı, onu yadda saxlasın. Bütün proseslər kimi, yaddaş prosesləri də uşağın ümumi inkişafı ilə əlaqədar olaraq dəyişir. Bu dəyişikliklərə, ilk növbədə, yadda saxlama sürətinin artması və yaddaşın həcminin artması daxildir. Eyni materialı yadda saxlamaq lazım üçün kiçik yaşlı uşaqlara nisbətən daha çox vaxt və daha çox təkrar gərəkdir. Ən əhəmiyyətli dəyişikliklər uşaq inkişaf etdikcə onun yaddaşının keyfiyyət xüsusiyyətlərində baş verir [6, s.68]. Qeyri-ixtiyari əzbərləmə kiçik yaşlı uşaqların təlim fəaliyyətində böyük rol oynayır. 3-4-cü siniflərdə qeyri-ixtiyarı yadda saxlama daha məhsuldar olur. İxtiyari yadda saxlamanın məhsuldarlığı verilən materialın həcminin artmasında müşahidə olunur, uşaq məzmunu daha əhatəli və geniş şəkildə izah edir. Nəticədə qeyri-ixtiyari yaddaş mənalı hal almağa başlayır. Yadda saxlama bilirik ki, məntiqi (düşünərək) və əzbər (mexaniki) yadda saxlama olmaqla iki yerə bölünür. Birinci anlayışın əsasında anlama, dərk etmə ikinci anlayışın əsasında isə təkrarlama dayanır. Birinci halda əlaqələrin ümumiləşdirilməsi, sistemləşdirmə, tərəflərarası əlaqələr müəyyən olunursa, ikinci halda yalnız əlaqəsiz tərəflər birləşdirilir. Mexaniki şəkildə öyrənmək həm böyüklərdən, həm də kiçiklərdən böyük səy istəyir. Çünki onun yadda saxlanması və sonra da xatırlanması çətin olur. Təlim prosesində motiv nə qədər güclü və çalarlı olursa, anlayaraq öyrənmə daha güclü olur. Psixoloqlar

bildirirlər ki, uşağın hafizəsi maraqdan asılıdır. Maraq nə qədər güclü olarsa, öyrənmə həvəsi və yadda saxlama da bir o qədər güclü olar. Bu hallarda məlumdur ki, uşaqlar bəzən aydın olmayanı daha tez yadda saxlayırlar, tədris materialı hərfiyyən yadda qalır. A.A.Smirnov bunu uşaqların ona olan xüsusi münasibəti ilə izah edir. Hafizənin yadda saxlanmasını tiplərinə görə fərqləndirmək mümkündür. Buna görə də yaddaş zəifdir və ya güclüdür kimi fərqləndirmələr apara bilmərik, həm bu xüsusiyyətlərə əsasən, həm də insanın özünün fərdi xüsusiyyətlərini nəzərə alaraq hafizə haqqında fikir söyləyə bilərik. Bir çox insanlarda obrazlı və sözlü məntiqi hafizə üstünlük təşkil edir. Obrazlı yaddaşa vizual, eşitmə, motor, emosional yaddaş daxil olmaqla, bir çoxumuzda bu tiplər qarışıq şəkildə fəaliyyət göstərir: vizual-hərəkət, görmə-eşitmə, eşitmə-hərəkət. Fəaliyyətimizdə də bu tiplərdən istifadə edirik. Hafizənin kiçik yaşlardan inkişaf etdiyini nəzərə alsaq, bu tiplər ibtidai sinif şagirdlərində də özünü göstərir və təlim fəaliyyətinə aktiv şəkildə təsir edir. Eyni zamanda saxlanılan materialın uzunmüddətli və qısamüddətli yadda qalması da şagirdlərin idraki aktivliyinə təsir edir. Şagirdlər əyani materialı mücərrəd anlayışlardan daha yaxşı yadda saxlayırlar. Çünki gözlə görünən və hərəkət edən material daha tez diqqət çəkir və yaddaşda qalır. Əgər şifahi materialın dərk olunmağından danışırıqsa, onda yenə də deyə bilərik ki, abstrakt ifadələrdənsə, əyani canlandıra bildikləri və mənasını dərk etdikləri sözləri daha yaxşı və uzun müddət yadda saxlayır. Sözlü məntiqi yaddaş isə şagirdlərin hərfiyyən yadda saxlama prosesini təmin edir ki, bunu mətnlər vasitəsi ilə yerinə yetirə bilərik. Sözlü-məntiqi yaddaşda şagirdlər yeni anlayışları mənimsəyir, lüğət ehtiyatları zənginləşir, artıq 3-cü sinifdə onların öz söz bazası formalaşır. Ancaq sırf bu yaddaşın üstündə dayanmaq və şagirdlərdə əzbərləmə qabiliyyətini inkişaf etdirmək tədricən şagirdlərin yaradıcı yaddaşlarının inkişafına mənfi təsir edir. Bu haqda A.N.Leontyev də qeyd etmişdir ki, birinci sinifdən başlayaraq bu xüsusiyyətləri nəzərə alaraq uşağa məntiqi məqamlara diqqət yetirməyi öyrətməyi əsas bilmişdir [7, s 64].

Müasir dövrdə təlim prosesində şagirdlərin idraki aktivliyinin inkişafı onların təxəyyülünün də inkişafından asılıdır. Yeni ictimai cəmiyyət təhsil və təlim prosesində təxəyyülün, xüsusilə yaradıcı təxəyyülün inkişafını əsas götürür. Təxəyyül fəaliyyətimizin yaradıcı şəkildə qurularaq inkişaf etməsinə kömək edən əsas psixi prosesdir. "Ümumi psixologiya" dərsliyində A.G.Maklakov təxəyyülün aşağıdakı tərifini verir: "Təxəyyül reallığı əks etdirən ideyaların çevrilməsi və bu əsasda yeni ideyaların yaradılması prosesidir [8, s.284]. "Ümumi psixologiya" dərsliyində V.M. Kozubovski aşağıdakı tərifi verir: "Təxəyyül insanın öz şüurunda real həyatda olmayan obyektin (obyektin, hadisənin) obrazını yaratmasının psixi prosesidir". Təsəvvür ola bilər:

- real obyektiv fəaliyyətin yekun nəticəsinin təsviri;
- tam məlumat qeyri-müəyyənliyi şəraitində öz davranışının təsviri;

- müəyyən bir şəxs üçün aktual olan, yaxın gələcəkdə real aradan qaldırılması mümkün olmayan problemləri həll edən bir vəziyyətin görüntüsü.

Təxəyyül prosesi nəticəsində biz passiv və aktiv, istər niyyətli, istərsə də niyyətsiz şəkildə nəyisə yaradırıq, fəaliyyətimizi planlaşdırırıq. Təxəyyül kiçik yaşlardan inkişaf edir və onun inkişafı uşağın müstəqil rahat şəkildə fikir yürütməsindən, böyüklərin ona müsbət münasibəti, diqqəti, uşağın özünün hər hansı işə həvəsi və yanaşmasından aslıdır. İbtidai məktəb dövrü təxəyyülün fəal şəkildə inkişaf etdiyi bir dövrdür, baxmayaraq ki, məktəbəqədər yaşlı bir uşağın inkişafında onun dominant rolu kiçik bir şagirddə təfəkkürə keçir. Lakin təxəyyülün də inkişafı hər uşaqda eyni dövrü və eyni səviyyəni əhatə etmir. Uşaqlarda təxəyyülün inkişafı onlarda nitqin inkişafı ilə əlaqədardır. Çünki nitq vasitəsi ilə uşaq həm konkret anlayışları ifadə edir, həm də mücərrəd fikirlər ifadə edə bilir. Ancaq yenə də bu dövrdə hələ passiv təxəyyül özünü göstərir. Sonrakı mərhələlərdə artıq aktiv təxəyyül də inkişaf etməyə başlayır, bu ilk növbədə şagirdlərin stimullaşmasında, onların böyüklərin fikrilərini anlamaq və reaksiya verməsində əks olunur. Tədris materialını başa düşmək ehtiyacı təxəyyülün yenidən qurulması prosesinin aktivləşdirilməsini müəyyənləşdirir. Məktəbdə verilən bilikləri mənimsəmək üçün uşaq təxəyyülündən fəal şəkildə istifadə edir ki, bu da qavrayış şəkillərini təxəyyül təsvirlərinə emal etmək qabiliyyətinin mütərəqqi inkişafına səbəb olur. Məktəb illərində təxəyyülün sürətli inkişafının başqa bir səbəbi öyrənmə prosesində uşağın real dünyanın obyektləri və hadisələri haqqında yeni və çox yönlü fikirləri aktiv şəkildə qəbul etməsidir. Bu təsvirlər şagirdin təxəyyülü üçün zəruri əsas rolunu oynayır və yaradıcılıq fəaliyyətini stimullaşdırır [10, s.154-156]. İbtidai məktəb yaşının xarakterik xüsusiyyəti emosional təəssürat, parlaq, qeyri-adi, rəngli hər şeyə həssaslıqdır. Monoton, darıxdırıcı dərslər bu yaşda koqnitiv marağı kəskin şəkildə azaldır və öyrənməyə mənfi münasibət yaradır. Məktəbə getmək uşağın həyatında böyük dəyişiklik yaradır. Yeni dövr yeni vəzifələrlə, sistemli tədris fəaliyyəti ilə başlayır. İnsan inkişaf etmiş təxəyyüllə doğulmur. Təxəyyülün inkişafı insanın ontogenezi zamanı həyata keçirilir və gələcəkdə təxəyyül təsvirlərini yaratmaq üçün material kimi xidmət edə biləcək müəyyən bir fikir fondunun yığılmasını tələb edir. Təxəyyül bütöv şəxsiyyətin inkişafı ilə sıx əlaqədə, təlim-tərbiyə prosesində, eləcə də təfəkkür, yaddaş, iradə və hisslərlə vəhdətdə inkişaf edir. Təxəyyülün inkişafı problemi hələ də çox mübahisəlidir. Təxəyyülün inkişafında iki növ əsas istiqamət var: “affektiv” və “koqnitiv” təxəyyül. Affektiv təxəyyülün təhlilinə Z.Freydin və onun davamçılarının əsərlərində rast gəlmək olar.

J.Piage "idrak" təxəyyülü təklif etdi. Onlarda təxəyyül uşağın simvolik funksiyasının inkişafı ilə əlaqələndirilir və reallıqdakı dəyişiklikləri qabaqcadan görməyə imkan verən təmsilçi düşüncənin xüsusi forması hesab olunurdu.

Psixi proseslərin inkişafının şagirdlərin idraki aktivliyinə təsirini yuxarıda göstərilən nəzəri tədqiqatlarda qeyd etdik və müəyyən olundu ki, hər bir psixi proses az və ya çox dərəcədə inkişaf etməklə fərdi xüsusiyyətlərdən asılı olaraq idraki aktivliyə və dərsdə şagirdlərin aktivliyinə təsir edir.

**ƏDƏBİYYAT**


1. Аристотель. Метафизика / Собрание сочинений: в 4 т. Т.1, Эксмо, 2006, 232 с.
2. *Выготский Л.С.* Психология искусства. Москва: Искусство, 1968, с. 345
3. Выготский Л.С. Собрание сочинений: в 6-и т. Т. 4, М.: Педагогика, 1982, 432 с.
4. *Выготский Л.С.* Память и ее развитие в детском возрасте / Собрание сочинений в 6-и т. Т. 2. М.: Просвещение, 1998, 503 с.
5. *Эльконин Д.Б.* Детская психология. Москва: Академия, 2008, 383 с.
6. *Ипполитов Ф.В.* Память школьника. М.: Просвещение, 1998, 68 с.
7. Леонтьев А.Н. Развитие памяти. М., 1998, 277 с.
8. *Маклаков А.Г.* Общая психология. М.: Знание, 2005, 592 с.
9. *Леонтьев Д.А.* Перспективы неклассической психодиагностики // Психологические исследования: электронный научный журнал, 2010, №4(12) /html.//www/psystudy.ru/ index.php/num/2010 4/353 leontyev12.html
10. Младший школьный возраст / http://texts.news/razvitiya-vozrastnaya-psihologiya/mladshiy-shkolnyiy-vozrast-24720.html


Redaksiyaya daxil olub 15.03.2022

***UOT 159.9***

***A.E.Salamova***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki filialı*
*salamovaaygul29@gmail.com*

# YENİYETMƏNİN EMOSİONAL İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

***Açar sözlər:*** *yeniyetməlik dövrü, duyğular, ehtiyac, mücərrəd düşüncə, emosional inkişaf, emosional reaksiya, emosional vəziyyət, davranış, həmyaşıd qrupu, valideyn, dəstək*

Məqalədə yeniyetməlik dövründə duyğulara, emosional reaksiyalara və emosional vəziyyətin dəyişməsinə səbəb olan hadisələrə və bu dövrdə müşahidə olunan mənfi və müsbət emosional vəziyyətlərlə bağlı məsələlərə toxunulub. Yeniyetmələrin emosional reaksiyalarına təsir edən əsas amillərin sağlamlıq vəziyyəti, intellekt səviyyəsi, cinsiyyət, məktəb müvəffəqiyyəti və sosial cəhətdən qəbul edilmə səviyyəsi olduğu göstərilib.

İnsanların duyğularını və emosional inkişafını dərk etmədən onları tərbiyə etmək, dünyasını yönləndirmək mümkün deyil. Ona görə də təhsilin uğurlu olması üçün emosiyaları yaxşı tanıyıb istiqamətləndirmək, mənfi emosiyaların öhdəsindən gəlməyi öyrətmək və fərdlərin emosional inkişaflarını tamamlaya bilməsi üçün xüsusilə uşaqlıqdan dəstəkləmək lazımdır.

***А.Е.Саламова***

# ОСОБЕННОСТИ ЭМОЦИОНАЛЬНОГО РАЗВИТИЯ ПОДРОСТКА

***Ключевые слова:*** *подростковый возраст, эмоции, потребность, абстрактное мышление, эмоциональное развитие, эмоциональная реакция, эмоциональное состояние, поведение, группа сверстников, родитель, поддержка*

В статье рассматриваются события, вызывающие чувства, эмоциональные реакции и изменения эмоционального состояния в подростковом возрасте, а также вопросы, связанные с негативными и позитивными эмоциональными состояниями, наблюдаемыми в этот период. Основными факторами, влияющими на эмоциональные реакции подростков, являются состояние здоровья, уровень интеллекта, пол, успеваемость в школе и уровень социального признания.

Невозможно обучать и направлять людей без понимания их чувств и эмоционального развития. Поэтому для успешного обучения необходимо распознавать и направлять эмоции, учить справляться с отрицательными эмоциями и поддерживать их особенно с детства для полноценного эмоционального развития личности.

***A.E.Salamova***

## FEATURES OF EMOTIONAL DEVELOPMENT OF THE ADOLESCENT

**Keywords:** *adolescence, emotions, need, abstract thinking, emotional development, emotional reaction, emotional state, behavior, peer group, parent, support*

The article discusses the events that cause feelings, emotional reactions and changes in emotional state during adolescence, as well as issues related to the negative and positive emotional states observed during this period. The main factors influencing the emotional reactions of adolescents are health status, level of intelligence, gender, school success and level of social acceptance.

It is impossible to educate and guide people without understanding their feelings and emotional development. Therefore, for education to be successful, it is necessary to recognize and direct emotions well, to teach to cope with negative emotions, and to support individuals, especially from childhood, in order to complete their emotional development.

Çox mürəkkəb quruluşa malik olan və bir çox qabiliyyətlərlə təchiz edilmiş insanı tərbiyə etmək, özünü reallaşdırmaq, bütün qabiliyyətlərini inkişaf etdirmək onun fiziki, əqli və emosional aspektləri arasında ahəngdar bütövlüyün qurulmasından asılıdır. İnsanın duyğuları, düşüncələri, davranışları və bədən gücləri bir bütövdür. Bu bütövlükdə insan duyğuları çox mühüm yer tutur və inkişafın digər sahələrinə əhəmiyyətli dərəcədə təsir göstərir.

"İnsanlar bütün duyğularını körpəlik və erkən uşaqlıq dövründə əldə edirlər. Bu dövrdə uşağın həyatını və davranışlarını istiqamətləndirən və aktivləşdirən əsas qüvvə düşüncələrdən daha çox fərqinə varmadığı duyğulardır. Bu dövrə "emosional öyrənmə dövrü" də deyilir" [4, s.145]. Məktəbəqədər yaş dövrünün ilk illərində rasional münasibətə rast gəlinmir. Duyğular daha çox üstünlük təşkil etdiyindən birlikdə olduqları insanlarla emosional münasibətdədirlər. İrəliləyən dövrlərdə rasional düşüncə öz varlığını daha çox hiss etdirməyə başlayır. Bu onu göstərir ki, uşaqlarda emosional güclər, sonra isə əqli güclər inkişaf edir və emosional inkişafın əsası uşaqlıqda qoyulur.

Hisslər həm anadangəlmə, həm də öyrənilmiş qabiliyyətlərdir. Uşaq doğulduğu andan bir tərəfdən mövcud duyğular oyanmağa, digər tərəfdən isə ətraf mühitin təsiri altında yeni duyğular yaranmağa başlayır. O, ətrafı ilə daim qarşılıqlı əlaqədə olduğu üçün davranışına baxaraq demək olar ki, onun zövq və ağrı, bəyənmə və ya bəyənməmə kimi ən azından əks emosiyalar toplusu olur. Başlanğıcda həzz və kədərə əsaslanan duyğular zaman keçdikcə zənginləşir və xüsusi duyğulara açılma müşahidə olunur. Yaş irəlilədikcə hisslərin bəziləri dərinləşir, bəziləri boğulur, bəziləri isə yenidən kəşf edilir. Əslində ruhun həzz

aldığı duyğularla qidalanması fiziki, əqli və mənəvi inkişafa müsbət təsir göstərir. Duyğuların inkişafı ilə ehtiyaclar arasında sıx əlaqə vardır. Əsas ehtiyacların təmin edilib-edilməməsi müxtəlif emosiyaların yaranmasına səbəb olur.

Uşaqlıq dövründə fiziki və zehni ehtiyacları lazımi səviyyədə qarşılanmayan fərdlər öz potensiallarını yüksək səviyyədə nümayiş etdirə bilmirlər və hətta çox vaxt onlardan gözlənilən normal fərdi inkişafı tamamlaya bilmirlər. Bu səbəbdən uşağın hisslərinin formalaşdığı körpəlikdən fiziki və emosional ehtiyaclarının tam ödənilməsi, emosional inkişafına zərər verəcək rəftarların qarşısının alınması son dərəcə vacibdir. Məlum məsələdir ki, sonradan yaranan bir çox problemlər uşaqlıq həyatının əksidir.

Emosional inkişaf ömür boyu davam edən prosesdir. Həyatın hər dövründə olduğu kimi, yeniyetməlik dövründə də duyğulara, emosional reaksiyalara və emosional vəziyyətin dəyişməsinə səbəb olan hadisələr fərqli olur. Yeniyetmələrin emosional xüsusiyyətləri uşaqlıq dövrləri ilə müqayisədə fərqli fərqlər göstərir. Yeniyetməlik dövründə qızlarda emosional inkişaf oğlanlara nisbətən daha sürətli olur və qızlar emosional yetkinliyə oğlanlardan əvvəl çatırlar. Uşaqlar qəzəb, sevinc kimi duyğularını anında və reaktiv şəkildə ifadə edərkən, yeniyetmələrdə bu duyğular gizlədilir və maskalanır. Bu, uşaqlıq və yeniyetməlik arasında ən böyük emosional fərqdir. Yeniyetməlik dövründə sürətli böyümə və hormonal dəyişikliklər birbaşa duyğulara təsir göstərir.

Erkən yeniyetməlik dövründə mənfi emosional təcrübələrin artması mücərrəd düşünmə qabiliyyəti ilə birlikdə ortaya çıxır. Yeniyetmələr tez-tez qeyri-müəyyən və xəyali-romantik düşüncələrə cavab olaraq emosional sıxıntı yaşayırlar və onların mürəkkəb və müxtəlif duyğuları yaşamaq qabiliyyəti mücərrəd təfəkkürün inkişafına daha da kömək edir. Yeniyetmələr getdikcə daha mücərrəd və mürəkkəb sosial problemlərlə mübarizə aparır, onlar tez-tez emosional idarəetmə üçün kontekst kimi sabit həmyaşıd qrupu axtarırlar. Həmyaşıdları tərəfindən qəbul edilməyən yeniyetmələr məktəbdən yayınma və hüquq pozuntuları da daxil olmaqla çoxsaylı risklərlə üzləşirlər. Hətta həmyaşıdları tərəfindən qəbul edilən və yaxın dostları olan yeniyetmələr də yeniyetməlik dövründə həmyaşıdları kontekstində qəzəb və narahatlıq kimi mənfi emosiyaların artdığını göstərirlər. Bütövlükdə yeniyetməlik dövründə müsbət və dəstəkləyici həmyaşıd münasibətləri yeniyetmə yetkinlik yaşına çatdıqda sağlam emosional inkişafa və psixi sağlamlığa kömək edir.

Tanışlıq münasibətləri də yeniyetməlik dövründə ön plana çıxır, lakin gənc yeniyetmələr hələ də bir insanın fərqli və ziddiyyətli emosional reaksiyalar doğura biləcəyini anlamaqda çətinlik çəkə bilər. Buna görə də yeniyetməlik dövründə tanışlıq çox vaxt həddindən artıq emosional dəyişkənlik ilə xarakterizə olunur. Tanışlıq tərəfdaşları xüsusən də tərəfdaşlarının

hərəkətlərinin niyyətini müəyyən edərkən səhvlər etdikdə qısqanclığa meyillidirlər.

Yeniyetmənin emosional dünyasında bəzi ziddiyyətlər diqqətimizi çəkir. Bu mərhələnin açıq-aşkar ziddiyyətli duyğuları sırasına təkliyin həzzindən əlavə bir qrupa qoşulmaq həsrəti, böyüklərə qarşı etiraz, lakin ondan möhkəm yapışma, narahatlıq və ümidsizliyə baxmayaraq gələcəyə həvəs göstərməyi aid etmək olar. "Yeniyetmələrin emosional reaksiyalarına təsir edən əsas amillər sağlamlıq vəziyyəti, intellekt səviyyəsi, cinsiyyət, məktəb müvəffəqiyyəti və sosial cəhətdən qəbul edilmə səviyyəsidir. Xüsusilə sağlamlıq vəziyyəti ilə emosional reaksiyalar arasında mühüm əlaqə vardır. Zəif sağlamlıq vəziyyəti bədəni həddindən artıq emosional vəziyyətə sala bilər" [5, s.268].

Yeniyetmələr istədikləri kimi davranmaq və hisslərini gizlətmək üçün öz daxili aləminə yönəlmiş olurlar. Yeniyetmənin nəzarətdə saxladığı duyğular qorxu, qəzəb və qısqanclıq kimi sosial qrup tərəfindən çox yaxşı qarşılanmayan duyğulardır. Yeniyetməlik dövründə tez-tez rast gəlinən sərtlik, kobudluq kimi davranışların arxasında başqa insanlara maraq göstərməmək, yalnız öz fikir və düşüncələri ilə maraqlanmaq kimi səbəblər dayanır.

Bu dövrdə emosiyalar yeniyetmənin bütün həyatına təsir edir. Kiçik bir narazılıq yeniyetmənin yaxın ətrafdakı münasibətlərinə birbaşa təsir göstərir. Emosiyaların kəskinləşməsi nəticəsində gərginlikdən müəyyən vərdişlər yaranır. Bu vərdişlərdən ən çoxu uyğunlaşa bilməyənlərdə müşahidə olunan dırnaq yemədir. Gərginlik azaldıqca və yeniyetmə xarici görünüşünə əhəmiyyət verməyə başladıqca dırnaq yemələrində nəzərə çarpacaq dərəcədə azalma müşahidə olunur.

Yeniyetmənin emosional inkişafında ilk növbədə emosiyaların intensivliyinin artması müşahidə olunur. Kədər, sevinc, qəzəb, qorxu kimi emosiyalar güclənir və yeniyetmələrin onları ifadə etmək ehtiyacını yaradır. Pessimizm, ən kiçik bir səbəbdən ağlamaq və əsəbilik emosionallığın artmasının nəticəsidir. Yeniyetmələrin əhval-ruhiyyəsindəki dəyişiklik böyüklər tərəfindən üzünə söyləndikdə bu, onların heç kim tərəfindən sevilmədiyinə inanmağa səbəb olur. Mənfi emosiyalar əl-qol hərəkətləri, üz ifadələri və qışqırma kimi verbal və qeyri-verbal davranışlarla ifadə edilirsə, həyəcan, həvəs və əks cinslə bağlı hisslər şeirlər və ya hekayələr yazmaqla və gündəlik tutmaqla əks olunur.

Yeniyetmənin emosional reaksiyalarında qeyri-sabitlik və sürətli dəyişiklik özünü göstərir. Səhər şən oyanan yeniyetmə səhər yeməyindən sonra bədbin əhval-ruhiyyəyə keçə bilər. Eyni hadisəyə reaksiya ikincidə əksinə ola bilər.

**Tez həyəcanlanma və qorxu.** Yeniyetmə yeni bir vəziyyətlə qarşılaşdıqda əgər bu onun üçün tanış olmayan bir vəziyyətdirsə, asanlıqla həyəcanlana və qorxa bilər. Həmçinin onun maraqlandığı fəaliyyətlərin

nəticəsini proqnozlaşdıra bilməməsi də qorxuya səbəb ola bilər. Həyəcan balansı tam formalaşmadığından emosiyalarını idarə etmək çətindir. Ancaq zamanla həyəcana nəzarət əldə olunur və emosional reaksiyalarda tarazlıq yaranır. "Yeniyetməlikdə qorxu hissi 3 əsas mərhələdə baş verir: obyektlərə qarşı hiss edilən qorxular, sosial münasibətlərə qarşı hiss edilən qorxular və özü ilə əlaqəli qorxular" [2, s.149].

**Narahatlıq.** Bu hiss yeniyetmənin üzləşdiyi stress stimullarının təsirindən asılıdır və qıcıqlandırıcıların qavranılma üsuluna görə dəyişir. Bioloji cəhətdən dəyişiklik və bədən inkişafının yaratdığı yeni vəziyyətə uyğunlaşma səyləri, həmçinin həmyaşıdları və böyüklərlə sosial münasibətlərdə pozulmalar və ya bir istəkdən imtina da narahatlığa səbəb ola bilər. Zaman-zaman yetkinlik yaşına çatan uşağın başqalarından uzaqlaşması, tək qalması, özünü dinləməsi lazımdır.

**Qəzəb.** Yeniyetmələrin əksəriyyəti həyəcanlı və sıxıntılı vəziyyətlər qarşısında asanlıqla qəzəblənə bilər. Yeniyetmələri daha çox ələ salmaq, tənqid etmək, danlamaq, haqsız cəzalandırmaq, ona hakim olmağa çalışmaq, işlərinin yolunda getməməsi və ona məxsus olan əşyalarının başqaları tərəfindən xəbərsiz alınması qəzəbləndirə bilər. Qəzəb yeniyetmələrdə qorxu yaradan arzuolunmaz bir vəziyyətdir. Duyğulara nəzarət öyrənmə yolu ilə əldə edilir.

**Sevgi.** Yeniyetməlikdə sevgi xoş münasibətlər qura bilən, özünü sevən və güvən verə bilən insanlara yönəlir. Ailə üzvləri ilə əlaqəsi azalır, dostları ilə əlaqəsi artır. Yeniyetmənin sevdiyi insanların sayı az olduğuna görə onun sevgisi çox güclü olur. İnsan təbiətində özünü göstərən sevgi və məhəbbət hissi yeniyetmənin özünə uyğun namizəd axtarışına səbəb olur. Bununla belə, bilik və təcrübənin olmaması təəssüflərə və bir çox səhvlərə gətirib çıxarır. Bu yaşda olan yeniyetmələrə bu cür maraqların normal olduğunu, lakin cəhd etmənin yanlış olduğunu başa salmaq lazımdır. "O cümlədən bu yaşda onların uşaq məsumluğu ilə çulğalaşmış ilk məhəbbət hissinə ehtiyatla və hörmətlə yanaşmaq lazımdır. Əks halda yeniyetmələr onları ələ salan müəllim və valideynlərdən bərk inciyir, onlara etinasızlıq göstərir. Belə hallar yeniyetmələrdə stress və frustrasiya halları doğurur, yeniyetmənin ata-anadan qəlbən uzaqlaşmasına gətirib çıxarır" [1, s.266].

**Utancaqlıq.** Yeniyetməlikdən əvvəl başlayan və yeniyetməlik dövründə sürətlə davam edən və inkişaf etməkdə olan xarici görünüşdən utanmaq yeniyetmələrdə çox geniş yayılmış bir emosional vəziyyətdir. Onlar bədənlərini gizlətmək istəyirlər. Valideynləri tərəfindən təzyiq göstərilərək böyüdülən uşaqlarda utancaqlıq daimi bir xüsusiyyət olaraq yeniyetməlik dövründə də davam edir. O cümlədən utancaqlıq özünə güvənməmək və səhv etməkdən narahat olmaqdan da irəli gəlir. Özünə və qabiliyyətinə arxayın olmayan yeniyetmə başqaları tərəfindən bəyənilməmək qorxusundan bir çox işdən və

insanlardan uzaq qala bilər. Bu vəziyyət yeniyetmənin fəaliyyətinə və bir çox sahələrdə uğur qazanmasına mənfi təsir göstərir.

**Həddindən artıq xəyalpərəstlik.** Bioloji cəhətdən yetkinlik, artan emosionallıq və zehni inkişaf yeniyetmələrin düşüncələrinin intensivliyini və keyfiyyətini dəyişir. Xəyal qurmaq onların vaxtının əhəmiyyətli bir hissəsini alır. Xüsusən dərs oxuyarkən xəyal qurmaq istəyi güclü şəkildə yaranır və vaxt itkisinə səbəb olur. Şəxsiyyət axtarışında olan yeniyetmə real dünyada çata bilmədiyi arzu və istəklərinə xəyallar vasitəsilə çataraq xoşbəxt olmağa çalışır. Yəni yeniyetmələr xəyal quraraq öz istəklərini düşüncələrində əks etdirirlər. Xəyalın mövzusu gələcək üçün planlar və ya həyata keçirmək istədiyi hər hansı bir arzu ola bilər. Yerinə yetirilməmiş istəklərin baş vermiş kimi təsəvvür edildiyi, çətinliklərə və uğursuzluqlara göz yumulduğu fantaziya dünyası patologiyaya da səbəb ola bilər. Ailənin dəstəyi və rəhbərliyi ilə fantaziya və reallıq arasında tarazlığa nail olmaq olar.

**Tək qalmaq arzusu.** Yeniyetməlik çağında olan oğlan və ya qız zaman-zaman başqalarından uzaqlaşmaq, özü ilə məşğul olmaq istəyir. Valideynlərinin və dostlarının bir yerdə olmaq istəyindən imtina edib özlərinə qapanır. Hissləri və düşüncələri ilə tək qalmaq istəyir. Varlığını, həyatın mənasını sorğulayır və təhlil edir. Varlığını mənalandıraraq yeni bir şəxsiyyət qurmağa çalışır. Bəzi yeniyetmələr böyüyən və dəyişən bədəni ilə özlərini qəbul edə bilmədiklərinə görə tənhalığı seçirlər, bundan xoşlanmırlar və buna görə də kədərlənirlər.

**İşləmək istəməməsi.** Yeniyetmələrin emosional xüsusiyyətləri arasında bir müddət tənbəllik və işləmək istəməmə kimi durğunluq vəziyyəti müşahidə olunur. 13-15 yaş arası bir çox uşaqda müşahidə olunan məktəbə və dərsə qarşı həvəssiz olma, müvəffəqiyyətinin azalması bununla bağlıdır. Bunun səbəbi özlərinə güvənmədikləri üçün uğur qazana biləcəklərinə inanmamalarıdır və ona görə də yetərincə dərs oxumurlar. Ümumiyyətlə, bu yaşda olan yeniyetmələri oxumaqdan daha çox başqa şeylər cəlb etdiyi üçün oxumağa qarşı istəksiz olurlar. Bu vəziyyət müvəqqətidir və bir çox tədqiqatçı bunu böyümə üçün bədən enerjisinin israfı kimi görür.

**İntizama qarşı müqavimət göstərmək.** Böyüklərlə münaqişə 13 yaşında pik həddə çatır. O, qadağaları mənasız, ona verilən hüquqları isə qeyri-kafi hesab edir. Xəbərdarlıq edəndə "mənə qarışa bilməzsən, mən uşaq deyiləm" deyərək reaksiya verir. Ailədəki təzyiqlərə qarşı gələ bilməyəndə incik münasibət bəsləyir. Yaş artdıqca bu kontrast azalır, yetkinlik və dözümlülük artır.

Yeniyetmələr bədbinlik, narahatçılıq və cansıxıcılıq kimi xoşagəlməz emosiyalara qapılır. Ancaq ona güvən verəcək və bu emosional vəziyyətlərin yaşla bağlı, müasir dövrə xas və müvəqqəti olduğunu söyləyəcək bir valideynə ehtiyacı vardır. "Başa düşülməmək" yeniyetmənin ən bariz problemlərindən biridir. Valideynlərinin yeniyetmənin dediklərini tənqid etmədən, alçaltmadan

və mühakimə etmədən dinləməsi və bununla da ona özünü izah etmək imkanı verməsi onu rahatlaşdıracaq. Xüsusilə müxtəlif neqativ hallarda məyus olan yeniyetmə onu anlayacaq birinə ehtiyac hiss edər. Yeniyetmələr valideynlərindən daha çox icazə istəyirlər. Onların müstəqil davranışlarına maneə törədildikdə, gərginləşə və valideynləri ilə konflikt yaşaya bilərlər. "Valideynlərin yeniyetmənin istədiyindən fərqli sahələrə yönləndirmək, bacardığından daha çox iş görməsini gözləmək, onu alçaltmaq, başqaları ilə müqayisə etmək, həmyaşıdlarının yanında ona qarşı kobud davranmaq, tez-tez onu tənqid etmək, uşaqların yanında bir-biri ilə dava etmək onu narahat edən tipik valideyn davranışlarıdır" [3, s.182].

İnsanların duyğularını və emosional inkişafını dərk etmədən onları tərbiyə etmək, dünyasını yönləndirmək mümkün deyil. Ona görə də təhsilin uğurlu olması üçün emosiyaları yaxşı tanıyıb istiqamətləndirmək, mənfi emosiyaların öhdəsindən gəlməyi öyrətmək və fərdlərin emosional inkişaflarını tamamlaya bilməsi üçün xüsusilə uşaqlıqdan dəstəkləmək lazımdır. Yaşadığı həyata hazır olması, qarşılaşacağı problemlərlə mübarizə apara bilməsi özünü və duyğularını tanıyıb ifadə etməkdən, mənfi duyğularının öhdəsindən gələ bilməkdən asılıdır.

## ƏDƏBİYYAT


1. *Çələbiyev N.Z.* Uşaq psixologiyası. Bakı, 2005, 307 s.
2. *Xəlilov H.* Uşaq və yeniyetmələrin inkişafının sosial-psixoloji məsələləri. Bakı: Qafqaz Universiteti, 2010, 220 s.
3. *Aydın B.* Çocuk ve ergen psikolojisi. Türkiye: Nobel Akademik Yayıncılık, 2006, 240 s.
4. *Türk E.* Çocukluk döneminde duygusal gelişim ve din eğitimi // Marife Dini Araştırmalar Dergisi, Kış, 2014, s.143-158
5. *Yavuzer H.* Çocuk psikolojisi. Türkiyə: Remzi Kitabevi, 1990, 344 s.


Redaksiyaya daxil olub 24.03.2022

*UOT 159.9*

***A.T.Səlimzadə***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin Cəlilabad filialı*
*ahu.selimzade@bk.ru*

# KÖRPƏLİK DÖVRÜNÜN PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

***Açar sözlər:*** *uşaq, körpəlik, inkişaf, psixologiya, refleks*

Məqalədə uşağın dünyaya gəldiyi vaxtdan etibarən inkişafı, ana ilə təması, bu münasibətin onun psixologiyasına təsirindən bəhs olunur. Eyni zamanda uşağın körpəlik yaş dövrünün mərhələləri və buna uyğun olaraq inkişaf xüsusiyyətləri araşdırılır. Diqqətə çatdırılır ki, zaman keçdikçə, fizioloji imkanları artdıqca körpə fərd kimi yetişir. Bu böyümə prosesində ətraf mühit ona təsir edir. Məqalədən anlaşılır ki, körpəlik dövründə uşaqda görmə, eşitmə, dadbilmə duyğuları inkişaf etməyə başlayır, bu da körpədə qavrayışın inkişafına imkan yaradır.

Məqalədə yeniyetmələrin davranışında baş verən psixoloji dəyişikliklər haqqında da ətraflı məlumat verilmişdir. Tədqiqatçı bu nəticəyə gəlmişdir ki, uşaq, yeniyetmə və gənclərin təlim-tərbiyəsi daima diqqət mərkəzində saxlanılmalı, onlara şəxsiyyət kimi yanaşılmalıdır. Onlar zərərli vərdişlərdən uzaqlaşdırılmalı, onlarda yüksək əxlaqi keyfiyyətlər formalaşdırılmalıdır.

Məqalədə uşağın nitqə yiyələnməsi haqqında da danışılır, körpəlik dövrü nitqə yiyələnməyə hazırlıq dövrü adlandırılır.

***А.Т.Салимзаде***

# ПСИХОЛОГИЧЕСКИЕ ОСОБЕННОСТИ МЛАДЕНЧЕСКОГО ПЕРИОДА

***Ключевые слова:*** *ребёнок, младенчество, развитие, психология, рефлекс*

В статъе рассматривается период развития ребёнка с рождения, взаимоотношения с матерью и влияние этих отношений на его психологию. Одновременно исследуются этапы младенческого возраста и особенности развития этого периода. Отмечается, что со временем увеличиваются физиологические возможности ребёнка и он формируется как личностъ. В процессе развития огромное влияние на ребёнка оказывает окружающая среда. В статъе так же указывается, что в период младенчества, у ребенка развиваются органы зрения, слуха обоняния, что в далънейшем помогает развитию восприятия.

В статье также представлена подробная информация о психологических изменениях, происходящих в поведении подростков. Исследователь приходит к выводу, что воспитание детей, подростков и молодежи всегда должно быть в центре внимания, к ним следует относиться как к личности. Их следует отдалить от вредных привычек, сформировать в них высокие нравственные качества.

В статье также говорится об овладении ребенком речью, период младенчества называется периодом подготовки к овладению речью.

***A.T.Salimzade***

**PSYCHOLOGICAL FEATURES OF THE INFANT PERIOD**

***Keywords:*** *child, infancy, development, psychology, reflex*

In the article, the development of the child from the time of his birth, his contact with the mother, is influenced by the impact of this relationship on his or her psychology. At the same time, the stages of the child's early childhood and its developmental features are being investigated. Over time, the baby grows as an independent individual as his physiological capabilities increase. The environment is an important factor in this growth process. The article clarifies such issues

Ailədə uşağın doğulması ata-ana və yaxın qohum-əqrəba üçün fərəhli bir hadisədir. Günlər, aylar keçdikcə uşaq yaşlıların əhatəsində, onların qayğı və nəvazişi sayəsində böyüyür və dəyişir: bu gün o, dünənkinə bənzəmir, sabah isə artan imkanları sayəsində dünənkindən fərqlənəcək. Budur, o, altı aylığında oturur, altı-yeddi aylığında iməkləməyə başlayır, təxminən bir yaşın sonunda dil açır və ilk titrək addımları ilə yeriməyə başlayır.

Zaman keçdikcə uşağın artan fiziki imkanları öz təsirini psixi sferaya da göstərir. Uşaq orqanizminin təbii-fizioloji imkanları genişləndikcə o, müstəqil fəaliyyət subyektinə çevrilir, fərd, bioloji varlıq səviyyəsindən yeni, daha yüksək sosial keyfiyyətlərə doğru inkişaf edir, sosiallaşır və şəxsiyyətə çevrilir. Bətndaxili inkişaf dövrünü başa çatdıran körpə doğularaq real fərd olur.

Doğulduğu ilk anlarda körpə tamamilə iqtidarsız bir məxluq olmaqla heç nəyə qadir deyildir. Tədqiqatçıların fikrincə, körpəni dünyaya gətirən qadında doğuşdan sonra keçən ilk 24 saat ərzində “analıq instinkti” meydana gəlir və o, körpəni ilk dəfə olaraq özü də bilmədən sol qolu üstə götürür. Ona görə də bu instinktin yaranması üçün doğuşdan sonra ötən ilk sutka xüsusi əhəmiyyətə malikdir.

Uşaq anadan olarkən yalnız bir neçə: qida, müdafiə, tutmaq, Robinzon, Babin və s. kimi şərtsiz refleksə malik olur. Bunlar ətraf aləmlə ilkin əlaqə yaratmaq imkanı verir. İkinci həftənin axırlarında uşaqda ilk şərti refleks yaranmağa başlayır. Üçüncü ayın sonunda bütün analizatorlar üzrə şərti refleksin yaranması uşağın ətraf mühitlə əlaqəsini bir növ asanlaşdırır.

Anadan olandan bir yaşa qədər olan dövrü çox vaxt iki yarımdövrə bölürlər: çağalıq dövrü (iki aya qədər olan dövr) və körpəlik dövrü (2 aydan bir yaşa qədər olan dövr). Bu dövrdə sensor və hərəki funksiyalar, nitqə yiyələnməyə hazırlıq böyüklərlə bilavasitə qarşılıqlı təsir prosesində intensiv imkanlar əldə edir [5, s.78].

Körpəlik dövründə böyüklərlə bilavasitə emosional ünsiyyət aparıcı fəaliyyət kimi özünü göstərir. Ana və başqa yaşlılarla bu cür ünsiyyət körpənin tələbatını ödəməklə onun fiziki və psixi inkişafında mühüm rol oynayır.

Körpəlik dövründə uşaqda hərəki fəallıq artır, hərəki vərdişlər sürətlə formalaşmağa başlayır. Bir il ərzində uşağın hərəkətlərinin inkişafında heyrətamiz dəyişikliklər baş verir. Bu dövrdə uşaqlarda hərəki vərdişlər, xüsusilə əlin və ayağın mürəkkəb, tənzimlənmiş hərəkətləri sürətlə formalaşır. Bu cür hərəkətlər sonralar uşağın idrak və əqli qabiliyyətlərinin yaranmasında olduqca mühüm rol oynayır. Bir il ərzində uşaq oturmağı, iməkləməyi, ayaq üstə durmağı və nəhayət, böyüklərin köməyi ilə yeriməyi öyrənir. Bütün bunların sayəsində uşağın ətraf aləm haqqında müvafiq məlumatlar əldə etməsi asanlaşır. Nəticədə körpədə xarici aləm haqqında təsəvvürlər formalaşmağa başlayır.

Körpəlik dövründə uşaqda temperatur, lamisə, görmə, iybilmə və dadbilmə duyğuları kompleks şəkildə inkişaf etməyə başlayır. Bu da körpədə qavrayışın inkişafına imkan verir. Yeni doğulmuş uşaq gözü ilə obyektləri izləyə bilsə də, hələ iki-dörd aya qədər onun görməsi nisbətən zəif olur.

İkinci aydan başlayaraq uşaqda sadə rəngləri fərqləndirmək qabiliyyəti özünü göstərməyə başlayır. İki-üç aylıq körpə anasının gülümsəməsinə özünün gülümsəməsi və hərəkətlərinin ümumi fəallaşması ilə reaksiya verir. Bu canlanma kompleksi adlanır. Psixoloqlar belə bir qənaətə gəlmişlər ki, yaşlıların uşaqla intensiv emosional ünsiyyəti uşağın psixi inkişafına müsbət təsir etdiyi halda, laqeyd, ürəkdən gəlməyən ünsiyyət isə canlanma kompleksinin inkişafına mane olur və ümumi psixi inkişafı ləngidə bilir [1, s.87].

Uşağın sifətindəki təbəssüm öz-özünə yaranmır. Buna anasının, onu əhatə edənlərin mehriban müraciəti səbəb olur. Ona görə də uşaqla ünsiyyətdə olan adamların üzünün ifadəsi, mimikası xoş, fərəhli, səsi isə cəlbedici, emosional xarakter daşımalıdır. İlk kompleks canlanma ünsürləri uşağın həyatının ikinci ayında özünü göstərir. Bu, susmaq, təbəssüm, qığıldamaq şəklində baş verir. Birinci yaşın sonunda uşaq xeyli sözü başa düşür, eyni zamanda tək-tək hecaları və sözləri tələffüz edə bilir. Körpədə hafizənin təşəkkülü şərti reflekslərin meydana gəlməsi ilə əlaqədar baş verir. Uşaq ilk dəfə ancaq həyatında mühüm rol oynayan, üzvü tələbatı ilə bağlı olan cisimləri tanıyır.

Körpənin həyatının ilk 10-14-cü günləri ərzində anadangəlmə qida refleksləri əsasında ilk şərti reflekslər formalaşır. Bu prosesdə şərti qıcıqlandırıcılar rolunda mürəkkəb taktil-proprioseptiv qıcıqlandırıcılar çıxış edir: uşaqda əmmə hərəkətləri zamanı bu refleks müşahidə olunur. Belə ki, körpəni əmmə vəziyyətdə qucaqda saxladıqda o, ağzı ilə ananın döşünü axtarır.

Uşaq inkişaf etdikcə, böyüdükcə, hər cür qıcıqlandırıcılara qarşı beyin qabığının davamlılığı yüksəlir, nəticədə o, uzun müddət oyaq vəziyyətində qalır ki, bu da şərti reflektor rabitələrin yaranmasına geniş imkan yaradır. Həyatın 3-cü ayından etibarən uşaqda görmə qıcıqlandırıcılarının təsiri altında müsbət şərti reflekslər əmələ gəlir. Sonra bu ünsürlər bir sistem halında birləşir və eyni vaxtda baş verir. Üçüncü-dördüncü ayda uşaqlar öz davranışları ilə aydın şəkildə göstərirlər ki, onlar yalnız tanış adamları, adətən, ailə üzvlərini görmək, eşitmək və onlarla ünsiyyətdə olmağa üstünlük verirlər. Körpəlik dövrü nitqə yiyələnməyə hazırlıq dövrü adlanır [6, s.189].

5-ci aydan etibarən körpə bir çox səs qıcıqlandırıcılarının içərisindən yaxın adamların səsini fərqləndirməyə nail olur. Adamları belə tanımanın fizioloji mexanizmləri bir neçə dəfə təkrar nəticəsində şərti reflekslərin yaranması və möhkəmlənməsi ilə bağlıdır. 5-6 aylıq uşaqlar yaxın adamları tanımağa başlayırlar.

Həyatın 5-ci ayından etibarən uşağın davranış və fəaliyyətində demək olar ki, bütün analizatorlar iştirak edir. Şərti reflektor rabitələrin və onların möhkəmlənmiş sistemi olan dinamik stereotipin yaranması ilə bağlı olaraq uşağın beyninin funksional imkanları get-gedə genişlənir, beyin qabığının təhlil-tərkib fəaliyyəti artır.

7-8-ci ayda isə adıçəkilən əşyanı axtarırlar. Uşaqlarda emosiyalar çox erkən müşahidə olunur. Bununla yanaşı, körpə uşaqlarda emosiyalar çox dəyişkən olur.

Həyatın 6-9-cu ayları ərzində uşaq sağ əlindən və şəhadət barmağından istifadə etməyə başlayır. Rəngləri ayırd etməyə, yad adamların danışığı və mimikasını başa düşməyə, qısamüddətli ayrılıqdan sonra tanış adamları tapmağa nail olur.

9-12-ci aylar ərzində uşaq müəyyən əşyaların adlarını öyrənir, bədən hissələrini tanıyır, mürəkkəb davranış formalarının ilk əlamətləri əmələ gəlir. 6 aylıqdan sonra uşaqda birinci siqnal sisteminin qıcıqlandırıcılarına reaksiya ilə yanaşı, ikinci siqnal sisteminin qıcıqlandırıcıları olan söz siqnallarına qarşı da böyük miqdarda hərəkət reaksiyaları əmələ gəlir. 9-10 aylıqda uşaq "atan haradadır?" sualına qarşı ataya tərəf dönməklə, "əl çal!" sözünə qarşı isə əl çalmaq reaksiyası göstərməyə cavab verir.

Uşağın doğulması onun orqanizmi üçün böyük sarsıntı yaradan bir andır. O, vegetativ, bitki həyatına bənzər uyğunlaşdığı daimi mühitdən (ana bətnindən) doğulma nəticəsində tamamilə yeni bir mühitə – hava mühitinə düşür. Bu yolla dünyaya gəlmiş körpəyə ətraf xarici mühitdən saysız-hesabsız qıcıqlandırıcılar təsir göstərir. Bu mühit onun üçün uzunmüddətli həyatın başlanğıcı olub, körpənin bir subyekt kimi sosial münasibətlərə qoşulmasının əsasını qoyur, onun şəxsiyyətə çevrilməsini şərtləndirir.

Uşağın doğulma anını ilk böhran hesab edən Bolqar psixoloqu L.Pernu yazmışdır: "Çağanın böhranı doğulduğu çətin dəqiqələrdən başlanır. 20 kq-a bərabər itələyici təzyiqlə 37 dərəcə temperaturu olan isti su mühitindən o, hava mühitinə atılır. Bu çəkisizlik vəziyyətində və havanın temperaturunun 200 dərəcə olduğu kosmonavtın vəziyyətinə bənzəyir ki, o, belə şəraitdə tənəffüs etməlidir" [5, s.67].

Yeni şəraitdə uşağın həyatı təbii, anadangəlmə reflekslər vasitəsilə tənzim olunur. O, müəyyən dərəcədə hazır sinir sistemi ilə doğulur ki, bu da onun xarici şəraitə uyğunlaşmasını təmin edir. Körpəni əhatə edən adamlar doğulduğu ilk anlardan etibarən onun qayğısını çəkirlər. Onlar uşağın orqanizminə fiziki qulluğu təmin edir, öyrədir, tərbiyə edir, insana məxsus psixoloji və sosial keyfiyyətlərə yiyələnməsinin subyekti rolunda çıxış edirlər. Uşağın yaşlılar tərəfindən ilk günlərdən başlanan himayəsi həyatın sonrakı mərhələlərində də davam edir, onun fiziki və sosial yetkinliyi dövründə, müstəqil həyat tərzinə başlamasınadək uzanır. Lakin həyatın sonrakı dövrlərində də valideynlər və digər yaşlılar tərəfindən yeniyetmə və gənclərə göstərilən maddi və mənəvi dəstək bu və ya digər formada davam edir.

Həyatın qarşıya çıxardığı çətinliklərə davam gətirmək, bəzən sərt sınaqlara sinə gərmək məqamlarında, ailə uğursuzluqları, maddi və mənəvi böhranlar, ünsiyyətsizlik şəraiti hətta yaşlı adamların özlərində belə güclü psixoloji sarsıntılar yaradır. Kimsəsizlik və təcrid olunma kimi hallar isə heç şübhəsiz, çox zaman şəxsiyyətin disharmoniyası və deqradasiyasına, bəzən isə tənəzzülünə, sosial dəyərləri itirməsinə, üzvi tələbatlardan asılılığına gətirib çıxara bilir. Dünyaya yeni gələn körpə müstəqil subyekt kimi fəaliyyət qabiliyyətinə malik olmasa da, o, praktik olaraq bir sıra mürəkkəb sensor və hərəki qabiliyyətlərə, instinktlərə malik olur. Bu instinktlər onun dünyaya sürətlə uyğunlaşmasına, öz inkişafında günbəgün tərəqqiyə nail olmasına təkan verir [1, s.180].

Çağa doğulduğu anda bir sıra mürəkkəb hərəkətlərə, sonralar orqanizmin yetkinləşməsi prosesində reallaşan mürəkkəb davranış formalarına malik olur. Uşağın həyatının ilk günlərindən etibarən müşahidə olunan hərəkətlər ona genetik olaraq verilmiş təbii imkanlardır. Yeni doğulan çağada potensial olaraq bütün duyğu orqanları və onların funksional imkanları olsa da, onun bir subyekt kimi fəaliyyəti olduqca məhduddur. Qavrayış, hafizə kimi hissi idrak formalarının elementar təzahürləri onun gələcək idraki və intellektual imkanlarının əsasını təşkil edir. Uşağın sinir sisteminin genetik strukturları və ya sensor sisteminin blokları həyat prosesində modifikasiyaya uğrayaraq idrak proseslərinin daha mürəkkəb strukturlarını yaradır, məsələn, qavrayışın belə mürəkkəb baza strukturlarına görmə, eşitmə və əzələ mexanizmlərinin cəmlənməsini, obyektləri izləməni, onları müqayisə etməni,

xarici təsirlərin izlərinin beyində yenidən işlənilməsi və hafizədə saxlanmasını misal göstərmək olar [7, s.67].

Müəyyən edilmişdir ki, artıq 3-cü aydan etibarən uşaq səsin istiqamətini təyin etməyə qadir olur. Yeni doğulmuş uşaqda çəpgözlüyü xatırladan baxış diqqəti cəlb edir ki, bu da müvəqqəti xarakterli olub, gözün hələlik koordinasiya edilməmiş hərəkətləri ilə bağlıdır. Güclü işıq selinin təsiri altında körpədə göz yarıqlarının örtülməsi – işığa qarşı reaksiya həyatın ilk həftəsində müşahidə olunsa da, əşyaların yaxınlaşmasına qarşı reaksiya həyatın ilk iki ayı ərzində yaranır. Körpənin həyatının 2-3 aylığında göz bəbəklərinin ağrıya qarşı reaksiyası müşahidə olunur.

Aparılmış tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, uşağın dünyaya gəlməsindən təxminən sutka yarım sonra onun beynində işıq selinə reaksiya kimi müxtəlif elektrik potensialını qeydə almaq mümkündür. Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, körpə doğulduğundan 1-2 gün sonra kimyəvi keyfiyyətləri qidanın dadına görə fərqləndirə bilir. İybilmə duyğuları körpədə doğulduğu ilk gündən etibarən fəaliyyət göstərməyə başlayır. Uşaqlarda iybilmə duyğuları potensial olaraq mövcud olsa da, onlar yalnız 7-8 aylığına çatdıqdan sonra qoxunu nisbətən daha yaxşı fərqləndirirlər.

Görmə, eşitmə və hərəkət duyğularının elementar formaları da ilk günlərdən fəaliyyətə başlayır. Fizioloqlar yeni doğulmuş körpənin ilk şərtsiz refleksləri sırasında onun orqanizminin əsas sistemlərinin (tənəffüs, qan dövranı) işini təmin edən bir sıra reflekslərin adlarını çəkirlər. Məsələn, iynə vurarkən körpədə dərinin sərtləşməsi, güclü işıq selinin təsiri ilə gözlərin yumulması kimi müdafiə refleksləri müşahidə olunur. Bunlarla belə, iki aya qədər uşaqlarda müşahidə olunan müdafiə refleksləri sırasında qucaqlama refleksinin adını çəkmək olar. Bu qorxu zamanı ananı qucaqlama formasında təzahür edir.

Həyatın ilk günlərində uşaqlarda Robinzon refleksi adlanan ovuc içi refleks də müşahidə olunur. Belə ki, uşağın ovcunun içinə hər hansı bir əşya toxunduqda uşaqda əşyanı tutmaq və möhkəm surətdə saxlamaq hissi əmələ gəlir. Bəzi psixoloqlar bunu yapışma və ya “meymun refleksi” də adlandırırlar. Uşaqlarda müşahidə olunan ilk şərtsiz reflekslərdən biri də Babin refleksi adlandırılan ayaqaltı refleksdir ki, bu, iki yaşadək bir müddət ərzində müşahidə olunur. Uşağın ayağının altını küt bir çöplə qıcıqlandırdıqda onun ayaq barmaqları aralanır.

Uşağın orqanizmi ilə ətraf xarici mühit arasındakı ən sadə qarşılıqlı təsir forması məhz anadangəlmə və ya ilk şərtsiz reflekslərdir. Bunlar mərkəzi sinir sisteminin (onurğa beyin və böyük yarımkürələrin qabıqaltı hissələri) ibtidai hissələrinin funksiyalarından ibarətdir [8, s.56].

Məhz bu hissələr arasında daimi sinir rabitələri mövcud olur. Bu və ya digər qıcıqların müvafiq reseptorlara təsiri ilə körpədə əmmə, sıxma, itələmə və

s. kimi reaksiyalar özünü büruzə verir. Körpəlik dövründə uşaqlarda müşahidə olunan ilk şərtsiz reflekslərdən biri kimi bələdləşmə refleksinin xüsusi əhəmiyyəti vardır. Bu refleks uşağın bütün psixi inkişafı prosesində özünün idraki məzmunu ilə fərqlənir. Onun ilkin və elementar forması uşağın nəzərlərinin əlvan, parlaq əşyalara doğru yönəlməsində ifadə olunur. Artıq bir yaşın sonunda bələdləşmə refleksi əllərin yoxlayıcı, sınaq xarakterli hərəkətləri ilə birləşir və tədqiqatçılıq xarakteri alır. Körpədə mənfi təsirlər yaradan daxili və xarici qıcıqlar ağlama reaksiyası ilə tamamlanmış olur.

Körpəlik dövründə uşaqlarda fizioloqların atavistik refleksər adlandırdıqları reflekslər də müşahidə olunur. Bu, əşyaları ağıza aparma formasında özünü göstərir. Bu, insana genetik olaraq öz canlı əcdadlarından keçən manipulyativ hərəkətləri xatırladır və keçici xarakter daşıyır. Bu refleks körpədə 6 aylıqda müşahidə olunur və 12 aylıqda demək olar ki, yoxa çıxır.

İnsan övladı olan körpə bir çox canlıların balasından fərqli olaraq daha az fəal, passiv və iqtidarsız olur. Bir çox heyvanların balaları doğulduqdan bir neçə saat sonra müstəqil yeriməyə başladığı halda, insan övladı ən yaxşı halda bu imkana bir yaşın sonunda sahib olur [4, s.89]. Uşaqda hərəki fəallığın (motorika) inkişafı körpəlik dövrünün sonunda ayaq üstə yerimə, məkanda addımlamaqla müstəqil yerdəyişmə formasında özünü göstərir. Körpəlik dövründə 5-6 aylıqdan başlayaraq uşaqlarda hərəki vərdişlər sürətli tempdə inkişaf edir. Əllərin və ayaqların sensor cəhətdən əlaqələnmiş hərəkətləri sonralar uşağın idrak və intellektual qabiliyyətlərinin formalaşmasında önəmli rol oynayır.

Hərəki fəallıq zamanı əllərin və ayaqların hərəkətləri uşağa xarici aləm haqqında yeni informasiyalar əldə etmək, yerini sərbəst olaraq dəyişməklə yeni-yeni əşya və hadisələrlə tanış olmaq imkanı verir. Körpəlik dövründə əlin mürəkkəb hərəkətləri uşağın təfəkkürünün ilkin forması – əyani-əməli təfəkkür forması olaraq özünü göstərir. Körpənin əlinin böyük impulsiv aktivliyi onun həyatının ilk aylarından müşahidə olunur. Tutma, sıxma, əlləşdirmə kimi manipulyativ hərəkətlər artıq 3-4 aylıqda əli əşyalara tərəf uzatma, yapışma, dartma kimi hərəkətlərlə möhkəmlənmiş olur. 6 aylıqda o, yaşlıların köməyi ilə, 8 aylıqda isə sərbəst oturmaq imkanına sahib olur. 11 aylıqda uşaq sərbəst ayaq üstə durmağa, 12 aylıqda yaşlıların əlindən tutmaqla yeriməyə, 13 aylıqda isə sərbəst yeriməyə yiyələnmiş olur.

Körpəlik dövrünün sonunda uşağın hərəki fəallığının artması zəminində elementar manipulyasiyadan əşyaların funksional, həqiqi xüsusiyyətlərinin müəyyən edilməsinə yönəlmiş əşyavi fəaliyyətə keçid prosesi baş verir. Uşaqlarda əşyavi fəaliyyətə keçid onların əqli inkişafının, əyani-əməli təfəkkürünün formalaşmasına geniş imkanlar açır. Uşaqların əşyalarla birbaşa qarşılıqlı münasibəti əşyavi qavrayışın inkişafına təkan verir, onların şəxsi

təcrübəsini zənginləşdirir. Nəticədə, uşaq yandırıcı, soyuq, təhlükəli əşyalardan qorxur, onlara yaxınlaşmaqdan çəkinir.

Bilirik ki, uşaq dünyaya gələrkən danışa bilmir, amma xarici və daxili qıcıqlandırıcıların təsiri ilə bəzi reaksiyalara cavab verir, müəyyən səslər çıxarır. Psixoloji ədəbiyyatda uşağın nitq inkişafının üç əsas mərhələsi qeyd olunur.

Birinci mərhələ nitqə yiyələnmədən əvvəl gələn, təxminən 2 aydan bir aya qədər olan dövrü əhatə edir. Bu dövrü uşağın nitqə yiyələnməyə hazırlıq mərhələsi adlandırırlar.

İkinci mərhələ on bir aydan təxminən bir il yeddi aya qədər dövrü əhatə edən mərhələ olub, dilin psixi mənimsənilməsi mərhələsi adlanır.

Üçüncü mərhələni dilin qrammatik qurluşuna yiyələnmək mərhələsi adlandırmaq olar ki, bu, bir yaş yeddi aydan təxminən 3 yaşa qədər olan dövrü əhatə edir. Uşağın nitq və tələffüz orqanlarının inkişafı ilə əlaqədar olaraq o, tədricən " b", "m", "n" səslərini tələffüz etməyə başlayır və "də", "ba", "nə" hecalarını ifadə edir.

## ƏDƏBİYYAT


1. *Çələbiyev Z.N.* Psixodiaqnostika məsələləri. Bakı: ADPU, 2003, 380 s.
2. *Əmrahlı L., Rzayeva N.* Uşaq psixologiyası. Bakı: Nurlar, 2015, 344 s.
3. *Qədirov Ə.Ə., Məmmədov İ.N.* Yaş psixologiyası. Bak: Maarif, 1986, 320 s.
4. *Mehdizadə Z.M.* Uşaq psixologiyası: 2 clddə, I c., Bakı: ADPU, 1982, 280 s.
5. *Божович Е.Д.* Психологические особенности развития личности подростка. М.: Знание, 1979, 260 с.
6. Детская практическая психология / Под ред. Т.Д.Марцинковской М.: Гарда-рики, 2003, 290 с.
7. *Ковалев С.В.* Психология современной семьи. М.: Просвещение, 1988, 170 с.
8. *Обухова Л.Ф.* Детская психология: теория, факты, проблемы. М.: Тривола, 1995, 360 с.
9. *Смирнова Е.О.* Психология ребенка. М.: Просвещение, 1997, 318 с.


Redaksiyaya daxil olub 27.04.2022

*UOT 376*

***T.Ə.Şahvələdli Qədimova***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*91turan@gmail.com*

# KƏKƏLƏMƏNİN ARADAN QALDIRILMASININ ƏNƏNƏVİ VƏ MÜASİR YOLLARI

***Açar sözlər:*** *kəkələmə, korreksiya, kompleks yanaşma, terapevtik vasitələr, cərrahi metod, psixoterapevtik təsir, didaktik üsullar, loqopedik məşğələlər*

Kəkələmənin aradan qaldırılması metodları müəlliflər tərəfindən onların bu nitq pozulmasına fərqli yanaşmaları əsasında işlənilmişdir. Bir problem kimi kəkələmənin aradan qaldırılmasının müxtəlif ənənəvi və müasir yolları vardır. Kəkələyənlərdə nitqin rəvanlığının spesifik pozulmaları, nitqin temporitmik təşkilinin xüsusiyyətləri, eləcə də dinamik praksis və musiqili-ritmik bacarıqlara aid olan motor sferada dəyişikliklər olduğundan bu, şifahi nitqin ritmik-intonasiya təşkilinin formalaşmasının vacibliyini şərtləndirir. Şifahi nitqin ritmik-intonasiya təşkili kəkələmənin kompleks korreksiyası metodunda vacib bəndlərdən biridir. Kəkələmənin korreksiyasında birinci halda bu, müalicəvi tədbirlər (terapevtik, cərrahi, ortopedik, psixoterapevtik), ikinci halda pedaqoji tədbirlər (didaktik) və üçüncü halda kəkələyənlərə müalicəvi və pedaqoji təsirin müxtəlif şəkildə uyğunlaşdırılmasıdr.

***Т.А.Шахвеледли Гадимова***

## ТРАДИЦИОННЫЕ И СОВРЕМЕННЫЕ СПОСОБЫ УСТРАНЕНИЯ ЗАИКАНИЯ

***Ключевые слова:*** *заикание, коррекция, комплексной подход, терапевтические средства, хирургический метод, психотерапеический эффект, дидактические методы, логопедические классы*

Методы устранения заикания разрабатывались авторами на основе их различных подходов к данному нарушению речи. Существуют различные традиционные и современные способы преодоления заикания как проблемы. Поскольку у заикающихся имеются специфические нарушения беглости речи, особенности темпо-ритмической организации речи, а также изменения в двигательной сфере, связанные с динамическим праксисом и музыкально-ритмическими навыками, это определяет важность формирования ритмико-интонационной организации устной речи. Ритмо-интонационная организация устной речи является одним из важных моментов комплексной методики коррекции заикания. В первом случае коррекция заикания включает указанные лечебные мероприятия (лечебные, хирургические, ортопедические, психотерапевтические), во втором случае педагогические мероприятия

(дидактические), в третьем случае различные приспособления лечебно-педагогических воздействий на заикание.

***T.A.Shahvaladli Gadimova***

**TRADITIONAL AND MODERN WAYS TO ELIMINATE STUTTERING**

***Keywords:*** *stuttering, correction, complex approach, therapeutic tools, surgical method, psychotherapeutic effect, didactic methods, logopedic exercises*

Methods of elimination of stuttering were developed by the authors on the basis of their different approaches to this speech disorder. There are various traditional and modern ways to eliminate stuttering as a problem. Since there are specific violations of speech fluency in stutters, features of the temporitmic organization of speech, as well as changes in the motor sphere, which relate to dynamic praxis and musical-rhythmic skills, this stipulates the need for the formation of the rhythmic-intonational organization of oral speech. The rhythmic-intonation organization of oral speech is one of the important points in the method of complex correction of stuttering. In the first case of correction of stuttering, these include therapeutic measures (therapeutic, surgical, orthopedic, psychotherapeutic), in the second case pedagogical measures (didactic), and in the third case various adaptations of therapeutic and pedagogical effect on stuttering.

Kəkələmənin korreksiyasına müasir kompleks yanaşmada bu xəstəliyin aradan qaldırılması üçün müxtəlif ənənəvi və müasir metodların işlənilməsi səbəb olmuşdur.

Kəkələmənin aradan qaldırılması metodları müəlliflər tərəfindən onların bu nitq pozulmasını fərqli anlaması əsasında işlənilmişdir. Bu patologiyanın aradan qaldırılmasına metodik yanaşmaların çoxluğu onun struktur təzahürlərinin mürəkkəbliyi və təbiəti haqqında yetərincə biliklərin olmaması ilə izah olunur.

Əvvəl mövcud olan üsulları, vasitə və metodları tədqiq edərkən onları kəkələyən şəxsə tövsiyə olunan təsir vasitələrinin, yəni tibbi və ya pedaqoji olmaqla, xarakterindən asılı olaraq nəzərdən keçirmək məqsədəuyğundur. Birinci halda bu, müalicəvi tədbirlər (terapevtik, cərrahi, ortopedik, psixoterapevtik), ikinci halda pedaqoji tədbirlər (didaktik) və üçüncü halda kəkələyənlərə müalicəvi və pedaqoji təsirin müxtəlif şəkildə uyğunlaşdırılmasıdır (4, s.196).

1. Terapevtik vasitələr

Kəkələmənin aradan qaldırılması üçün terapevtik üsullar müxtəlif səviyyə və müxtəlif formalarla hələ qədimdən (Hippokrat, Aristotel, Sels, Qalen, İbn Sina və sairə) başlayaraq bütün dövrlərdə tətbiq olunurdu.

Terapevtik vasitələr kəkələmənin müalicəsində hərtərəfli olmayaraq müalicəni sadəcə bu və ya digər səviyyədə tamamlayırdı.

2. Cərrahi metod

Kəkələmənin müalicəsində cərrahi metod eramızın I əsrindən XIX əsrin ortalarına qədər, onun səmərəsizliyi və istifadəsinin təhlükəli olması haqqında fikirlər (Antill, Bonne, Diffenbax, Dionis, Peti, Fabrisiy, Eginskiy və sairə) təsdiq olunana qədər tətbiq olunurdu. Bu metod kəkələmənin yaranması səbəbi kimi artikulyasiya orqanlarının patoloji quruluşunun və ya dilin innervasiyasının pozulmasının nəticəsi olduğu başa düşüldükdən sonra yarandı.

Ortopedik məqsədlərlə mexaniki vasitələrdən istifadə hələ Demosfenin dövrünə aid edilir. O, özündə olan kəkələməni müalicə etmək üçün nitq məşğələləri zamanı xarici əşyalardan (xırda dəniz daşlarından) istifadə edərək dilinin altında saxlayırdı.

Nəticədə mütəxəssislər kəkələmənin müalicəsi zamanı müxtəlif mexaniki vasitələrdən istifadə edirdilər: İtar – dil çəngəlindən, Kolomba – dili sıxan və dodaqları ayırandan, Erve-de-Şequan – hər iki diş sırasına örtüklərdən, Klenke –dilin altında qövs şəklində taxta lövhədən, Merkel – aşağı dişlərə kit bığlarından düzəldilmiş tellərdən və s.

Bu metodun səmərəsizliyi, əsasən də kəkələmənin patogenezinin nevrotik pozulma kimi qəbul edilməsinin yeni mərhələsinin yaranması ilə cərrahi müdaxilənin istifadə olunmasına son qoyuldu.

3. Psixoterapevtik təsir

Kəkələməyə nevrotik pozulma kimi yanaşma meydana çıxdıqda bir sıra müəlliflər onun aradan qaldırılmasında ilkin olaraq psixoterapevtik təsirə üstünlük verdilər (Q.D.Netkaçev, E.Freşels və s.). Psixoloji istiqamətin tərəfdarları kəkələmədə əsasən psixi narahatlığı görür və kəkələyənə təsir vasitəsi seçərkən həmin vasitələrin onun psixikasına təsirini nəzərə alırdılar (4, s.224).

Q.D.Netkaçev özünün "Заикание. Новый психологический способ лечения" adlı işində yazır ki, kəkələmə psixi narahatlıq kimi ancaq psixoloji vasitələrlə müalicə olunmalıdır. O, hesab edir ki, ilkin olaraq kəkələyən şəxsdə əvvəl hərəki, sonra isə digər: eşitmə, görmə sferalarında xəstə, qorxu hisslərini dəf etmək, həmin hissləri yeni və daha əmin, arxayın hisslərlə əvəz etmək; sonra müşahidə sərhədlərini genişləndirmək, şəxsi nitq nümunələri üzərində iradi diqqəti, hafizəni və təxəyyülü inkişaf etdirərək möhkəmləndirmək; cəsarət, sakitlik və özünə nəzarəti tərbiyə etmək; qorxaqlığı azaldaraq yeni psixoloji dəyişiklikləri qəbul edərək möhkəmləndirmək vacibdir.

4. Didaktik üsullar

Kəkələyənlərdə düzgün nitqin tərbiyəsində didaktik üsulların ardıcılları həm nitqin ayrı-ayrı elementlərini, həm də bütövlükdə nitqi əhatə edən müxtəlif növlü və tədricən mürəkkəbləşən nitq məşğələləri sistemi tövsiyə edirdilər

(S.Efesskiy, S.Avrelian, A.Qusman, A.Kussmaul).

5. Müalicəvi-pedaqoji tədbirlər sistemi

Kəkələyən şəxslərə müalicəvi-pedaqoji təsir sisteminin müəyyən edilməsinin ilk cəhdlərinə İ.A.Sikorskinin (1889) və onun şagirdi İ.K.Xmelevskinin (1897) tövsiyələrini aid etmək olar.

İ.A.Sikorskiy kəkələmənin müalicəsinə daxil edirdi:

a) nitq gimnastikası (tənəffüs, səs, artikulyasiya üçün məşğələlər sistemi);

b) psixoterapevtik müalicə (xəstə üçün müvafiq olan şəraitin yaradılması, nitq məşğələlərinin ardıcıl mürəkkəbləşməsi, xəstənin əhval-ruhiyyəsinə müsbət təsir etmə və s.);

c) farmakoloji və dinamik müalicə (medikamentlər, fizioterapiya, hərəki məşğələlər) (2, s.170).

Rus fizioloqları İ.M.Seçenev, İ.P.Pavlov və onların ardıcıllarının tədqiqatlarına əsaslanaraq praktik mütəxəssislər kəkələmənin aradan qaldırılması üçün əvvəllər işlənmiş üsulların arasından ən səmərəli və rasional olanları seçmiş və bu patologiyanın aradan qaldırılması istiqamətində müasir kompleks yanaşmanı müəyyən etmişlər.

6. Kəkələmənin aradan qaldırılması istiqamətində kompleks yanaşma

Kəkələmənin aradan qaldırılmasına müasir kompleks yanaşma dedikdə, kəkələyən şəxsin psixofiziki vəziyyətinə müxtəlif vasitələr və fərqli cəhdlərlə hərtərəfli müalicəvi-pedaqoji təsir nəzərdə tutulur. Müalicəvi-pedaqoji tədbirlər kompleksinə müalicəvi preparat və prosedurlar, müalicəvi idman, psixoterapiya, loqopedik məşğələlər, loqopedik ritmika, tərbiyəvi tədbirlər daxildir. Onların məqsədi sinir sisteminin və bütövlükdə orqanizmin sağlamlaşdırılması və möhkəmləndirilməsi, uşağın öz nitq qüsuruna düzgün olmayan münasibətinin dəyişdirilməsi, nitq qıcolmalarının və qıcolmanı müşayiət edən səs pozulmalarının, tənəffüsün, nitq və motorika pozulmalarının azaldılması və ya ümumiyyətlə aradan qaldırılması, kəkələyənin sosial adaptasiyasıdır (3, s.157).

Kəkələyənə təsir xarakterinə görə bütün müalicəvi-pedaqoji kompleksi iki tərkib hissəsinə bölmək olar: müalicəvi-sağlamlaşdırıcı və korreksion-pedaqoji. Həkim tərəfindən aparılan müalicəvi-sağlamlaşdırıcı işin əsas vəzifələri kəkələyənin sinir sisteminin və fiziki sağlamlığının bərpası və möhkəmləndirilməsi, onun psixofiziki vəziyyətində (nitq qıcolmaları, vegetativ sinir sisteminin pozulmaları, motorikanın pozulması və s.) kənaraçıxmaların və patoloji təzahürlərin müalicəsi və aradan qaldırılmasıdır.

Əsasən loqopedin həyata keçirdiyi korreksion-pedaqoji işin əsas vəzifələri nitq qüsurlarının aradan qaldırılması (düzgün olmayan nitqin yenidən tərbiyəsi) və kəkələyən şəxsin psixoloji xüsusiyyətlərinin korreksiyasıdır. Loqoped kəkələyən şəxsə təsir edərkən öz metod və vasitələrindən istifadə edən

mütəxəssislərin (həkimlərin, tərbiyəçilərin, müalicəvi bədən tərbiyəsi və musiqi mütəxəssisinin və s.) birgə tibbi-pedaqoji işini təşkil edir.

Müasir dövrdə loqopedik təsir iki istiqamətdə həyata keçirilir: bilavasitə və dolayısı.

Bilavasitə loqopedik təsir kəkələyənlərlə qrup və fərdi məşğələlər zamanı reallaşdırılır. Bu məşğələlər ümumi və nitq motorikasının inkişafını, tənəffüs və nitq tempinin və ritminin normallaşdırılmasını, nitqli ünsiyyətin fəallaşdırılmasını, ehtiyac olduqda eşitmə diqqəti və fonematik qavramanın inkişafını, səs tələffüzü pozulmalarının korreksiyasını, passiv və aktiv lüğətin genişləndirilməsini, ifadənin qrammatik düzümünün təkmilləşdirilməsini nəzərdə tutur.

Dolayısı loqopedik təsir isə uşaq üçün bütün rejim anlarını və ətrafdakıların ona münasibətini nəzərdə tutur. Bu sistemdə uşağın bir nitq mərhələsindən digər nitq mərhələsinə keçidə nəzarət, böyüklərin köməyi ilə həyata keçirilən nitq rejimi əsas mahiyyət daşıyır.

Kəkələyənlərin loqopedik məşğələlərinə aşağıdakı tələblər qoyulur:

1) Loqopedik məşğələlər kəkələyən uşağın nitqinə və şəxsiyyətinə yönələn korreksion-pedaqoji təsirin əsas vəzifələrini əks etdirir.

2) Loqopedik məşğələlər əsas didaktik prinsiplər nəzərə alınmaqla müəyyən sistemlə, ardıcıllıqla, mərhələli şəkildə keçirilir. Hər bir uşağın fərdi xüsusiyyətləri, fəallığı və şüurluluğu nəzərə alınır. Məşğələlərdə əyani və texniki təlim vasitələrindən istifadə olunur. Məşğələlər düzgün nitq və davranış vərdişlərinin möhkəmləndirilməsinə xidmət edir.

3) Loqopedik məşğələlər məktəbəqədər yaşlı uşaqların təlim və tərbiyə proqramlarının tələblərinə müvafiq olmalıdır.

4) Məşğələlərdə müxtəlif şəraitlərdə – loqopedik kabinet və ondan kənarda, müxtəlif həyat situasiyalarında kəkələyənlərin düzgün nitq və davranış məşqləri nəzərdə tutulur.

5) Məşğələlər elə təşkil olunmalıdır ki, uşaq burada kəkələmədən danışa bilsin və müşayiətedici pozulmalara yol verməsin.

6) Məşğələlər uşaqda yaxşı əhval-ruhiyyə, ruh yüksəkliyi və özünə inam yaratmalıdır.

7) Kəkələyən uşaqlarla məşğələlərdə mütləq düzgün nitq nümunəsi olmalıdır.

8) Məşğələlər ətrafdakıların kəkələyən uşağa düzgün münasibəti və düzgün tərbiyə fonunda keçirilməlidir.

Kəkələyənlərdə nitqin rəvanlığının spesifik pozulmaları, nitqin temporitmik təşkilinin xüsusiyyətləri, eləcə də dinamik praksis və musiqili-ritmik bacarıqlara aid olan motor sferada dəyişikliklər olduğundan bu, şifahi nitqin ritmik-intonasiya təşkilinin formalaşmasının vacibliyini şərtləndirir. Şifahi nitqin ritmik-intonasiya təşkili kəkələmənin kompleks korreksiyası

metodunda vacib bəndlərdən biridir. Ritmik hərəkətlərin nitqin rəvanlığının normallaşmasına müsbət təsir etməsi tədqiqatçı və praktiklərin diqqətini cəlb etmişdir (Q.A.Volkova, 2003; L.İ. Belyakova, 1992).

N.A.Vlasovanın (1959) fikrinə görə, kəkələmənin aradan qaldırılması tədricən birləşmiş nitqdən normal nitqə qədər tərbiyə prosesində daha səmərəli olur. V.İ.Rojdestvenskaya (1960) rahatlaşdırıcı, tənəffüs və səs məşğələlərini oyun formasında, eləcə də nitq tempinin korreksiyasına istiqamətlənən nitqin müxtəlif hərəkətlərlə koordinasiyası üçün tapşırıqlar sistemini təklif edir.

Q.A.Volkova (1979, 1994) hesab edir ki, məktəbəqədər yaşlı uşaqlarla işləyərkən kəkələməni oyun fəaliyyəti daxilində aradan qaldırmaq lazımdır. Müəllif qeyd edir ki, oyun fəaliyyəti insanlar arasında qarşılıqlı münasibətləri və real hadisələri əks etdirən müxtəlif situasiyalar yaratmağa imkan verir. Aparıcı rollardan tutmuş ikinci rollarıdək müxtəlif oyun situasiyalarında iştirak etmək, kəkələyən uşaqda vacib olan şəxsi keyfiyyətləri tərbiyə edir. Oyun fəaliyyətindən diferensial şəkildə istifadə prosesində kəkələyən uşaqların şəxsiyyətinin formalaşmasında kənaraçıxmaların korreksiyası əsasında nitqləri tərbiyə olunur.

N.A.Çevelyovanın (1978) metodikası digər nəzəri pozisiyalar üzərində qurulub. Müəllif hesab edir ki, kəkələyən şəxslərdə əl fəaliyyəti prosesində ancaq müstəqil nitqi (situativ və kontekstli) tərbiyə etmək vacibdir. Həmçinin müəllif nitqin tempinin korreksiyasına istiqamətlənmiş tənəffüs, səs və digər tapşırıqları qəbul etmir. N.A.Çevelyova sakit, aramla hazırlanan əl işlərinin məktəbəqədər yaşlı uşaqların nitq templərini normallaşdırdığını qeyd edir. Bu metodika üzrə nitqin tərbiyəsi bir neçə mərhələdən keçir: hazırlıq mərhələsi. əyani əşyalara və fəaliyyətə istinad edən müşayiətedici nitq, yerinə yetirilmiş fəaliyyət haqqında yekun nitq, keçmiş hərəkətə istinad etmədən əvvəl danışma, aktiv nitqin möhkəmləndirilməsi və ya kontekstli nitq.

Y.M.Pellinger (1995) kəkələmənin situativ xarakterini və uşaqlarda nitqin kommunikativ funksiyasını nəzərə alaraq, süjetli oyunlar metodikasını təklif edir. Korreksiya xəyali həmsöhbətlə süjetin hazırlanmasından başlayır. Bu da müəllifin fikrinə görə, öz yaşıdları ilə ünsiyyətdə real situasiyalarda düzgün nitq davranışı üçün imkanlar verir. Sonrakı mərhələdə məişət mövzuları işlənilir, korreksiya prosesinin sonunda artıq rollu oyunlara keçilir. Loqoped süjetli oyunlar təqdim edərək uşağı fəaliyyətə yönəldir, nitq aktivliyini stimullaşdırır.

A.İBoqomolova (1977) kəkələyənlərdə nevrotik təzahürlərin şişirdildiyini qeyd edir. Müəllifin fikrincə, loqopedik məşğələlər prosesində nitq yaxşılaşdıqca, ikinci nevrotik əlamətlər itir. Buradan da oxunan nitqdə pasiyentin dirijorluq edən əlləri ilə müşayiət olunan məşğələlərə əsaslanan loqopedik üsullara istiqamətlənmə yaranır.

V.İ.Seliverstovun (2000) metodikası əsasən uşaqlarla tibb

müəssisələrində işləmək üçün nəzərdə tutulub. Müəllif tərəfindən təqdim olunan məşğələlər sxemində tapşırıqlar nitqin müstəqillik səviyyəsindən, hazırlıq dərəcəsindən, strukturundan, fəaliyyət növlərindən asılı olaraq getdikcə mürəkkəbləşir.

İ.Y.Abeleva (1969), eləcə də V.İ.Seliverstov (2000) kəkələmənin korreksiyası istiqamətində işi nitq texnikası üzrə hazırlıq məşğələlərindən başlamağı tövsiyə edirlər: tənəffüs məşğələləri, səs məşğələləri, artikulyasiya məşğələləri. Kəkələmənin korreksiyası üzrə nitq tapşırıqları nitq komponentlərinin tədricən mürəkkəbləşməsi prinsipi ilə qurulur (1, s.307).

Müalicə-sağlamlaşdırıcı işlərə aid edilir: müalicə üçün əlverişli şəraitin yaradılması, rasional qidalanma və gün rejiminin təşkili, bədəni möhkəmləndirmə prosedurları, müalicəvi idman, medikamentoz müalicə, fizioterapiya və psixoterapiya.

Uşağın əhval-ruhiyyəsini qoruyaraq ruh yüksəkliyi və sağalacağına əminlik yaratmaq vacibdir. Müxtəlif fəaliyyət növlərini sistematik növbələşdirməklə müəyyən edilmiş həyat ritmi ali sinir sisteminin, eləcə də bütünlükdə orqanizmin işinin normallaşdırılmasına səbəb olduğundan vacib məna kəsb edir.

Müalicəvi fiziki tərbiyə və fiziki məşğələlər əzələ sistemini inkişaf etdirərək həyat üçün vacib orqanların – ağciyər və ürəyin işini gücləndirir, maddələr mübadiləsini aktivləşdirir. Fiziki məşğələlər hərəkətlərin koordinasiyasını və dəqiqliyini inkişaf etdirir, nizam-intizamın tərbiyə olunmasına kömək edir.

Bütün qeyd olunanlar kəkələyən uşağın nitq orqanlarının daha yaxşı funksiyası üçün vacib amil olaraq uşaqda düzgün nitq vərdişlərinin yaranmasına müsbət təsir göstərir.

## ƏDƏBİYYAT

1. *Волкова Л.С.* Логопедия. Методическое наследие. Нарушение темпа и ритма речи: Заикание. Брадилалия. Тахилалия. М., Владос, 2007, 431 с.
2. *Лохов М.И.* Психофизиологические механизмы коррекции речи при заикании. СПб.: Наука, 1994, 188 с.
3. *Селиверстов В.И.* Заикание у детей: Психокоррекционные и дидактические основы логопедического воздействия: Учебное пособие. М.: Владос, 2000, 208 с.
4. *Шкловский В.М.* Заикание. М., 1994, 248 с.

Redaksiyaya daxil olub 05.04.2022

# YAZI QAYDALARI

- "Pedaqoji Universitetin Xəbərləri" dövri elmi jurnalının "Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər" seriyası əvvəllər nəşr olunmamış elmi məqalələri qəbul edir.
- Məqalələr **Azərbaycan, ingilis, türk** və **rus** dillərində jurnalın elektron ünvanına – **jhss@adpu.edu.az, n.q.aslanova@gmail.com** göndərilir.
- Məqalələr **Microsoft Word** proqramında Times New Roman şrifti ilə 12 pt. ölçüdə 1,0 intervalla yazılmalıdır. Səhifə ölçüləri: sağdan və soldan 2,0 sm, yuxarıdan 2,5 sm, aşağıdan 2,2 sm olmalıdır.
- **Başlıq** ortada qara və böyük hərflərlə yazılmalıdır.
- Məqalənin quruluşu aşağıdakı bölümlərdən ibarət olmalıdır: müəllifin adı, ata adı və soyadı, iş yeri, elmi dərəcəsi və elmi adı, üç dildə açar sözlər və xülasə (100-150 sözdən ibarət, 11 pt. ilə) ədəbiyyat siyahısı. Hər üç dildə yazılmış xülasələr bir-birinin eyni olmalı və məqalənin məzmununa uyğun olmalıdır.
- Məqalələrdə verilən **şəkil, rəsm, qrafik və cədvəllər** düzgün, aydın və mətn içərisində olmalı, onlara aid olan yazılar altında yazılmalıdır.
- **İstinadlar** mətn içərisində kvadrat mötərizədə göstərilməklə məqalənin sonunda əlifba ardıcıllığı ilə nömrələnməlidir. Məsələn: [1, s. 8].
- Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat tam və dəqiq olmalıdır. İstinad olunan mənbənin biblioqrafik təsviri onun növündən (monoqrafiya, dərslik, elmi məqalə və s.) asılı olaraq verilməlidir. Simpozium, konfrans materiallarına və ya tezislərinə istinad edilərkən məqalə və ya tezisin adı göstəriməlidir.
- Məqalələrin həcmi: 5-12 səhifə.
- Məqalələr mütəxəssis rəyi (məxfi olaraq) əsasında jurnalın redaksiya heyətinin qərarı ilə çap olunur. Redaksiya düzəlişlər etmək üçün məqaləni müəllifə qaytara bilər.
- Məqalədə gedən hər hansı bir elmi yenilik, tezis və s. üçün müəllif şəxsən məsuliyyət daşıyır.
- Jurnalda dərc olunmayan məqalələr geri qaytarılmır.

# WRITING RULES

- “Humanitarian, social and pedagogical-psychological sciences” series of the periodic scientific journal “Transactions of Pedagogical University” accepts previously unpublished scientific articles.
- The articles can be sent in **Azerbaijani, English, Turkish** and **Russian** languages to the journal’s electron address – **jhss@adpu.edu.az, n.q.aslanova@gmail.com**.
- Articles should be written in **Microsoft Word** writing program Times New Roman alphabet in the font size 12 punto with interval between line in the range of 1.0 characters. Page sizes: from the right and left 2.0 sm, from above 2.5 sm and the bottom 2.2 sm.
- **The title** should be written in black and capital letters in the middle.
- The structure of the article should be consist of the following format: author's first name/patronymic/last name, position, scientific degree and title, a summary and the key words in three languages (100-150 words, 11 punto) and the list of literature. Summaries written in three languages should be equal to each other and match the content of the article.
- **The drawings, pictures, graphics and tables** in the articles should be correct, clear and given in the text and writings that belong to them should be written underneath.
- References indicating in square brackets should be numbered in alphabetical order and given at the end of the article. For example: [1, 8]
- Information about any reference given on the list of literature must be complete and accurate. The bibliographic description of the source reference should be based on its kind (monographs, textbooks, scientific papers, etc.). The name of the article or thesis must be shown when referring to the symposium, conference materials or to the theses.
- The volume of the articles: 5-12 pages.
- Articles are published on the basis expert review (in confidence) by the decision of the Editorial Board of the journal. Editorial Board may return the article to the author to make corrections.
- Unpublished articles are not returned.

| | |
|---|---|
| *Nəşriyyatın direktoru:* | Hüseyn Hacıyev |
| *Texniki redaktor:* | Mustafa Şəfiyev |
| *Korrektor:* | Sevinc Mamoyeva |

Çapa imzalanmışdır: 27.06.2022
Kağız formatı 70×100$^{1/16}$, 14,0 ç.v.
Sifariş 258. Sayı 100.

---

**ADPU-nun mətbəəsi**
Bakı, Ü.Hacıbəyli, 68